## Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

XI cild

Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

XI cild

Bakı-2023

Redaktor:

**Zahid Xəlil**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, XI cild. Bakı, ADPU nəşriyyatı, 2023. – 512 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, Prezident mükafatçısı, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun "Seçilmiş əsərləri"nin on birinci cildinə onun indiyədək çap edilməyən poetik əsərlərindən bəzi nümunələr, "Cəh-cəh" (2020) kitabındakı uşaq şeirləri, tərcümələri, "Bahar qatarı" (1999) və "Dəniz səviyyəsi" (2005) kitablarında gedən nəsr əsərlərinin bir qismi daxil edilmişdir.

$$© \frac{19476321}{1957(H)2023}$$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

# DAVAM EDİR ÖMÜR HƏLƏ

## TANRI SINAĞI

Biz uyduq iblisin fitnə-felinə,
Ağrının, əzabın kökü dərində...
Nələr yükləmədik yerin belinə?
O yazıq qıvrılır hərdən yerində...

Görəcəkli günlər öndədir hələ,
Gərək hazır olaq xeyirə, şərə...
Depremlə, tufanla, sunami ilə
Tanrı ibrət dərsi verir bəşərə...

Yaradan istəsə, solmaz çiçək də,
Kimsə göydən dolu yağdıra bilməz.
Hiddət qasırğası coşsa ürəkdə,
Onun qarşısında dağ dura bilməz.

Bizə zaval yoxdu heç bir yaradan,
Gülən xeyir tapmaz qəlbi sınığa.
Düşmən sevinməsin, Ulu Yaradan
Hərəni bir cürə çəkir sınağa...

İbrət götürmürmü insan özünə
Oxuyub tarixin gündəliyini?
Fəlakət gəlməsə bu yer üzünə
Bəndə dərk eləmir bəndəliyini.

Hansı qəlbdə sönsə iman çırağı,
Sağ ikən cəhənnəm oduna düşür...
Niyə adamların adam olmağı
Bircə dar məqamda yadına düşür?

Uçqunlar altından salim, sağ çıxan
Körpənin nələr var qara gözündə?
Tanrı sınağından üzüağ çıxan
Xalqa zaval yoxdu bu yer üzündə...

**09.02.2023**

## ALLAH BƏNDƏLƏRİ ÇƏKİR SINAĞA

Pul sel tək axdıqca eyşə, işrətə,
Halal dəyirmanın suyu sozalır.
Səbrlə dözürük zülmə, zillətə,
Namərdlər çoxalır, mərdlər azalır.

Bulaqlar quruyur, çaylar quruyur,
Balıq yoxa çıxır, quş yoxa çıxır.
Ata ocağında qızlar qarıyır,
Ağıl yoxa çıxır, huş yoxa çıxır.

Sayı azalıbdır indi toyların,
Elə bil bu millət gəlib nəzərə.
Nəfs dənizinə axan çayların,
Bircə damlası da çatmır Xəzərə...

Həyat dikbaşların alır canını,
Hər şey dəyişibdir özgürlüyünü.
Zəli tək soran var onun qanını –
Kür də itiribdir öz kürlüyünü...

Nə qədər doğmanı "yad çıxarmışıq", –
Haramla yoğrulan bu bazar çökə!
Hasarlar çəkməklə ad çıxarmışıq,
Yoxdur nəfsimizə bir hasar çəkən...

Başımda ildırım çaxır elə bil,
Yaralı köksümdə dərd puçur-puçur.
Hasara girməkdən qorxur elə bil
Dəniz ətəyini çırmayıb qaçır...

Hələ məzlumların göynəyir içi,
Zalımlar daş atır qəlbi sınığa...
Qiyamət günündə haqq-hesab üçün
Allah bəndələri çəkir sınağa...

**26.03.2023**

***

Közərməyib kömür hələ,
İsinməyib dəmir hələ...
Şükür olsun Yaradana,
Davam edir ömür hələ...

**01.01.2023**

***

İman işığı ilə
bəzəyib Haqq odamı,
Zirvələrə ucaldar
ədalət, Haqq adamı.
Kimsənin qarşısında
əyilmədim, sınmadım,
Xoşbəxtəm, dostlar mənə
deyirlər Haqq adamı...

**02.01.2023**

***

Bu günün səhərindən
gözəl mənzərəmi var?
Dəniz kükrəyir, daşır,
qoynunda davamıdı?
Küləyin cərgə-cərgə
topladığı bəyaz qar
Elə bil dalğaların
sahildə davamıdı...

**10.01.2023**

***

Gör nə qəşəng qar yağır,
Sanki kəpənək uçur...
Sallanan buz salxımı
Qışın şaxta qılıncı...
Ayağımın altında
Qalan buz xırtıldayır,
Mən gəzdikcə elə bil
Sınır qışın quluncu...

**11.01.2023**

## AXTARIRIQ

Qayıdıb ötən illərə
İzimizi axtarırıq.
Əldən çıxan dağımızı,
Düzümüzü axtarırıq.

Boylanırıq günə, aya,
Diz əsir, titrəyir ayaq,
Eynəyə möhtac olmayan
Gözümüzü axtarırıq.

Ruh göyün yeddi qatında,
Gözümüz yoxdu altunda,
Zamanın külü altında
Közümüzü axtarırıq.

Bizi dərdi olan duyar,
Gözəllikdən gözmü doyar?
Gəzirik diyarbədiyar,
Özümüzü axtarırıq...

**30.03.2023**

## MƏNİM SEVİMLİ BƏNÖVŞƏM

Mənim sevimli bənövşəm,
Boylanırsan hey günəşə.
Ətrini sinəmə çəkib,
Fəğan etmək olub peşəm...

Həsrət odu səngimədi,
Aylar ötdü, illər ötdü.
Adını pıçıldamaqdan
Dilimdə bənövşə bitdi...

Kolluqda səni axtarıb,
Dikmişəm gözümü yerə.
Əyilməyi sevməsəm də,
Gətirdin dizimi yerə.

Ciyərlərim təşnə olub,
Hər an bənövşə ətrinə...
Boynun həmişə bükükdü,
Kim dəyib sənin xətrinə?

Zamanın köhnə cəhrəsi,
Ömrümü yun tək əyirdi.
Bir belə nazını çəkdim,
Boynun yenə də əyridi...

**13.04.2023**

*******

Xəstəyəm,
təbəssümünü
Mənim dəvam,
dərmanım san.
Sənsiz yaşaya bilmirəm, –
Həm dərdim,
həm dərmanımsan...

**13.04.2023**

***

Niyə gedə bilmirəm
Dəmirqapı Dərbəndə?
Qollarım arasında
Nə vaxt düşər yar bəndə?

Heç vaxt olmadım müti,
Yoldan dönmədim qəti,
Canavar sədaqəti,
Dəvə kini var məndə!

Qalxdım eşqin dağına,
Alışdım yar ahına,
Allahın dərgahına
Qalxa bilməz hər bəndə...

**2023**

## GÖZ VƏ GÖZƏLLİK

Kor görərmi işığı?
Su ələmə közümə.
Ömrümün yaraşığı,
Kül üfürmə gözümə...

Gözəllərə göz yumsaq,
Enə bilər tor gözə.
Gözəllərə göz diksək,
Çevrilərik şorgözə...

Qəlbə sevgi düşəndə,
Alışır, söz də yanır.
Gözəllik sözünün də
Kökündə göz dayanır.

Təzə ocaq çatan var
Ocağımın qoruna...
Yüz gözəl dəyə bilməz
Bir cüt gözün nuruna...

Xəyallar qanadında
Göyə uçmağa dəyməz.
Göz yoxsa, gözəllikdən
Söhbət açmağa dəyməz...

**2023**

***

Elə tənqidçi  var ki,
nəfsinə quldu,
meyarı bədii söz yox,
hədiyyədi, puldu...
Elə buna görə də
onun ilham pərisi
ərsiz qalıb,  duldu...

**2023**

## QAÇ MƏKTƏBDƏN, CAVANIM

“Ey gözüm, ey canım,
Get məktəbə, cavanım!”

**M.Ə.Sabir**

Kitab-dəftər götürmə,
Hey köksünü ötürmə,
Sinifdə oturmaqla,
Havayı vaxt itirmə, –
“Qaç məktəbdən, cavanım”…

Özünə vermə əzab,
Koxanı gör, kəndi çap,
Get bir repititor tap,
“Qaç məktəbdən, cavanım”…

Kim dözməsə azara,
Gömüləcək məzara.
Dərs keçməyə vaxtmı var? –
Məktəb dönüb bazara. –
“Qaç məktəbdən, cavanım”…

Özünü salma gücə,
Darıxma gündüz, gecə,
Get özünə gün ağla,
Kimdi sənə dərs keçən? –
“Qaç məktəbdən, cavanım”…

Tezdən durma, rahat yat,
Yuxuna az haram qat.
Bunu mən demirəm ha,
Deyir bütün camaat:
“Qaç məktəbdən, cavanım”…

Söz əsməsin dilində,
Məni söymə könlündə.
Yazıq təhsil can verir,
İşbilməzlər əlində...
“Qaç məktəbdən, cavanım”…

**26.03.2023**

# GÜNƏŞ GÜLÜMSƏYƏNDƏ

## GÜNƏŞ,
## SABAHIN XEYİR

Mən gecələr yatanda
Hər yerə zülmət çökür.
Zəngli saat səhərlər
Yuxuma qılınc çəkir…

Tez gözümü açıram,
Oyanıram yuxudan.
Günəş gülümsəyəndə,
Zülmət qaçır qorxudan.

Elə bil ki, əyninə
Dünya qızıl don geyir.
Dəniz, sabahın xeyir,
Günəş, sabahın xeyir!

Eşitdimi sözümü,
Günəş yuxarı qalxdı.
Gülümsəyib dedi ki,
Mənə hər vaxt sabahdı…

Gecə nədir bilmərəm,
Qaranlıq görməmişəm.
İşim çəfəq saçmaqdı,
Mən günəşəm, günəşəm!

**18.01.2021**

## ZƏFƏR GÜNÜ

Qovduq qara zülməti,
Səhər bizə yaraşır.

Qəhrəmanlıq göstərdik,
Hünər bizə yaraşır.

Şuşaya, Zəngəzura
Səfər bizə yaraşır.

Bu gün zəfər günüdür,
Zəfər bizə yaraşır...

**12.08.2022**

## BAYRAQLI DAĞLARIMIZ

Uzaq ellərdən gəlir,
Yurdumuzun sorağı.

Naxələf qonşuların
Sönüb ümid çırağı.

Düşübdür əl-ayağa,
Bilmir nə etsin yağı...

Bizi xoşbəxt görəndə
Yanır, çıxır cızdağı...

Azaddır Sarıbaba,
Fərrux, Kirs, Qırxqız dağı. –

Olubdur dağlarımız
Düşmənlərə göz dağı, –

Zirvələrdə yellənir
Azərbaycan bayrağı...

**12.08.2022**

## TÜRKÜN QOŞA BAYRAĞI

Türkün qoşa bayrağı
Yerə, göyə yaraşıq.
Onlar şəfəq saçanda
Qəlbimə dolur işıq.

Müqəddəs iman nuru
Dayaqdır ordumuza.
Ulduzumuz, ayımız
Nur saçır yurdumuza.

Türkün bir cüt bayrağı
Nələri salmır yada? –
Yel əsəndə bənzəyir
Onlar qoşa qanada...

Düşmən baxıb titrəyir
Bir cüt türk bayrağına.
Biri Murova qonub,
Biri Ağrı dağına...

Onları qoşa görüb
Qəlbimiz dönür dağa.
Yellənib əl eləyir
Sanki bayraq bayrağa.

Biz haqq yolu tutmuşuq,
Zəfərlər halalımız!
Birləşib aya dönüb,
Bir cüt türk hilalımız...

Bir ahənglə əsirsə
Qoşa türk bayrağımız,
Həmişə zirvələrdən
Gələcək sorağımız.

**12.08.2022**

## BİZ QORQUDLAR NƏSLİYİK

Biz Qorqudlar nəsliyik,
Əslimiz, soyumuz var.
Halal duz-çörəyimiz,
Tərtəmiz suyumuz var.

Belə gözəl diyarı
Tanrı bəxş edib bizə.
Şiş uclu dağlarımız
Bıçaqdır yaman gözə.

Bu millətin, bu xalqın
Tayı-bərbəri yox.
Haram tikə dadmarıq,
Gözümüz, könlümüz tox...

Sözümüz imzamızdı,
Biz kişiyik, kişiyik.
Bizə taymı tutursuz
Bambılını, düşüyü?

Özünüzü öyürsüz,
Bu sizdə nə qaydadı?
Sizin uca dağınız,
Bizim təpə boydadı...

**12.08.2022**

## NİYƏ ŞƏHƏRƏ YAĞMIR

Niyə şəhərə az-az,
Kənddə tez-tez qar yağır?
Bəyaz örtük altında
Yoxa çıxır yol, cığır…

Niyə məhrum olmuşuq
Uçan bəyaz çiçəkdən?
Gözüm ağarıb, qışın
Yolunu gözləməkdən…

Kənddə qar dizə çıxır,
Şəhərdə niyə yoxdu?
– Kənddə adam az olur,
Şəhərdə adam çoxdu…

İsti yerlərdə qarın
Olmur yağmaq həvəsi…
Qorxur onu əridə,
İnsanların nəfəsi…

**19.02.2021**

## ŞƏHƏRƏ YAĞAN İLK QAR

Şükür olsun, şəhərə
Yağıbdır tozanqı qar.
Uşaqların üzündə
Gör nə qədər sevinc var?

Hamı gəlib heyrətə, –
Bura da qar yağarmış!
Hamı düşüb həyətə,
Yollar, izlər ağarmış…

Nəvəm əl edib, məni
Öz yanına çağırır.
Üzümə baxıb gülür,
Dişi qar tək ağarır…

Söyləyir ki,  ay baba,
Qışı tutub saxlayaq.
Qoymayaq çıxıb getsin,
Yollarını bağlayaq…

Deyirəm ki, ay bala,
Qışı saxlamaq olmaz.
Qanadlanıb uçdusa,
Quşu saxlamaq olmaz…

Vaxtı yetişən kimi
Çıxıb gedir fəsillər…
Nəsillərin dalınca
Gəlir təzə nəsillər.

Bir azdan gün çıxacaq,
Əridəcək bu qarı…
Gələcək yer üzünə
Əsrin yeni baharı…

Nəvəm gülür: – Gəl onda,
Belə bir iş eləyək!
Özümüzü bu qarın
Ağlığına bələyək…

Şəklimizi çəkdirək,
Biz dayanıb yanaşı…
Telefonun içində
Tutub saxlayaq qışı…

Bu qarlı şəkillərə
Baxaq, baxaq, doymayaq...
Biz bu qışın qarını
Əriməyə qoymayaq...

**19.02.2021**

## QIŞIN NƏĞMƏSİ

Yamaclara, dağlara
Narın-narın yağır qar.
Qışın da nəğməsi var,
Qarın da nəğməsi var…

Nəvəm gəzir cığırda,
Qar yağır xırda-xırda.
O getdikcə narın qar
Başlayr xırtaxırta…

Fərəhlənir uşağa
Baxıb qohum-əqraba.
Sanki körpə ayağı
Dönüb titrək mizraba…

Azalmır qar üstündə
Onun gəzmək həvəsi
Elə bil ki, nəğmədir
Qarın xırıltı səsı…

**26.02.2021**

## SEHRLİ ADDAMACLAR

Qışdan yaza keçmək üçün
Gərək hava bir az qıza.
Ana torpaq məhəbbətlə
Gəl-gəl deyə Bahar qıza.

Qışın qarşısını kəsən
Çəmənlər yaz hasarıdı...
Qorxumuz yoxdu soyuqdan,
Üzümüz yaza sarıdı...

Önümüzü kəsə bilməz
Çovgunlu dağ, qarlı yamac…
Yaza gedən yol üstündə
Hər çərşəmbə bir addamac...

**02.03.2021**

## QARA, AĞ

Hava tutulan kimi
Nəvəm göylərə baxdı:
– Bulud qaradır, niyə
Yağdırdığı qar ağdı?

**23.04.2021**

## GÜZGÜ – AYNA

Durub güzgü önündə
O, gedəndə xəyala,
Yenə nəvə babanı
Tutdu sorğu suala.

– Aynaya baxanda da
Eynəyin düşmür gözdən.
De görüm, güzgü sözü
Yaranıb hansı sözdən?

Baba dedi nəvəyə:
– Bir azca düşün özün.
Boş yerə yaranmayıb,
Mənası var hər sözün.

Sanki şüşə üstündə
Sahibini "göz güdür".
Güzgü sözü əslində
Güzgü deyil, "gözgü"dür…

– Bəs onda niyə ona
Həm də deyirlər ayna?
– İndi izah edərəm,
Bir az səbr elə, Ayna.

Güzgüyə bənzər gölə
Əksi düşür göyün də…
"Eyn" ərəb sözüdür,
"Göz" deməkdir "eyn" də.

O sözlərdən yaranıb
Gözlük, enək sözü də…
Öz əksini görmürsən
Sən babanın gözündə?

Qız çox maraqla baxdı
Babasının gözünə.
Onun bəbəklərində
Rast gələndə özünə,

Sevindi, öz əksinə
O, baxmaqdan doymadı.
– Baba, sənin gözün də
Elə güzgü, aynadı…

**30.04.2021**

## DƏNİZ ATI

Möcüzəli aləmdi
Mavi dənizin altı.
Sularında yaşayır
Balıqlar, dəniz atı…

– Dilini dinc tutanın
Başı salamat olar.
Balığı başa düşdüm,
Heç dənizdə at olar?

– Olar, nyə olmur ki,
Sirlə doludur dünya.
Kimsə bilməz yaşını,
Qədim, uludur dünya.

Tanrı dənizləri də
Canlılarla bəzəyir.
Dəniz atı balıqdır,
Ancaq ata bənzəyir.

Çapır belədən-belə,
O, üzəndə, ləngimir…
Özünü qorumaqçın
Dəyişir öz rəngini.

Dərində yox, dayazda
Arın-arxayın üzür.
Cücü-mücü görəndə
Sevinir, gülür üzü…

Üzməyi də fərqlidi,
Sanki köhləndir, çapır.
Yosunlar arasında
Özünə qida tapır…

**18.07.2021**

## DƏNİZ AYRI ALƏMDİ

Dəniz ayrı aləmdi,
Hamı sirrini bilməz.
Üzməyi bacarmayan
Dayaz, dərini bilməz.

Havayı vaxt itirir
O künc, bu küncü gəzən…
Dərinə enməlidi
Mirvari, inci gəzən…

**18.07.2021**

## KÜLƏK QOYMAYIB YATAQ

Kim onu hirsləndirib,
Bu  dəli küləyə bax.

Çırpılır üzümüzə
Havadakı toz-torpaq.

Ağacların üstündə
Tir-tir əsir hər budaq.

Sanki cələyə düşən
Quşdu çırpınan yarpaq...

Dənizin qucağında
Hər dalğa olub bir dağ.

Yayın qızmar çağında
Buza dönübdür yataq.

Külək nə özü yatıb,
Nə qoyub bizi yataq...

**28.07.2021**

## BULUD ƏLƏK

Külək alıb əlinə
Yekə bulud ələyi,
Göylərdən üstümüzə
Bəmbəyaz qar ələyir...

**16.01.2022**

## AY İŞIĞI

Gecələr aydır duran
Qaranlığın qəsdinə, –
Günəşə güzgü tutub,
Salır kəndin üstünə...

**18.02.2021**

## YAYLIQ

Yaylığa bax, bacımın
Yaman gəlir xoşuna.
Onun adı yaylıqdı
Qışda örtür başına...

**02.01.2022**

*******

– Şərə təslim olar Xeyir?
– Xeyir! Xeyir!

**15.01.2022**

## DANA

İstəyir ki, sarı dana,
Heyvan olduğunu dana.

**16.01.2022**

## SÜRPRİZ, YA SİRR PRİZ?

Qədirbilənlər üçün
Hər sovqat bir pirizdi.
Sürpiriz nədir axı? –
Yəqin o, sirrprizdi...

**06.01.2022**

***

Samovara od salıb,
Nənəm çayı dəmlədi..
Biz düməlndik, babam
Hamısını dümlədi...

**14.03.2022**

## ODUN VƏ OCAQ

Quruyan ağac
Bitməz bir daha.
Üstündə quşlar
Ötməz bir daha.

Yaşıl yarpaqlar
Şam kimi sönüb.
Ağac kəsilib,
Oduna dönüb.

Doğranan ağac
Deyil özündə.
Oddan yaranıb
Odun sözü də...

Ağaca dönməz
Daha bu odun.
Kimsənin deyil,
Odundur, odun.

Yanan çör-çöpün
Közü də qalmaz.
Odun olmasa,
Ocaq da olmaz...

**29.01.2022**

## QIŞ UZUNU YATAN QIŞ

Bu nə vaxtın qarıdı? –
Biz əcəb işə düşdük...
Gecikən qış, tələsən
Bahar ilə görüşdü...

Axı nəyə gərəkdi
Yaz gələndə yağan qar?
Çiçəyi şaxta vursa,
Budaqlar verərmi bar?

Çiçəkləyən ağaclar
Tir-tir əsir qorxudan...
Qış uzunu yatan qış
İndi durub yuxudan...

**17.03.2022**

## QARDAŞLAR, BACILAR

Elə ki, əsər
Bahar küləyi,
Qaranquşların
Əsər ürəyi...

Bütün dərdlərə
Yaz əlac olar.
Sevinib gülən
Yal-yamac olar.

Qızıl lalələr
Bənzəyər közə,
Tumurcuq gözlər
Qəfil açılar. –

Durar üz-üzə,
Durar göz-gözə
Yarpaq qardaşlar,
Çişək bacılar...

**09.04.2022**

## GÜZGÜ

Nə yaxşı ki, güzgü var,
Tanıyıram özümü.
Onsuz görə bilməzdi
Bu gözüm o gözümü...

## TƏMİZLİK

Orda xəstəlik olur,
Harda ki, pintilik var.
Təmizlik olan yerə
Üzükməz azar-bezar...

***

Yuxudan duran kimi
Yu əlini, üzünü.
Hamı təmizlik sevir,
Təmiz saxla özünü...

Xəstəlik, azar-bezar
Təmizlikdən gen qaçar.
Ən paslı qıfıllara
Təmizlik olar açar.

Özgə paya uzatma,
Təmiz saxla əlini.
Təmiz saxla ağzını,
Təmiz saxla dilini.

Həyatın boyu bilmə
Haram tikə dadını.
Ləyaqətlə ömür sür,
Qoru təmiz adını!

Təmizlik olan yerdə
Sağlamlıq, hərəkət var...
Təmizlik olan yerdə
Xeyir var, bərəkət var....

**11.04.2021**

## DƏLİ KÜLƏK VƏ AĞILLI İŞIQ

Bəsdi dağıtdın, qırdın,
Dəli külək, gəl bəri!
Gücünü sınayırsan? –
Hərlət, fırlat pərləri...

Ram etməyi bacarsaq,
Dəli-dolu sel gücü,
Dəli-dolu yel gücü,
Dönüb olar el gücü...

Hava kimi gərəksən,
Sən böyüyə, uşağa.
Əs, əs, dəli küləyim,
Dön ağıllı işığa...

**09.04.2022**

## ABŞERONUN KÜLƏKLƏRİ

Əsəndə  Cənub küləyi
Qumu toza döndərir.
İsti hava gətirsə də,
Suyu buza döndərir.

Qoymur dəniz havasını
Yaxın gələ şəhərə...
Nəfəs almaq çətinləşir,
Nədənsə birtəhərəm...

İsti külək aman vermir,
Gözüm dolub qum ilə.
Bu Gilavar elə bil ki,
Qohumdur Səmum ilə...

Bizi Yaradan qorusun
Xəbisdən, bədnəzərdən.
Tez-tez sərin hava gəlsin
Yurdumuza Xəzərdən...

Harda qaldı o insafsız? –
Qırıldıq, tez eləsin.
Dəli-dolu Xəzri əsib,
Havanı təzələsin...

Külək dəyişsə səmtini,
Biz çox razı qalardıq.
Əssəydi Şimal küləyi
Rahat nəfəs alardıq...

**01.09.2022**

## HAMAR DƏNİZ

Kater üzüb getdikcə
Qabarır suyun üzü.
Elə bil kotan salıb
Şumlayırlar dənizi.

Ancaq dəryanı əkmək
Cəhdi hədərdir, hədər.
Haphamar olur dəniz
Şumlansa da nə qədər…

## AFƏR

Təzə "Gündəliy"ində
Çoxlu "5" var Afərin!
Babası baxıb ona
Deyir:
– Qızım, Afərin!

**11.04.2021**

## ƏZİZ CAVİDƏ

Cavidə bax, Cavidə,
Nə deyirsə, düz deyir.
Anama şeir yazdın,
İndi mənə yaz deyir.

Gəldi mənim xoşuma
Onun şeir deməyi.
Bu balaca oğlanın
Tanrı olsun köməyi!

Vətənə oğul gərək,
Böyüsün igid kimi.
Qoy o da məşhur olsun
Hüseyn Cavid kimi...

**01.10.2021**

## YOLDA

Əyləc basıldı, maşın
Silkələnib dayandı.
Mən Bakıda yatmışdım,
Sumqayıtda oyandım.

## BALACA SÜRÜCÜ

“Bip-bip”, “bip-bip” eləyir
Yenə də kiçik Əkrəm.
Stulu yerə yıxıb,
Deyir: – Maşın sürürəm.

## YOLDAN ÇIX

– Yoldan çıx, maşın gəlir,
Nə durmusan, ay Soltan.
– Niyə mən çıxmalıyam,
Qoy maşın çıxsın yoldan!

## “TAPPIR,TUPPUR”

Köhlənlərin nalından
Sanki qığılcım qopur.
Kimsə çapıb atını
Yol gəlir: “tappır-tuppur”...

İldırım şaqqıldayır,
Dağ-dərə köks ötürür...
O, kimdisə uzaqdan
Bizə nağıl gətirir,
Təzə nağıl gətirir...

Sel tək enir Kuzuna,
Yel tək qalxır Ləzəyə...
“Tappır-tuppur” səsindən
Yer-göy gəlir lərzəyə.

Şimşəklərin oduyla
Gecə yanır, alışır.
Bulud nənə sübhədək
Şirin nağıl danışır...

Hər kəlməsi, hər sözü
Min rəng qatır gecəyə.
Dağların yamacında
Nağıl dönür çiçəyə...

**12.04.2022**

## AYILAR

Yekəpər ayılar da
Qorxarmış buzdan, qardan...
Xorultu səsi gəlir
Qışda mağaralardan...

Yemək də yada düşmür,
Şirindir qış yuxusu...
Yağı, piyi olanın
Aclıqdan nə qorxusu?

Qış uzunu mürgüyə
Gedən bütün ayılar,
Hava isinən kimi
Yuxusundan ayılar...

Uzun sürən aclığa,
Dözə bilməzlər daha,
Ayılıb bal yuxudan
Gedərlər bal tapmağa...

**09.04.2022**

## LİFT

Bütün günü işləyir,
Hey endirir, qaldırır.
Lovğalanmır, danışmır
O, həmişə lal durur.

Naümid qaytarmayıb
Lift bircə nadinc əli.
Hamı yatandan sonra
O da yatıb dincəlir.

Ancaq mürgüləsə də,
Hər an sərvaxt dayanır.
Düyməsi basılan tək
Yuxusundan oyanır...

**21.08.2022**

## GECƏ QATARI

Gecə qatar keçəndə
Evimizin yanından
Bilmir ki, nə eləsin
Adam həyəcanından.

Bina sanki vaqondu,
Kupedi mənzilimiz.
Qatarlara qoşulub,
Sanki yol gedirik biz.

## FUNİKULYOR

Mindiyimiz tramvay
Dağa qaldırdı bizi.
Çıxıb Dağüstü parkdan
Seyr elədim dənizi.

Qağayılar baş vurub
Ayna sularda çimir.
Xəzərin yaxasında
Hər qayıq düymə kimi…

## METRO

Axın-axın girirlər
Yer altına adamlar.
Axın-axın çıxırlar
Yet altından adamlar.
Ay aman, bura baxın,
Gör nə qədər adam var!
Təəccüblə söyləyir
Mənə balaca İlkin:
– Qarışqa yuvasıdır
Bu metro elə bil ki…

**1986**

## BƏSDİ

A Bəsdi, Bəsdi, Bəsdi,
Məndən küsmək əbəsdi...
Bir cüt gözəl oğlun var,
Heç başında ağlın var?
İncisən, qəlbim əsər,
Adam şairdən küsər?

**1999**

## KİŞNƏRTİ ƏVƏZİNƏ

Sahibini yüyrük tək
Yırğalayardı atlar.
Çəkilməmiş yollarla
Yorğalayardı atlar.

At igidin şərəfi,
At igidin qanadı.
Atı sevməyən kəsi
Dost-tanışı qınadı.

Adamlar köhlənləri
Tamam unudub indi.
O atların yerini
Maşınlar tutub indi.

Yadımdadır, bir zaman
Atlar necə kişnərdi.
Tarixdən gələn səsdi
Mənimçün hər kişnərti.

İndi düşməyən yoxdu
Dəmir at həvəsinə.
Siqnallar haray salır
Kişnərti əvəzinə…

## QULUNUM

Atlarının doğması
Sevindirdi Qulunu.
Yaman çox istəyirdi
O, balaca qulunu.

Heç atın balasından
Çəkməyirdi gözünü.
Sevə-sevə deyirdi
Ona tutub üzünü:

– Böyüyüb at olarsan,
Mən səni nalladaram.
İnanmırsan sözümə,
Heç səni aldadaram?

Başında təzə cilov,
Belində təzə yəhər,
Kəndimizin seyrinə
Çıxarıq səhər səhər.

Sən dördnala çaparsan,
Dırnağından od çıxar.
Heç mənim köhlənimin
Qarşısına at çıxar?

Həmişə dördnala çap,
Yerimə yorta-yorta.
Adamların yanında
Məni eləmə pərt, ha!

Niyə məndən qaçırsan,
Axı belə şey olmaz.
Sənə ot gətirmişəm,
Qorxma, yaxın gəl bir az.

Məhəl də qoymayırsan
Axı niyə yemə sən?
Ay qulunum, unutma,
Böyüməzsən yeməsən…

# SINAQ

*Mənzum nağıl*

Övladı olmayan şah
Fikir-xəyal edirdi.
Gələcəyi düşünüb,
Xəyallara gedirdi.

Bir çarə axtarırdı
Gecə gündüz çəkib ah.
Deyirdi yəqin məni
Sınağa çəkir Allah.

Aylar ötüb gedəcək,
İllər ötüb gedəcək.
Övladım yoxsa əgər
İzim itib gedəcək...

Hamı bəxtəvər sanır
Mənə baxıb qıraqdan.
Ədalətli şah olmaz
Əsla zatıqırıqdan.

Varisin yoxsa əgər
Taxtı kimə verəsən?
Necə olacaq yurdun
Gələcəyi görəsən?

Qorxuram ki, bu millət
Nə vaxtsa başsız qala.
Dədə-baba yurdunun
Üstünü bulud ala.

Atalar söyləyib ki,
Hər dərdin çarəsi var.
Çox düşünüb-daşındı,
Axırda verdi qərar.

O, vəziri, vəkili
Məsləhətə çağırdı.
Dedi: – Mən qocalmışam,
Vəziyyətim ağırdı.

Bir varisim də yoxdu, –
Məni fikir götürüb.
Siz mənə ləyaqətli
Gənclər tapıb gətirin...

Dünya xali deyil ki,
Yüz ölçüb biçməliyəm.
İgidlər arasından
Bir varis seçməliyəm.

Başbilənlər sevindi,
Eşitcək bu xəbəri.
İgidlər axtardılar
Gəzib kəndi, şəhəri...

Çaparlar ata minib,
Dörd tərəfə çapdılar.
Soraqlayıb, axtarıb
Qırx namizəd tapdılar.

Birinin görkəmində
Tapa bilməzsən qüsur.
Hamısı boy-buxunlu,
Hamısı igid, cəsur.

Vəzir şaha baş əyib,
Dedi: – Qibleyi-aləm.
Ən say-seçmə cavanlar
Hüzuruna olub cəm.

Şah müştəri gözüylə
Cavanlara baxırdı.

Düşünüb-daşınırdı,
Səhv etməkdən qorxurdu.

Onu sevindirsə də,
Boy-buxunlu oğullar.
Bilirdi ki, iş bitmir
Təkcə güclə, ağılla...

Dedi: – Rast gəlməməkçün
Biz tənəyə, qınağa,
Gərək mən cavanları
Özüm çəkim sınağa...

İndi mən hər igidə
Gül toxumu verəcəm.
Qırx gündən sonra mütləq
Nəticəni görəcəm...

Siz onları aparıb,
Dibçəkdə əkərsiniz.
Suyunu verərsiniz,
Nazını çəkərsiniz...

Gözümə görünməyin,
Güllər saralsa, solsa.
Kimin əkdiyi toxum
Bitib gözəl gül olsa,

O, mənim varisimdi,
O, namuslu insandı. –
Nəticəni görəndə,
Qərar vermək asandı...

İgidlər çıxıb getdi,
Ötdü qırx gün, qırx gecə.
Dibçəklərdən boylanan
Güllər gözəldir necə!

Ləçəklər gəl-gəl deyir,
Çiçəklər ətir saçır.
Gözəlliyə baxanın
Huşu başından qaçır.

İnsanı məftun edən
Ləçəklərin rəngidi.
Al-əlvan güllər sanki
Gözəllik çələngidi.

Bu güllər nə gözəldi,
Adam göz çəkə bilmir...
Şah isə susur, heç kəs
Ondan söz çəkə bilmir.

Qoca şah fikirlidir,
Üzünü bulud alıb,
Dönüb baxır uzağa,
Gözü yollarda qalıb...

Hamı qorxur, görəsən
Nə imiş günahımız?
Nə düşünür görəsən
Bizim müdrik şahımız?

Vəzir pozur sükutu,
Vəzir keçir qabağa.
Təzim edib, ədəblə
Belə söyləyir şaha:

– Nələrə qadir imiş
Əkib-becərən əllər!
Xoşunuza gəldimi,
Şahım, bu gözəl güllər?

– Burda otuz doqquzdu,
Qırxıncı dibçək hanı?

Nəsə görə bilmirəm,
Mən qırxıncı oğlanı?

Bu nə sayğısızlıqdı,
Tapıb gətirin onu...
Pıçıldaşdı adamlar:
Gəldi yazığın sonu...

Fərraşlar ata minib,
Kəndə sarı çapdılar.
O zavallı cavanı
Axtardılar, tapdılar.

Süryüb gətirdilər
Onu şah sarayına.
Kim idi məhəl qoyan
Gəncin hay-harayına!

Şah təbəssümlə dedi:
– Harda idin, ay oğlan?
Taleyin hazırlayıb
Sənə gözəl pay, oğlan.

Ayağa qalx, bu gündən
Mənə doğma olmusan.
Gözləməkdən yoruldum,
Harda itib qalmısan?

– Taleyim belə imiş
Mən murada yetmədim.
Verdiyiniz toxumu
Ha suvardım, bitmədi...

Gərək yaşamayaydım,
Xəcalətdən öləydim.
Sizin hüzurunuza
Mən nə üzlə gələydim?

Şah güldü:
– Sənin kimi
dürüst adam yox imiş.
Heyf ki, yurdumuzda
Yalançılar çox imiş...

Sizi sınamaq üçün
Mən xeyli düşünmüşdüm.
Verdiyim toxumları
Qaynadıb, bişirmişdim.

Yalan olan ölkədə
Bərəkət itə bilər...
Qaynadılmış toxumdan
Axı nə bitə bilər?

Məni xilas elədin
Yüz tənədən, qınaqdan.
Təkcə sən çıxa bildin
Oğul, çətin sınaqdan...

Düzlüyün, təmizliyin
Gəldi mənim xoşuma.
Gərək dürüst adamlar
Gələlər iş başına!

**14.04.2023**

# "Cəh-cəh" kitabından

## MƏNİM AZƏRBAYCANIM

### OCAĞIM, KÖZÜM VƏTƏN

Bu ölkə bizim ölkə,
Bu vətən bizim vətən!
Qürbət eldə ən şirin
Söhbətim, sözüm vətən!

Vurulmuşam sənə mən,
Qürur dolur sinəmə,
Seyr etdikcə səni mən,
Yorulmaz gözüm, vətən!

Selin damarımda qan,
Yelin ciyərimdə can,
Sənə gərəksə qurban,
Olaram özüm, vətən!

Göylərində bir quşam,
Hüsnünə vurulmuşam,
Sənsiz bir qara daşam,
Ay canım, gözüm vətən!

Yurdumun günəşiyəm,
Arzulara beşiyəm,
Qoymaz məni üşüyəm, –
Ocağım, közüm vətən!

**25.01.2019**

# ULU ÖNDƏR

**Müsiqisi Siyavuş Kərimінindir**

Vətənin dar günündə
Harayına sən çatdın.
Üçrəngli bayrağımı
Zirvələrə ucaltdın.

Ölkəmizin üstündən
Qovdun qara kölgəni.
Məhv olmaqdan qorudun,
Xilas etdin ölkəni.

Nəqarət

Yurdumun hər yerində
Silinməyən izin var.
Sənin yolunla gedən
Neçə oğlun, qızın var.

Yolumuz haqq yoludur,
Uzaqda deyil zəfər.
Biz bu yoldan dönmərik,
Əmin ol, Ulu Öndər!

Vətən eşqi hər zaman
Zəfərlərə səsləyir.
Xalq sənin övladına
Sonsuz ümid bəsləyir.

Etibarlı əldədir
Azərbaycan dövləti.
Gündən-günə yurdumun
Artır gücü, qüdrəti.

Nəqarət

Yurdumun hər yerində
Silinməyən izin var.
Sənin yolunla gedən
Neçə oğlun, qızın var.

Yolumuz haqq yoludur,
Uzaqda deyil zəfər.
Biz bu yoldan dönmərik,
Əmin ol, Ulu Öndər!

## ULU ÖNDƏRİN HEYKƏLİ

Bura necə gözəl parkdı,
Göz oxşayır baxsan hara.
Ulu rəhbərin heykəli
Ucalıbdır buludlara...

Üzünə təbəssüm qonub,
Ruhu çevrilib kölgəyə.
O, ucadan nəzər salır
Qurub tikdiyi ölkəyə...

Kimin həddi var ki, burda
Ağac kəsə, ya gül dərə...
Sanki rəhbərin heykəli
Keşik çəkir çiçəklərə...

**04.02.2019**

## AZƏRBAYCAN OĞULLARI

Atalar yaxşı deyib ki,
Oğul düşmən çəpəridi...
Nə yaxşı ki, mərd igidlər
Yurdumuzun sipəridi...

Mən Koroğluyam, Nəbiyəm,
Mən Əlyaram, Mübarizəm...
Nə qədər ki, haqsızlıq var,
Bitməyəcək mübarizəm!

Qəhrəmanlar diyarıdır,
Azərbaycan – doğma yurdum.
Ölkəmizin keşiyində
Sayıq durub mənim ordum...

Vətən eşqi bəxş eləyib,
Bu hünəri, gücü bizə.
Düşmənlər yaxşı bələddi
Dağlar yaran gücümüzə...

Əvvəl-axır Qarabağda
Qara əllər yox olacaq.
Mübarizə bitməyincə,
Mübarizlər doğulacaq...

**14.06.2020**

# DÖN ZƏFƏRLƏR İLİNƏ

Xoş gəlmisən, təzə il,
Bizim odlar elinə!
Ümidimiz sənədi, –
Dön zəfərlər ilinə!

Sənin kimi nə qədər
İllər yola salmışıq.
Ulu yurda kənardan
Baxa-baxa qalmışıq...

Nə vaxtdandır yol çəkir
Qərib dağların gözü...
Qıyma ki, kömür olsun
Ocağın qızıl közü...

Zəngilanın üstündən
Qara yellər əsibdir.
Şuşa, Laçın, Kəlbəcər,
Yəqin bizdən küsübdür...

Cəbrayılım inləyir,
Haray çəkir Füzulim.
Kimin yadından çıxar
Bu məşəqqət, bu zülüm?

Bizsiz qalan yurd yeri,
Qəribsəyib yamanca...
Qalxmalıyıq ayağa,
Yaddan kömək umunca...

Bizsiz qalıb Həkəri,
Bizsiz qalıb Bərgüşad.
İldırım şaqqıldasın,
Gəlsin bir dəli gürşad.

Düşməni çör-çöp kimi
Aparsın dəli sellər.
Qayıtsın yuvasına
Bizim obalar, ellər...

**2019**

## XATİRƏ ÇAYLARI

Gözləri baxır Kürə,
Babam gedib fikirə...

O, sakit dayansa da,
Çay tək kükrəyir, daşır.
Axan sulara baxır,
Təzələnir yaddaşı.

Xatırlayır illəri,
Xatırlayır ayları.
Ona rahatlıq vermir
Axan həsrət çayları...

Hava bir az soyuqdu,
Görəsən o, üşümür?
Sulara baxa-baxa
Hey düşünür, düşünür...

Durnagözlü bulaqlar
Bağlayıb dağa çayı...
Elə bil xəyalında
Çağlayır Ağa çayı...

Gedib dərin xəyala,
Gedib dərin fikirə.
Qubadlını düşünən
Babam dönübdür Kürə...

Yol çəkən gözlərinin
İçində çaylar daşır.
Ona rahatlıq vermir
Yaralanmış yaddaşı...

O qədər həssasdı ki,
Sanku hər şeyi duyur.
Bəlkə də o, axtarır
Kürdə Bərgüşad suyu?! –

Yenə həyəcanlandı,
Çayda o, nəsə gördü...
Baxma sakitliyinə,
O da Kür kimi kürdü...

Pencəyini çıxartdı,
Məgər hava istidi?
Elə bil göydə uçan
Quşdan qanad istədi...

Yellədi qollarını,
Sanki o da quş oldu.
Üzü vətənə uçan
Durnalara qoşuldu...

...Gözləri baxır Kürə,
Babam gedib fikirə.
Başında şimşək çaxır,
İçinə yağış yağır..

Sayır vətənsiz keçən
Həftələri, ayları...
Yaddaşında kükrəyir
Hey xatirə çayları...

...Babam neçə saatdı
Dayanıb Kürə baxır,
Bir gözündən Həkəri,
Birindən Araz axır...

**12.04.2020**

## VƏTƏN VƏ QÜRBƏT

Okeanlar, dənizlər
Kəssə belə aranı,
Tale qismət elədi,
Gəlib gördüm buranı...

Möcüzələr yurdunu
Gəzdim şəhərbəşəhər...
Ən nəhəng okeanda
Çimdim hər axşam, səhər...

Uzaqdan sanırdım ki,
Suyu baldı, şərbətdi.
Bir az yaşayıb gördüm,
Yox, buralar qürbətdi...

Xatırlayıb yurdumu
Göynədim için-için.
Heç bir ay keçmədi ki,
Darıxdım vətən üçün...

Mən Sakit okeanda
Xəzərimi düşündüm.
Həsrət yelləri əsdi,
Yay günündə üşüdüm...

Yaxşı ki, tez əridi
Hiçran dumanı, çəni.
Los Anceles, hələlik,
Bakı, xoş gördük səni!

Babalar düz deyirmiş:
Vətən olmaz qürbətdən.
Okean kiçik imiş
Qəlbimdəki həsrətdən...

**13.05.2020**

## ŞAR VƏ BALACA QIZ

Sən bu şara bax, şara,
Günəşə bənzər – sarı...
Bu qız körpə fidan tək
Can atır ona sarı...

Havaya qalxan şarı
Gözləriylə oxşayır...
Onu hər an qorumaq
Arzusuyla yaşayır.

Dünyanın heç yerində
Bu şarın yox bənzəri.
Yalnız onu axtarır
Qızcığazın gözləri...

Elə bil ki, bu körpə
O şarla alır nəfəs...
Bilirsiniz hardandı
Bu sonsuz sevgi, həvəs?

Püləyərək doldurub,
Həmin şarı atası.
Döyüşdə şəhid olub,
Bu qız qalıb atasız...

Gör necə möhkəm tutub,
Bu qız şarın sapını?!
Sanki bu şar azaldır
Körpənin əzabını...

Onu göz bəbəyi tək
Qorumağa çalışır.
Bu qıza baxan zaman
Ürəyimiz alışır...

Bir gün toxtaqlıq verib,
Söylədik ki, Süsənə:
Nə qədər istəyirsən,
Şar alarıq biz sənə!

Qız etiraz elədi,
Üzünü bulud aldı.
Elə söz söylədi ki,
Əlim-üzümdə qaldı.

– Özünüzü yormayın,
Bu şarın əvəzi var? –
Axı onun içində,
Atamın nəfəsi var...

Bu qızı yetim qoyan
Namərd əllər qurusun!
Ulu Tanrı o şarı
Tikanlardan qorusun!

**13.07.2020**

## ŞƏHİD BALASI

Baxanda kövrələr daş,
Hələ öndədir savaş.
Dəyirmanlar işlədər
Gözlərindən axan yaş!

Dik dur, şəhid balası!
Ucalt nifrət qalası.
Tökülən bir gilə qan
Deyil yerdə qalası.

Bu yollar haçalanır,
Ömrə ömür calanır,
Sənə baxanda mənim
Ürəyim parçalanır...

Qəlbimizdə acı var,
Hər dərdin əlacı var.
Balaca yumruğunda
Haqq-ədalət gücü var...

Ürək deyil susası,
Budur sözün qısası:
Şəhid övladlarının
Yaman olur qisası!...

Ayağa qalxıbsa xalq,
Məğlub ola bilməz haqq!
Zəfərlərə səsləyir
Bizi üçrəngli bayraq!

**16.07.2020**

# DÜNYAMIZI QORUYAQ

## YER BİZİM YUVAMIZDI

Yer bizim yuvamızdı,
Küncü yoxdu yuva tək!
Onun hər guşəsində
Xoşbəxt olaq biz gərək!

Allah belə edib ki,
Güldürsün yer üzünü...
Heç kəs qərib sanmasın
Yer üzündə özünü...

**20.06.2019**

## ATA-ANALI DÜNYA

Müqəddəs varlıqları
Gərəkdir hamı ana!
İnsan dünyaya gəlməz
Olmasa ata, ana!
İllər, əsrlər dəyməz
Atalı keçən ana,
Analı keçən ana!
Hər bir kəs bu hikməti
Gərək anlaya, duya.
İnsan üçün cənnətdi
Ata-analı dünya!

**2019**

## YERDƏ YERİMİZ

Gərək bilək
yerimizi,
İncitməyək
Yerimizi...
Heç zaman
əskik etməsin,
Allah Yerdə
yerimizi!

**22.04.2020**

## SEHRLİ FIRFIRA

Bizim bu Yer kürəsi
Gecə-gündüz fırlanır.
Gah bu üzü nurlanır,
Gah o üzü nurlanır...

Günəşin şəfəqləri
Onu bələyir zərə...
Gözümüzü oxşayır
Neçə gözəl mənzərə...

Uca-uca dağları,
Çiçəkli yamacı var.
Qoynunda hər bir dərdin
Dərmanı, əlacı var.

Nəhəng okeanları,
Gölləri göz oxşayır.
Dənizində, çayında
Hər cür balıq yaşayır.

Yamacında, düzündə
Açır əlvan çiçəklər.
O yan, bu yana uçur
Arılar, kəpənəklər...

Göz oxşayır çəmənlər,
Zümrüd donlu meşələr.
Ətir saçır dörd yana
Nərgizlər, bənövşələr...

Bülbülər oxuyanda,
Adamın gedir huşu...
Dünya necə saxlayır
Bu qədər gözəl quşu?!

Ucan gülə bənzəyir,
Qırqovul, kəklik, turac...
Ceyran, cüyür qaçanda
Sevinir dərə, yamac...

Şəlalələr oxuyur,
Çaylar kükrəyir, daşır...
Sevimli dünyamıza
Gözəllik çox yaraşır...

Çiçəyində, otunda
Hər dərdin dəvası var.
Bizi yaşatmaq üçün
Suyu var, havası var.

Sünbüllü zəmiləri,
Meyvəsi, tərəvəzi...
Bizim Yer kürəsinin
Deyin, varmı əvəzi?

O, təzə don geyinib,
Dəyişdikcə fəsillər.
Qoynunda məskən salıb,
Neçə-neçə nəsillər.

Onun hər imkanı var
Bizi xoşbəxt eləsin.
Yerin isti qoynunda
Öz yeri var hər kəsin...

Kim burda yaşayırsa,
Çox xoşbəxtdi,
bəxti var. –
Qoynunda ola bilib,
Hamı xoşbəxt,
bəxtiyar...

Yer bizim anamızdı,
Təbəssümü çiçəkdi.
Yerin yerini bilək,
O, kainatda təkdi...

Könlünü xoş eləyər
Ona könül bağlamaq.
Hamımızın borcudu
Yeri təmiz saxlamaq.

Min ildi, milyon ildi
Fırlanmağı da sirdi.
Bizi yaşatmaq üçün
O, əsirdi, yesirdi...

Əgər anamız Yeri
Yoluxdursaq virusa,
Qoynunda həyat sönər,
Nəğməkar quşlar susar.

Unutmayın, adamlar,
Bu sehrli fırfıra,
Hamımızı tərk edib,
Dönə bilər sıfıra...

**28.03.2020**

## KORONAVİRUS

Hamı düşüb təşvişə,
Koronavirus gəlir.
Ehtiyatlı olun ha,
Gizli bir casus gəlir...

Dünyanın o başından
Əsib qara yel kimi,
Yurdumuza uzanır
O, bir qara əl kimi...

Təmizlər təslim olmaz,
Sənin çirkli orduna.
Rədd ol, koronavirus,
Qayıt get öz yurduna!

Hiyləgər çaqqal kimi
Sən bizdən nə umursan?
Güclülərdən qorxursan,
Zəiflərə cumursan.

Göz dikmə qocalara,
Çəkil get, ay qurumsaq!
Anam xörəyimizə,
Vurub soğan, sarımsaq...

Sabunlayıb yumuşuq, –
Əllərimiz tərtəmiz.
Sənin qorxunc ordunla
Döyüşə hazırıq biz.

Ay cəhənnəm elçisi,
Oxşatdın bizi kimə?
Qayıt öz xarabana,
Yurdumuza üzükmə!

Alnıaçıq, üzüağ
Çıxarıq bu sınağı.
Bizi Allah qorusun,
Nə karəsən sən axı...

**03.03. 2020**

## TƏZƏ XORTDAN

Hamı düşüb təşvişə,
Şəhərə Xortdan gəlib...
Girib virus cildinə,
Xortlayıb, gordan gəlib.

Özünüzü qoruyun,
Gəzməyin veyil-veyil.
Zarafatı xoşlamır,
O, adi Xortan deyil.

Asanlıqla aşır o,
Sərhədləri, sədləri,
Dərələri, dağları,
Bərələri, bəndləri..

Minib süpürgəsini
Gəlir hey uça-uça.
Tanımır arvad, uşaq,
Tanımır cavan, qoca.

Vecinə də almır o,
Bu varlıdı, ya kasıb.
Hamını evə yığıb,
Hamını küncə qısıb.

Vəziyyət çox gərgindi,
Davam etsə "Evdə qal",
Məktəb tez açılmasa,
Çox düşəcək evdə qal...

Görünməsə də gözə,
Başında bir tacı var.
Ancaq qorxma, dünyada
Hər dərdin əlacı var.

Əllərini yumasan,
O, haray qoparacaq.
Küçəyə çıxanları
Özüylə aparacaq...

Qoy həkimlər tapsınlar
Bu dərdin əlacını.
Alıb yerə çırpsınlar
Onun qorxunc tacını!

Biryolluq məhv etsinlər
Bu koronavirusu.
Hər azardan, bezardan
Bizi Allah qorusun...

**31.03.2020**

## KEÇİ

Gah o tərəfə keçir,
Gah bu tərəfə keçir,
Bezdiribdir hamını
Bu keçi oğlu keçi...

İndicə bəyirəcək,
Qulağı keçsə ələ.
Böyüyüb, uzanacaq,
Yazıq olacaq pelə...

Hələ heç kəs çəpişdə
Görməyib belə qulaq.
Dəcəllik etməsəydi,
Olmazdı peləqulaq...

Buynuz atır, sürtüşür
Çobanın çombağına.
O dünyalıq olacaq
Dəysə bir çombaq ona...

**03.04.2020**

## QOTUR KEÇİ

Hey hoppanıb düşürsən,
Ürəyindən nə keçir?
Bir sürünün adını
Batırsınmı bir keçi?

Qanmazın biri qanmaz,
Niyə sözə baxmırsan?
Sən ağzına, burnuna
Heç maska da taxmırsan.

Bilmirsənmi virus var,
Qoturun biri qotur?!
Bəsdir gəzdin örüşdə,
Get xarabanda otur...

Yoluxdurma sürünü,
Yoluxdurma naxırı.
Heç yaxşı olmayacaq
Bu işlərin axırı...

**03.04.2020**

## ŞÜŞƏDƏN BİR CİN QAÇIB

Ayıq olun uşaqlar,
Şüşədən bir cin qaçıb...
Gah o ölkəyə uçub,
Gah bu ölkəyə uçub...

Şüşədən cini qaçan
Yerin adı Ufandır.
Ordan dünyaya gələn
Bir heybətli tufandır....

Qorxusu yox polisdən,
Qorxusu yox qoşundan!
Gəlir virus ordusu
Dünyanın o başından...

Şüşədən qaçan cinin
Gəldiyi yer Ufandır,
Girir nəfəs yoluna,
Nə qorxuncdu
Uf, andır!

Heç görünmür gözə o,
Xırdaca, bir tikədi.
Özü kicik olsa da,
Cinayəti yekədi...

Əllərini sabunla,
İstifadə et geldən.
Virusların hamısı
Gen qaçır təmiz əldən.

Maska taxandan sonra
Sən nəfəs al dərindən.
O cin keçə bilmir ha,
Təmiz üz siperindən...

Özgədən haray yoxdu,
Bu bizlikdi, qorxmayın!
Ən yaxşı silahımız
Təmizlikdi, qorxmayın...

Virusu ram etməyə
Qadirdi bizim ellər.
Bu dərdin dərmanıdır
Təmiz su, təmiz əllər...

**06.04.2020**

## "EVDƏ QAL"

Deyirlər ki, evdə qal,
Qalaq, nə deyirəm ki.
Elin dərdinə şərik
Olaq, nə deyirəm ki...

Ancaq boş durmaq olmaz,
Gərək oxuyaq, yazaq.
Şəkil çəkək, rəqs edək,
Virusa qəbir qazaq.

Böyükləri bezdirib,
Haray-həşir salmayaq.
Hamımız evdə qalaq,
Ancaq bekar qalmayaq...

Yenə dərs başlayacaq,
O günlər deyil uzaq.
Dönəcəyik məktəbə,
Alnıaçıq, üzüağ...

**06.04.2020**

## ÇAĞIRILMAMIŞ QONAQ

Ehtiyatlı ol, bala,
Koronavirus gəlir.
Ağzını boş-boş açıb,
Çox danışma, sus, gəlir...

O, çox sırtıq qonaqdı,
Qətiyyən üz vermə ha!
Bircə kəlmə danışıb,
Dilinə söz vermə ha!

Sən öz sağlamlığının
Durmasan keşiyində,
İçəri girə bilər
O, açar deşiyindən...

Sabunla yu əlini,
Qoyma düşə ovcuna.
O, gədadı, şah deyil,
Aldanma ha tacına...

Qapını dost-tanış yox,
O taclı virus döyür.
Hey yalvarıb yaxarır,
Aç, qonaq gəlim, – deyir .

Dilə tutur hamını,
Deyir: –Yer verin qonaq!
– Öz kisəsindən yeyər,
Çağırılmamış qonaq...

Zərrəcə fərq də qoymur,
O, arvada, kişiyə.
İçəri girsə, bizi
Salar yorğan-döşəyə.

Qoymayın heç qapıdan
Onun həniri gəlsin.
İçəri buraxmayın,
Küçədə qalıb ölsün!

**07.04.2020**

## VİRUS QOŞUNU VƏ ŞƏFQƏT ORDUSU

Gəlir virus qoşunu,
Qorunasan sən gərək!
Elə bil döyüş gedir,
Evlər dönüb səngərə.

Aldansaq bu sükutun,
Səssizliyin səsinə,
Küçədə tuş gələrik
Biz virus gülləsinə....

Ön cəbhədə həkimlər
Gecə-gündüz döyüşür!
Onlar xəstə dünyanın
Havasını dəyişir...

Təkcə özünüzü yox,
Siz onları düşünün!
Bir az da artırmayın
Həkimlərin işini....

Küçələrə çıxmayın,
Söyləyirəm son kərə!
Böyüklərin sözündən
Çıxmayasan sən gərək!

Havadan çəkiləndə
Barıt, kükürd qoxusu...
Qorxunc, taclı virusun
Gələcəkdir yuxusu...

Əgər səbrli olsaq,
O, bezəcək bəlkə də,
Çəkib öz qoşununu,
Çıxacaq bu ölkədən...

**09.04.2020**

## YARASA VƏ İŞIQ

Bir heybətli qara quş
Uçub gəlir Ufandan.
Bizi Allah qorusun,
Fəlakətdən, tufandan...

İstəyir ki, həmişə
Gecə olsun yarasa...
Yoluxdurmaq istəyir,
O, hamını virusa.

Əldən-ayaqdan gedir
Qaranlıq olsun deyə.
İşıq bu yer üzündə
Bir anlıq olsun deyə.

Səhər açılan kimi
O, yer tapmır özünə...
Gün çıxanda şəfəqlər
Şiş tək batır gözünə...

Dünya işıqlı olsa,
Neyləyəcək yarasa?-
Al günəş yarayacaq
İşimizə yarasa...

**10.04.2020**

## QƏRİB YAZ

Qorxunc virusa
Sinə gəribdir. –
Bu il gələn yaz
Sanki qəribdir...

Dağlara gedən
Yollar bağlanıb.
Çəmən ananın
Köksü dağlanıb. –

Tənha yaşamaq
Ağırdı, ağır...
Dağlar, dərələr
Yollara baxır...

Gül-çiçək ətri
Tutsa da düzü,
Çəmən ananın
Yol çəkir gözü...

Getmir kolların
Gözünə yuxu...
Düzlər təklikdən
Üşənir, qorxur...

Burda hər yana
Gül ələnibdir.
Ləçəklər şehlə
Siləlvalnibdir.

Güllü yamaclar
Yollara baxır...
Ləçək gözlərdən
Soyuq şeh axır...

Bu qədər gülü
Neyləyir çəmən?
Sanki dil açıb
Söyləyir çəmən:

– Nə bir böyük var,
Nə bir uşaq var.
Tənha qalmışıq,
Belə yaz olar?

Gəlib heç bizi
Yoxlayan yoxdu.
Güllərimizi
Qoxlayan yoxdu...

Bu qara yellər
Hayandan əsib?
Virus qorxusu
Yolları kəsib...

Beləymiş bizim
Alın yazımız.
Bir yaz olmadı
Bu il yazımız...

Dağın başını
Buludlar alıb.
Ümidlər təzə
Bahara qalıb...

**15.04.2020**

## NƏHƏNG, SEHRLİ ARI

Çiçəklərin canına
Düşüb qorxu, vəlvələ.
Bu boyda nəhənğ arı
Heç kəs görməyib hələ.

Necə ona yalvarıb,
Deyək bizdən şirə çək?!
Sancağına dözərmi
Bu arının hər çiçək?

Quşlar da bu arını
Dimdikləməyə qorxur...
O gələndə hamısı
Qorxub havaya qalxır. –

Onu göydə görəndə,
Qartal da tir-tir əsir.
Məhəl qoymur heç bizə,
Görən hara tələsir?

Qorxmayın, ay çiçəklər,
Şükür, Allaha şükür!
Bu arı bal çəkmir ha,
Bu arı şəkil çəkir...

Uçur belədən-belə,
Ayrı işi var onun. –
Gözündən
tük də qaçmaz,
Bu sehrli arının...

Elə bil ovcundadır,
İnsanların dağ, dərə. –
Onlar nəzarət edir
Dronla göydən yerə...

**13.04.2020**

## SUYUN NƏĞMƏSİ

Buluda qoşulub,
göylərdə dolandım.

Mən yağıb, yerlərin
Tozuna bulandım,

Tərtəmiz su idim,
bulandım, bulandım...

Bir arxa qoşulub
bostana yollandım,

Tağların başına
dolandım, dolandım...

O yana, bu yana
axmaqdan yoruldum,

Qayadan süzülüb,
duruldum, duruldum.

Dostlara qoşulub,
gur oldum, gur oldum...

Çarxları fırladıb,
nur oldum, nur oldum...

Dünyaya təzədən
vuruldum, vuruldum...

**16.04.2020**

## GÖR-GÖTÜR

Həyat sınaqdır, sınaq,
Qıymayın ki, biz sınaq.

Təbiətin sirrini,
Gərək anlayaq, qanaq.

Hərənin öz dərdi var,
Nəyə lazım bu qınaq?

Sən köksünü az ötür,
Yaxşı şeydir gör-götür.

Heç bir quş heç bir quşu
Qəbul etmirsə qonaq,

Nə haqq ilə biz uçub,
Özgə yuvaya qonaq?

**19.04.2020**

## HAMI ÖZÜ OLANDA

Öz yeri var baharın,
Yayın, payızın, qışın.
Nəğməsini oxumaz,
Bir quş, başqa bir quşun...

Bir çıçəyin qoxusu
Başqasına bənzəməz...
Özün ol, başqasıyla
Heç vaxt etmə bəhsabəhs...

Üşüyəni səsləyir,
Ocaq – közü olanda...
Dünya bənzərsiz olur,
Hamı özü olanda...

**23.04.2020**

## TƏYYARƏDƏ SÖHBƏT

Təyyarədən aşağı bax,
Gör nə qədər bulud var!
Qarlı düzü xatırladır
Bu qalın, sıx buludlar!

Adam lap həvəsə düşür,
Onlara göz qoyunca.
Düşüb buludun üstünə
Bir gəzəsən doyunca!

– Elə yaxşıca qoyasan
Gildir-gildir ağlaya!
Buludun nə gücü var ki,
Bizi göydə saxlaya!

**07.08.2018**
**Moskva**

## BULUDUN ALTI VƏ ÜSTÜ

Yarıb qalın buludları
Təyyarə enir aşağı.
Biz yerə yaxınlaşdıqca,
Öləziyir gün işığı...

Bu mənzərəni görüncə
Bir-birimizə baxışdıq.
Buludun üstü günəşli,
Buludun altı yağışlı...

**07.08.2018**
**Moskva**

## KƏPƏNƏK MUZEYİNDƏ

Yaşadığım şəhərdə
Kəpənək muzeyi var.
Atam dedi: – Babanı,
Fateh, sən ora apar!

Kəpənək muzeyinə
Getdim babamla birgə.
Növbə gözləyirdilər
Adamlar cərgə-cərgə...

Biz də bir az gözləyib,
Axır muzeyə girdik...
Burdakı çiçəkləri,
Kəpənəkləri gördük...

Ora-bura uçuşan
Kəpənəklər qəşəngdi.
Onların qanadları
Gör necə rəngbərəngdi...

Babam dedi: – Ay bala,
Tamam düşdüm həvəsdən.
Burda kəpənəyi də
Saxlayırlar qəfəsdə...

Qayıt gəl kəndimizə,
Gedək çölə-çəmənə.
Əsl kəpənəkləri
Göstərərəm mən sənə...

Heç bilirsən kəndimiz
Necə gözəl, qəşəngdi?!
Kəpənəyin məskəni
Çəməndi, biçənəkdi…

**13. 08.2018**
**Los Anceles**

## AZAN GÜLÜ

Eşidib, haqqa dönür
Yolundan azan, səsi.
İnsanı doğru yola,
Çağırır Azan səsi.

Yerdə, göydə nə varsa
Möcüzədir, möcüzə...
Qəlbdə iman olanda
Çöl-çəmən gülür üzə.

Adam gözəllik görüb,
Vurulur təbiətə.
Dünyanı dərk edəndə
İnsan gəlir heyrətə.

Azan nura səsləyir
Zülmətdə azan gülü.
O səsi eşidəndə
Açılır Azan gülü...

**27.02.2020**

## DALĞA YELPİKLƏR

Yayda əsəndə
Cənub küləyu,
Yandırıb yaxır
Otu çiçəyi...

Nəsə çatışmır
Sanki havada.
Birtəhər olur
Bürküdən adam...

Xəzri əsəndə
Xoş nəfəs gəlir.
Ürəyimizə
Min həvəs gəlir.

Bəyaz dalğalar
Sərinlik yayır...
Gözəlləşdirir
Elə bil yayı...

Külək dənizi
Gətirir coşa!
Hər dalga dönür
Bir nəhəng quşa!

Sərin havanı
Bizə yetirir.
Qanadlarında
Həyat gətirir...

Oy, bu dənizdə
Nə çox dalğa var!
Yelpiyə dönüb
Ağ-ağ dalğalar!

**12.10.2018**

## BULUD, KÜLƏK,
## YAĞIŞ VƏ GÜNƏŞ

Bulud sanki ələkdi,
Ələkçi bu küləkdi…

Nə durmusan, ay külək,
Buluddan yağış ələ!

Çəməndə yallı getsin,
Güllər verib əl-ələ…

Daha bəsdi, ay bulud,
Göydə qalmağı unut!

Səpildin olub yağış,
İndi elə yır-yığış…

Mane olma işığa,
Qayıt komana yığış…

Göydə günəşə yer ver,
Yerdə gülləri yaşat!

Boşaltmısan yükünü,
İndi də göyü boşalt…

Qoy yenə nur ələnsin,
Düzlər gülə bələnsin!

İncimə ha, ay bulud,
Giley-güzarı unut!

Get uzan, bir az dincəl,
Sonra yenə qayıt gəl!

Gün buxar yaratmasa,
Sən bir yolluq ölərsən.

Gözlərin yaşaranda,
Yenə göyə gələrsən…

Çəmənlərə, düzlərə
Yağış payı bölərsən…

**24.04.2020**

## HİRSLİ KÜLƏK

Hirsli külək hər şeyi
İstəyir ki, dağıda.
Üç-dörd gün belə əssə,
O, aparar dağı da!

**25.01.2019**

## SEL

Damlalardan yarandım,
Dəli-dolu seləm mən!
Gərək bu hasarları
Yer üzündən siləm mən.

Siz məni qınamayın
Nəyisə aparanda...
Yeri oyub, ağacı
Kökündən qoparanda...

Suyum çoxalan kimi
Cövlana qalxmalıyam.
Axı məndə nə günah,
Axmalı,
axmalıyam...

Yamacları oyuram,
Hasarları dəlirəm.
Qaçın,
tez olun,
qaçın! –
Gəlirəm ha,
gəlirəm...

Şığıyıram quş kimi,
Yoxdu başqa əlacım.
Ya bənd vurun önümdə,
Ya da mənə yol açın...

**12.05.2020**

## SULU QAR

Bəyaz rəngə bürünsun,
Bu dağlar, – istəyirəm!
Neynirəm sulu qarı,
Susuz qar istəyirəm!

Ay qış, bizə qar gətir,
Gözlərimiz sevinsin...
Dağlarımız sevinsin,
Düzlərimiz sevinsin!

Bir gör biz neçə ildi
Həsrətik qar üzünə?
Niyə bu qədər yerdə
Yer tapmır qar özünə?

Gözləri yolda qoydu
Nə qədər məhsulu qar.
Ağarmaq istəyənə
Neyləyəcək sulu qar?

Ay qış, sən necə qışsan,
Qarın yağırsa sulu,
Şaxtan, çovğunun yoxsa,
Sən çıx get üzü sulu!

**20.02.2019**

## QIŞ GƏLİR

Yaxın edib uzağı,
Uzaq edib yaxını, –
Dünyanın o başından
Gələn hava axını...

Neçə gündür yol gəlir,
Qoşulub küləklərə...
Dişlərini ağardır
Qış zərif çiçəklərə...

Havada vurnuxan qış
Ucadan yerə baxır.
Elə bil isti yerə
Qədəm basmağa qorxur...

Göydən asıla  qalıb,
Qar sovura-sovura...
Qorxur torpaq sac kimi
Ayağını qovura...

Qış ilk addımlar atır,
Mat qalır adam ona.
Əvvəlcə qədəm basır
Binaların damına...

Sonra ikinci qədəm, –
Bələnib maşın qara.
Yolmu getmək istəyir
O, minib maşınlara?

Küləyin qanadında,
Qar gəlir, yağış gəlir.
Ağardacaq hər yanı,
Qış gəlir e, qış gəlir...

**09.02.2020**

## AĞ AYI

Gedir o baş, bu başa,
Sən bu ağ ayıya bax!
Qar üstə yaşamaqdan,
Rəngi olub ağappaq.

**17.10.2019**

## YUMURTA RƏNGLİ DÜNYA

Bəmbəyaz yumurtadan
Çıxıb balaca cücə.
Baxdı dörd bir tərəfə,
Dünya gözəlmiş necə!

Qış şahlıq taxtındadı,
Bir bu gözəlliyə bax! –
Cığırlar, yollar itib,
Dağlar, düzlər ağappaq.

Cücə xəyala dalıb,
Döndü xoşbəxt bir quşa:
– Yumurta rəngindəymiş
Bu dünya başdan-başa!

**17.10.2019**

## HƏĞMƏ AĞACI

Bu, adi ağac deyil,
Bağımızın tacıdı...
Burdakı ağacların
Hamısından ucadı....

Onun budaqlarında
Meyvə yox, "yuva bitib".
Yarpaqlar arasında
Gizlənib, yuva itib...

Səhər açılan kimi
Quşlar verir səs-səsə.
Dinləyib bu nəğməni
Adam gəlir həvəsə.

Köksümdə tir-tir əsən
Ürəyim də quş olur...
Budaqda cəh-cəh vuran
Bülbüllərə qoşulur...

Göydən gələn incə səs
Hər dərdin əlacıdı...
Bu, adi ağac deyil,
Bir nəğmə ağacıdı...

**23.04.2020**

## MEŞƏ QUŞUNUN HƏĞMƏSİ

Bu meşənin quşuyuq biz,
Yoxdu, yoxdu əvəzimiz.
Dimdikləməklə tükənməz
Əzgilimiz, üvəzimiz...

Çiçəkləri iyləyirik,
Sizə salam söyləyirik,
Gözü toxuq, neyləyirik,
Axı qızıl qəfəsi biz?

Sıx duman olsa da pərdə,
Sala bilməz bizi dərdə,
Tükənərmi belə yerdə
Mahnı ötmək həvəsimiz?

**13.05.2020**

## QƏFƏSDƏ İKİ BÜLBÜL

Bülbül dedi bülbülə:
– Düşdüyümüz bu qəfəs,
Nəğmə oxumağa da
Bizdə qoymayıb həvəs...

Ancaq buna da şükür,
Bir yerdəyik səninlə!
Sən oxu mən dinləyim,
Mən oxuyum, sən dinlə!

Qəfəsdə tək qalanda
Canımdan usanıram.
Bir yerdəyik, özümü
Azadlıqda sanıram...

**16.05.2020**

## SƏS VƏ ƏTİR

Gül dedi ki, bülbülə
Dost sansalar da bizi:
Səsinin ətri yoxdu,
Ətrimin yoxdu səsi...

İnsanı cəlb eləyir,
Gözəl səs, gözəl qoxu.
Gəl qon mənim şaxıma,
Sonra cəh-cəh vur, oxu...

**23.04.2020**

## İŞIQ NÖVBƏTÇİSİ

Hər ulduz bir işıqdır,
Nurunu say gecənin.
İşıq növbətçisidir
Elə bil ay gecənin…

**02.07.1975**

## DƏLİSOV AT

Bu dəlisov, xam atı
Necə tutum iplə mən?
Yerlə, göylə əlləşir
İpləmədi, ipləmə...

Girmir isti tövləyə,
Çölü çovğun, qar alıb.
Elə buna görə də
Qış boyu çöldə qalıb...

Yetənə şıllaq atır,
Yem verəcək kim ona?
Sözə baxmır, həsrətdi
Bu at arpa-samana.

O, qorxur qurddan-quşdan,
Hürkür qaratoyuqdan.
Qalıb qarın altında,
Sitildəyir soyuqdan.

Başı cilova, beli
Yəhərə həsrət qalıb...
Azad gəzmək istəyi
Onu çöllərə salıb...

**13.04.2020**

# UŞAQ GÖZÜ, UŞAQ SÖZÜ

## ŞƏKİLDƏKİ UŞAQLAR

Uşaq şəkilləridi
Bu mənzilin bəzəyi.
Bir qarıyla, bir qoca
Onları əzizləyir...

Dilini bilən olsa,
Şəkillər də danışır.
Onlar kitab rəfində
Düzülüblər yanaşı.

Şəkildəki uşaqlar
Bir-birinə oxşayır.
Şəkillərin içində
Xoşbəxt anlar yaşayır...

De,
onların önündən
Necə laqeyd
keçim mən? –
Atası ilə oğlu
bir boyda,
bir biçimdə...
Məni duyğulandıran
Həyatın mənasıdı.

Heç kəs
deyə bilməz ki,
Şəkildəki bu uşaq,
o biri şəkildəki
uşağın anasıdı...

Uşaqlıqları kimi
Özləri də qayıtmır...
Şəkildəki uşaqlar
Yanğımızı soyutmur.

Bu da belə həyatdı,
Günümüzə buyur bax!
Çox müşkül məsələdi,
Şəkilləri buyurmaq...

Dikilib uzaqlara,
Yol çəkən gözlər dolur...
Şəkildən nə oğul, qız
Nə də ki, nəvə olur...

Ancaq gözəldi ömrün
Qışı da, baharı da...
Şəkillər də xoşbəxtdi,
Elə onlara baxan
Qoca ilə qarı da...

**11.06.2020**

## VARMI ÇAYIN AYAĞI

Araz Kürün qoludu,
Həkəri də Arazın...
Yenə nəsə düşünür,
Üzünə bax Arazın...

İstəyir ki, hər şeyi
O, axtarıb arasın.
Ona görə kəsilmir
Sualların arası:

– Baba, çayın qolu var,
Bəs yoxdu ayaqları? –
Yamanca gülmək tutdu
Evdəki uşaqları...

Araz pərt oldu bir az,
Hamı ona gülüşdü...
Baba tez nəvəsinin
Köməyinə yetişdi.

Göz vurdu uşaqlara:
– Gülməyin boş-boşuna.
Balamın bu sualı
Gəldi mənim xoşuma.

Heç kim onun sözünü
Qəribliyə salmasın.
Çayın qolu olursa,
Qıçı niyə olmasın?!

Bu yer, göy möcüzədi,
Adam heyrətlə baxır.
Dağda çaylar kükrəyir,
Düzənlərdə lal axır...

Axışından bilinir
Su dayazmı, dərinmi?
Çay elə bərk "qaçır ki",
Ayaqları görünmür...

Ağıllı nəvələrim,
Qınamayın Arazı.
Qoy həmişə düşünsün,
Qoy həmişə arasın!
Verdiyi sualların
Kəsilməsin arası...

**13.04.2020**

## SEHRLİ PİLLƏLƏR

Pillə-pillə rəflərdə
Düzülüb qatar-qatar.
Elə bil ki, sehrli
Pillələrdi kitablar.

Onlarla qalxmaq olar
Göyün yeddi qatına.
Ancaq kitab qoyulmaz
Ayaqların altına...

Bu pillələri yalnız
Gözlərlə qalxmaq olar...
Hikmət mərtəbəsinə
Sözlərlə qalxmaq olar...

**30.04.2020**

## ŞİRİN BABA

Bu kişi heç yorulmur,
İşləyir gündüz-gecə? –
Gözü kompüterdədi,
Yazır, çay içə-içə...

Babam şirindir, şirin,
Başı yaman qarışıb.
Onun iş masasına
Qarışqalar darışıb...

**23.04.2020**

## EVİN YARAŞIĞI

Yenə tör-töküntüdü
Babamın iş otağı.
Nənə, yır-yığış elə,
Belə ev olmaz axı…

Səliqə-səhman ilə
Yox işi bu kişinin.
Elə oxuyur, yazır,
Fikrə gedir, düşünür...

Yazıq kitabları da
Qoymur ki, qala rəfdə.
Səpələnib qalıbdır
Hərəsi bir tərəfdə…

Nənəm gülür: – Su içmir
Sənin babandan gözüm.
Yır-yığış etsəm, gərək
Yır-yığış edəm özüm…

Qəti narahat olma,
O da belə adamdı.
Bu evin yaraşığı
Elə sənin babandı...

**03.05.2020**

## "EVDAR KİŞİ"

İşə gedə bilmirəm,
Evdə bərk darıxıram.
Mənə bir söz deyəndə
Lap özümdən çıxıram.

Deyinirəm: – Nə qədər
Evdə oturmaq olar?
İşim tökülüb qalıb,
Nə pis gəldi bu bahar?

Nəvəm mənə sataşır,
Gülür, ağarır dişi:
– Nənəm evdar qadındı,
Sən də ol evdar kişi...

**12.04.2020**

## BABANIN SAQQALI

Nəvəm bicin biridi,
Qulp qoyur hər sözümə.
Zarafatı xoşlayir,
Lap bənzəyir özümə.

Deyir: – Baba, nə olar
Sən məni pərt eləmə!
Üzümə üz söykəmə,
Üzünü sürt belimə!

Qoymur ki, dil boğaza,
Sözünə bax naqqalın:
– Yaxşı bel qaşıyandı
Baba, sənin saqqalın!

**15.07.2018**

## NƏNƏM VƏ PLANŞET

Öpüb onun üzündən,
Sonra sıxdım sinəmə.
Köhnə planşetimi
Bağışladım nənəmə.

İmkan da vermədim ki,
Nəsə məndən soruşsun.
– Təqaüdə çıxmısan,
Oynat, başın qarışsın!

Nənəm güldü, sevindi
İşıq gəldi gözünə.
Yaxşı əyləncə tapdı
Ahıl vaxtı özünə...

Girişib planşetə,
Orda oyunlar çoxdu...
Ta mənə: "Telefonla
Az oyna", – deyən yoxdu...

**16.03.2020**

## NƏNƏM

Maqnit tək hamımızı
Dövrəsinə cəm edir...
Nağıllara inanır,
Nənəm uşaq kimidir...

Evdə səs-küy salanda,
O, qasırğa qoparır.
Şirin nağıl danışır,
Bizi yuxu aparır...

Bir də ayılırıq ki,
Yaman qarışıb başı.
Mətbəxdə unutduğu
Çaydan qaynayıb daşır...

Elə nənəm özü də
Qayır-qayır qaynayır.
Bizi yuxuya verib,
Planşetlə oynayır...

**23.04.2020**

## "OLMAZ NƏNƏ"

Nənəmin anası var,
Anamın nənəsi var.
Məni danlamaq üçün
Onun çox həvəsi var...

Deyir: – Bu hərəkətlər,
Yaraşarmı boyuna?
Elə dur, belə otur,
Telefonla az oyna!

Mənə deyir ziyandır,
Özü şokolad yeyir.
Nəyə əl uzadıram,
"Əl vurma, olmaz", – deyir.

Arabir cırnadıram
Bu deyingən qadını.
"Olmaz nənə" qoymuşam
Mən də onun adını...

**14.06.2020**

## QUŞLARIN RESTORANI

Baba, bu zibilliyə
Gör nə qədər quş gəlib!
Zibilxana onlara
Niyə belə xoş gəlib?

Dimdiklər işə düşüb,
Dənlənir düyü, xardal!
Ac olana qidanın
Hər tikəsi baldı, bal.

Ac olanda qorxu da
Dönə bilmir əngələ.
İpiti dimdiklərin
Bənzəri var çəngələ.

Dimdiklər işə düşüb,
Qida tükənən deyil.
Zibillik quşlar üçün
Restorandı elə bil...

**13. 08.2018,**
**Los Anceles**

## ZÜRAFƏ HEYKƏLİ

Nəvəm heyvanxanada
Zürafəyə hey baxdı.
Hündürdən görsün deyə
Mənim çiynimə qalxdı.

Dilini dinc qoymadı, –
Gör Fatimə neylədi?
Nə isə fikirləşib,
Gülə-gülə söylədi:

– Ay baba, zürafəyə
Heykəl qoysalar əgər,
Bir az da hündür olar,
Başı buluda dəyər!

**26.08.2018**
**Los Ancelec, Venis**

## KƏLBƏTİN DİŞLƏR

Mənim iti dişlərim
Elə bil kəlbətindi.
Bilən bilir, onlardan
Xilas olmaq çətindi...

Dişlərim işə düşüb,
Dağıdıram, sökürəm.
Bir-bir qarğıdalının
Dişlərini çəkirəm...

**20.06.2018**

# CIRCIRAMA

– Gün çıxanda coşursan,
Oxuyursan yamanca…
Düşmür sümüyümüzə,
Sən çaldığın kamança…

Qulağına xoş gəlir
Deyəsən öz cırıltın.
Ay cırcırama, bəsdi
Qulağımız cırıldı!...

– Heç görmüsən sərində
Cırcırama oxuya?
Hava soyuyan kimi
Biz gedirik yuxuya.

İstilər düşən kimi
Edirik “cır-cır”, amma,
Boğazını boş yerə,
Yırtarmı cırcırama?

Bil ki, havayı deyil
Eşitdiyin cırıltı.
Günəş bizi qovurur,
Biz istidən cırıldıq...

– Bəsdi, bir az oxuma,
Başıma düşüb səsin!
Sənin boğazın, bizim
Qulağımız dincəlsin!

**21.07.2019**
**Bodrum, Torba**

## HƏYAT VƏ SAATSAZ

Saatsazın yanına
Gedib söylədi Həyat:
– Mənim saatım yatıb,
Onu yuxudan oyat!

**16.10.2019**

## DONDURMA NÖVBƏSİ

İstirahət evində
Hamı olub ərəsən.
Növbəyə bax, növbəyə,
Nə verirlər görəsən?

Uşaqlar intizarla
Düzülüblər sıraya.
Qoymazlar ki, növbəsiz
Kimsə girsin araya!

Bu kiçik uşağa bax,
Gedir əldən-ayaqdan!
Neçə dəfə növbəyə
Dayanıb o, bayaqdan.

Boğazı bərk ağrıyır,
Qalsın bunu andıra!
Dondurma istəyini
Kimsə çətin dondura!

Ağzını marçıldadıb,
Dondurma yeyə-yeyə,
Gözü doymur, yenidən
Dayanıb o, növbəyə!

Toxtaqlıq verə-verə
Deyir: – Hələ vaxta var!
Yəqin ki, bu dondurma,
Növbəm çatınca çatar!

**25.07.2019**
**Bodrum, Torba**

## ŞİRİNİN "ACI" CAVABI

– Söylə görüm, Şirin, sən
Niyə belə şirinsən?
– Baba, min yol demişəm,
Acı bibər yemişəm…

**17.11.2019**

## QORXAQ OĞLAN

Çəməndə arı gördü,
Tükləri biz-biz qalxdı...
Belə də oğlan olar,
Çox qorxaqdı –
Dızqaxdı...
Atası elə bilir,
Evdə kişi
böyüdür.

Belə də
qorxaq olar? –
– O, qorxmur e,
üyüdür...

**23.04.2020**

## ƏLLƏMƏ

Burun soxma hər işə,
Nə gördünsə,
əlləmə!
Yoxsa düşər başına,
Yekə bir daş –
əlləmə...

**13.04.2020**

***

Oy, nə qəşəng
güldü bu,
Mənə baxıb,
güldü bu...

**13.01.2020**

## GUPBUL

Dəmirçi istəyini
Elə bil  gupbul duyur.
O, enəndə zindana,
Hay salır, guppuldayır...

Ağırdı, gücün çatmaz,
Cubbulusan, cubbulu.
Bir-birinə tay tutma,
Sən çəkiclə gupbulu...

Onu qüdrətli edən
Tək qoldakı güc deyil.
Bənzəsə də çəkicə,
İridi, çəkic deyil.

Ağır olduğu üçün
Gupbul gupbultu salıb.
Elə buna görə də
Adı da gupbul qalıb...

**22.04.2020**

## ÇÖLDƏ QALAN GƏLİNCİK

Gəlinciyəm, gəllincik,
Düşmə məndən gəl incik!

Gecə çöldə qalmışam,
Külək əsirdi axşam.

Çirklənib üstüm-başım,
Pintiliklə yox aram.

Özüm yoluxmasam da,
Səni yoluxduraram...

Gəlmə, gəlmə yaxına,
Sən küsmə, köks ötürmə!

Məni təmiz yumamış,
Qucağına götürmə...

**14.06.2020**

## XIXI

Bu balaca oğlanın
Yoxdu qorxu-hürküsü,
Zırramdı, zırrama,
Çaşbaş qoyur hər kəsi...

Dedim çıxma ağaca,
Çıxıb, yerə yıxıldı...
Qanıb-qandıran deyil,
Xıxıdı bu, xıxıdı!

**22.04.2020**

# QUŞLAR DÜNYASI

## QARTAL

Havada qartala bax,
Çox razıdı özündən.
Heç nə yayına bilməz
Onun iti gözündən...

Buludların yanında
Qanad açıb süzür o.
Yerdə gəzənlərin də
Ürəyini üzür o...

Əks edir qayalarda
Onun qorxunc qıy səsi.
Ceyranları qorxudur,
Keçiləri hürküdür
Qanadının kölgəsi...

Qartala bax, qartala,
Buludlarla yarışır.
Göylər ona yaraşır,
O, göylərə yaraşır...

**21.06.2020**

# QIZILQUŞ

Qızılquş şığıyanda
Düşür nə kökə quşlar!
Özü kiçikdir, ondan
Qorxur yepyekə quşlar…

Məhv eləyir, dağıdır
Onun bircə çimdiyi.
Elə bil ki, neştərdi
Əyri, iti dimdiyi.

Elə ki o şığıdı,
Açıldı qızıl qanad,
İri-iri quşları
Boyayır qızıl qana.

Əlinin üstə qonan
Qızılquşdu, şahindi. –
Belə gözəl dostu var,
Öyünməsin şah indi?!

Bax ondakı vüqara,
Bax ondakı uçuşa.
Caynağından qurtarmaq
Qismət olmaz hər quşa…

**06.07.2009**

## QIRĞI

Baxma kiçikliyinə,
Qırğıdır, bu qırğıdır.
Cəldliyi, çevikliyi
Quşları çox qorxudur...

Aman verməz ovuna,
Yırtıcıdır, mətindir.
Güclü caynaqlarından
Qurtulmaq çox çətindir.

İri quşlar saymasa
Bu balaca qırığını,
Tükləri göyə uçar,
Düşər quşlar qırğını...

**21.06.2020**

## SƏRÇƏ

Sərçəkimilər çoxdu,
Ancaq sərçədən yoxdu.

Eşələnir, dənlənir,
Pırıldayır, şənlənir.

Gəzir həyət-bacada,
Cikkildəyir ucadan.

Başlasa sərçə xoru,
Səsdən özünü qoru!

Bir fit çalsan, uçar o,
Pırıldayıb qaçar o.

Köçməklə işi yoxdu
Yeri qar alsa belə.

O, çox dünyagörmüşdü,
Balaca olsa belə…

**13.11.2009**

## QARANQUŞ

Uzanmışam çəməndə
Seyr edirəm göyü mən.
Səmanın yaxasında
Elə bil ki, düyməsən.
İlk bahardan güc alıb,
Ay göylərə ucalıb,
Həzin cəh-cəh vuran quş, –
Qaranquş.

Bizə qonaq gələndə
Bunu unutma barı:
Elə bil dimdiyində
Gətirirsən baharı.
Civiltili səsiylə,
Öz bahar nəfəsiylə
Əhvalımı soran quş, –
Qaranquş!

**1969**

## BÜLBÜL

Bülbül öz nəğməsiylə
Sevənləri səslədi.
Paxıllıqdan yananlar
Ona nifrət bəslədi.

Gölməçənin içində
Qurbağa quruldadı.
Boğazını yırtaraq,
Boz qarğa qarıldadı.

Axır ki, yoruldular,
Səslərini kəsdilər.
Nəğməkar quşcığazda
Ayrı nöqsan gəzdilər.

"Həmişə belə getməz,
İşi yaman fırıqdı.
Səsinə aldanmayın,
Onun zatı qırıqdı." –

Qarğa bütün quşlara
Bülbülü çox pislədi:
– Adı bülbül olsa da,
Nəsli sərçə nəslidi…

## BÜLBÜL

Bülbül cəh-cəh vuraraq
Gül budağına qondu.
Elə bil o, müğənni,
Qızılgül mikrafondu...

## SARIBÜLBÜL

Sarıbülbül, sən ötəndə
Biz susuruq fağır-fağır.
Səsin necə yanıqlıdı,
Sanki sarı simdən çıxır...

Gözəl olanın heyf ki,
Qızıl qəfəs qorxusu var...
Səsində də, rəngində də
Sonsuz həsrət qoxusu var...

Oxudun, şam tək əridim,
Sarıbülbül, sarıbülbül.
Qəlbi kövrək olanlara
Rəhmin gəlsin barı, bülbül...

**18.07.2020**

## SEYRƏBÜLBÜL

Yenə çıxıb seyrə bülbül,
Yaraşıqlı seyrəbülbül...

Göz gülür onu görəndə
Uca budaqlar üstündə...
Elə bil göyqurşağıdı, –
Nə rəng desən, var üstündə...

Gözəlliyiylə bəzəyir
Mənim yurdumu, ölkəmi.
Kiminin gözəl səsi var,
Kiminin gözəl görkəmi...

**17.07.2020**

## PAYIZBÜLBÜLÜ

Payızbülbülü, sənin
Adını kim qoyubdur?
Şirin nəğmələrindən
Görəsən kim doyubdur?

Görəndə bənövşəni
Ətir qoxumursanmı?
Söylə, payızbülbülü,
Yazda oxumursanmı?

Təki yemin bol olsun,
Təki kefin saz olsun.
Bülbül elə bülbüldür –
Payız olsun, yaz olsun…

**08.10.2010**

## ALACƏHRƏ

Cəhrə kimi fırlanıram,
Elə bilmə cəhrəyəm.
Bilmirəm heç kim ad qoyub
Mənə, alacəhrəyəm.
Baş açmıram heç adımdan,
Bəlkə ala çöhrəyəm?

## ADIM ALACƏHRƏDİ

Adım alacəhrədir, –
İpim var ki, əyirəm?
Səhərdən axşamacan
Sizə nəğmə deyirəm.
Oxuyuram beləcə,
Sözlərimi dinlə bir.
Əyirdiyim nəğmədir,
Mən də belə cəhrəyəm.
Adım alacəhrədi,
Özüm ala çöhrəyəm…

## ARIQUŞU

Vızıltıyla uçub getdi
Görən kimi arı quşu.
Zərərverən cücülərə
Divan tutdu arıquşu…

Sonra dedi ki, sən mənə
Bənzətmə hər ayrı quşu!
Arı tək zəhmətsevənəm,
Adım qalıb arıquşu…

Başım qara, döşüm sarı,
Gözlərimin altı dümağ.
Elə bil ki, qalstukdu
Sinəmdəki qara zolaq.

Böcəyə yaxşı bəllidir
Mənim dimdiyimin gücü.
Qarşımda çətin dayana
Bir həşərat, cücü-mücü…

**21.04.2009**

## HÖRÜCÜ

Hörücü quş, hörücü quş,
Yuvan bənzəyir fincana.
Verdiyin meyvə tumuyla
Balaların gəlir cana.

Hörücü quş, hörə-hörə
Çevrilmisən hörücüyə.
Dimdiyindən heç nə qaçmaz,
Qənimsən cücü-mücüyə.

Hörücü quş, hörücü quş,
Sən hörürsən, toxuyursan.
Səsin qəlbimi oxşayır, –
Bülbül kimi oxuyursan…

**08.10.2010**

## BİRƏBİTDƏN

Birəbitdən, balacasan,
Elə bil ki, şabalıdsan.
Yeyəndə cücü-mücünü
Sən onları şabalıd san!

Birəbitdən, çıx get bağdan,
Səni görsə, gülər meyvə.
Özünü ver pöhrəliyə,
Orda çoxdu giləmeyvə.

Belə kiçik quşmu olar,
Birəbitdən, birəbitdən?
Bir az böyü, bir az kökəl
Yeyib dadlı birə-bitdən.
Dörd yanı cücü-mücüdən
Sən təmizlə bitdə-bitdə…

**08.10.2010**

## TORAĞAY

Yenə də yaz gəlibdir,
Güllər ətir qoxuyur.
Torağaya baxın bir,
Necə qəşəng oxuyur!

Başında kəkili var,
Nazlı-nazlı səkir o.
Taxıl zəmilərinə
Sanki keşik çəkir o.

Əcəb quşdu, siz onu
Görməzsiniz budaqda.
Gizlənməyi asandı,
Heç seçilmir torpaqdan.

Onun sevdiyi fəsil
Bir bahardı, bir də yay.
Ağacda yox, torpaqda
Yuva qurur torağay.

Dimdiyindən yayınmaz,
Bircə cücü, bircə dən.
Əfəl görünsə belə,
Diribaşdı sərçədən.

Hava soyuyan kimi
Dəstə ilə uçur o.
Qış qapını almamış
Baş götürüb qaçır o.
Təzə bir yurd seçir o,
İsti yerə köçür o.

Qaldı gələn bahara
Torağayın gəlməsi.
Ancaq qulağımızdan
Getmir onun nəğməsi…

**20.01.2010**

## QARQUŞU

A qarquşu, qarquşu,
Hər kol-kosun var quşu...
Adında "qar" olsa da,
Özün sevmirsən qışı...

Yaraşıqlı qamətin
Bir rəng alıb hər güldən.
Köksün seçilmir sənin
İtburnudan – dərgildən...

Sən öz ğözəlliyinlə
Meşəni bəzəyirsən...
Qar üstündə qırmızı
Bir gülə bənzəyirsən.

**19.06.2020**

## ODQUYRUQ

– Ay odquyruq, odquyruq
Bizim üçün nə buyruq?

Görəndə forslanma ha
Nərgizi, bənövşəni.
Bir az ehtiyatlı ol,
Yandırarsan meşəni...

– Məzən olsun, ay oğlan,
Gətir mənə pay, oğlan! –

Dən səp, yeyim doyunca,
Kənarda durmaq nədi?
Yaraşıqlı bir quşam,
Yanmaq, yandırmaq nədi?

Mən də deyirım hamı
Niyə məndən yan durur? –
Alov rəngli quyruğum
Nə yanır, nə yandırır...

**20.06.2020**

## QARATOYUQ

Sanki kol-kosa
Keşik çəkirsən.
Ora səkirsən,
Bura səkirsən.

Giləmeyvədən
Yeyib doyursan.
Səs eşidəndə
Qıqqıldayırsan.

Toyuq əfəldi,
Sənsə ayıqsan.
Qara toyuq yox,
Qaratoyuqsan…

Nəğmələrindən
Ləzzət alıram.
Sən oxuyanda
Heyran qalıram…

**13.11.2009**

## ÇİL QARATOYUQ

Yaraşığısan
Bizim çöllərin,
Ağ sinəndə var
Qara çillərin…

Ancaq öyünmə,
Çil qaratoyuq.
Sən öz yerini
Bil, qaratoyuq!

Nə qədər uçsan,
Qanad çalsan da,
Qaratoyuqsan
Çil-çil olsan da…

**13.11.2009**

## ZIĞ-ZIĞ

Yaraşıqlı bir quşsan,
Kəkillisən, qəşəngsən.
Tüklərin rəngbərəngdi,
Niyə alabəzəksən?

Nə üçün cığıldamaq
Gəlir sənin xoşuna?
Səs-küyün götürübdür
Bu meşəni başına.

Yoxsa cığıldayırsan
Gəlib səni görsünlər?
Bəlkə qəlbindən keçir
Sənə dən-su versinlər?

Onda niyə qorxursan,
Onda niyə qaçırsan?
Bir adam görən kimi
Qanadlanıb uçursan.

Niyə hay-küy salırsan,
Elə bil ki, dardasan.
Gizlənsən də, cığıltın
Xəbər verir hardasan…

**20.01.2010**

## ŞANAPİPİK

Alabəzək bir quşsan,
Pipiyin daraq kimi.
Darayırsan onunla
Saçlarını sən kimin?

# QUQU QUŞU

Yaxşı tanıyın bu quşu,
Kələkbazdı ququ quşu.

Çox gözəldi, çox qəşəngdi,
Sanki bir dəstə çiçəkdi.

Xallı-xallı, çil-çildi o,
Qanad çalan bir güldü o.

Ancaq bala çıxarmağa
Yoxdu zərrəcə həvəsi.

Ayrı quşun yuvasında
Yumurtlamağa tələsir.

Özgəni zəhmətə salır
Gələn bu "ququ balası".

Başqa yuvada "doğulub",
Yaşayır ququ balası.

Azadlığı sevir bu quş –
"Qıfıla, kilidə gəlmir".

Ona ana söyləməyə
Adamın dili də gəlmir…

**20.01.2010**

# SIĞIRÇIN

Mən bənzəri olmayan
Bir quşam, sığırçınam...
Qaratoyuq deyiləm,
Çil-çil, qırçın-qırçınam.

Dostuyam, sirdaşıyam
Çiçəklərin, güllərin.
Gün işığı altında
Parıldayır çillərim...

Sinəm həm qara, həm ağ,
Qanadları qonuram...
Giləmeyvəsi olan
Budaqlara qonuram...

Tutu dimdikləyəndə
Dönürəm qorxunc şirə.
Sanki çillərə dönüb
Üstümə düşən şirə...

Möhkəm ayaqlarımda
Elə bil var nər gücü.
Neştər tək dimdiyimdən
Qaça bilməz hər cücü...

**20.06.2020**

## AĞACDƏLƏN

Mən ağacları
Əzizləyirəm,
Cücülərini
Təmizləyirəm.

Tanıyarsınız,
Ağacdələnəm.
Kiçik olsam da,
Kara gələnəm...

## SARIKÖYNƏK

Nə həsrət ilə
Baxırsan mənə?
Öz köynəyimi
Verərdim sənə.

Oğlan, incimə,
Axı neyləyim?
Çıxmır əynimdən
Sarı köynəyim.

## ÇOBANALDADAN

Baxma ki, balaca,
Kiçik bir quşam,
Bir vaxt çobanları
Çox aldatmışam.

Kələyim baş tutmur,
Batmışam qəmə,
Ancaq ki, sən mənə
Acizsən demə!

İndiki çobanlar
Deyil ki, nadan
Onları aldatsın
Çobanaldadan?!

## QAÇAĞAN

Yaraşıqlı bir quşam,
Bax ağ-qara qaşıma.
Yerdə gəzib ov etmək
Gəlir mənim xoşuma.

Göydə yaxşı uçsam da,
Ovu yerdə tuturam.
Dimdiyimə keçəni
Asanlıqla uduram.

Sizin Muğan düzünü
Gəzmişəm addım-addım.
Yaxşı uça bilsəm də,
Qaçağan qalıb adım…

**07.05.2010**

## HAÇAQUYRUQ

Ovu göydə edirəm,
Torpaqda nə işim var!
Qəpqəşəng qanadlarım,
Yaraşıqlı döşüm var.

Gözəldi boynumdakı
Qövsvari qara zolaq.
Çənəmin altındakı
Tüklərin rənginə bax!

Quyruqlarım haçadı,
Bunu görüb, duyublar.
Ona görə adımı
Haçaquyruq qoyublar.

Bu ki hörmətsizlikdi,
Dost-tanışlar pərt olub.
Quyruğuyla tanınmaq
Hamımıza dərd olub…

**07.05.2010**

## KƏKLİK

Qaqqıldayıb oxuyur,
Kəkliyə bax, kəkliyə.
Özü güldən qəşəngdi,
Giribdir çiçəkliyə...

Ayaqları xınalı,
Qanadı alabəzək.
Qupquru yamaclara
Gəlişi vurur bəzək…

Tülküyə bax, şöngüyüb,
Qulağını şəkləyib.
Kəklik çıxıb daşlığa,
Qayalar çiçəkləyib…

**22.10.2009**

## TURAC

Bənzəsəm də kəkliyə,
Mən turacam, turacam.
Yuvamın keşiyində
Ayıq-sayıq duracam.

Əli silahlılardan
Yaxşılıq gözləmirəm.
Həmişə yulğunluqda,
Kol-kosda gizlənirəm.

Yaraşıqlı bir quşam,
Mənə göz dikən çoxdu.
Ehtiyatlı olmaqdan
Başqa bir çarəm yoxdu…

Boynumda qonur zolaq,
Yaraşıqlı, çil-çiləm…
Zəminin ortasında
Elə bil ki, bir güləm…

**20.10.2009**

## QIRQOVUL

Xoşuma gəlmir mənim
Qışın qarı, qırovu...
Baharı çox sevirəm,
Qırqovulam, qırqovul.

Nə rəng desən var məndə,
Baxan heyrətdən donur: –
Qızılı, mavi, yaşıl,
Qırmızımtıl, ağ, qonur…

Tüklərim rəngbərəngdi,
Gözəllik çələngiyəm.
Quşların sevimlisi,
Quşların qəşəngiyəm.

“Qırmızı kitab”dayıq,
Ovçular bizdən qaçır.
Mən uçanda elə bil
Gül-çiçək qanad açır…

Ancaq ehtiyatlıyam,
Gündüz olsun, ya gecə.
Qorxuram ki, upuzun
Quyruğum ələ keçə…

**22.10.2009**

## BİLDİRÇİN

Tüküm sarı, qonur, ağ,
Gözəl görkəmimə bax.
Sanki rəssam işləyib,
Bədənim zolaq-zolaq…

Heç bilmirəm bu quşlar
Nə görüblər uçmaqda.
Mən uça bilməsəm də,
Çox mahirəm qaçmaqda…

Kəklikdən balacayam,
Heç bilirsən necəyəm? –
Toyuq yanında görsən,
Sanarsan ki, cücəyəm…

Ancaq bu belə deyil,
Cücə yox, bildirçinəm.
Məni görmək istəsən,
Biçinə gəl, biçinə…

Çox sevirəm zəmini,
Güllüyü, çiçəkliyi.
Darı sovuluncadı
Bildirçinin bəyliyi…

**23.10.2009**

## MEŞƏXORUZU

Ömür sürmüşəm
Hər vaxt  meşədə,
Mənsiz darıxar,
Bil ki, meşə də!
Mən genişliyi
Məkan seçmişəm.
Hara istəsəm,
Uçub getmişəm.
Meşədəkilər
Söküləndə dan,
Mənim səsimə
Qalxır yuxudan.
Demə kiçikdir,
Mən də böyüyəm.
Meşəbəyimiz
Olmayan zaman
Meşəbəyiyəm...

## GÖYƏRÇİN

Adım çəkilən kimi
Sevinir, üzlər gülür.
Qanadlanıb uçanda
Ürəklər, gözlər gülür.

Göyərçinəm, göyərçin,
Neçə cürə növüm var.
Hər parkda, xiyabanda
İsti yuvam –  evim var.

Həmişə insanların
Mənə baxanda gözü,
Ürəklərindən keçir
Sülh kəlməsi, sülh sözü…

Gülümsər baxışlarda
Elə bil ki, işıq var.
Məni sevir böyüklər,
Məni sevir uşaqlar…

**06.07.2010**

## ALABAXTA

Elə bil ki, dil açıb,
Danışır alabaxta.
Axı mənim nə işim
Adamlar gəzən bağda?

Gizlənirəm həmişə
Rahat, dalda guşədə.
Parkda, xiyabanda yox,
Yaşayıram meşədə.

Göyümtül quş olsam da,
Başım boz, boynum yaşıl.
Qırmızımtıl tüklərim
Parlayır işıl-işıl…

Boynumda ağ ləkə var,
Qanadımda ağ zolaq.
Pırıldayıb uçanda
Gözəl görkəmimə bax…

Göyərçindən həm böyük,
Həm də xeyli qəşəngəm.
Donum göyqurşağı tək
Boyanıb neçə rəngə…

Qınamayın uçanda
Mənə baxıb coşanı.
Gözəllər gözəliyəm,
Mənim kimi quş hanı?

**06.07.2010**

## QUMRU (QURQUR)

Yaraşıqlı bir quşam,
Layiqəm hər tərifə.
Göyərçindən kiçiyəm,
Göyərçindən zərifəm.

Dimdikləri ipiti,
Gözləri yumruyam mən.
Alabaxta deyiləm,
Qurquram, qumruyam mən.

Yer gəzirəm hündürdə
Rahat yuva qurmağa.
“Qur-qur” eləsəm belə,
Mən deyiləm qurbağa.

Üzməyi bacarmıram,
Gölməçədə yox işim.
Belim qonur rəngdədir,
Boz-çəhrayıdır döşüm.

Açıb qanadlarımı
Havada süzürəm mən.
Yaxşı uçduğum kimi,
Yaxşı da gəzirəm mən…

**06.07.2010**

## TOVUZ QUŞU

İndiyəcən mən onu
Görməmişdim yaxından.
Əlvan donu rəng alıb
Sanki göy qurşağından...

Yüz quşa dəyişmərəm
Onun bir lələyini.
Rəngiylə utandırar
Dağların çiçəyini.

Nə qədər yağır, yağsın,
Nə var tovuz quşuna; –
Quyruğunu qaldırıb,
Çətir edər başına...

## DANQUŞU

A dan quşu, dan quşu,
Oxuyursan uzaqda.
Özün görünməsən də,
Səsin getmir qulaqdan.

İsa – Musa quşu da
Söyləyirlər adına. –
İnsan olduğun günlər
Heç düşürmü yadına?

– İsa, tapdın?
– Musa, yox! –
Birdən qəlbim üşüdü…
Sən gecə oxuyursan,
Adınsa dan quşudu…

**19.04.2009**

## GÖYCƏQARĞA

Göycəqarğa, göycəqarğa,
Yaraşıqlı, göyçək qarğa.

Rəngin yaşıl, göy, narıncı –
Elə bil gül çələngisən.
Axı hayandan almısan
Bu qədər qəşəng rəngi sən?

Sanki hər yan gözəlləşir
Sən gələndə bizim bağa.
Bilmir hara uçub getsin,
Özünə yer tapmır qarğa…

Gözəlliyini görəndə
Həsrət çəkir qarğa özü.
Sənə zərrəcə yaraşmır
Adındakı qarğa sözü…

**07.10.2010**

## BALIQCIL ZƏRRİCƏ

Başına qarmı yağıb,
A balıqcıl zərricə?
Yaraşıqlı bir quşsan,
Nöqsanın yox zərrəcə…

Bircə göz qırpımında
Balıqları tutursan.
Çeynəməklə aran yox,
Diri-diri udursan.

Elə ona görə də
Adın qalıb balıqcıl.
Sanki balıq yeyəndə
Üstünə səpilib pul…

Başında ağ çillər var,
Belin göy, döşün sarı.
Yolunu gözləyirik,
Uçub gəl bizə sarı…

**07.10.2010**

## QIZLARQUŞU

Qanad çalıb göylərdə
Uçanda qızlarquşu,
Gözəlliyi önündə
Gedir qızların huşu.

Tükləri rəngbərəngdi,
Belə gözəl quş olar?
Qanadı olsa, insan
Uçub ona qoşular...

Bu quşları gül sanıb,
Arı uçsa yaxına,
Gərək aləm yığışa
Fəğanına, ahına!

Sanmayın mehribandı,
Səmimidi bu quşlar,
Bal çəkən arıların
Qənimidi bu quşlar…

**08.10.2010**

## AĞSİNƏ QIRMIZIDİMDIK

Ağsinə qırmızıdimdik,
Qonaq gəldin bizim bağa.
Özün dayansan da dimdik,
Dimdiyin çıxıb qabağa...

Başın qonur, qarnın qonur,
Belin göydür, boğazın ağ.
Qonmusan quru budağa,
Sanki çiçək açıb budaq…

**07.10.2010**

# BOZ QARĞA

Çox yuvalar dağıdıb,
Qarğadı bu, qarğadı...
Onun qənimi təkcə
İticaynaq qırğıdı...

Başı, dimdiyi qara,
Bədəni, qanadı boz...
Dimdikləri neştərdi,
Vuranda deşilir qoz...

Qarnı ac olan zaman
Haray-həşir qoparır.
Qarıltısı adamın
Zəhləsini aparır...

Bicdir, sanki düşmür heç
Onun işi düyünə...
Qarınquludur, yeyir
Nə keçsə dimdiyinə...

Bircə yaxşı işi var,
Lap tez durub yuxudan,
Leş yeyərək azaldır
Dünyanı pis qoxudan.

Balalarına hər gün
Cücülər daşıyır o.
Yuvalar dağıtsa da,
Üç yüz il yaşayır o...

**23.06.2020**

## QARA QARĞA

Qarğa elə qarğadı,
Nə bozu, nə qarası.
O birindən fərqlənir
Axı bunun harası?

Təkcə rəngi qaradır,
Xasiyyət eyni qalır.
Onların qanadları
Bir az yaşıla çalır.

Qara qarğa da bicdi,
O da səs-küy qoparır...
Dimdiyində nəyisə
Çırpışdırıb aparır...

**23.06.2020**

## SAĞSAĞAN

Sağsağanam, meşədə,
Kol-kosda yaşayıram.
Adamlara həmişə
Xoş xəbər daşıyıram.

Qanadlarımın üstü,
Başım, quyruğum qara.
Bəmbəyaz sinəm isə
Elə bil batıb qara...

Qorxmadan irəliyə
Verirəm ağ döşümü...
Mən ağıllı bir quşam,
Bilirəm öz işimi...

Dağıtsam da sərçənin
Yuvasını – evini,
Hansı həyətə uçsam,
Məni görən sevinir...

**22.06.2020**

## A LEYLƏYİM, LEYLƏYİM

A leyləyim, leyləyim,
Mən səninlə neyləyim?
Rəngin ağdı, bəs niyə
Dümağ qardan qaçırsan?
Qış qapını almamış
Başqa yerə uçursan.
Bahar gələndə isə
Qayıdırsan yaylağa.
Nə olar, xoş gəlmisən
Bizim çaya, çaylağa.
De, uçduğun yerlərdə
Nələr, nələr görmüsən?
Köçərisən, bilirəm
Çox ölkələr görmüsən.
Gözündə qalmayıb ki,
Sənin arzun, muradın?
Söylə görüm dünyada
Ən gözəl yer haradı?

Qanadlarını çırpıb
– Harda yaşayıramsa,
Ora gözəldi demək.
– A leyləyim, leyləyim,
Mən səninlə neyləyim?
Söylə, didərgin salıb
Çovğun, soyuqmu səni?
Köçməkdən yorulmadın,
Vətənin yoxmu sənin?
– Dar gündə qanadlarım
Köməyimə yetəndi.
Mən köçəri bir quşam,
Qanadlarım – vətəndi…

## DURNALAR

Bu ağ durna, bu boz durna,
Bu da əntiq durnadı.
Mən onlara şeir yazdım,
Əllərim dinc durmadı…

Adamın könlü açılır
Onlar qanad açanda.
Üzlər gülür, gözlər gülür,
Göydə durna uçanda…

Bu quşların xoş sorağı
Düşübdür dildən-dilə.
Onlar ox kimi süzürlər,
Uçurlar eldən-elə.

Durnalar gözəl görünür
Uçanda qatar-qatar.
Hünərin çatırsa əgər,
Onları geri qaytar…

**21.04.2009**

## QAĞAYILAR

Qağayılar dənizin
Ləpəsidir elə bil.
Bu səmavi suları
Öpəsidir elə bil.

Onlar qalxırlar göyə
Arabir qıy çəkərək,
Daşa dəyib sıçrayan
Qəzəbli dalğalar tək.

Həmişə dalğalarla
Yarışar qağayılar.
Ləpə olub dənizə
Qarışar qağayılar.

**1967**

## PIRTLAŞIQLƏLƏK

Ay sarı donlu
Pırtlaşıqlələk,
Hardan gəlirsən? –
Bir danış, bilək.

Dimdiyin mavi,
Ayağın sarı.
Ay uçan çiçək,
Gəl bizə sarı!

## QUTAN

Qutana bax, qutana,
Göldə balıq tutana…

Qutan var çəhrayıdı,
Qutan var qıvrımlələk.
Suya baş vurmasa da,
Balığa gəlir kələk...

Yepyekə dimdikləri
Elə bil kəlbətindi.
Onların arasından
Qurtulmaq çox çətindi…

## AĞNAZ

Göydə uçan ağ nazdı,
Bu, qaz deyil, ağnazdı.

Dimdiyi yayda qara,
Qışda olur sapsarı.
Üst-başına ələnib
Sanki dağların qarı.

Bəyaz tükləri gəlir
Ovçuların xoşuna.
Bəla olub həmişə
Gözəlliyi başına…

## QARANAZ

Bu quş uzaqdan gəlib,
Dostlarına qoşuldu.
Rəngi qırmızımtıldı,
Qanadları yaşıldı…

Görün necə uzundu
Ayaqları, dimdiyi!
Qurbağanı kor edər
Onun bircə dimdiyi...

Bu nazla gəzən quşun
Adı da qaranazdı.
Onun Qızılağacda,
Ağ göldə kefi sazdı…

## QAQAR

Qaqara bax, qaqara,
Döşü qırmızı, qara…

Elə bilmə boş durur,
Tez-tez suya baş vurur…

Uçub sulara qonur,
Bu qaradır, o qonur…

Ördəyə bənzəri var,
Naxışları, zəri var…

Bir gör nə qəşəng üzür! –
Baxanın gülür üzü…

Bu gözəl, zərif quşun
Dimdikləri itidir.

Sulara sığal çəkir,
Elə bil ki, ütüdür…

**QULƏLƏK**

Yurduma xoş gəlmisən,
Ay quləlçk, quləlçk!
Sənə gözəl yaraşır
Bu ağ paltar, bu lələk…

Havada şığıyırsan,
Qu quşusan, qu quşu.
Ancaq bəs sənə niyə
Söyləyirlər su quşu?

Üzə bilmirsən axı
Havada süzdüyün tək.
Qanad açıb uçanda
Olursan dümağ fişəng.

Elə oxuyursan ki,
Bu səda, bu nəğmə sirr…
Həyatda bircə dəfə
Səslənir qu nəğməsi…

**07.04.2009**

# QIZILQAZ
# (Flaminqo)

Ay qızılqaz, qızılqaz,
Sənin bənzərin olmaz…

Söylə, hanı qızılın? –
Rəngin çəhrayımtıl, ağ…
Qanadının üstündə
Qara lələklərə bax!

Qəribə görkəmin var,
Səni görən qımışdı…
Ayaqların elə bil
Suda bitən qamışdı.

Əyri boynun elə bil
Sual işarəsidir.
"Qırmızı kitab"dasan,
Elə bu da bəsindir…

Axı sənin nə işin
Çöldə, düzdə, yamacda?
Qızıl kimi günlərin
Keçsin Qızılağacda...

Dinclik, arxayınçılıq
Yaraşır gözəl quşa.
Bizim Azərbaycanda
Arın-arxayın yaşa!

**06.07.2009**

## VAĞ

Nə durnayam, nə leylək,
Vağam, vağam, vağam mən!
Həm bozam, həm sarıyam,
Həm də ağam, ağam mən…

Dimdiyim ipiridir,
Balıqları tuturam.
Çeynəməyə vaxt hanı? –
Diri-diri uduram...

Başımda qəşəng kəkil,
Boynumdasa zolaq var.
Mənə gözəllik verir
Yaraşıqlı zolaqlar.

**21.04.2009**

## ƏRSİNDİMDİK

Ərsindimdik, ərsindimdik,
Burda sakitcə durma sən!
Dimdiyini görməsəydim,
Elə bilərdim durnasan!

Xəmiri kündələməkçin
Doğrayarlar ərsin ilə.
Dimdiyin necə ərsindi
Xəmirə dəyməyib hələ?

**21.04.2009**

## MAYGÜLÜ

Niyə adın belədi,
A maygülü, maygülü? –
Görənlər çaşıb qalır,
Belə olur may gülü?

Necə gəldi havaya
Sovurmurlar ki, sözü. –
Sən gülə bənzəyirsən,
Baxanın gülür gözü…

Xəzərin sahilində
İsti yuvan – evin var.
Qaraboyun, bozboyun, –
Neçə-neçə növün var…

Sən üzəndə elə bil
Gül açır suyun üzü.
Sən uçanda elə bil
Sevinir göyün özü…

Gör necə də qəşəngsən,
A maygülü, maygülü!
Baxıb gözəlliyinə
Ulduz gülür, ay gülür…

**04.05.2009**

## QARABATDAQ

Ora cumursan
Hara batlaqdı.
Onunçün adın
Qarabatdaqdı?

– Yox-yox, qətiyyən
Bu belə deyil.
Mən dənizlərə
Salmışam meyil.

Duran deyiləm
Boynumu burub.
Balıq tuturam
Suya baş vurub.

Heç görmüsənmi
Məni üzəndə?
Qanad açaraq
Göydə süzəndə?

Dözə bilmirəm
Şaxtalı qışa,
Ona görə də
Köçəri quşam…

**05.05.2009**

## QAŞQALDAQ

Sən əsl ov quşusan
Ay, qaşqaldaq, qaşqaldaq!
Alnın qaşqadır sənin,
Dimdiklərin iti, ağ...

Qarnın boz rəngə çalır,
Özün məxməri, qara.
Yaxşı üzə bilirsən,
Baş vurursan sulara.

Rahat yuva qurursan
Qamışlıqda özünə.
Çalış görünməyəsən
Ovçuların gözünə...

**24.06.2020**

## PİNQVİN

Ayaqları gödəkdir,
Qaça bilmir pinqvin.
Qanadları olsa da,
Uça bilmir pinqvin.

## QAZLAR

Gəl sən də durbinlə bax
Sahildə gəzən qaza.
Gedir o baş, bu başa
Yanını basa-basa…

Dənizlərdə, göllərdə
Arxayınca üzür o.
Havada şahin kimi
Qanad çalıb süzür o.

Bu boz qazdı, o ağ qaz,
Osa ağalın qazdı.
Onlar tək ehtiyatlı,
Həssas quşlar çox azdı.

Tamaşadır qazların
Qatarlanıb gəlməsi.
Göydəndüşmə deyildir
"Qazdan ayıq" kəlməsi…

**13.10.2009**

## ÖRDƏKLƏR

Gör nə qədər ördək var
Bu dəryanın içində!
Hərəsi bir ölçüdə,
Hərəsi bir biçimdə.

Gəl onların fərqini
Öyrənək yavaş-yavaş.
Sarıdimdik, göydimdik,
Yaşılbaş, qırmızıbaş…

Bu enlidimdik, osa
Pazdimdikdi, yaxşı bax!

Bu kəkilli ördəyə
Çox yaraşır qara, ağ…

Bu qaragöz, o ağgöz,
Baxanlar heyran qalır.
Ördək var güləyəndi,
Ördək var ki, fit çalır…

Ördək var mərməri, boz,
Ördək var ki, qaradır.
Bizim ana təbiət
Möcüzələr yaradır…

Belə gözəllik olar? –
Baxan xəyala dalır.
Növbənöv ördəkləri
Görənlər heyran qalır…

**06.10.2009**

## YAŞILBAŞ ÖRDƏK

Kim nə deyir qoy desin,
Quşların qəşəngiyəm.
Baxın mənə, elə bil
Gözəllik çələngiyəm.

Sinəm şabalıdıdır,
Başım yaşıl, boynum ağ.
Ayaqlarım qırmızı,
Sarı dimdiyimə bax!

Ördəklər ördəyiyəm,
Ucadır mənim başım.
Çilli-çilli, sarımtıl
Olur ömür yoldaşım…

Göldə qoşa üzəndə
Sən bizi görəydin kaş!
Ördəklər sultanıyam,
Yaşılbaşam, yaşılbaş…

**06.10.2009**

## GƏRƏF

Çox sürətlə uçur o,
Gərəfdi, bu gərəfdi,
Deyəsən onun üzü
Kəndimizə tərəfdi…

Bu qəribə ördəyin
Neçə-neçə növü var.
Qamışlıqda yuvası –
Gözdən iraq evi var…

Göyə baxırsan sanki
Beçə verib arılar.
Belə gözəl ördəyə
Güllə atsan, ar olar.

Pırıldayıb uçanda
Ovçu düşür nə hala? –

Yandıq verir elə bil,
Uçur fit çala-çala…

**07.07.2020**

## SUFƏRƏSİ

Gör nə çoxdur sufərəsi! –
Sanki bir güldür hərəsi…

Qaça bilir, üzə bilir,
Qanad açıb süzə bilir.

Heç bilirsən harda gəzir,
Heç bilirsən necə gəzir? –

Qorxur alıcı quşlardan,
Gündüzlər yox, gecə gəzir…

**26.10.2009**

## TƏQİBÇİ

Beli qonur, döşü çil-çil,
Xatırladır çiçəkləri.
Təqib edir cücüləri,
Təqib edir böcəkləri.

Ona görə bu quşlara
Hamı təqibçi söyləyir.
Həşaratları görəndə
Heç bilirsiniz neyləyir?

Bircə anda işə salır
İti, neştər dimdiyini.
Böcəklər çətin unuda
Təqibçinin çimdiyini…

O, köçəri quş olsa da,
Yerdə qəşəng gəzə bilir.
Qamışlıqda yaşasa da,
Yaxşı uça, üzə bilir…

**26.10.2009**

## CAYDAQCÜLLÜT

– Caydaqcüllüt, caydaqcüllüt,
Nə gəzirsən çayda, cüllüt?

Belə uzun dimdik olar? –
Hamı təbəssümlə baxır.
Bu qədər xırdaca bədən
Neynir o boyda ayağı?

Quyruğun haçadı bir az,
Dimdiyin iynə kimidi.
Xala bənzəyən gözlərin
Xırdaca düymə kimidi.

Sənin başın, döşün dümağ,
Belin, qanadın qaradı.
Yenə havada uçursan,
Söylə, səfərin haradı?

– Ayağım uzun olmasa,
Mən necə gəzərəm çayda?
Ayağım uzun olmasa,
Kim deyərdi mənə caydaq?

Ancaq əyri ayaqlarım
Uçan zaman dümdüz olur.
Cücü-mücünü görəndə
Dimdiyim iti biz olur.

Havalar soyuyan kimi
Qanadlanıb uçuram mən.
Narahatam, rahatlığın
Arxasınca uçuram mən…

**08.02.2010**

## OTLUQ CÜLLÜTÜ

Sevir otluq cüllütü,
Uç gəl, otluq cüllütü!
Ləzzət al gözəllikdən,
Hər yan otlu, güllüdü…

**08.02.2010**

## ALACÜLLÜT

Alacüllüt, alacüllüt,
Sağsağana bənzəyirsən.
Qanadlanıb uçan zaman
Göy üzünü bəzəyirsən.

Qırmızımtıl, uzun, iti
Dimdiyinin çoxdur gücü.
Səndən qaçır qurbağalar,
Səndən qorxur cücü-mücü.

Gözlərin sanki qan çəkib,
Hara dikilib nəzərin?
Xoş gəlmisən sahilinə
Bizim dalğalı Xəzərin!

Uşaqlar səni çox sevir,
Alacüllüt, alacüllüt!
Yuva qur bizim diyarda,
Çıxar çoxlu bala, cüllüt!

**08.02.2010**

## DÜYMƏLİ DÖYÜŞKƏN CÜLLÜT

Düyməli cüllüt,
Düyməli cüllüt!
Nə qədər quş var
Döyməli, cüllüt?

Ömründən olmaz
Döyüş kəm, cüllüt.
Adın qalıbdır
Döyüşkən cüllüt.

Dava-qalmaqal
Əbəsdir, əbəs.
Niyə sakitsən,
Döyüşmürsən bəs?
Belə olmaz, ya döyüş,
Ya da adını dəyiş!…

## OXCÜLLÜT

Harda çoxlu yem olsa,
Tez uçub ora qonur.
Yaraşıqlı bir quşdur,
Tükləri çil-cil, qonur…

Uzun ayaqlarıyla
O, nazlı-nazlı gəzir.
Uçan zaman dimdiyi
Qabaqda ox tək süzür.

Xəzərin sahilində
Mən görmüşəm çox cüllüt,
Hamısından fərqlidi,
Bizim böyük oxcüllüt,
Bizim kiçik oxcüllüt…

Quşları çox sevirik,
Sənə zaval yox, cüllüt.
Dimdiyini cücülü
Bataqlığa sox, cüllüt.
Ox, cüllüt, ox, cüllüt!
Oxcüllüt, oxcüllüt!

**09.02.2010**

## TƏNBƏLCÜLLÜT

Tənbəlcüllüt, tənbəlcüllüt,
Bu cücünü tən böl, cüllüt!

Yolunu gözləyir sənin
Hər bir dəniz, hər göl, cüllüt.

Dayanmısan, nə haldasan? –
Elə bil ki, xəyaldasan…

**09.02.2010**

## İLBİZCÜLLÜT

Adın əzəldən bəri
Olsa da ilbizcüllüt,
Niyə səni görəndə
Qorxur bəs ilbiz, cüllüt?

Adını kim qoyubdur? –
Bənzəmirsən ilbizə!
Yaraşıqlı bir quşsan,
Hər il qonaq gəl bizə.

Qalx, səmada süz, cüllüt,
Ay dimdiyi biz cüllüt!
Yolunu gözləyirik
İntizarla biz, cüllüt!

**09.02.2010**

## BÜLBÜLÜ İLBİZCÜLLÜT

Niyə belə adın var, –
Bülbülü ilbizcüllüt?
Sən heç dinləmisənmi
Bülbülü, ilbizcüllüt?

Dəymə onun xətrinə,
İncidib bülbül kimi?
Oxuya bilərsənmi
Sən şeyda bülbül kimi?!

**10.02.2010**

## ÇAY İLBİZCÜLLÜTÜ

Ay çay ilbizcüllütü,
Üstün çilli-çillidi…

Ömrün boyu gəzmisən
Dadlı yem sorağında.
Yaşamağı sevirsən
Dayaz çay qırağında.

Sanardım bildirçinsən
Dimdiyin olsa qısa.
Güpgüclü ayaqların
Belə uzun olmasa…

**10.02.2010**

## SƏSYAMSILAYAN CÜLLÜT

Səsləri yamsılamaq
Gəlir sənin xoşuna.
Minbir oyun açırsan
Ovçuların başına...

Yamanca kələkbazsan,
Ay balaca cüllüt, sən.
Səsini eşidənlər
Bilmirlər ki, cüllütsən. –

Gözləri par-par yanır,
Sanırlar yekə quşsan.
Qəşş edib güləcəklər
Qəflətən göyə uçsan.

Ayıq ovçular düşməz
Sən qurduğun tələyə.
Heyfləri gəlməzmi
Atdıqları gülləyə?!

**28.04.2010**

## ÇİBİS BİBİKİNƏ

Boynun qara, sinən ağ,
Qanadların göy, yaşıl.
Uç, çibis bibikinə,
Göydə quşlara qoşul!

Könlün istəyirsə, üz,
Suya düşsün şəkilin.
Sanki dor ağacıdı
Yaraşıqlı kəkilin…

Bələdsən bu quşların
Sən cikinə-bikinə.
Adın da özün kimi
Gözəldi – bibikinə…

**10.02.2010**

## BOZCA

Dimdiklərin biz kimi,
Başın kiçik qozcadı.
Tüklərin rəngbərəngdi,
Adın niyə bozcadı?!

Ayağın, belin sarı,
Döşün-başın ağ-qara…
Soyuğu sevməsən də,
Yaraşırsan ağ qara…

Bilmirəm nə görmüsən
Qumluqda, qayalıqda?
Sən gələndə gül açır
Qumluq da, qayalıq da…

**11.12.2010**

## BƏZƏKLİCƏ

Bəzəklicə, bəzəklicə,
Sənə yaraşır bəzək necə?
Başının, boynunun rəngi
Yarı ağ, yarı qaradı.
Dimdiyin qırmızı, qara,
Ayaqlarınsa sarıdı.
(Baxanlar heyrətə gəlir, –
Gör Allah nələr yaradır!)
Belin yaşıl rəngə çalır,
Bəzəklisən, düzəklisən.
Görənlərin gözü gülür,
Quşsan, yoxsa çiçəkmisən? –
Bəzəklicə, bəzəklicə,
Sənə yaraşır bəzək necə?

**15.02.2010**

## QUMLUQCA

Bir-birindən seçilir
Bu quşlar – qumluqcalar.
Qaradöş, qırmızıdöş,
Ağquyruq qumluqca var...

Sahildə veyillənmək
Onlar üçün qaydadı.
Biri sağsağan boyda,
Biri sərçə boydadı.

Yorulanda onların
Dadına qumluq çatır.
Bu balaca quşların
Adı da qumluqcadı…

**04.05.2010**

## ÇIĞIRĞAN ÇÖKÜKBURUN

Çığırğan çökükburun,
Nə üçün çığırırsan?
Yoxsa hansı quşusa
Köməyə çağırırsan?!

Yaraşıqlı, gözəlsən,
Görkəmin nə qəşəngdi!
Bədənin qonuru-boz,
Başın alabəzəkdi…

Qarnının rəngi tünddü,
Quyruğun ağ-qaradır.
Qaşlarının ağlığı
Bir gözəllik yaradır.

Eldən-elə uçursan,
Qəlbində sonsuz maraq.
Nə yaxşı ildə bir yol
Bizə gəlirsən qonaq…

Uç gəl, ay çökükburun,
Sevinsin bizim ellər.
Yollarına göz dikib
Muğan, yovşanlı çöllər…

**11.12.2010**

## ÇÖKÜKBURUN AĞQUYRUQ

Çığırğan çökükburundan
Bir az kiçik olsam belə,
Ona meydan oxuyuram
Uzun ayaqlarım ilə.

Belim qonur, döşüm bomboz,
Qarnım qara, quyruğum ağ.
Narıncı, bozumtul, qara –
Üstümdəki rənglərə bax!

Çökükburun ağquyruğam,
Məni tanımırsan nədən?
Qırmızı rəngim yoxsa da,
"Qırmızı kitab"dayam mən…

**2010**

## TİTRƏKQUYRUQ

Quyruğunu az əsdir,
Bu səndə nə həvəsdir...
Durub gendən baxanlar
Məqsədini duyublar.

Ona görə adını
Titrəkquyruq qoyublar.
Tarmı tapıb gətirək,
Varmı bizə buyruğun?
Elə bil ki, mizrabdı
Sənin titrək quyruğun...

**13.07.2020**

## DİMDİKLƏR

Nə qədər quş var, İlahi,
İtirmişəm mən sanını?
Unudulub qanadları,
Bunlar dimdiklə tanınır...

Böcək qaçmasa, bədəni
Olacaqdır dimdik-dimdik...
Əsl dimdik olmalıdır
Hər an iti, hər an dimdik!

Onları saya salmamaq,
Hər kəsin öz günahıdır.
Dimdik quşun havadarı,
Dimdik quşun silahıdır...

**14.07.2020**

## QILINCDİMDİK

Qılıncdimdik, qılıncdimdik,
Dimdiyin özündən yekə.
Bu boyda dimdiyi olan
Gərək haqqa keşik çəkə...

Elə sürətlə uçursan,
Mümkün olmur səni görmək.
Yuvaları dağıdılan
Quşlar səndən umur kömək...

Ətcə-ətcə balaların
Keşiyini çəkirsən sən.
Qılınc kimi dimdiyinlə
İlan gözü tökürsən sən...

**14.07.2020**

## BALTADİMDİK

Baltadimdik, dimdiyini
Balta kimi endirirsən!
Aman vermirsən, ovunu
Cəhənnəmə göndərirsən...

Ağaclıqda, meşəlikdə
Özünə yuva qurursan.
Yeyib meyvə, giləmeyvə,
Cücü-mücünü qırırsan.

Caynaqların çox itidir,
Dimdiyin başından yekə.
Bilirsən səni görəndə
Çəyirtkə düşür nə kökə?

Gözəl, zərif görkəmin var,
Baltadimdik, baltadimdik...
Rəhmin gəlsin böcəklərə,
Törətmə çox xata, dimdik!

**14.07.2020**

## PAZDİMDİK

Qəribə görkəmin var,
Nə ördəksən, nə qazsan,
Sən də onlar boydasan,
Ancaq dimdikdən sazsan...

Nə qəribə adın var,
A pazdimdik, pazdimdik.
Hər quşa qismət olmur,
Belə möhkəm, saz dimdik...

**14.07.2020**

## BİZDİMDİK

Nə özünü çəkirsən
A bizdimdik, bizdimdik?
Lovğalanma bu qədər, –
Görməmişik biz dimdik?

Dimdik vursan ovunu
Sən biz kimi deşərsən...
Ancaq çox da öyünmə,
Yoxsa işə düşərsən...

## ÇİVDİMDİK

Qeyri-adi görkəmin var,
Baxan, görən səni sevdi...
Başın çəkicdir elə bil,
Dimdiyin elə bil çivdi...

## ÇALIQUŞU

Sən sərçədən kiçiksən,
Sən də vətən sevənsən.
Köçməklə aran yoxdu,
Bu torpağa güvən sən!

Adın çalıdır, ancaq
Bilmirəm nə çalırsan.
Dimdikləyib, gilası
Göydən yerə salırsan.

Həmişə sakit, rahat
Guşələri sevirsən.
Giləmeyvə bol olan
Meşələri sevirsən.

Ancaq qışda dağlardan
Düzənliyə enirsən.
Yaz gələndə yenidən,
Öz yuvana dönürsən...

Giləmeyvə sevənsən,
Cücü-mücüdür yemin...
Nə istəsən, tapırsan,
Daha sənin nə qəmin...

**24.07.2020**

## ZƏVZƏK

Sən köçəri bir quşsan,
Gəlirsən bahar çağı.
Məskəninə çevrilib,
Kür-Araz ovalığı.

Meşələrə, kol-kosa
Salsan belə meyil sən,
Bülbülə bənzəsən də,
Bil ki, bülbül deyilsən...

Yerli-yersiz oxuyub,
Bezdirirsən, Zəvzək, sən.
Başımızı apardın,
Zəvzəksən ki, zəvzəksən...

**24.07.2020**

## VƏLƏMİRQUŞU

Oxuyan zaman
Vələmirquşu...
Başından çıxır
Adamın huşu...

Ancaq nədənsə
Təkcə vələmir,
Bu kiçik quşa
Heç bəs eləmir...

Nəfsi artırır
Onun gücünü.
Ləzzətlə yeyir
Cücü-mücünü...

Dağda yaşayır,
Bağda yaşayır.
Solda yaşayır,
Sağda yaşayır.

Bu gözəl quşun
Növləri çoxdur...
Heç bir-birinə
Bənzəri yoxdur...

# TƏRCÜMƏLƏR

**Li Bo**
Çin

## DAĞ BAŞINDA MƏBƏD

Dağın üstündəki
istifadəsiz məbəddə
gecələyən yolçu
çətin ki,
mürgüləyib yata bilə.
Əlimi uzatsam,
sayrışan ulduzlara
çata bilər.
Bərkdən danışmağa qorxuram,
Ulduzlar səssizcə mənə baxır
nur saçan gözləriylə.
Bərkdən danışmağa qorxuram,
Göy sakinlərini
narahat eləmək istəmirəm
yer sözləriylə…

## DAĞDA TƏK OTURMUŞAM

Göydə yorğun buludlar
Tərpənir asta-asta.
Sonuncu quş dəstəsi
Keçdi başımın üstdən.

Mən dağlara baxıram,
Dağlar da mənə baxır.
Üz-üzə dayanmaqdan
Bezərik əvvəl-axır…

**GECƏ DÜŞÜNCƏSİ**

Uzanmışam, ay nuru
Səpələnir üzümə.
Kirpiyimə şeh qonub,
Yer tapmıram özümə.

Mən başımı qaldırıb,
Pəncərədən baxıram.
Heç bilirsiz vətənçün
Nə qədər darıxıram?!

**ŞƏRQ DAĞLARINI XATIRLAYIRAM**

Nə vaxtdandı görmürəm
Uca Şərq dağlarını.
Qırmızı çiçəklərlə
Bəzənən bağlarını.

Buludların üstündə
Ay bir qayıq tək üzür.
Hansı pəncərəyədir
Görəsən onun üzü?

## VƏTƏNİ DÜŞÜNÜRƏM

Pəncərədən üstümə
Sanki axır nur çayı.

Bəlkə bu nur yox, şehdə? –
Həsrətdən üşüyürəm.

Başımı qaldıranda
Göydə görürəm ayı,

Başımı endirəndə
Vətəni düşünürəm…

## YAY GÜNÜ DAĞ BAŞINDA

Mənə yaman istidir,
Yelpik də etmir kömək.

Gecəyarıya qədər
Bir təhər dözüm gərək.

Soyunub paltarımı
Çox həvəslə atardım,

Axsaydı sinəm üstdən
Şamlıqdan əsən külək…

**Du Fu**
Çin

## AYLI GECƏDƏ QARDAŞIMI DÜŞÜNÜRƏM

Təbillər susub artıq,
Hərdən əsir sərin meh.

Vəhşi quşların səsi
Ah, necə ürək açır!

Doğmalarım tərəfdə
Çəmənə səpilən şeh

Ay işığı altında
Bərq vurur, şəfəq saçır…

Yollar yaman uzaqdı
Doğma evimə qədər,

Arada həyat, ölüm, -
Düşünürəm sabahı.

Məktub yazıb göndərmək
İndi hədərdi, hədər,

Düşmənlər qoymayıblar
Hələ yerə silahı…

## PAYIZIN İLK GÜNÜ

Öz yerində dayanmır
Nə gün, nə ay, nə ulduz.

Göylər ağlayıb, nədir? –
Şeh ələnibdir bağa.

Dünən ötən gecəni
Bölüşdü yayla payız,

Qaranquşlar Cənuba
Başladılar uçmağa…

Həmişə can atmışam
Zirvədə yaşamağa,

Qocalıq vaxtsız gəlib,
Qüdrətim yox getməyə.

Vida deyib hər şeyə
Çəkilərdim bir dağa,

Kasıblıq imkan vermir
Bu arzuma yetməyə…

**Çon Çxol**
**Koreya**

***

Ah, necə də gözəldi iki zərif kəpənək
Çiçəklərin üstünə qonan zaman sevincək…

Ah, necə də gözəldi, quşlar düşüb həvəsə,
Söyüdün budağında verən zaman səs-səsə…

Baxıram uzaqlara – qəm sayrışır gözümdə,
Hamı cütdü, təkcə mən tənhayam yer üzündə…

***

Ay qoca, nəyə görə götürmüsən bu yükü? –
Qoy sənə kömək edim, cavan işidir bu ki!…

Mənim şux qamətimə, güclü qollarıma bax,
Qətiyyən çətin deyil mənimçün yük daşımaq.

Qəribliyə salma gəl söylədiyim bu sözü –
Səninçün yük deyilmi elə qocalıq özü?

***

Dağlarda yaşayıram, ay dost, nə vaxtdan bəri,
Mənə ətdən dadlıdı çölün otu, pencəri.

Qamışdan tikdiyim dam səliqəli, təmizdi,
İlbizə çanağı tək o da mənə əzizdi.

Hər şey gözəldi, ancaq bir ah qopur sinəmdən,
Sevdiyim uzaqdadı, tənha darıxıram mən…

***

Ay yağış, hey yağırsan, payız olsun, ya bahar.
Görəsən doğrudanmı səndən qorunmaq olar?

Plaşım otlardandı, şlyapamsa samandan,
Axı hədəf seçmisən sən məni nə zamandan?

Paltarımı soyunub atdım bir tərəfə mən,
Daha səndən qorxmuram, yağ nə qədər istəsən!…

***

Toxundum komunqonun* bir mürgülü siminə,
Ürəyim sakit oldu, düşdüm eşq tilsiminə.

Başqa telə toxundum, o hönkürdü, ağladı
Sevdalı ürəyimdə dərd sel kimi çağladı.

Necə itsin qəm, kədər? – Soruşdum ki, özümdən –
Bu qədər ki, ayrılıq vardır bu yer üzündə?!

***

Sakit suyun üzündə titrəyən kölgəyə bax,
Körpünün üstü ilə gedir bir qoca monax.

---

***Musiqi aləti**

Ay qoca, bu dünyanı gəzib dolanmısan sən,
Bu ixtiyar çağında hara belə gedirsən?

Gərək siz görəydiniz o nurani simanı,
Sakit göstərən zaman mənə sonsuz səmanı!

## TƏNHA DURNA

### I

Tənha durna görəndə yerdə yanan işığı,
Qanadlarını yığıb tez şığıdı aşağı.

İstədi ki, insanlar görsün necə yaşayır,
Baxın, o, yer üzündə bir qəribə oxşayır.

Lələyini yolanda o, gen qaça bilmədi,
Bir daha qanad açıb göyə uça bilmədi…

### II

Qanadları yolunmuş durna olsaydım əgər,
Çalışardım günlərim ötüb keçməsin hədər.

Heç vaxt ruhdan düşməzdim, ağrılara dözərdim,
Yaydan qopan ox kimi səmalara süzərdim.

Uçuşan buludlara yenə sinə gərərdim,
O mavi, o laciverd səmaları görərdim…

***

Kimsəsiz bir sahildə mən səni səsləyirəm,
Niyə gəlmirsən, niyə? – Yolunu gözləyirəm.

Para aya baxanda gözümdə şimşək çaxır,
Mən səni gözləyirəm, niyə gəlmirsən axı?

Danlayıram özümü, yaş göynədir gözümü,
Doğrudanmı bir daha görməyəcəm üzünü?!

***

Bir vaxt uça bilirdim tez-tez qanad çalaraq,
Göylərdə süzə-süzə xəyallara dalaraq,

Qəlbimdə ümid, işıq enirdim bir zirvəyə,
Sənin gözəl üzünü bəlkə də gördüm deyə…

Bir də ora uçmaram dalıb şirin xəyala,
Çünki qorxuram arzum mənim gözümdə qala…

**C. Bayron**
İngiltərə

## SƏN AĞLAYIRSAN

Ağladın, parladı kirpiklərində
Mavi gözlərindən süzülən yaşlar.
Bənövşə üstündə olan şəbnəmi
Sənin almazların səpməyə başlar.

Gözlərin gülürdü bir azca əvvəl,
O sönən şəfəqlər de, nəyə bənzər?
Elə bil kölgədə qoydu əlbəhəl
Onları nur saçan o nəmli gözlər.

Göydən çəkiləndə işıqlı günəş,
Artanda göylərin dumanı, çəni.
Axşam buludları gizləyər sənin
Pərişan çöhrəni, gözəl çöhrəni.

O qara buludlar, ey gözəl pəri,
Bircə baxışınla nurlanar yenə.
Qəmli ürəyinin son şəfəqləri
Qürub günəşi tək işarıb sönər…

## MƏNİM QƏLBİM QARANLIQDIR

Tutqundur mənim qəlbim,
Tez ol, tez ol, müğənni,
Götür qızıl arfanı.
Gəzsin onun üstündə

Titrək barmağın sənin,
Oyatsın simlərdəki
Mürgüləyən sədanı.

Qismətimi aparmaq
Sənə qismət olubsa,
Sinəmdədir, gəl apar.
Ürəyimdə qurumuş
Göz yaşları qalıbsa,
Əriyib axacaqdır
Bir vaxt donan damalar.

Qoy vəhşi olsun nəğmən,
Ağlamaq istəyirəm,
Ürəyimi üzdü qəm.
Çətinsə də dinləmək
Mənə o şən səsləri,
Çal, əzab-əziyyətdən
Yoxsa partlayar sinəm.

Sonsuz iztirablardan
Sanki kökəlib, şişib.
Çıxmır səsi-səmiri,
Yorulub, əldən düşüb.

Ömrün dəhşətli çağı
Başlanıb, dolub ürək
Zəhərlə doldurulmuş
Bir ölüm qədəhi tək…

**AYRILIQ**

Yadındamı o günlər? –
Qəlbimizə taleyin
Acı qəmləri doldu.
Səninlə görüşümüz
Sanki bir anlıq oldu.

Soyuq dodaqlarından,
O quru gözlərindən
İndiki halımızı
Onda hiss elədim mən.

Gələn əzablı ilin
Soyuq sübh çağı idi –
Unutmaram o günü.
Mən öz qulaqlarımla
Eşidirdim, əzizim,
Şaiyələrin hökmünü.

Namussuz deyirdilər
O zaman sənə axı?! –
İkilikdə bölüşdük
Biz bu rüsvayçılığı.

Adın çəkilən kimi
Camaat arasına
Düşərdi bir vəlvələ.
Bilmirəm nəyə görə,
Nəyə görə səninlə
Doğma olmuşduq belə?

Səndən danışırdılar
Hiss etmədən qüssə-qəm.

Onlar nə biləydilər
Səni özüm bilirəm!

Gizlədik eşqimizi,
Gizlədik dərdi, qəmi.
Sirrimiz də qəmlidir
Bizim özümüz kimi.

Eh, görüş qismət olsa
Əgər taleyimizə,
Göz yaşıyla lal sükut
Qismət olacaq bizə…

## ALBOM ÜÇÜN

Oxşar qəbir səyyahın
Fikrini cəlb edən tək,
Bu saralmış səhifə,
Cəlb eləsin sənin də
Fikrini, gözəl mələk!

İllər keçər, sən əgər
Bu yazını oxusan,
Şairin arzusunu
Anlayarsan çox asan.

Yadına düşsə əgər
Səni necə sevirdim,
Məni ölmüş bil onda.
Çünki şairin qəlbi
Dəfn olunub, əzizim,
Sənin bu albomunda…

## STANSLAR

**1**

Elə gözəl tapılmaz
Hüsnünlə bəhs eləsin.
Dənizin nəğməsi tək
Gözəldir sənin səsin.
Susar səs-küylü dəniz
Tabe olub səsinə.

Laylalar çalan külək
Yatar körpə uşaq tək
Qısılıb parıldayan
Suların sinəsinə.

**2**

Ayın şəfəqləridir
Titrəyir sular üstə,
Yoxdur bircə səs-səmir.
Enib-qalxır dənizin
Sinəsi asta-asta,
Yuxulu uşaq kimi.

Ürəyim ağzınacan
Sözlə dolubdur, ancaq
Sənə məftunluq qoymur
İndi qəlbimi açam.

Hər şey sakitdir, gülüm,
Ancaq gələcək bir gün,
Dəniz də darıxacaq
Ağsaç dalğalar üçün…

## AĞLAYAN LEDİ HAQQINDA SƏTİRLƏR

Bədbəxt bir kralın ağlayır qızı,
Allah üz döndərib onun elindən.
Yuyula günahı bu insafsızın
Qızın gözlərinin qaynar selində.

Ağla, bu vicdanlı yalvarışlara
Axı möhtac olan yazıq bir el var.
Baxıb gözlərindən axan yaşlara
Sənin doğma xalqın təsəlli tapar…

## ŞAİR CON KİTSİN ÖLÜMÜNƏ

**1**

Kim öldürdü Con Kitsi? –
Hələ bitməmiş sual,
Dilləndi qəddar curnal:
Bir dəfə çıxanda Kits
Bizim məhəlləmizdən,
Onu öldürmüşəm mən.
Zəmanət verirəm ki,
Kitsi bizik öldürən…

**2**

Bəs birinci gülləni
Kim atdı ona, desin?
Berro, Sauti, Milimen –
Dindi keşiş şairlər, –
Bizik qənimi Kitsin.
Bir tənqidçi dilləndi:
Təbrik eləyin məni.
Birinci mən korladım
Onun əsəblərini…

**Federiko Qarsia Lorka**
İspaniya

## BAHAR NƏĞMƏSİ

**1**

Dərsdən çıxan uşaqlar
Sevinirlər, coşurlar.
Səslərini şən aprel
Küləyinə qoşurlar.

Baharın ətri gəlir,
Hava gözəldir necə.
Gümüşü gülüşləri
Sanki dənləyir küçə.

**2**

Axşam çağı çiçəkli
Bir bağda gəzirəm mən.
Kədərimi hardasa
İtirmişəm deyəsən.

Qəbirlərin üstündə
Yuxuya gedib zaman.
Torpaq öz gülləriylə
Əsir, titrəyir yaman.

Tozcuqlarla örtülüb
Sərvlərin budağı.
Ucadan genişliyə
Durub həsrətlə baxır,
Yaz mehinə qoşulub
Yellənir ağır-ağır.

Aprel, ulduz gətirdin,
Yatmış sular oyandı.
Təbiətin gözündə
Qızıl yuvalar yandır!

## FAL AÇA BİLSƏYDİM AY İLƏ ƏGƏR

Ayın dövrəsində körpə ulduzlar,
Cığırlar üstündə yarpaq əsəndə,
Hey sənin adını pıçıldayıram,
O sözün sehrindən əsirəm mən də.

Elə bilirəm ki, dərdlər, ağrılar,
Biryolluq silinib, çıxıb canımdan.
Bir nəğməyə dönür ötən günlərim,
Əsirəm, əsirəm həyəcanımdan.

Zülmətin qoynunda səssiz- səmirsiz
Təkrar eləyirəm adını elə…
O ad indiki tək uzaq olmayıb,
O ad səslənməyib heç zaman belə.

Eh, o ad uzaqdı ulduzlar kimi,
Eh, o ad qəmlidi yorğun yağış tək.
Özüm də bilmirəm, bilmirəm səni
Sevə biləcəkmi yenidən ürək?

Bilmirəm qəlbimin nə günahı var? –
Qoynunda bir qərib məhəbbət inlər!
Çıxıb gedəcəkmi tutqun dumanlar,
Geri dönəcəkmi bir də o günlər?
Çobanyastığı tək mən ayı dərib,
Onunla fal aça bilsəydim əgər?!

# İYUL GÜNLƏRİ HAQQINDA

**( İyul 1919)**

Səslənir zınqırov
Öküzün boynunda.
– Qar qız, nə gəzirsən
Əlləri qoynunda?

– Gedirəm çəməndən
Gül- çiçək dərim mən.
– Qaranlıq qovuşur
Uzaqdır  o çəmən.

– Qorxarmı gecədən
Qəlbində eşq olan?!
– Qar donlu göyərçin,
Günəşdən gen dolan!

– Gün gedib yatmağa,
Hələ gec duracaq.
– Sən kimsən, nəçisən?-
Cavab ver, sözə bax.

– Evim var nur saçan
Şehlərin qoynunda…
Zınqırov səslənir
Öküzün boynunda…

– Bərq vuran dodağın
Üzünə yaraşıq.
Sevdiyim ulduzun
Nurudur o işıq.

– Ürəyə sancdığın
De, nədir, ay bacı?
– Ölsə də yaşayan
Yarımın qılıncı.

– Gözündə sayrışan
O odlar bəs nədir?
– Kədərli fikrimdir,
Gözümü göynədir.

– Görürəm, dərdlisən,
De, niyə sən soldun?
– Qrafiniya idim,
Gənc Lavra qul oldum.
Taleyim beləymiş,
Axırda dul oldum.

– Axı, nə gəzirsən? –
Vuruldum səbrinə.
– Gəzirəm tuş olam
Lavrımın qəbrinə…

– Heyranam yarını
Axtaran qadına.
Bu yolda qoy Allah
Yetişsin dadına!

– Ulduzlardı təkcə
Dulların sirdaşı.
Hanı o? – Gözümdə
Ulduzdu göz yaşı.

– Çətin ki, tapılsın
Bu sirli dünyada
Dərdlərin qoynunda
Qərq olan o adam.

– Sərsəri cəngavər –
Ey sərvim, bu gecə
Lütf eylə, qarşımda
Sən diz çök gizlicə.

– Sərgərdan yuxumdan
Gecələr halıdı.
Bu, arı balı yox,
Dilimin balıdı. –

Tez onu götür get,
Ver yesin uşaqlar.
Yaralı qəlbimi
Sən özünlə apar…

– Çox sağ ol, cəngavər,
Azaltdın ağrımı.
Ancaq ki, mən gərək
Tapım öz Lavrımı.

– Əlvida, qızıl gül,
İtirdim gör kimi?
Sənə sevgi qaldı,
Mənəsə gor qəmi…

Gümüşü zınqırov
Öküzün boynunda.
Qızıl qan çağlayır
Ürəyin qoynunda…

## QOCA KƏLƏZ

Uzun bir cığırda
kiçik, qoca kələz
(timsahın qohumu)
oturub düşünür.
Yaşıl sürtukunda
həm şeytana, həm də
rahibə oxşayır.
Olduqca ədəblə
özünü çəkərək
baxır, düşüncəli
qoca professor tək.
Sənəti puç olmuş
Artist gözləriylə
seyr edir kədərlə
əriyən axşamı.

Siz öz gəzintinizi, mənim dostum,
Həmişə sübh çağımı başa vurursunuz?
Məgər siz mələksiniz,
Kələz ağa?
Axı siz qocasınız!
Kənddəki uşaqlar
xətrinizə dəyib
sizi qoyarlar lağa.
Cığırda nə axtarırsınız,
Uzağı görməyən filosof?
Baxın, avqust gecəsinin
soyuğu ilə parçalanıb
göylərin kölgəsi.
Siz küskün göylərdən
Sədəqəmi diləyirsiniz?

Ya ulduz qırıntısı,
ya da mavi damcı həsrətiylə
inləyirsiniz.
Bəlkə də Lamartinin şerlərini
oxumusunuz siz?!
Nəğməkar quşların həzin səsindən
Həzzmi almaq istəyirsiniz?
(Sən dan yerinin şəfəqlərinə baxırsan
gözlərin parlayır.
İnsan ocağının şöləsi
səni qurbağaların gözündə
əjdahaya döndərib.
Düşüncələrin yelkənsiz və sükansız
qayıq kimi üzür
sənin tutqun,
kölgəli bəbəklərində).
Bəlkə, sakit, mürgülü
körfəzin sahilində
gözəl bir dişi kələz
görmək ümidi ilə gəlmisiniz?
Bilirəm, sizi rədd eləyib,
həm də tərk eləyib
yaşadığınız çölləri  o qız.
Of, xöşbəxt gənclik,
ətirli qamışlıqdakı sevdalı günlər,
hardasınız?
Hər şey cəhənnəmə! Ruhdan düşməyin!
Siz, həqiqətən, gözəlsiniz.
Əbəs deyil ki,
yepiskopvari saqqalınıza
həkk olunub həyat deviziniz:
“Mən ilanların düşməniyəm”!
Artıq günəş dumanları yara- yara
təpələrin üstünə qalxır.

Yollarda toz qopara- qopara
hərəkət edir naxır.
Əbədiyyətə qovuşmaq vaxtıdır, dostum,
Dar cığırdan çıxıb
get evinə,
bəsdir fikirləşdiyin.
Onsuz da olan olacaq.
Cücülər bədənini tələsmədən
yeyib qurtarınca
ulduzları, səmanı seyr etməyə
vaxtın olacaq.
Tez ol, qayıt evinə,
Dərd çəkməklə iş düzəlməz.
Gecən xeyirə qalsın, dostum,
yuxun şirin olsun, Kələz!
Adamlar çöllərdən yığışıb,
təpələrin üstünə
çöküb qaranlıq,
çatılıb boşalmış yolların qaşları.
Hansı qovağınsa qaranlıq budağında
Dərdli-dərdli oxuyur arabir
İsaq-musaq quşları.

## GECƏ MOTİVİNDƏ

Dəhşətlidir dumanda
Gəzmək çölü, çəməni.
Rəngi solmuş yarpaqlar
Kimə gərəkdir, kimə?

Əgər mürgüyə getsəm,
Əzizim, oyat məni,
Nəfəsinlə həyat ver
Mənim cansız qəlbimə.

Bu nə əks-sədadır?
Heç nə görünmür gözə.
Şüşə üstündə külək –
Mənim üçün möcüzə.

Boyunbağı gətirdim
Sənə dan qızaranda.
Bu nədir? – Yol üstündə
Onu atıblar yerə.

Sənsiz quşlar oxumaz,
Nəğmə deməz bir an da,
Quruyar üzümlərin
İçindəki bol şirə.

Bu nə əks-sədadır?
Heç nə görünmür gözə.
Şüşə üstündə külək –
Mənim üçün möcüzə.

Qarlı nağıllar ilə
Nə işi var baharın?
Mən səni sevən zaman
Tutulmuşdu havalar.

Çiskin ara vermədən
Yağanda narın- narın
Yarpaqsız budaqlarda
Üşüyürdü yuvalar.

Bu nə əks-sədadır?-
Heç nə görünmür gözə.
Şüşə üstündə külək –
Möcüzədir, möcüzə.

## AĞACLAR

Ağaclar,
Ulu göydən düşüb nizələr kimi
Torpağın sinəsinə girdiniz cərgə-cərgə.
Sizi kim atıb axı? –
Yerə həsrətlə baxan
Ulduzların yayından qopan oxsunuz bəlkə?

Nəğməniz quş qəlbindən gələn sehrli nəğmə,
Səsiniz göylərin də
xoşuna gələcəkmi?
Ağaclar, yer altında uyuyan ürəyimi
Görəsən kökləriniz tanıya biləcəkmi?

## GÜNƏŞ BATDI

Gün batdı, ağaclar susdu
Düşüncəli heykəl kimi.
Dəyirmanın daşı bumbuz,
Tərtəmiz biçilib zəmi.

İt Veneranı görəndən
Dincliyini itiribdir.
Almaya bənzər ulduzun
Ətri yeri götürübdür.

Yayın ilham atı – ditdi
Vızıldayır görün necə?
Ayın zərif tellərini
Sap kimi əyirir gecə.
Qoyun təpinir quzuya:

– Qurddan yaxa qurtarmaqçın
Yaxşıca yatasan gərək.
“Payız kəsib astananı” –
Pıçıldayır solğun çiçək.

İndi səhər açılacaq…
Çobanlar çıxacaq çölə,
Yenə həyat qaynayacaq.
Aşxananın dövrəsində
Ac uşaqlar oynayacaq.

Heç kəs eşitmir onların
Dərdli, kədərli səsini.
Divarlarsa əzbər bilir
Uşaqların nəğməsini...

## KANTE XONDO POEMASI

### ÜÇ ÇAY HAQQINDA BALLADA

Bağlarının kölgəsiylə
Qvadalkvivir seyrə çıxır.
Sənin iki çayın, Qranada,
Dağlardan dərəyə axır.

Ah məhəbbət,
Sən yox oldun həmişəlik.

Qvadalkvivir sahilində
Çiçəkləyib qızılı nar.
Çaylarının birində qan,
O birində göz yaşı var.

Ah məhəbbət,
Əsib keçdin külək kimi.

Sevilyada yol açıqdı
Yelkənli gəmilər üçün.
Çaylarında, Qranada,
Təkcə ahlar üzür neçin?

Ah məhəbbət,
Sən yox oldun həmişəlik.

Gəzir limon bağlarında
Zəng səsləri, bir də külək.
Daura, Xenil – Qvadalkviviri
Qucaqlayır bir ana tək.

Ah məhəbbət,
Əsib keçdin külək kimi.

Dərdin odlu lehməsini
Bu çaylar necə aparsın?
Ah məhəbbət,
Sən yox oldun həmişəlik.
Onlar aparır dənizə
Portağal, bir də həmərsin.

Ah məhəbbət,
Əsib keçdin külək kimi…

# QARAÇI SİQREYİ HAQQINDA POEMA

## PEYZAJ

Küləklər şumlayır,
küləklər əkir
bu yerləin zeytunlu düzünü.
Göylər pöhrələrin
üstünə əyilib,
tutqun leysanla yuyur
soyuq ulduzların üzünü.
Qamışlıq, toranlıq,
bir də boz külək titrəyir
kanalın sahilində.
Nəğmələr necə yaralı,
necə kədərlidi –
səsi zeytunluğu götürən
quşların dilində.
Əsir düşmüş dəstə – yazıq.
Əsir düşmüş dəstə – fağır.
Onların upuzun quyruqlarıyla
oynayır
bu gecənin qaranlığı…

## GİTARA

Ağlamağa
başladı gitara,
çiliкləndi sükut,
qəlbim əsdi.
Ağlamağa
başladı gitara,
aram olmaq gözləmə
sən ondan,
sus söyləyib yalvarma,
əbəsdi!
Yorulmadan
ağlayır gitara,
bir həsrətli su kimi çağlayır –
inildəyir, sızıldayır arxada.
Qar üstündə külək tək ağlayır,
Susmayacaq, yalvarma nahaqdan!
Ağlayırdı ünvansız ox kimi.
Ağlayırdı dan yerində gecə…
Ağlayırdı, solmuş gül görəndə
Qızmar torpaq ağlayırsa necə…
İlan ağzındakı quş tək ötür,
Vidalaşır həyatla son kərə.
Qurban gedir
Bu yazıq gitara,
Elə bil ki, beş iti xəncərə…

## ÇIĞIRTI

Çığırtı
əks-səda verərək
adlayır yamacdan-yamaca.

Qara göyqurşağına
bənzəyir
yasəməni axşam.

Ay!

Özünü küləyin tellərində
yaxalayır
nəhəng yay.

Ay!

Mağarada şam yandırır
qaraçılar.

Ay!

## SAKİTLİK

Dinlə, oğlum, sakitliyi –
Sədası dərinlərə gedən
Bu ləpirlərin sakitliyini.
Sakitlik…

Ürəyin sükutu möcüzə.
Cəsarəti çatmır onun
Dərinlikdən çıxsın üzə...

## İZ

Uşaqlar baxırlar,
uşaqlar baxırlar uzaqdan.
Yavaş-yavaş sönür şamlar.
Aya sual verir
kor qızlar.
Küləklər onların səsini
aparır,
Eşidib, kövrəlir ulduzlar.
Dağlar baxırlar,
Dağlar baxırlar uzaqdan.

## SONRA

Zamanın
bulanıq suları
duruldu.

Səhra
qaldı…

Ürəyin
arzular bulağı
qurudu.

Səhra
qaldı…

Əridi ilğımlar,
öpüşlər
itdi.

Səhra
qaldı…

Hər şey susdu,
tükəndi,
bitdi…

Səhra
qaldı…

## SOLEA HAQQINDA POEMA

***

Torpaq quruyur,
torpaq sakitdir necə.
Torpaq –
dibsiz bir gecə.
(Dağlardan əsən
zeytun qoxulu külək.)
Qocadır
torpaq
öz dərdi –
səriylə.
Torpaq –
dərin bir quyu.
Torpaq –
oyulmuş bəbək,
düzənlik üstündə uçan ox.
(Külək – sərhədsiz bir yol.
Külək – qovağın səsi.)

## KƏND

Qaranlıqda,
dağ döşündə
kiçik kilsə gözə dəyir.
Yüz ildir ki, bu sulara
o zeytunlar
hey baş əyir.
İnsanlar çıxıb gedirlər…
Qüllə üstündə fülüger
hey fırlanır
gündüz- gecə…
O həmişə fırlanacaq
bax beləcə.
Əndəlisdə yetim kəndlər
gözü yaşlı
qalıb necə?!

## BIÇAQ

Bıçaq,
sən canlı ürəyə girirsən
gavahın torpağa
girən kimi.
Yox!
Sancılma!
Yox!
Bıçaq,
sən qanlı şəfəqlərinlə
nur saçırsan
tabut uçurumunun
üstündə.
Yox!
Sancılma!
Yox!

## DÖNGƏ

Şərq küləyi.
İşıq, yağış.
Bıçaq ürəyə
Tuşlanmış…

Simlər əsir,
Küçə əsir.
İşıqların
əsməsi – sirr.

Hansı yana
Çevrildin sən:
Qanlı bıçaq
Görəcəksən…

## AY

Küləkli havada qışqırır
sərvin kölgəsi.

(Məni tək qoyun qəmlər arasında –
ağlamaq istəyirəm.)

Hamı ölüb,
təkcə sükut mənimlədi.

(Məni tək qoyun qəmlər arasında –
ağlamaq istəyirəm.)

Zülmət üfüqlərdəki işıqları
gəmirir…

(axı mən sizə dedim: tək qoyun,
tək qoyun məni qəmlər arasında –
ağlamaq istəyirəm.)

## GÖZLƏNİLMƏZLİK

O, körpünün üstündə
nəfəssiz uzanıb,
ürəyində xəncər.
Onu burda heç kəs tanımır
Tutqun fonar necə titrəyir,
anacan!
Necə titrəyir tutqun fonar
körpünün üstündə!
Səhər açılır.
Heç kəs onu tanımır,
Heç kəs üstünü örtmək
haqqında düşünmür.
Külək qəzəblə girib-çıxır
onun açıq gözlərinə.
Hə, cansızdı körpünün üstündə.
Hə, ürəyində xəncər.
Hə, heç kəs tanımır onu.

## SOLEA

Örtük altı qaranlıqdı,
Bu səadət bir anlıqdı.
Ürək nur saçır, işıqdı.
Örtük altı qaranlıqdı.
Külək aparan ahları
Niyə cavabsız sanırıq?
Örtük altında yanırıq.

Örtük altı qaranlıqdı.
Şəfəq seli sanki bir çay.
Uzaq bir balkona baxıb
Gülümsəyir uzaqdan ay.
Ay – ay – ay!
Örtük altı qaranlıqdı.

## GÖRÜŞ

Bu vəfasız dünyada
Biz görüş axtarmadıq.
Səni necə sevirəm,
Özün yaxşı bilirsən,
Söhbət artıqdır, artıq.

O tanış cığır ilə
Qayıt geri, dön geri.
Tərpənə də bilmirəm
Mismarlanıb əllərim.

Sona yetməyəcəkmi
Bu əzablar, axan qan?
Yaxşısı budur qayıt,
Ölüm tutub yaxamdan.

Eh, yaxşısı budur ki,
Bu San-Kaetana biz,
İkimiz də çökək diz,
Son qoyaq dərdə, aha…
Bu vəfasız dünyada
Görüşməyək bir daha!

## ZƏNG ŞƏFƏQLƏRİ

Kardova zəngləri
salıb məni oda.
Tez elə, onları
Çal, çal, Qranada!

Dumanları yarır
zınqırov nəğməsi.
Əndəlis qızları
eşidir o səsi.

O qızlar sübh çağı
düşünürlər nələr? –
Oxuya- oxuya
müqəddəs nəğmələr,

Pəncərədən baxır
neçə ispan qızı.
Aya boylanmaqdan
qıçalar upuzun.

Gəzir dərdli-dərdli
O gözəllər necə?
Xəfif təbəssümlə
işıqlanır küçə.

Ah, Kardova zəngi
ən yanıqlı səda.
O gur səsli Zəngi
çal, çal, Qranada!

## OX ATANLAR

Lal yollarla, kar yollarla
Onlar gəlir Sevilyaya.

Sənə doğru, Qvadalkvivir.

Çiyinlərindəki plaşlar
Sınmış qanadlardı guya.

Of, mənim Qvadalkvivirim.

Uzaq qəmlər diyarından
Gəlir onlar yavaş- yavaş.

Sənə doğru, Qvadalkvivir.

Birlikdə girir labrintə
Məhəbbət, şüşə, bir də daş.

Of, mənim Qvadalkvivirim.

## SÜBH

Ey, saet nəğməkarları,
korsunuz
məhəbbət kimi.

Yaşıl oxla silahlanıb
Gecə yola düşürsünüz.
Alov saçan oxlar ilə
Qaranlığı deşirsiniz.

Üzüb gedir Ay səmadan
Yelkən edib ağ buludu.
Çiçəklərin xumar gözü
Səhər şehiylə doludu.

Ancaq siz, ey ox atanlar,
korsunuz
məhəbbət kimi…

**ALTI SİM**

Gitara,
sənin göz yaşlarını
yuxuda belə eşidirəm.
yorğun ürəyin,
ölən ürəyin hıçqırığı
sənin dairəvi
ağzından uçur,
gitara!

Böy sürətlə
kəməndə salır
məhkum edilmiş
taleyin ulduzunu.
Ahlar və iniltilər
gizlicə üzür
sənin qapqara
kədər dənizində…

## İKİ QIZ

### LOLA

Lola paltar yuyurdu,
Çatılmışdı qaşları.
Saçlarını yığmışdı,
Yanırdı baxışları.

Necə xöşbəxt idim, ah,
Zeytun dibində, Allah!

Gümüş ayaqlarını
Qızıl günəş öpürdü.
Sərçə budaq üstündə
Həyəcanla ötürdü.

Necə xöşbəxt idim, ah,
Zeytun dibində, Allah!

Arx içində dikəldi,
Mənim Lolam yoruldu.
Sabun tamam əridi,
Köpüklü su duruldu.

Necə xöşbəxt idim, ah,
Zeytun dibində, Allah!

**AMPARO**

Amparo.
Ağ don geyinib
dəmir torlu pəncərədən
seyr edirsən sən çölləri.
Ağ çiçəklər arasında
İşıq saçır ağ əllərin.

Fəvvarənin nəğməsini
Həyəcanla dinləyirsən.
Qəfəsdəki bülbül kimi
Həzin- həzin inləyirsən.

Bağda əsən sərvlərə
Axşam baxıb ah çəkirsən.
Əlindəki parça üstə
İncə naxışlar tikirsən.

O gözəl ağ don geyinib
pəncərədən
çölə baxır.
Amparonu sevdiyimi
ona necə
deyim axı?!

# ÜÇ ŞƏHƏR

## MEYXANA

Ölüm gəldi
və getdi
meyxanadan…

Qara atlar
və qara ürəklər
gitara dərəsində
veyillənir.

Duz
və qadın qanının qoxusu
ləpələnir
əsəbi- əsəbi.

Ölüm isə
çıxır, girir,
çıxır, girir.
Bütün ölümlər
çıxıb gedir,
ancaq hamı çıxa bilməyəcək
meyxanadan…

## KARDOVA MƏHƏLLƏSİ

Gecə, zülmətli bir gecə…
Dörd divarın arasında
hünərin var
danış, gül!
Ağ paltarlı ölmüş qızın
sinəsində

pardaxlanıb
qızıl gül.
Pəncərənin arxasında
ağlayır üç cüt
bülbül.
Sinəsi açıq gitara
bir kişinin harayını
təkrarlayır
elə bil…

**RƏQS**

Sevilyada rəqs eləyir Karmen,
Ağ divarı mavi edən ahdı.
O bəbəklər, of, necə od saçır,
Saçlara bax, qar kimi dümağdı.

Pəncərəni,
gəlinlər, bağlayın!

O saçlarda qızılı bir ilan
Qıvrılaraq uzaqdan boylanar.
Rəqs etdikcə sayıqlayar Karmen;
Ötən eşqin həsrətiylə yanar.

Pəncərəni,
gəlinlər, bağlayın!

Sevilyanın küçələri bomboş,
Sevilyanın gecələri dərin.
Unudulmuş əzabların izi
Sevən qəlbdən silinibmi görün? -

Pəncərəni,
gəlinlər, bağlayın!

## ŞAM

Matəm düşüncəsinə dalıb
Şamın sarımtıl şöləsi.

O bir zahid kimi baxır
öz qızılı şəfəqlərinin
dərinliyindən.
və dilsiz bir kədər içində
dua oxuya-oxuya
qəflətən sönür.

Leylək odlu dimdikləriylə
yuvasında
gecənin qatı kölgələrini
dənləyir.
Titrəyiş əmələ gəlir
ölmüş qaraçı balasının
iri gözlərində…

## ƏGƏR ÖLSƏM…

Əgər ölsəm,
dostlarım, siz
məni gitaramla birgə
çay qumunda dəfn edərsiz.

Əgər ölsəm, dəfn edərsiz
güllü vətən torpağında,
ya da portağal bağında.

Əgər ölsəm, məni külək
dam üstəki fülüger tək
ora-bura döndərəcək.

Sakit olun,
Əgər ölsəm…

### AY

Ay düşübdür çay içinə,
Üzür, bu necə üzgüdü?

Sular ona layla çalır,
Gözlər nurlanır, üz gülür.

Cavan budaq aya baxır,
Elə bilir ki, güzgüdü…

## NƏĞMƏLƏR

### ATLININ MAHNISI

Kardova,
Dünyada təksən…

Atım, nə aylı gecədi,
Tez ol, daha yatammaram.
Yolu yaxşı tanısam da,
Kardovaya çatammaram.

Uç düzlərin üstü ilə,
Küləklərə qoşulub sən.
Ölüm düz gözümə baxır,
Kardovanın qülləsindən.

Eh, hər şeydən xəbərsizdi,
Qanad açıb, atıma bax.
Kardovaya çatmamışdan,
Ölüm qarşıma çıxacaq.

Kardova,
Dünyada təksən…

## AY DOĞANDA

Nə zaman ki, ay doğar,
Öz nurunu paylayar.
Keçilməz cəngəlliklər
Cığırları haylayar.

Dənizlər görünərlər
Torpağın sahibi tək.
Unudulmuş adadır
Elə sanırsan ürək.

Göy meyvə yeyilsə də,
Ancaq bilirəm, heç kəs
Aylı gecədə aya
Bənzər portağal yeməz.

Nə zaman ki, ay doğar
Yuxu ərşə çəkilər.
Pul qabındakı gümüş
Pullar hey ah çəkərlər…

***

Ağaca bax, ağaca bax,
Quraqlıqdan çiçəkləyib.

Zeytunluğun arasında
Bir gözəl var, dayanıb tək.
Əsə-əsə, həyəcanla
Qucaqlayır onu külək.

Üst-başları toz içində
Dörd atlı gəlir çaparaq.
Əndəlisli cavanların
Od saçan gözlərinə bax.
"Gözəl gedək Kardovaya!" –
Qız onlara cavab vermir.

Üç cavan motador dağdan
Enərək hay- haray salır.
İpək polrtağal rəngində,
Polad gümüş rəngə çalır.
"Gedək, gözəl, Sevilyaya!" –
Qız onlara cavab vermir.

Qaranlıq qovuşan kimi
Bağdan bir oğlan uşağı.
Çıxıb gəlir, əlində gül,
Sifətində ay işığı.
"Gözəl, gedək Qranadaya!" –
Qız ona da cavab vermir.

O, bağda qalıb eləcə,
Nədir kəsən taqətini?
Küləyin soyuq əlləri
Oxşayır qız qamətini. –

Ağaca bax, ağaca bax,
Quraqlıqdan çiçəkləyib…

## LALLAR KÜÇƏSİ

Səssiz pəncərələr arxasında
Qızlar təbəssümləri ilə oynayırlar.

(Boş royalın dilləri üstündə
hörümçəklər – akrobatlar).

Qızlar görüş təyin edirlər
Sıx hörüklərini yelləyə-yelləyə.

(Yelpiklərin, yaylıqların,
Baxışların dili ilə).

Oğlanlar qara plaşlarını yelləməklə
Cavab verirlər onlara.

## SERENADA

Sinəsindən çay axan dərənin
Gecəyarı seyrinə gəlirlər.
Lolitanın aylı sinəsində
Məhəbbətdən çiçəklər ölürlər.

Məhəbbətdən çiçəklər ölürlər.

Gecə nəğmə oxuyur dərədə,
Körpü üstə o kimdi gözləyir?
Dalğaları seyr edib Lolita
Nazlı-nazlı özünü bəzəyir.

Məhəbbətdən çiçəklər ölürlər.

Bu gecənin qoynunda nur saçan
Ağ almanı demirəm heç hələ.
Bir sehrli güzgü kimi, baxın,
Dərələrdə ağarır şəlalə.

Məhəbbətdən çiçəklər ölürlər.

## NƏĞMƏ AĞACI

Bu yarpaqlar oxuyurlar
Dərdli-dərdli, ürəkdən.
Səs titrəyir həm kədərdən,
Həm dünənki küləkdən.

Gecə bir qız bu talada
Həsrətindən oxuyub.
Əl uzadıb bu ağacın
Budağına toxunub.

Ay əriyir, köməyinə
Əlim çatmır bəs nədən?
Çiçəklərə qərq olubdur
Gül ətirli bir bədən.

Nəğməli bir budaq olub
Bu gözəlin özü də.
Səs titrəyir dodağında,
Yaş qaynayır gözündə.

***

Yaşıl göylərin qoynunda
Yaşıl ulduzlar sayrışar.
Necə edək eşq ölməsin,
De, bunu kimdən soruşaq?!

Soyuq dumanla örtülüb
Uca qüllələrin üzü.
Pəncərələr bağlıdırsa,
Görmərik bir-birimizi.

Yüzlərlə sayrışan ulduz
Qaranlığa aman vermir –
Ancaq qar altında qalan
Yüzlərlə qülləni görmür.
Canlı, odlu olsun deyə
Mənim həyəcanım, hissim,
Gərək onlara nur saçsın
Üzümdəki xoş təbəssüm.

## AĞLAYIR QOCA KƏLƏZLƏR

Ağlayır qoca kələzlər,
Olublar ürəyi yuxa.

Ağlayırlar bir-birinə
Qəmli-qəmli baxa-baxa.

Toylarının yadigarı
Üzüyü itirib onlar.

Ah, bizim mis üzüyümüz,
Sənə bənzər üzükmü var?

Hava aydın, işıqlıdı,
Quşlar şən-şən qanad açır.

Atlas donlu qızıl günəş
Dörd tərəfə şəfəq saçır.

Kələzlərsə qocalıblar,
Olublar ürəyi yuxa.

Dərdli-dərdli ağlayırlar
Bir-birinə baxa-baxa...

## İKİ AYIN AXŞAMI

**1**

Ay ölüb, onda halmı var?
Dua edir ona bahar.

Qovağın şux qamətini
Oxşayır cənub küləyi.

Çəkilən ahlar şam kimi
Əridir dərdli ürəyi.

Kirəmitlərin üstünə
Papaq kimi düşüb otlar.

Ay ölüb, onda halmı var?!
Dua edir ona bahar.

**II**

Portağala mavi gecə,
Layla çalır görün necə?

Oxuyur mənim bacım da:
– Yer portağalla dolaydı.

Ay ah çəkir: – Kaş ki, mən də
Dönüb portağal olaydım.

Qızarsan da, saralsan da,
Baxıb ah çəksən də gendən,

Portağal bir yana qalsın,
Heç limon da olmaz səndən.

## LAL UŞAQ

İtmiş səsini axtarır
Oğlan ömür yollarında.
O öz səsini axtarır
Şehli çiçək kollarında.

– Tapsaydım səsimi əgər,
Ondan üzük düzəldərdim.
Sükutumu o üzükdə
Gizləsəydim, nəydi dərdim?

Oğlan səsini axtarır
Şehli, kövrək budaqlarda.
Çəyirtkə donlu səs isə
Sızıldayır uzaqlarda…

## SAHİLDƏ İKİ DƏNİZÇİ

### I

O öz ürəyində balıq gətirib
Çin dənizindən.

Hərdən o balıq boylanır
Dənizçinin həsrətli gözündən.

Uzaq-uzaq meyxanalar
Onun yadından çıxır.

O elə hey sulara baxır.

### II

Çox şeylərdən danışırdı o, bir vaxt,
İndi isə dili laldır, susur, bax.

Yer yerində. Dənizdəsə dalğa var.
Yenə göydə şəfəq saçır ulduzlar.

Gözlərinə tunc bədənli bir cüyür,
Ağ geyimli iki papa görünür.

O hey sulara baxır.

## AVROPADA ÇIN NƏĞMƏSİ

Qız əlində yelpik
Ahəstə-ahəstə,
Donqar körpü ilə
Gəzir çayın üstə.

Fraklı kişilər
Həsrətlə baxırlar.
Qızdan aşağıda
Körpü, məhəccər var.

Bu yelpikli gözəl
Çətin ki, yorula.
Bir kişi axtarır
Ki, ona yar ola.

Ağsaç gözəllərlə
Evlənib kişilər.
Bu qız qaraşındır,
Çətin olub işlər.

Çəyirtkə oxuyur…
Baxın: oğrun-oğrun
Gedir yelpikli qız
Yaşıllığa doğru.

Çəyirtkə oxuyur,
Bu gözəl kim ola?!
Fraklı kişilər
Üz tutub şimala…

## SEVİLYA NƏĞMƏSİ

Portağal bağlarında
İşıq titrəyir, əsir.
Qızıl-qızıl arılar
Bal yığmağa tələsir.

Hanı şirin xəzinə?
Bəs o niyə ərindi? –
Bu çiçəyin fincanı
Arı üçün dərindi.

Qızına bal çəkməkçin
Ona lazımdı dəfnə.
Arvadçın şam şirəsi,
Yoxsa dəyər kefinə.

Ancaq tamah arını
Başqa tərəfə çəkdi.
Portağal ağacının
Üstü teyxa çiçəkdi…

## İNSANLAR GETDİLƏR

İnsanlar yayın, payızsa
Düşdü onların dalınca.

İnsanlar çıxıb getdilər
Yamyaşıl çəmənlər ilə.
Apardılar xoruzları,
Gitaranı özləriylə.

Şimşəklərin, leysanların
Əmri ilə, hökmü ilə
Qan coşdu, tənbəl ləpələr
Yavaş-yavaş gəldi dilə.

Ürək,
Döyünürsən hələ?

İnsanlar çıxıb getdilər
Yamyaşıl çəmənlər ilə.

Payız gəldi, limon rəngli
Ulduzu nübar gətirdi.
Kədərli quş nəğmələri,
Səksənmiş sular gətirdi.

Sallanmış döşlüyə sarı
Başını çevirmə, dönmə.
Qanı qaçmış ürək,
dinmə!

İnsanlar çıxıb getdilər
Yamyaşıl çəmənlər ilə…

## PƏNCƏRƏ ÖNÜNDƏ NÖQTÜRN

### I

Aylı zirvələr,
Dərədə külək…

(Gözümü çöldən
Çəkməyim gərək.)

Aylı cığırlar,
Ay üstə yellər.

(Baxışlarımı
Apardı sellər.)

İki qadının
Qəlb açan səsi…

Ayağa qalxmağa
Gəlib həvəsim.

**II**

Sakit-sakit, səssiz-səssiz
Pəncərəmi döydü gecə.

Qara qolunda qolbağı
Şəfəq tək nur saçır necə!

Ürəyim çayda oynadı
Gecənin pərdəsi altda

Zaman al qana boyandı,
Ay aman, sferblatda…

**III**

Pəncərəni açan kimi
Hər yan aydın görünəcək.
Sahil küləyi ülgüc tək
Xirtdəyimə dirənəcək.

Onun gilyatini ilə
Soyuyacaq bu ev, ocaq.
Mənim kor ümidlərimin
Gözü dibdən oyulacaq.

Quru limon qabığı tək
Külək məni qoxlayacaq.
Qönçələnmiş gülün üstdə
Bircə an əl saxlayacaq.

**IV**

Gilənar ağaclarının
Suya əyildiyi yerdə.
Su pərisi ölü kimi
Uzanıb, dərdə bax, dərdə.

Yalvarır ona balıqlar,
Dinmir, nə insafsız qızdı.
“Ey gözəl!” – Külək ağlayır,
Göz yaşları cavabsızdı…

Suya dağılmış hörüklər
Xatırladır sarı simi.
Yel əsəndə ağ məmələr
Səksənir qurbağa kimi.

Yalvaraq ulu göylərə,
Bu gözəl bəlkə dirilsin.
Gilənar budağı altda
Uzanıbdır su pərisi.

Üzsün deyə mən körfəzə,
Tulladım bir cüt balqabaq.
Göz yaşı sel tək çağlayır,
Dalğaların duzuna bax!..

## OXUMADIĞIM NƏĞMƏLƏR

Oxumadığım nəğmələr
Yatır mənim dodağımda
Yatır mənim dodağımda
Oxumadığım nəğmələr.

Nur saçan atəşböcəyi
Bu gecənin yaraşığı.
Səhərəcən çəmənlikdə
Şeh dənləyir ay işığı.

Oyanmışam, dinləyirəm
oxumadığım nəğməni.
Ondakı çay şırıltısı
heyrətə gətirib məni.

Bu nəğmədə yuva salıb
itən izlər, ötən anlar.
Keçən günlərin üstündə
Ulduzların işığı var…

## ADELİNA GƏZİNTİDƏ

Dənizdə portağal yoxdu,
Sevilyada məhəbbət.
Bu işıq yaman güclüdür,
Çətrini ver, ay afət.

O yaşıl çətrin altından
Limonluğa qoyum göz.
Mənim ardımca balıq tək
Üzsün dediyin hər söz.

Dənizdə portağal yoxdu…
Bu işıq güclüdü çox.
Sevilyada məhəbbət yox!..

## KİÇİK BİR LÖVHƏ

Bağda-balkon altında
Dörd dənə iri nar var.

(Gəl mənim ürəyimi
Dərib özünlə apar.)

Budaqdakı dörd limon
Hiss etmir küləyi də.

(Saralıb onlar kimi
Sinəmdə ürəyim də.)

Gah soyuq, gah da bürkü
ötsə də sola, sağa –
onlar girə bilməzlər
nə qəlbimə,
nə bağa…

## BU, HƏQİQƏTDİR

Çətindir, necə çətindir
Səni sevib ağlamamaq.

Əsən külək
ürəyimə
sonsuz ağrı gətirir, bax.

Kimə satım bu parçanı,
Axı kimi tutum dilə? –
Dəsmal tiksin mənim üçün
O, ağ, kədər sapı ilə…

Çətindir, necə çətindir
Səni sevib ağlamamaq...

## O ÖLDÜ DAN QIZARANDA

Bu gecənin dörd ayı var,
Ancaq bircədir ağacı.
Onun yetim kölgəsində
Quşlar ötür acı- acı.

Sən verdiyin "yox" sözünü
Aparıram ovcumda mən.
Limon kimi rəngi qaçıb,
Daş kimidir bu söz nədən?

Axtarıram bədənimdə
Öpüşünün izlərini.
Külək qorxa-qorxa öpür
Çayın nəmli gözlərini.

Bu gecənin dörd ayı var,
Bu gecənin ağacı – tək.
Qonub mənim ürəyimə
Xatirən – bir kəpənək tək.

## NƏRGİZ

Nərgiz,
Sənin ətrin.
Çayın dibi.

Səninlə olmaq istəyirəm.
Məhəbbət çiçəyi –
Nərgiz.

Sənin gözlərin dümağdı –
Dalğadan yadigar qalıb.
Mənim isə baxışlarım
Kəpənəklərdən rəng alıb.

Sən kiçiksən, mənsə böyük.
Məhəbbət çiçəyi.
Nərgiz.

Qurbağalar nə bicdilər,
Ayna suyu sındırırlar.
O titrəyən ləpələrdə
Sənin, mənim baxışım var.

Ağrım da sənin ağrındı,
Elə bil ki, həmdərdik biz.
Nərgiz.

## GÜNDÜZ VƏ GECƏ

Gündüz uçub gedir yana,
Gecə yandıq verir ona.

Gündüz öldümü, gecənin
Qara donu əynindədi.

Gündüz tufanlar qoynunda,
Gecə güzgü önündədi.

## YADDAŞIMA DÜŞƏN İZLƏR

Açılan novruzgülü
Layiqdir hər tərifə.

(Yay gecəsi…Yadına
Düşür o alatoran?)

Öz solğun ziyasını
Ay səpir dörd tərəfə.

(Avqustun son baxışı
Çıxmayıb ki, yadından?)

***

Ay su, hara tələsirsən?

Çaylar məni aparırlar
Mürgü bilməz dənizə.

Dəniz, hara tələsirsən?

Kiçik bulaq sakitliyi
Axtarıram mən isə…

Qovaq, sənə nə olubdur,
Əsirsən gündüz, gecə?!

Heç soruşma…Ömrüm boyu
Mən əsmişəm beləcə.

Gör sudan nə soruşuram? –
Mən nə tapmaq istəyirəm bir daha?!

(Yolu azan dörd çaşqın quş
Qonub titrək qovağa…)

**ALDADICI GÜZGÜ**

Quşlar onu həyəcanlandırmır,
Budaq cavandı.

Gileylənir əks-səda,
gözü yaşsız, iztirabsız.
İnsan və şüşə.

Ağlayıram burulğanda,
gözüm dolub.
Hər bəbəyim bir oxuyan
dəniz olub…

**QURU PORTAĞAL AĞACININ MAHNISI**

Tez ol, kəs məni, odunçu,
Əsər qalmasın kölgəmdən.
Sənin bu lüt görkəmini
Qoy bir daha görməyim mən.

Məni alıbdır araya
Gecə-gündüz – güzgü kimi.
Ulduzların arasında
Gördünmü mənim əksimi?

Bu dünyadan köçüb getsəm
Daha kim məni görəcək?
Budağımdakı yarpaqlar,
Quşlar yuxuma girəcək.

Tez ol, kəs məni, odunçu,
Əsər qalmasın kölgəmdən.
Sənin bu lüt görkəmini
Qoy bir daha görməyim mən.

## BAĞ MART AYINDA

Alma ağacı!
Sənin budaqlarına qonub kölgələr,
bir də quşlar

Arzum Aya uçmaq üçün
küləklərə qoşular.

Alma ağacı!
Sənin quru budaqların bürünəcək yaşıla.

Çəkməyibdir əllərini
Budağından qış hələ.

Alma ağacı…
(Öləziyən küləklər).

Alma ağacı…
(Geniş göylər.)

## ÖTƏN GÜNÜN NƏĞMƏSİ

Ay günüm, nə qədər zəhmət çəkirəm,
Səni yola salmaq məgər asanmı?
Gedəndə mənimlə dolu olursan,
Gələndə heç məni tanımırsan da.

Xöşbəxt saatları, çətin anları
Sinənin üstünə düzənə kimi,
Sən heç bilirsənmi nələr çəkirəm? –
Dönürəm başına pərvanə kimi.

Persey* axşam düşcək zəncirlərini
Qırır bircə-bircə, durub baxırsan.
Dərin dərələrə, uca dağlara
Ayağı yaralı gedib çıxırsan.

Nə mənim ah-vayım, nə həyat eşqim,
Nə də çayın səsi deyil vecinə.
Arxayın-arxayın mürgüləyirsən,
Rahat mənzilinin girib içinə.

Günüm, Gündoğandan Günbatanadək
Sənin işığını daşıyıram mən.
Arabir üzülüb əldən düşəndə
Yenə həvəsinlə yaşayıram mən.

Sənin nə quşların, nə küləklərin
Qəlbim susmayınca susan deyildir.
Səni Gündoğandan Günbatanadək
Aparmaq mənimçün asan deyildir.

---

***Persey – Qədim yunan mifologiyasının qəhrəmanlarından biri***

## ÇİÇƏK

Söyüd elə bil ağlayır
Başını əyib aşağı.
Sanki onun çiçəyidi
Budaqdakı ay işığı.

## VİDA

Əgər mən ölsəm,
pəncərəni bağlamayın,

Uşaqlar portağal yeyirlər.
(Mən onu pəncərədən görürəm.)

Biçinçilər zəmi biçirlər.
(Mən bunu pəncərədən eşidirəm.)

Əgər mən ölsəm,
pəncərəni bağlamayın!.

## PRELÜDİYA

Qovaqlar da çıxıb gedir,
Ancaq göydə əksi qalır.

Qovaqlar da çıxıb gedir,
Bir əsim nəfəsi qalır.

Qara donlu küləyə bax,
Bəzən gecə susur o da.

Axan çayda eşidilir
Ondan qopan əks-səda.

Ötən günlərin üstünə
Nur saçır işıldaböcək.

Mənim ovcumun içində
Çırpınır bir kiçik ürək…

# QARAÇI ROMANSLARI

## AY HAQQINDA ROMANS

Paltarların üstə düşüb
Ay qaraçı məhləsində.
Gözlərini çəkə bilmir,
Bu oğlan deyil özündə.

Ay uzadır əllərini,
Külək gəlibdir həvəsə.
Qalaylı döşü açıqdır,
O, bunu hiss etmir nəsə.

– Gizlən, gizlən, mənim Ayım,
Qaraçılar gəlsə əgər,
Ürəyini alıb sənin
Gümüş kimi döyəcəklər.

– Oğlan, mənim rəqsimə bax,
Niyə əsirsən qorxudan?
Qaraçılar qayıdanda
Olacaqsan sən yuxuda.

– Mənim ayım, tez ol gizlən,
Atlı yaxındadır daha.
– Çox soyuqdur, kraxmallı
Paltarıma toxunma, ha!

Gecikmiş atlı tələsir,
Haray salır barabanlar.
Buz kimi zindan üstündə
Bir uşağın əlləri var.

Yumub qəmli gözlərini,
Yoxdur bir ayrı əlacı.
Veyillənir zeytunluqda
Sakit-sakit bir qaraçı.

Hardasa bayquş ulayır,
Bir ürək bürünüb yasa.
Ay bir uşağın əlindən
Tutub aparır harasa.

Bir qaraçı haray çəkir,
Səsi dünyanı götürür.
Küləklər əsir əsəbi,
Küləklər izi itirir…

**QARA QÜSSƏ HAQQINDA ROMANS**

Torpağı eşən xoruzlar
Soraq gəzir sübh çağından.
Soledad Montoya enir
Kədərlə qüssə dağından.

Onun bədəni – sarı bal,
Qaranlıqda qorxur, əsir.
Sinəsindən nəğmə qopur,
Sızıldayır onun səsi.

– Soledad, nə axtarırsan?
Gecə vaxtı niyə təksən?
– Axı nə işinə qalıb,
Mənim yaxamdan əl çək sən!

Bilirsən nə axtarıram? –
Keçmişimi gəzirəm mən.

Oh, Soledad, mənim dərdim. –
Acıqlı madyan zarıdı.
Üz tutdu dəryaya sarı –
Dəniz onun məzarıdı.

– Mənə dənizdən danışma.
Qara qüssənin otları
Zeytunlu çöllərdə bitir,
Yarpaqları dinlə barı.

– Oh, Soledad, sən kədərsən,
İztirabsan başdan-başa.
Limon şirəsi deyərdim
Gözündən süzülən yaşa.

– Qüssəmi? Qaçıram elə
Bu yollarla axşam-səhər.
Uzun saçlarım yol gedir
Mətbəxdən yatağa qədər.

Geyindiyim duman rəngli
Paltarı seyr elə indi.
Bax, köynəyim təptəzədi,
Bax, tumanım lalədəndi.

Ürəyimə əzab vermə,
Billur kimi suda yuyun.
Uyu, mənim Soledadım,
Soledad Montoya, uyu.

Aşağıda çay oxuyur,
Külək dinir, əsir yarpaq.
Yuxarıda bədirlənmiş
Ayın başında taca bax.

Eh, acıqlı qaraçının
Dərdi gizlidir həmişə.
Hicra guşələr sübh çağı
Həsrətdir nura, günəşə…

**SOMNABUL ROMANSI**

Mənim eşqim, yaşıl çiçək,
Yırğalayır onu külək.
Dənizdə bir uzaq yelkən,
O, bir köhlən atdı bəlkə?!

Gecələr duman içində
İşıq kimi şəfəq saçır.
Baxışları gümüşüdü,
Yaşıldı qaməti, saçı.

Mənim eşqim yaşıl çiçək,
İndicə ay görünəcək.
Ondadır dünyanın gözü,
Xəbərsizdir bundan özü.

Mənim eşqim, yaşıl çiçək.
Delfin kölgəsiylə qaçır.
Ulduz tək bərq vuran qrov
Dan yerinə yollar açır.

Əncir yarpağı dalayıb,
Külək haray qoparıbdır.

Dağlar vəhşi pişik kimi
Tüklərini qabardıbdır.

Kim gələcək, axı hardan? –
Tənha qalıbdır əbədi.
Yuxusunda dəniz görür
Onun yamyaşıl bədəni.

– Ay həmyerli, dəyişərdim
Qiymətini bilə-bilə, –
Atımı bu daxma ilə,
Bıçağımı güzgü ilə.

Uzaq Kabradan gəlirəm
Qızıl qanım axa- axa.
Çox danışma, kövrəlirəm,
Olmuşam ürəyi yuxa.
Daha mən də mən deyiləm,
Mənim deyil bu ev daha…

– Doğmaların, əzizlərin
Giləlınsin gözündə yaş.
Holland soruğu üstündə
Adam kimi öləydim kaş.

Görmürsənmi boğazımda
Açılan dərin yaranı?
– Oğlan, yaran qorxuludur,
Qurumayıb hələ qanı.

Sənin meydan sinən üstdə
Lalələr açıb elə bil.
Daha mən də mən deyiləm,
Ta bu ev də mənim deyil.

– Heç olmasa icazə ver
məhəccərin üstə qalxım,
ordan çəmənlərə baxım,
bir az arxayın inləyim.
Ay işığının altında
Dəniz səsini dinləyim…

Güc-bəlayla məhəccərə
Onlar qalxdılar yanaşı.
Qan izinin üzərinə
Ələndi duzlu göz yaşı.

Dan yerini görən fənər
Düşüb yanmaq həvəsindən.
Sübh yuxusu yaralanıb
Qavalın şüşə səsindən.

Mənim eşqim, yaşıl çiçək.
Külək səsindən oyanıb.
Dəmir məhəccərin üstdə
İki qaraçı dayanıb.

Yovşan qoxusu gətirir
Külək o uzaq dağlardan.
– Ay həmyerli, o gözəl qız
De görüm hardadı, harda?

Söykənib bu məhəccərə
Yol gözləyib neçə gecə?!
Qara hörüklər, şux qamət
Ay nurunda əsib necə?!

O sehrli gözlər üçün
Göynəyir burnumun ucu.
Baxışları gümüşüdür,
Yaşıldır bədəni, saçı.

Ləpələnir qaraçının
Laylası ay işığında.
Gecə necə füsunkardı,
Sehri var bu işığın da.
Kefli gözətçi yüyürür,
Karabin var qurşağında.

Məhəbbətim yaşıl çiçək,
Yırğalayır onu külək.
Ağarır dənizdə yelkən,
O, bir köhlən atdı bəlkə?!

## MƏHƏBBƏT YOLUNDA ÖLƏN

– Uca eyvanda od kimi
O nədir yanır, közərir?.
– Oğlum, saat on bir oldu,
Vurmaq lazımdı rəzəni.

– Şölə saçan dörd alova
Dikilibdir mənim gözüm.
– Kimsə döyüb təmizləyir
Yəqin oddan çıxan misi.

Ay sarımsaq dilimi tək
Solur, dərddən düşüb xəstə.
Sarı, qıvrım tellərini
Səpir sarı zənglər üstə.

Döyüb bağlı aynaları
O kimdir qaçır gizlicə?
Yüz hürüşlü it dəstəsi
Onu təqib edir necə?
Eyvandakı şərab iyi
Əriyir, yox olur gecə…

Kölgələrin pıçıltısı,
Küləyin nəmli nəfəsi…
Qədim tağın altındakı
Boşluğun oyanıb səsi.

Öküzlər və qızılgüllər
Yatıb, aynada dörd şüa
Müqəddəs Georgi kimi
Elə bil oxuyur dua.

Qəmlidir gəlinlər, otlar,
Laxtalı qan tutub qaysaq.
Cavan budun üstündəki
Alov saçan laləyə bax.

Dumanlı dağları görüb
Gümüşü çaylar ah çəkir.
Donmuş anlar, paralanmış
Adları calayır bir-bir.

Eyvanlarda, binalarda
Ağ və dördkünc idi gecə.
Mələklərlə qaraçılar
Akkardion çalır necə?

– Əgər mən ölsəm, ay ana,
Bunu kimsə biləcəkmi?
Göndərdiyin mavi rəngli
Teleqramlar gələcəkmi?

Sinəm üstə yeddi yara,
Yeddi qızılı lalə var.
İçi qəm-qüssəylə dolu
Solğun ayı sındırdılar.

Əklildən, pırtlaşıq saçdan,
Qandan ləpələnir üzü.
Allah bilir ki, hardadır
O kor lənətlər dənizi.

Zorla soxulur içəri
Səma dönüb əsən yelə.
Axşam, uca bir eyvanda
Dörd şüa nur saçır elə…

**XƏYANƏTKAR QADIN**

Mən bir füsunkar qadını
Dərəyə çəkmişdim gecə.
Sanırdım ki, günahsızdır,
Yanılıbmışam gör necə?!

O gün Santyaqo gecəsi
Sevinc, şadlıq qoxuyurdu.
Bütün işıqlar sönmüşdü,
Çəyirtkələr oxuyurdu.

Toxundum mürgülü döşə,
İntizar gözlər od saçdı.

Əllərimin istisindən
Çiçəklər gözünü açdı.

Qulağımın dibindəcə
Kraxmallı tuman əsdi.
Elə bil ki, iti bıçaq
İpəyi doğradı, kəsdi.

Elə bil ki, toranlıqda
Ağaclar yuxu görürdü.
Hardasa lap uzaqlarda
İtlər nəyəsə hürürdü…

Böyürtkənlik arxasında
Xöşbəxt anlar yaşayırdım.
Qətran tək qara saçları
Ağ qumluqda oxşayırdım.

Gözəl donunu soyunub
Varlığımı atdı oda.
Mən açanda kəmərimi
Korsajını açdı o da…

Casmin qoxulu dərisi
İnci tək bərq vurdu gecə.
Ay işığı şüşə üstdə
Necə bərq vurur, eləcə…

Sudan təzə çıxarılmış
Balıq tək titrəyir budu.
Ayın işığı üşüdür,
Yandırır döşünün odu.

Mən sehrli yollar ilə
Göz yummadan bütün gecə
Atlas donlu bir madyanı
Minib çapdım səhərəcən…

Eh, bəzi kişilər kimi
Mən də ədəbsiz-ədəbsiz
O pıçıldayan sözləri
Deyiləm təkrar edəsi.

Dan yeri ağaran zaman
Öpüb məni həsrətli tək
Getdi, onun arxasınca
Tozanaq qopardı külək.

O gün özümü apardım
Namuslu bir qaraçı tək.
Ona mücrü bağışlayıb
Dedim: – Bir də görüşməyək!

Xatırlayıb o gecəni
Məhzun-məhzun mənə baxdı.
And içdi: ərli olsa da,
Bu işdə günahı yoxdu…

**İSPAN JANDARMALARI HAQQINDA ROMANS**

Onların atları qara,
Onların addımı yekə
Onların plaşlarının
Ətəyində qara ləkə.

Qara-qara qurğuşundu
Ağlaya bilmir jandarm.
Ürəyi daşa dönübdür,
Kəməri çəkilib tarım.

Donqar-donqar çiyinlərə
Çox ağır yük götürürlər.
Sərt qasırğa vahiməsi,
Tutqun duman gətirirlər.

Gizlənməyə cəhd eləmə,
Onlar səni hər an tapar.
Eh, göydəki ulduzun da
Karabinə bənzəri var…

Ey gur qaraçı şəhəri!
Qoynunda yüzlərlə bayraq!
Saralır budaqda gilas,
Göydə ay, yerdə balqabaq.

Səni unutmaz, hüsnündən
Kimin var isə xəbəri,
Ey qülləli, müşk, zəncəfil.
Dərdlər, ələmlər şəhəri.

Hər tərəfə toran çöküb,
Gecə, füsunkar bir gecə…
Kiçik dəmirçixanada
Qığılcım od saçar necə?!

Həyətdəsə ağlayır at,
Yarası ağrıyır, nədir?!
Xeres de la franterada
Xoruz banlayır arabir.

Qəzəblənib, özünü hey
Ora-bura çırpır külək.
Dan yeri ağarır, gecə
Sanki füsunkar bir mələk.

İosif Mariya ilə
Gəlir bu şəhərə sarı.
Onlar yolda itiriblər
Çox lazımlı şaxşaxları.

Mariyanın sırğaları
Nə gözəl göstərir onu.
Şokalad qabığı kimi
Parıldayır zərif donu.

İosif plaşı atıb
Qaraçılara əl edir.
Pedro Domek və üç sultan
Onun arxasınca gedir.

Leyləklər yuxu görürlər,
Ay dörd yana şəfəq saçır.
Fülügerlərin üstündə
Odlar və bayraqlar uçur.

Güzgü üstündə hönkürür
Rəqqasələrin kölgəsi.
Xeres de la fronterada
Hey ucalır nəğmə səsi.

Ey gur qaraçı şəhəri!
Sinən bəzənib bayraqla!
Keşikçilər yaxındadır,
Aynaları tez ol, bağla!

Nə göz, nə də könül doyar
Sənin kimi bir şəhərdən.
Sakit-sakit uyuyursan,
Xəbərin yoxdur xəbərdən…

Şəhər oxuyur, rəqs edir.
Onlar gəzir qoşa-qoşa.

Ölüm xışıltısı, ah-vay
Doldurulub patrondaşa.

Onlar gəzir qoşa-qoşa,
Gəzir qara xəbər kimi.
Əllərindəki mahmızlar
İşıldayır ülkər kimi.

Uzaqdır həyəcanlardan,
Heç nə bilmir hələ şəhər.
Qırx jandarmın başı üstə
Uçur şən səslər, nəğmələr.

Uca-uca qüllələrdə
Elə bil saatlar donub.
Çaxır elə soyuyub ki,
Adicə şirəyə dönüb.

Tutqun səslə haray salıb
Flügerlər hey fırlanır.
Qılıncların zərbəsindən
Küləklər də yaralanır.

Dərədə işıq və kölgə…
Qarılar nə gəzir orda?
Bərq vurur mürgülü saçlar,
Sayrışır mis manatlar da.

Plaşların nəhs ətəyi
Kölgənin dalınca uçur.
Qara yellərin qayçısı
Qapqara atları qucur.

Qapıların qarşısına
Adamlar və atlar gəlib.
Ölülərin üzərində
İosifin yaralı əli.

Gecə karabinlə dolu,
Qəzəblidi hava belə.
Bakirə qız uşaqları
Həmdərddi ulduzlar ilə.

Jandarmlar at çapırlar,
Naldan qopan alova bax.
Dörd tərəfə şölə saçıb,
Nağıl deyir hər bir ocaq.

Rosa Kanbaronun döşü
Deşilibdir xəncər ilə.
Bürünc nimçənin içində
İsti qan buğlanır hələ.

Saçı dağılmış gözəllər
Qurddanmı qorxub qaçırlar?
Barıt rəngli qızılgüllər
Küçədə çiçək açırlar.

Dam üstdəki kirəmitlər
Görəsən nə düşünürlər?
Payız gəlir, divardakı
Daşlar belə üşüyürlər.

Mənim qaraçı şəhərim,
Söylə, niyə kirimisən?
Jandarmlar çapıb gedib,
Sən odlara bürünmüsən.

Mən səni necə unudum,
Nur saçırsa ayın hələ?
Bəbəyimdə axtarsınlar
İşığını indən belə…

# MÜXTƏLİF İLLƏRİN ŞEİRLƏRİ

## SANTYAQO GÖZƏLLƏMƏSİ

Yağır Santyaqoya
Qəlb sevgiylə doludu.
Arabir şəfəq saçır
Günəş yarıb buludu.

Yağır Santyaqoya…
Zil qaranlıq bir gecə…
Örtür ayın üzünü
Xoş xəyallar gizlicə.

Göylər daş küçələrə
Sanki inci əndərir.
Dəniz mənə küləklə
Kədər payı göndərir.

Santyaqo günəşi
Qaranlıqda gizlənir.
Yağışın damlaları
Ürəyimdə səslənir.

## HƏR HANSI NƏĞMƏ

Hər hansı bir nəğmə –
məhəbbət
çeşməsidi.

Ulduzlar –
əsrin
harayı,
zamanın
səsidi.

Qışqırığın
mənbəyi isə –
güclə eşidilən ahdı.

# QAYIDIŞ SUİTASI

## QAYIDIŞ

Qaytarın
qanadımı!
Vaxtdır,
havaya qalxım!
Ölüm,
necə ölürsə
gecə səhərə yaxın.
Uçub çayın üstüylə
Düşünüm həyat haqda.
Ölmək istəyirəm mən
unudulmuş
bulaqda.
Ölmək istəyirəm mən
dənizdən
çox uzaqda.

## QIJOV

Bu qıjov
bulanıqdı.
Bu qıjovun içində
ulduzlar görünmür, bax!
Hər şey
unudulacaq,
hər şey
yuxu olacaq…

## GERİYƏ

Tələs, ürəyim,
ora! –
Sevginin, məhəbbətin
izi olmayan yerə.
Mavi-mavi çiçəklər
Heç vaxt solmayan yerə…
Orda kimsənin əli
mənə yetişməyəcək.
Yaram sevgi sözüylə
daha bitişməyəcək.
Ora, ürəyim,
ora!..

## DƏNİZ PƏRİSİ

Uzaqlar aydınlaşır!
Bəs mənim dərdim necə?

(İtəcəklər, sular qumda
Necə itir, eləcə.)

Uzaqlar hey nur saçır…
Güclüdürmü bu həsrət?

(Məni yaddan çıxarma,
Özünü mənə
həsr et!)

Uzaqlar necə gözəl…
Qüssə bir kor dumandır.

(Məni və onu
yandır!)

**DÖNGƏ QARŞISINDA**

Qayıdım uşaqlığa,
yenə gözlərim dolsun.
Qayıdım o illərə,
sonra nə olur-olsun.

Bağışla məni, bülbül,
Hələlik, vaxtdır daha!
Çiçəklərin ovcunda
Qərq olum qaranlığa.

Ey xoş qoxu, qoy səni
qoxlayıb diz çöküm mən.
Tez ol, dol ürəyimə,
Qaranlıqdan çəkinmə!

Məhəbbət, salamat qal!
Uzaq yol üstdəyəm mən –
(Çıx ölmüş ürəyimdən!)

## XATİRƏ

Anam Hüqonu oxuyur,
Arabir titrəyir səsi.
Öləziyir qürub çağı
Şabalıdın lüt gövdəsi.
Bataqlığa doğru üzən
Bir sarımtıl ördək təki
Evimizin toranında
Günəş batır, zülmət çökür.
Buz bağlamış kövşənlərdə
Şaxta çevrilib qılınca,
Qorxulu bir kabus kimi
Gedir sürünün dalınca.
Hamıdan xəlvət, gizlicə,
Bir gül dərdim həmin gecə.
Hərarətli qızıl gülün
Çox solğun idi görkəmi. –
Balkondan güclə seçilən
Şabalıdın nuru kimi…

## ƏGƏR

Dağlı qızı, bilirsənmi
Gilas dibində əsirəm
Öləziyən işıq kimi.
Gözləyirəm həm qəzəbli,
Həm vurulmuş aşiq kimi.
Dağlı qızı bilirsənmi,
Əgər o göylər olmasa,
Bu gilas da olmayacaq.
Dodağını gizləməyə
Daha lüzum qalmayacaq.

## VİDA

Vidalaşdım
Yol qırağında.
Doğmalarımı duyaraq,
uzağa – ağlamağa tələsdim.
Ancaq özümə ağladılar.
Vidalaşdım
yol qırağında.
Qərib yollarla gedəcəyəm
çaşqınlıq içində,
qara-qara xatirələrin
qəmgin anlarını oyatmaq üçün.
Vida ərəfəsində
ulduzlar titrəyəcək gündoğanda.
Mən qayıdacağam səssiz melodiyanın
bəyaz pöhrəliyinə…

## ELEGİYAYA BƏNZƏR

Həyat əbədi deyilsə,
Axı nəyə gərəkdi?
Yol yorğunluq, eşq üzgünlük,
Ömürsə çox gödəkdi.

Tələsirik, vaxt çatışmır,
Dözürük hər zillətə.
Sonu puçsa bu dünyanın
Dəyərmi heç zəhmətə?

Dostlar, dönün əslinizə,
Eldən uzaq qaçmayın.
Ölüm vaxtı
bir kimsəyə
qəlbinizi açmayın!

## GECƏ

Titrək səs və fortepiano
üçün suita.

**PASSAJ***

Hər tərəfdə
kimsəsizlik.
Hər tərəfdə.

Cırcıramanın
yetim səsi.
Yetim səs.

Kədərli zınqırovun
yuxusu.
Yuxu…

**PRELÜDİYA****

Öküz
tələsmədən
gözünü qırpır
bordaq xumarında…
Bu, uzadır
gecənin musiqisini.

---

***Passaj - musiqi əsərlərinin virtouz xarakterli parçası**
****Prelüdiya – kiçik musiqi əsəri**

## SƏMANIN BİR PARÇASI

Qoca ulduzların
gözü –
gur işıqdan yaşarır.

Cavan ulduzların
varmı
heç onlara oxşarı?

Təpədə, şamın yanında
Gördüm odlu bir çiçək.
Nur saçırmış dörd tərəfə
Demə, işıldaböcək.

## ULDUZLAR

Öləziyib işığı,
o ulduza yaxşı bax,
Əsrlərcə o ulduz
yerə nur saçmayacaq.
– Bəs indi o hardadı?
– Körfəzin içindəki
Mürgülü
sulardadı.

## SEYRƏK MEŞƏ

Santyaqoya gedən yol.
Keçib getdim o yolu
Mən aylı bir gecədə –
Qəlbim sevgiylə dolu.

Quşlar oxuyurdular
Gecənin bu çağında –
Çiçəkləmiş limonun
Ətirli budağında.

## ANA

Bax, böyük Ayı bürcü
Çox razıdı işindən.
Balaca ulduzlara
Süd verir  o, döşündən.

Əzizləyir, sevir o,
Öz oğlunu, qızını.
Deyir: – Südümdən içib,
İşıqlanın, qızının.

## VİDA  MƏQAMI

Öləziyən ulduzlar
Səmadan gedəcəklər.
Bu da bir dərd,
bir kədər.
Axı hara gedirlər?
Onsuz da göydə gec-tez
Əriyib itəcəklər
Bu da bir dərd,
bir kədər. –
Onlar hara gedirlər?

## SAKİT SULAR

Düşüb çayın içinə
Mənim gözlərim axır.
Məhəbbətlə, kədərlə
Hey üzür çay aşağı.
Ürəyimdə deyirəm:
Uzaqmı vida çağı?

Qupquru otlar üzür
Sakit suyun üzündə.
Əzəmətlə, vüqarla
Üzür suyun üzündə.
Getmək vaxtı deyilmi? –
Soruşdum öz- özümdən.

## ÖLMÜŞ UŞAQLAR HAQQINDA AĞI

Mənim bəxti qara Qranadamda
Günahsız uşaqlar ölür hər gecə.
Körpə şəhidləri dinləmək üçün
Dalğalar sahilə gəlir gizlicə.

İki cür külək var: tutqun və aydın,
Kövrək budaqları qara yel qırıb.
Uca qüllələrə dırmanır külək,
Uşaq yarasıdır elə bil qürub.

Havada göyərçin tüküylə birgə,
Sərxoş qatillərin nəfəsi uçur.
Sərt daşlar çevrilib quma elə bil,
Qansız dodaqlarda dərd puçur- puçur.

Atılır dağlardan buz salxımları,
Həsrətdən çiçəklər düşüb nə kökə?!
Mavi kölgəsində mənim ovcumun
Sən də üşüyürsən, ey buz məleykə!

## AĞLARTI HAQQINDA QƏSİDƏ

Pəncərəni bağlamışam,
Bu cəhdim əbəsdir, əbəs.
Eşidilmir otağımda
Ağlartıdan başqa bir səs.

Mələk səsi batırmağa
İt hürüşü qadir deyil.
Min skripka harayı
Ovcuma sığır elə bil.

Ağlartı – yeganə mələk,
Ağlartı – yeganə nəfəs.
Ağlartı – yer üzündəki
İlk skripka deyilmi bəs?
Külək əsir, eşitmirəm
Ağlartıdan başqa bir səs.

## ƏLÇATMAZ ƏL HAQQINDA QƏSİDƏ

Təkcə əllərini istəyirəm mən,
Yaralı əlinçin həsrətdir əlim.
Təkcə əllərini istəyirəm mən,
Qoy nə yuxu bilim, nə də ki ölüm.

Qəlbimdən boynuma qızıl yol kimi,
Qızıl cığır kimi axan qana bax.
Sonuncu gecəmdə – əyləşdiyim yer,
Kor ayı yanıma buraxmayacaq.

Təkcə əllərini istəyirəm mən,
Sığalın, tumarın bilim dadını.
Təkcə  o əlini istəyirəm mən,
Mənim ölümümün ağ qanadını.

Hər şey necə varsa qalıb eləcə,
Solğun kəhkəşana baxasan gərək.
Sonuncu yarpaqlar – son göz yaşları,
Hıçqıra-hıçqıra ağlayır külək…

## NƏĞMƏ

– Tıq- tıq…
– Söylə, kimdir gələn?
– Mənəm, payız kədəriyəm,
Tanışıq, doğmayıq biz ki,?!
– Sənə nə lazımdır axı?
– Ağzınacan dolu viski.
– Verməरəm qətidir sözüm.
– Verməzsən alaram özüm.
Tıq- tıq…
– Daha yorulmuşam.
– Aç qapını, mənəm, – qışam.

## QARA AY

Sahil üstdə ay qaradı,
Dəniz kükrəyir, çağlayır.
Doğulmamış uşaqlarım
Mənim arxamca ağlayır.

Ata, bizi atma, dayan!
Göynəyər, qəlbimiz sızlar.
Gözüm süzülüb axdıqca
Mahnı oxuyar xoruzlar.

Dalğaların arxasında
Sular olar bir daş ada.
Ata, bizi atma! –
Bu səs
Yanıqlı bir əks- səda.

## ÜMİDSİZ NƏĞMƏ

Çaylar axır,
otlar əsir.

Mənisə
külək titrədir.

Nişanlı qızın evinə
Sevinc gəlib…
Gözlərini
Uzaqlara dikir o qız.
İpək sapla ürəyinin
Surətini çəkir o qız.

Mənisə
külək titrədir.

# ALMAN ŞAİRLƏRİNİN ŞEİRLƏRİ

## Peter Şyutt

### İNSAN ADI

Məni çoxlu ata,
çoxlu ana
gətirib dünyaya.
Qardaşlarım,
bacılarım
gəlməz saya.
Atam ağdır,
anam qara olsa da,
qəşəngdir.
Bacılarım, qardaşlarım
rəngbərəngdir.
Mən min dildə danışıram,
var on min yaşım.
Ustalar qədim piramidanı
ucaldanda,
mən daşımışam
bu qədər daşı…
Mənəm –
yeddiqapılı Fivanı tikəndə
qan-tər içində
nəfəsi kəsilən
adsız adam.
Mənəm –
qolları zəncirli
qul və qiyamçı.

Məni döyə-döyə
dar ağacına aparıblar
əllərində qamçı.
Mən fəhləyəm, mən aliməm,
mən rəssamam, mən müəlliməm.
Dünyanın yeddi möcüzəsini
mən yaratmışam.
Səkkizinci möcüzə – özüməm.
Təpədən dırnağacan
dəyanətəm, dözüməm.
Mənim gözlərim var
görmək üçün.
Mənim qulaqlarım var
zamanın səsini
eşitmək üçün.
Mənim başım var,
düz yolumla getmək üçün.
Mənim adım…
insandır, İNSAN.

## DAHA YER YOXDUR

Mənim Vətənimdə –
Basbek kəndindəki
müqəddəs Troitsa kilsəsində
dörd xatirə lövhəsi asılıb.
Bir lövhədə
1812 – 1813-cü ildə
ölən dörd nəfərin;
bir lövhədə
1870 – 71 - ci ildə ölən
səkkiz nəfərin;
bir lövhədə
Birinci dünya müharibəsində

itkin düşən 43,
bir lövhədə isə
İkinci dünya müharibəsində
itkin düşən
121 nəfərin
adı yazılıb.
Müqəddəs Troitsa kilsəsində
beşinci lövhəyə
yer yoxdur daha.

## BİZİM ƏSR

XX əsr –
Yan-yana düran
iki ecazkar iks.
Qaranlıq səmada çəkilən
iki odlu işarə.
Bəlkə mənim
hərbi illərə
düşən uşaqlığımı
çalın-çarpaz qorxu ilə
dolduran
projektorlardı onlar?
XX yüzillik,
iki mənalı iks,
iki naməlum əsr.
Bəlkə onlar
dünyanın başının üstünü
alan müharibənin
ilk iki şöləsidi?
Bəlkə Xirosima və Naqasakidə
partlayan ilk atomların
naləsidi?

Onlar nurlu gələcəyin
bir cüt ulduzu da ola bilər,
işığın, hərarətin, məhəbbətin
əbədi mənbəyi də…
İki böyük,
iki naməlum,
iki ecazkar iks.
Müharibəmi,
günəşmi,
xaosmu,
həyatmı olacaq
yer üzündə? –
Bütün bunların hamısı
asılıdı insanın özündən.

**Hans Yurgen Hayze**

## TƏTİL

Oğlan əlləri
balıq tutur
dağ çayından.
Bu əllər həvəslə
unudardılar
qələm tutmağı,
hətta dağ çayı haqqında
inşa yazmağı da…

## ƏLAMƏT

Dünən güllə ilə
axırıncı canavarın
canı alındı.
Vəhşi təbiət üzərində
qəti qələbə çalındı.
İndən belə hər yan
bağ-baxçaya dönəcək.
Budaqlarda qızıl almalar
ulduz kimi
bərq vurub sönəcək.
Belə idi bizim
fikrimizin ölçüsü.
Ancaq evimizin
döşəməsi altında
yuva qurdu çöl siçanı –
Yeni fəlakətin
ilk elçisi…

## ÇƏKİLMƏ

Dərya
içinə çəkilir,
yaxası açılır limanın.
Ayaq dırnaqlarım
saxsı qırıntıları arasında
necə də parlaq görünür!
Dəniz xəritəsindən
ibarət kitab. –
Tufan özünə
yeni marşurut
seçmək üçün
tələsik vərəqləyir onu.

## KƏND UNİVERSİTETİ

Sübh tezdən işə başlayır
kənd universiteti.
Həyətdə,
şəfəqlərin altında
xoruzun parlaq libası
nur saçır.
O, yataq otağının
pəncərəsini açır.
Və pəncərənin o üzündə
semestr başlayır:
noxudlu çöllər,
qumlu yollar,
lap uzaqda isə
zeytun kolları
göz oxşayır…

## AMERİKA ŞAİRƏSİ EMİLİ DİKİNSONA

Dünya
şüşə səmanın altında
elə darısqal idi ki…
Bağdakı bütün kollar
adamı geriyə –
evə qaytarırdı.
Evdə isə qaranlıq,
kədər, həsrət
hökm sürürdü.
Piroq bişirmək,
piroq yemək, –

heç bir iş yox idi
bundan başqa.
Bağda bitən
solmaz çiçəyə
gəldikdə isə
özü yox,
yalnız adı ölməz idi
o çiçəyin…

**Ulla Han**

**ŞƏN REYN ƏXLAQI**

Ürəyimi çəkib atdım
Öz əlimlə sinəmdən.
Torpaq üstdə hey çırpınır,
Görürsənmi onu sən?

Ayaqlarının altında
Əgər sınsa büllur tək,
Təkcə onda, təkcə onda
Dinclik tapacaq ürək…

Nəhayət, sən fikirləşib,
Baxacaqsan üzümə.
Zəifcə bir təbəssümlə
Güc gələcək dizimə…

## ÇÖRƏK VƏ DUZ

Sən hələ ev tikməmisən,
Məhəbbətimin üstündə
Özünə yuva qur gəl!
Sən hələ ağac əkməmisən,
Mənim kölgəmdə dincəl.
Sənin uşaqların yoxdu,
Oxşa məni, qızın olum.
İcazə ver dönüb sənin
Çörəyin, duzun olum…

## ƏMR

Düş
saçlarımın
toruna.
Az
dodaqlarımın
labirintində.
Bədənim
gicitkən kimi
səni dalasın.
Gözlərimin
dənizində
qərq ol.
Köksümün
üstündə
dincəl.

## Roza Auslender

### ANKET

Anket sorğusuna
unudulmuş
adlar və tarixlər,
haraya və haradan,
hə və yox
sözləri yazılıb
imza ilə təsdiqlənməlidi.
Bəli, mən nə vaxtsa
doğulmuşam,
mənim uşaqlığımın
dünyası yoxdur daha.
Mən başqaları kimi
insan deyiləm,
Üç dəfə xaç vurub
deyirəm:
Amin!

### TƏNHALIQ

Hər bir ölkədə
vəhşilər var.
Bizim ürəyimizlə
qidalanır onlar.
Kimlər bizə
kömək edəcəklər?
Kor olub mələklər.
Bütün göz yaşları
axıb tökülür
nəpnazik ağacların,
sopsoyuq zülmətin,

kədərli musiqinin
yerləşdiyi
tənhalıq adasına.

## PAUL SELANIN QƏBRİ

Burada çiçək əkilməyib,
heç lazım da deyil.
Burada ancaq
vəhşi lalə bitməlidi –
sinəsi qara xallı,
ləçəyi ocağın közü kimi.
Torpağın altında yatan
adamın özü kimi.

## PABLO NERUDA

Siz ki tanıyırsınız Pablo Nerudanı, –
dostum Pablonu!

Siz ki tanıyırsınız Pablo Nerudanı, –
möcüzələr şairini.

Hər şey,
hər insan möcüzədi.

Deyirlər ki, o ölüb,
inanmayın buna.

Siz ki tanıyırsınız
ölməz şairi –
Pablo Nerudanı!

## MƏNİM İSTƏYİM

Mən istərdim ki,
gözəl-gözəl çiçəklər açan
bir gül kolu olum.
Xoş avazlı bir
bülbülə çevrilim,
Sinəsi nəğməylə
dolu olum.
Yaxud, günəşin qucaqladığı,
Yağışların yuduğu
hər şeydən uca,
hamıdan qoca
bir dağa dönüm.
Eh, bunların hamısı
nağıldı ancaq.
İstəmirəm nə gül kolu,
nə bülbül,
nə də dağ olmaq.
Mən elə özüm olmaq,
indiyədək sevdiyim
bir neçə adamı sevmək,
ömrümü bütün dünya ilə
bölmək istəyirəm.
Heç olmasa,
bir sözümlə ölənə qədər
yaşaya bilmək istəyirəm.

**Mahmud Dərviş**
**Muin Bsisu**
Fələstin

## İSRAİLLİ ƏSGƏRƏ MƏKTUB

Poema

Beyrut – o Beyrut
Durub dediyinin üstündə.
Budaqlar barrikadaya dönüb
Quşların gözündə.
Beyrut Beyrutda
mühasirəyə alınıb,
Pəncərələrin
şüşəsi qırıq-qırıq…
Paytaxtımız,
Allahın sevimli yeri,
İndi sən –
Qəzəb və vüqarın
qorxunc adına dönmüsən.

***

…Elə hey yazacağıq
mərmi ya bizi,
ya səni tapana kimi.
Sonuncu mühasirənin,
sonuncu həmlənin
Beyrutu cəhənnəmə
çevirəcəyi ana kimi.
Biz sənə yazırıq:
Sənin atdığın mərmi
dönəcək göz yaşına.
Sənin atdığın mərmi

Hitlerin əsir düşərgəsinin
zülmətini,
bizim bədənimizin,
göz yaşlarımızın
qaranlığını həkk eləyəcək
sənin yaddaşına.
Biz sənə yazırıq:
Dərd nə qədər
bağrımızı deşəcək?
Nə vaxta qədər
dəniz ada ilə döyüşəcək?
Nə vaxta qədər
əzab verəcəksən
həm bizə, həm özünə?
Nə vaxta qədər
əzab verəcəksən,
mil çəkəcəksən
jasminlərin çiçəkləyən
gözünə?
Haçanacan qəbir qazıb
içində yaşayacaqsan, əsgər?
Biz sənə yazacağıq
mərmi ya bizə, ya sənə
tuş olana qədər.
Biz sənə yazırıq Beyrutdan –
Bizim cəhənnəmimizdən.
Bu poemanın mühasirə adlı
ilk şeirini oxuyub,
soruşuruq dönə-dönə,
soruşuruq yana-yana:
nə ad vermək olar
bir başqasını haqsız yerə
mühasirədə saxlayana?

Dəmir içində yaşayanmı,
yaxud poemada yaşayanmı?
Biz sənə yazacağıq
mərmi ya bizə,
ya sənə tuş olana qədər.
Sənə,
dustaqları və əsirləri
qandallayan əsgər.
Sən keflisən.
Sənin zirehli paltarın
tırtılların üstündə sürüşür.
Bəs səni heç nə qorxutmurmu?
İndi sən ən möhkəm,
zirehli divarın arxasında –
Tankın içində,
Həbsxanada olan kimisən –
Məgər səni heç nə qorxutmurmu?

***

Ester haqqında danış:
O yenə də üzürmü
Askalon dənizində?
Yenə də çimirmi?
Dalğaların qoynunda nar yeyirmi?
Sakitcə uşaq böyüdürmü
Əvvəlki kimi?
Dağılanı sən dağıtdın,
Öləni sən öldürdün.
Partlayanı sən partlatdın.
Göz tökənin tökməzlərmi gözünü? –
Heç nə qorxutmurmu özünü?

***

İndi biz kimik Livanda
sənin fikrincə?!
Güllələrdən deşik-deşik olmuş
qum kisəsimi?
Tüstü içində çaşbaş qalan qoyunmu?

***

Of, yolu azmışıq
zaman və məkan mövhumatında.
Of, yolu azmışıq
Yadırğadığımız labirintlərin altında.
Ölüm oğlu, od və bıçaq oğlu,
nələr yazılıb
sənin ruhunun yaddaşına? –
Bir söz çıxsın dilindən.
Özüylə ətdoğrayan aparan əsgər,
boynuna al:
Nələr öyrənmisən
Osvensimdə yandırılan insanların
üyüdülmüş külündən?
Məgər Yerusəlimə hücümdan,
Vavilonu əsarət altına alandan,
Betxonu zəbt edəndən sonra
Bir şey qazandınmı?
Qazancın yalnız budur:
Sapand daşı.
Ölüm və göz yaşı.
Kimin baltasıdır
Başımızın üstündən asılan?
Məgər sən özün heç nədən qorxmursan?

***

On yaşlı Ayişənin
başının altında qum kisəsi.
On yaşlı Saranın gözləri

qəm pəncərəsi.
Bizim analarımızın güzgüsüdürmü
o gözlər?
Küçəyə atılan qadınlarımızın
üzləri solğun,
baxışları mükəddər.
Sənsə öz zirehli maşınının üstündəsən,
Əllərin qanımıza bulaşıb, əsgər!
Sənin özünü heç nə qorxutmur məgər?

***

Mühasirə hey uzanır…
Arxamızda dəniz.
Mühasirə hey uzanır…
Səngərə çevrilir bədənimiz.
Yanğın – fışqıran qanımız.
Mühasirə hey uzanır…
Biz daşları bişirəcəyik,
Ayı öz əllərimizlə yoğuracağıq.
Bizim gözəl çayımızı
sizin yolunuz üstündə
sərhəd kimi dayanmağa çağıracağıq.
Mühasirə hey uzanır…
Allah – üzük üstündə yazılan
adicə ad deyil,
İnsanın ürəyindədir Allah.
Bizim yaramız alova dönüb
dünyanı yandıracaq.
Mühasirə hey uzanır…

***

Bu gün bol olubmu məhsulun?
Tozlu paltarına çoxmu qan hopub?
Öldürülüb – qan içindədi günahsız bir bədən.
Bəlkə onu sən özün öldürmüsən uf da demədən?!
Sünbülləri, çiçəkləri, mavi səmanı yandırmağa

kifayət qədər bomban, benzinin var.
Qatili görəndə nəinki adamlar,
hətta kuklalar da qorxar.
Ölənin üzündə öldürənin əksinə bax bir…
Vavilondan Vavilona uzanır
möhkəm bir zəncir.
Nə vaxta qədər güzgüləri qıracaqsan?
Qələbənin yaxın olduğunu düşünə-düşünə
Döyüşəcəksən nə vaxta qədər?
Çökmüsən insanların döşünə,
özün heç nədən qorxmursanmı, əsgər?

***

Gərilmiş sifətlər,
tunc kimi cingiltili nida…
Dağılmış küçələrdə
yanıqlı əks-səda.
Sən öz tırtıllı, zirehli maşınında
bizim üçün hazırca səhra,
hazırca qəbir axtarırsan.
Görəsən bu ölkədə ölənlərə
kifayət edəcəkmi qəbristan?
Zaman gərdişindədi, bizdən əlini çək.
Bizim oradakı evimizi,
bizim oradakı dənizimizi
heç kəs sənə verməyəcək.
Naringilər çiçəkləyən o sahildə keçib
bizim uşaqlıq illərimiz.
O torpaqdan ayrıla bilməz
bizim ürəklərimiz, əllərimiz.
Tarixin yağışları yağacaq…
Hələ tükənməyib inamımız,
hələ ordayıq, hələ ordayıq bizim hamımız.
Tariximiz unutmayacaq o çağları.
Öz yolunla getməyə öyrətmə uşaqları.

Neyləyəcəksən mürgülü vulkan oyansa əgər?
Sən özün heç nədən qorxmursan məgər?

***

Ey tank sakini!
İnsan bütün ömrünü tankda keçirə bilərmi?
İnsan tankda oxuyub yaza bilərmi?
İnsan tankda qadın sevə bilərmi?
Ey tankın bətnindən çıxan,
ey tankın bətninə girən!
Sən tankın qulu olacaqsan nə vaxta qədər?
özün heç nədən qorxmursan məgər?

***

Esterə yazdığın növbəti məktubu
Nə vaxt yola salacaqsan?
Yazmısanmı tezliklə müharibə qurtaracaq,
tezliklə sevgilinlə birlikdə olacaqsan?
Mühasirəyə salınmış şəhərlərin küçələrində
heç nə qalmayıb qazılmış səngərdən başqa.
Müharibə qurtaranda yeni sevdaya uyacaqsan.
Ağrıdan-əzabdan uzaq qaçsan da,
bilmirəm qanlı əllərini necə yuyacaqsan?
Suyun – anaların göz yaşı.
Sabunun – öldürdüyün körpələrin başı.
Bunlar səni qorxutmur məgər?

***

Çoxsifətli müstəmləkəçi!
Nə vaxta qədər döyüşəcəksən?
Nə vaxta qədər ölü bədənləri xatırlayıb,
aləmi üstünə güldürəcəksən?
Divar saatı kimi özün yatıb,
Vaxtı öldürəcəksən?
Nə vaxta qədər qorxacaqsan

Fələstinin qum dalğasından,
od püskürən torpağından?
Nə vaxta qədər qorxacaqsan
zərif ceyran ayağından?
Nə vaxta qədər qorxacaqsan zəlzələdən?
Nə vaxta qədər gözləyək:
səhərdən axşamacan,
axşamdan səhərəcən?
Nə vaxt partlayıb
məhv olacağıq biz,
nə vaxt partlayıb
məhv olacaqsan sən?
Bu ağrılar, əzablar nə qədər çəkəcək?
Çörəyimizə, suyumuza nə vaxta qədər
zəhər çökəcək?
Nə vaxta qədər ora-bura
dürtüləcəksən?
Nə vaxt cəhənnəmə itiləcəksən?
Biz elə bil ki, səninlə bir meyitin
iki üzüyük.
Ancaq aramızda dərin uçurumlar,
çaylar var.
Nə vaxta qədər çiyinlərində
cənazə aparacaqsan? –
Sən, ey cənazələr sahibi,
söylə, nə vaxta qədər?
Sənin özünü heç nə qorxutmur məgər?
Sənin özün qorxmursanmı, israilli əsgər?

**Sergey Yesenin**
Rusiya

## GECƏ

Çay gedibdir mürgüyə,
Qaranlıq meşə yatıb.
Bülbül susub, çəkçəki
Quşunun səsi artıb.

Gecə. Səssizlik. Sükut…
Təkcə çağlayır bulaq.
Ayın təbəssümüylə
Nurlanır yaxın, uzaq.

Gümüş ziya altında
Yuyunur çaylar, göllər.
Nura qərq olur otlar,
Nura qərq olur çöllər…

Gecə. Səssizlik. Sükut…
Yatıb təbiət ana.
Ay isə gülümsəyir,
Şəfəq saçır dörd yana…

***

Mürgülü zəng səsi
Oyadır düzləri.
Günəşə dikilir
Torpağın gözləri.

Göylərə ucalır
İlahi bir nəfəs.
Meşənin qoynunda
Oyanır o şux səs.

Çayın o tayında
Gizlənib bəyaz ay.
Sular hey çağlayır
Salaraq hay-haray.

Bu sakit dərənin
Yuxusu əriyir.
Zınqırov hardasa
Lal olur, kiriyir…

***

Tarla boş qalıb, biçilib zəmi,
Sulardan göyə dumanlar qalxır.
Günəş qızılı bir təkər kimi
Dağın başında fırlanır, baxın!

Qazılmış yollar dinclikmi tapar? –
Mürgüləsə də, getsə də huşa,
Onun qəlbindən bir səda qopar:
Az qalıb qışa, az qalıb qışa!

Dumanlı axşam, titrəyir ürək,
Meşə içində əsl möcüzə…
Birdən gördüm ki, kürən qulun tək
Ay qoşulubdur xizəyimizə…

## QUCIĞAZ

Meşədən, qalın meşədən
Qalxır qızılı şəfəqlər.
Şüalar göyqurşağı tək
Səpilir, gülür üfüqlər.

Yanır uca, qoca şamlar
Elə bil odlar içində.
Onlar necə gözəldilər
Bu geyimdə, bu kecimdə…

İnci şehlər dörd tərəfdə
Hey bərq vurur mirvari tək.
Qamışlar nə pıçıldayır
Sakit gölə baş əyərək?!

Elə bu vaxt qar tək dümağ
Bir qu quşu üzüb gəldi.
Qaranlıqdan mavi gölə
Şəfəq kimi süzüb gəldi.

Onun ardınca nizamla
Gedən körpə qulara bax.
Üzürlər, ayna tək gölü
Zümrüd kimi doğrayaraq.

Nazlı-nazlı süzüb gedən
Qular məni heyran edir.
Arxalarınca tünd, uzun
Bir zolaq uzanıb gedir.

Üzür ağ qu tələsmədən
Başını tutub yuxarı.
İpək kimi otlar bitən
Gölün sahilinə sarı.

Əyərək zərif boynunu
O çıxdı yaşıl sahilə.
Burda sular pıçıltıyla
Danışır zanbaqlar ilə.

Qu çağırdı körpələri,
Dedi: – Bura sarı üzün.
Ətirli ot yeyə-yeyə
Bu gözəl çəməndə gəzin.

Gəlib çıxdı qucığazlar,
Dimdikləndi hər ot, çiçək.
Səpildi, dağıldı yerə
Gümüş şehlər mirvari tək.

Dörd tərəfdə açan güllər
Mavi suya baş əyirdi.
Uzaqdan gələn qonaq tək
Dan yeri gülümsəyirdi.

Gəzirdi körpə balalar,
Sakitlik idi dörd yanda.
Anaları üstlərindən
Göz çəkmirdi bircə an da.

Yerdə ilanmı sürünür,
Göydən quzğunmu baxırdı?

Ana qu çox həyəcanla
Balalarını çağırdı.

Ana qanadı altından
Etibarlı bir yermi var? –
Şimşək susdu, körpə qular
Çıxıb yenə qaçışdılar.

Günəşin önünü kəsən
Bir əlçim qara "bulud"u
Nə gördü, nə hiss elədi,
Arxayınca gəzişdi qu.

Mavi göydə süzə-süzə
Cavan qartal yerə baxdı.
Seyr elədi düzənliyi,
Gözlərində şimşək çaxdı.

Birdən qaranlıq meşədə
Gözünə ilan göründü.
Qızınmaq istəyən gürzə
Gün düşən yerə süründü.

Qartal istədi şığısın,
Gərilib çevrildi yaya.
İlan bunu hiss eləyib,
Özünü soxdu daldaya.

Açıldı iti caynağı,
Ürəyindən nəsə keçdi.
Ovu necə didməyini
Havadaca ölçüb-biçdi.

Qanad çaldı qartal yenə,
Düzləri seyr etdi bir az.
Birdən iti gözlərinə
Göründü yazıq quşcığaz.

Çaldı güclü qanadını,
Ötüb keçdi buludları.
Sonra qara nöqtə kimi
Şığıdı o, yerə sarı.

Elə bu zaman ana qu
Göldə baxırdı özünə.
Birdən iri qanadların
Kölgəsi düşdü üzünə.

Haray saldı yazıq ağ qu,
Qaçışdılar qucığazlar.
Nə yaxşı ki, dar ayaqda
İsti ana qanadı var.

Qartal elə bil yayından
Təzəcə ayrılan oxdu.
Quşun zərifcə boynunu
Kəlbətin caynaqlar sıxdı.

Ağ qanadlar yerə düşdü
Ağ zanbağın qanadı tək.
Ürəyindən bir söz keçdi:
– Balalarım qaçsın gərək.

Axı gizlənməkdən başqa
Onların yox bir əlacı?!
Ürəyi narahat ana
Ağlayırdı acı-acı.

Qartal iti caynağıyla
Hey əzab verirdi ona.
Ağappaq, zərif tükləri
Səpələnirdi dörd yana.

Qamışlar hey titrəyirdi,
Səksənmişdi sakit sular.
Yaşıl otlar arasında
Gizlənmişdi körpə qular…

## Nekrasov

***

Meşədəki cığırları
Örtüb çovğun, örtüb sazaq.
Yoxdurmu bir dəlmə-deşik,
Yoxdurmu bir açıq torpaq?
Gözəldirmi bu mənzərə?
Şam üstündə narın tozlar…
Boy-buxunlu palıdların
Şaxta naxış salar üstə.
Çovğun döyüb dəmirçi tək, –
Bərkiyibmi görən buzlar
Dərin, dayaz sular üstdə?

**Konstantin Simonov**
Rusiya

## GÖZLƏ MƏNİ

Gözlə məni, qayıdacam,
Gözlə sən məni!
Gələcəyəm, sidq ürəklə
Gözləsən məni.
Gözlə məni, qar yağanda,
Yağış yağanda.
Yay günəşi od püskürüb
Səni yaxanda.

Gözlə məni, məktublarım
Kəsilsə belə.
Özgələrin ümidləri
Üzülsə belə…
Gözlə  məni, ürəyində
Ölməsin inam.
Mənsizliyə öyrəşsinlər
Övladım, anam…

Sadiq dostlar gözləməkdən
Bezsələr belə.
Qədəhlərə acı şərab
Süzsələr belə! –
Yaxşı düşməz, ölən dostu
Yad eləməsən.
Onlarla bir içib məni
Yad eləmə sən!

Gözlə məni, inanma ki,
Öləcəyəm mən.
Ölümlərin acığına
Gələcəyəm mən.
Gözlə məni, qüvvə varmı
Sevgi gücündə?
Eşqin məni çıxaracaq
Odlar içindən.
Gözlə məni, gələcəyəm,
Ay qəlbi kövrək! –
Gözləməyi bacarmazdı
Kimsə sənin tək…

**Aqniya Barto**
Rusiya

## TOP

Sara topu suya salıb,
Ağlaya-ağlaya qalıb.
Qorxma, Sara, arxayın gəz,
Su topu batıra bilməz…

## DOVŞAN

Sahibi dovşanı atıb,
Yazıq tamam suya batıb.
Yağışdan bezib, usanıb,
Son sapınacan islanıb…

## GÜLMƏLİ ÇİÇƏK

Bu gülü qoysaq da evdə güldana,
Bircə damcı su da vermədik ona.
Bu gülməli güldən baş açmaq olmur,
O, susuz qalsa da, qətiyyən solmur.
Deyin, qulluq onun nəyinə gərək? –
Kağızdan düzəlib axı bu çiçək!

## DOVŞAN VİTRİNDƏ

Vitrindəki dovşana bax,
Boz kürk geyinib əyninə.
Bilmirəm bu boyda qulaq
Lazımdır onun nəyinə?

Mısmırığını sallayıb,
Danışmır bircə uşaqla. –
Yazıq necə şən görünsün
Bu qədər uzun qulaqla?!

## OĞLAQ

Mən balaca oğlağımı
Hər gün özüm otarıram.
Səhər açılanda onu
Bağçamıza aparıram.

Qorxum yoxdu itməyindən,
Qarınquludu bu oğlaq.
Harda yamyaşıl ot varsa,
O, mütləq orda olacaq…

**Roman Miminoşvili**
Gürcüstan

## YAZ

Martın iyirmi üçündə
Bu nə qardı? – Qalmışam çaş.
Mənim üçün asan deyil,
Gözləyə bilmirəm, qardaş!

Mane olma, olma mənə,
Qoy çıxsın ağlım başımdan.
Qəlb od alsın alçaların
Ağ, gümüşü baxışından.

Çiçəyə bax, çiçəyə bax,
Biz heyrətdən donaq gərək.
Bir də belə qəfil sevinc
Çətin mənə qonaq gələr!

Çiçəklərin büllur şehi
Məni çox gec duyacaqlar.
Ancaq sözsüz ki, adımı
Yaz vurğunu qoyacaqlar…

## SEVİR, SEVMİR

Dindi bir vələs budağı:
– Var deməyə xeyli sözüm.
Bir qız gəlmişdi yanıma,
Gözlərində qaldı gözüm.

Üzünü yelpik tək örtən
Yarpaqlarıma baxın bir!
O məni sevir, ya sevmir?!
O məni sevir, ya sevmir?!

İncə, zərif barmaqlarla
Yarpağımı bir-bir dərdi.
Bu qız nə yaman ah çəkir,
Görən onun nədi dərdi?

– Amandır, vələs yarpağı,
Sən bu qızı danışdırma.
Mənimki belə gətirib,
Ürəyimi alışdırma.

Yarpağını əsirgəmə,
Qoy o gözəl dərsin bir-bir. –
O məni sevir, ya sevmir?
O məni sevir, ya sevmir?

Gözlərində ümid nuru
Gözlərimə baxdı, baxdı.
Mən onu qadın saymadım,
Sandım: Qırmızıpapaqdı.

O gözəlin qəlbi əsir,
O gözəl təmizdi hələ.
Gizlə, ay vələs yarpağı,
O gözəli vermə ələ!

## ÖTƏN GÜNLƏR

Keçdiyimiz o yollar
Çətin geriyə dönər.
Başqa ahəng üstündə
Başqa bir mahnı dinər.

Yenə qoşa gəzəydik
O çölü, o çəməni.
Yenə də qəmli-qəmli
Xatırlayıram səni.

Gülün, çiçəyin əksi
Gözünə düzülərdi.
Titrəyən ürəyimdən
Misralar süzülərdi.

Dayanmışdıq çəməndə
Qəlbimizdə arzular.
Qovaq yarpaqlarının
Səsindən gözəl nə var?!

Günəş elə günəşdi,
Axşam olsun, ya səhər.
Başını qoy sinəmə,
Günəş kimi, ey ülkər!

Dinləyək qəlbimizi
Dayanaraq üz-üzə.
Qovağın yarpaqları
Əlmi çalırlar bizə?!

**Yelena Blaqinina**
Rusiya

## ALMA AĞACI

Bağda alma ağacı
Açıb nə qədər çiçək.
Elə gözəldi, ondan
Hünərin varsa, göz çək.

Günəş onu qızdırır,
Əsir, əsir küləklər.
Quruyub yerə düşür
İncə-incə ləçəklər.

Necə yoxsul görünür
Ləçəyi düşən budaq.
Çiçəklərin yerində
Meyvələr qalıb ancaq.

Yaxşı qulluq eləsək,
Ağac baxacaq sözə.
İri, ətirli alma
Bağışlayacaq bizə…

## BU ÇILPAQ – BU ŞILTAQ

Bu şıltaqçün – çılpaqçün
Xeyli zəhmət çəkmişəm.
Bu çılpağa – şıltağa
Təzə paltar tikmişəm.

Bax, bu qırmızı köynək,
Bu da göy rəngli şalvar.
Görürsən, hər tərəfdən
Onun cibləri də var.

Sarı kürk də tikmişəm,
Naxışlarından olmaz.
Mənim bu çılpaq kuklam
Dönüb olub modabaz…

## QOYUN MƏN DƏ BİR İŞ GÖRÜM

Qoyun mən də bir iş görüm,
Çətin deyil su daşımaq.
Səpsərin quyu suyuna
Gəlib hamı olsun qonaq.

Mən bu suyu, –
İçin,
İçin, –
Gətirmişəm sizin üçün…

Ya da tökün susəpənə,
Suvarın bostanı, bağı.
Su içməyi bizim kimi
Bitkilər də sevir axı!

## NƏ ÜÇÜN, NƏYƏ GÖRƏ

Nəyə görə İrkanın
Corabında deşik var?
Nə üçün,
Nəyə görə,
Deyin görək, uşaqlar?

Tikmək həvəsi yoxdu
Bizim İrkanın indi.

Nəyə görə Nadkanın
Corabında yamaq var?
Nəyə görə,
Nə üçün,
Deyin görək, uşaqlar?

Çünki Nadka istəmir
Ona desinlər pinti.

## SƏSSIZ OTURAQ

Anam yorulub, yatıb,
Mənim də səsim batıb.
Heç nəyə əl vurmuram,
Ayağa da durmuram.

Oyuncaqlar da susub,
Sükut çöküb otağa.
Anamın yastığında
Titrəyir qızıl şüa.

Deyirəm ki, ay şüa,
Dinc durmaq olmur daha.

Mən çox şey istəyirəm,
Top qovmaq, qəh-qəh çəkmək.
Bərkdən kitab oxumaq,
Oynamaq, şəkil çəkmək.

Ancaq susuram.
– Niyə?
– Anam yatıbdır deyə.

Şüa gəldi yaxına,
Üzbəüz dayandıq biz.
Mənimlə razılaşdı:
– Yaxşı, oturaq səssiz…

## QIZIL GÜNƏŞ

Qızıl günəş, qızıl günəş,
Nədir səndə bu od, atəş?

Dünyamıza işıq gətir,
Aydın səmada hey nur saç.
Yaşıl don geysin bağ-bostan,
Cana gəlsin hər gül, ağac.

Qızıl günəş, qızıl günəş,
Nədir səndə bu od, atəş?

Səmada üz, şəfəq çilə,
Cana gəlsin ana torpaq.
İsit bizim dünyamızı,
Qoy sevinsin böyük, uşaq.

## ŞİNEL

Atamdan soruşdum ki,
Sökülüb üzü, içi, –
Bu köpköhnə şineli
Qoruyursan nə üçün?

Tamam çirk içindədi,
Niyə bunu saxlayaq?
Sinəsində deşik var,
İnanmırsan özün bax!

Atam dedi: – Əzizdir
Şinel mənə çox şeydən.
Onu nə cıra, nə də
Yandıra bilərəm mən.

Bu şineli geyinib,
Biz cəbhəyə getmişik.
Yurdumuza göz dikən
Düşməni məhv etmişik…

## DÜNYAYA SÜLH

Oktyabrda
Sevimli nənəm
Al parça, sarı
Sap verdi mənə.

Parçadan kəsdim
Kiçik bir bayraq.
Sən üstündəki
Yazıya bir bax:
"Dünyaya sülh!"

Hərfləri tikdim
Sarı sap ilə.
Bayraq əlimdə
Mən qaçdım çölə.

Gəlin, a dostlar,
Siz axın-axın.
Bayrağımdakı
Yazıya baxın:
"Dünyaya sülh!"

**Henrix Sapgir**
Rusiya

## MƏN VƏ BİZ

"Biz"ə rast gəlcək
"Mən" etdi giley,
Qışqırdı bərkdən:
– Mənimdi hər şey.

Mənimdir bu top,
o stul, bıçaq.
Mənimdir, mənim
hər bir oyuncaq.

Kitab mənimdir,
verən deyiləm,
Mənim üçündür
bu ev, ailə.

Mənimdir, mənim
biləsən gərək,
Bax bu kostyum,
bu çəkmə, köynək.

Mənim olmayan
heç bir şey yoxdu.
“Biz” dönüb “Mənə
acıqla baxdı:

– “Mən”dən güclüdür,
– dedi “Biz” sözü.
Bu ev, bu həyət
bizimdir, bizim.

Bu məktəbimiz,
bu da sinfimiz.
Dostluğumuzla
fəxr edirik biz.

Bu bizim ölkə,
bu bizim vətən.
Bizim Ay, Günəş
nur saçır göydən.

“Biz” susdu, “Mən”ə
qulaq as indi
Deyir ki, hər şey,
hər şey mənimdi.

Bu mübahisə
hədərdir, hədər.
“Mən” öyünəcək
nə vaxta qədər?

## SAĞ OL

1

Motorlar işə düşdü,
Biz havaya qalxırıq.
Kresloda oturub,
Pəncərədən baxırıq.

İşıq yandı, hərflər
Qəşəng göründü bir az.
– Kəmərləri bağlayın!
Papiros çəkmək olmaz!

Uçuş yetişdi sona,
Mürgülülər oyandı.
Təyyarə yerə enib,
Meydançada dayandı.

Upuzun bir balıqdı
Elə bil ki, təyyarə.
Pilota "sağ ol" deyib,
Hamımız düşdük yerə.

Sevindi təyyarəçi,
Nə söylədi görün bir:
– Çox şadam ki, təyyarə
Xoşunuza gəlibdir.

O sıxıb əlimizi,
Bizə tapşırdı bərk-bərk:
– Gedib konstruktora
"Sağ ol" deyəsiz gərək.

2

Getdik aerodroma,
Bir otağa girdik biz.
Gördük konstruktor
İşləyir səs-səmirsiz.

Dörd yanda layihələr,
Göz oxşayan modellər.
Bilmədik heç nə deyək,
Çaşıb qaldıq bir qədər.

Yaman həyəcanlandıq,
Səsimiz çıxdı bərkdən:
– Biz gəlmişik ki, sizə
"Sağ ol" deyək ürəkdən.

Xoşumuza gəlibdir
Siz düzəldən təyyarə.
– Onda mənim yanıma
Gəlmisiz nahaq yerə.
Siz gedib "sağ ol" deyin
Zavodda fəhlələrə!

3

Şüşə damın üstündə
Gəzən sərçələr deyir:
– Nə üçün gəlmisiniz,
Bizi başa salın bir?

Baxırıq, təyyarəni
Bir gör necə yığırlar!
Qanadı birləşdirib,
Açarlarla sıxırlar.

Bir fəhlə acıqlanır:
– Ay uşaqlar, deyin siz
İşin qızğın çağında
Burda nə gəzirsiniz?

Dilimiz topuq çalır,
Bilmirik ki, neyləyək.
– Heç, elə gəlmişik ki,
Sizə "sağ ol" söyləyək.

Fəhlənin gülür üzü,
O, başa düşür bizi.
Söyləyir ki, işimiz
Asılıdır metaldan.
Onu əridənlərə
Pay düşür bu "sağ ol"dan.

4

Poladəritmə sexi,
İşlər deyilmiş asan.
Odlu peçin önündə
Durub qüdrətli insan.

Əlində brezent əlcək,
Başında brezent papaq.
Gözlərinin önündə
Alov dilimlənir, bax!

Qığılcımlar oynayır,
Sanki ildırım çaxır.
Metal seli çay kimi
Nur saça-saça axır.

Ustaya "sağ ol" dedik,
Onun xoşuna gəldi.
Metal selinə baxın,
Görün necə gözəldi?!

Bir parç sərin su içib,
Usta dedi: – Bilirsiz,
Metal da yaranmazdı
Əgər olmasa filiz.

Mən nə iş görmüşəm ki,
Artıqdır haray-həşir.
Əsl "sağ ol" filizi
Çıxaranlara düşür.

5

Şaxtada liftə minib,
Endik, endik dərinə.
Yerin düz ürəyinə
Yaxın olan yerinə.

Qaranlıq dəhlizlərlə
Gedənlərə qoşulduq.
Getdik, getdik, nəhayət,
Şaxtaçıya tuş olduq.

Toz-torpaq içindəydi
Əynindəki gödəkcə.
Üz-gözü hisli-paslı,
Dişlər ağarır təkcə.

Söylədik: – Əmi, bizi
Bağışlayasız gərək.

Çətin işiniz üçün
Gəlmişik “sağ ol” deyək.

Güldü: – Yerin altında
Filiz doluymuş, dolu.
Gedin, geoloqlara
Söyləyin bu “sağ ol”u.

6

Əlində çəkici var,
Belində iri çanta.
Geoloq düşüb gəzir
Yolsuz, rizsiz Tayqada.

Çəkici endirdikcə,
Daşdan od-alov çıxır.
Qiymətli çarpanağı
Bir-bir çantaya yığır.

Tayqaya bax, qaralır
Ayı dərisi kimi.
Geoloq hey yol gedir
Bir ov hərisi kimi.

Başı işə qarışıb,
Gedib elə uzağa,
İmkan da yoxdur ona
Bir teleqram vurmağa.

7

Qışın oğlan çağında
Üzə güldü bəxtimiz.
Moskvada rast gəldik
Həmin geoloqa biz.

Aeroportda görüşdük,
Dedik: – Uzaq getməyin.
Çox xahiş eləyirik,
Mübahisə etməyin.

Qəbul eləməsəniz
Təşəkkürü, ağ olar.
Mədən kəşf eləyənə
Çatacaq bu "sağ ol"lar…

Əriyib metal olub
Tapdığınız külçələr.
Təyyarə nə gəzirdi
Metal olmasa əgər?

Geoloq dedi: – Tayqa
Xəzinəyə bənzəyir.
Qoynundakı mədənlər
Yolumuzu gözləyir.

Gözəl sidr ağacları
Göyə baş çəkir orda.
Sığınlar səkir orda,
Samurlar səkir orda.

Endi tayqada yerə
Bir dəfə təyyarəmiz.
Ocaq çatıb qızındıq
Onun dövrəsində biz.

Mədən tapmazdıq, pilot
Bizə etməsə kömək.
Sizin "sağ ol"larınız
Ona çatacaq demək…

**Aleksey Kondratyev**
Rusiya

## SÜKUT

Sükut nədir görəsən? –
Onu görməmişəm mən.
Ora-bura baxıram,
Bir şey qaçmaz gözümdən.

Bəs o harda gizlənib,
Heç bilmirəm özüm də?!
Deyirlər mən susanda
O, qonaq gəlir bizə. –

Buna bir səbəbmi var?
Deməli səhər-axşam
Görünmürsə o, gözə,
Yəqin mənəm günahkar…

## YUXU

Sakitcə gəldi yuxu,
Yatmaq vaxtıdır axı!

Barmağının ucunda
Yaxınlaşdı o bizə. –

Əvvəl girdi sol gözə,
Sonra girdi sağ gözə.

Uyudum bütün gecə,
Yuxu şirinmiş necə!

## MEŞƏDƏ

Meşədə gəzən zaman
Soruşdum bir böcəkdən:
– Adın nədir?
Söylədi:
– Adımı bilmirəm mən.

Sonra da bir çiçəyin
Dikildi gözü mənə:
– Mənim də adım yoxdu,
Bir ad qoy özün mənə!

Getdim dərin xəyala,
Mən başımı qaşıyıb:
– Onlar bu vaxta qədər
Adsız necə yaşayıb?!

## MEŞƏDƏ PAYIZ

Meşədəki sükutu
Dinləmək deyil asan.
Onu eşitmək üçün
Gərək səssiz durasan.

## SARI YARPAQ

Yox olub arxasında
meşələrin, çöllərin,
Payız da tərk elədi
bir gün bizim elləri.

Qış gəlib, qar altında
mürgüləyən dağa bax,
Dəftərimə sığınan
saralmış yarpağa bax!

## SƏFƏR

Sən qışda unutma onu, –
Suda üzən yarpaq sarı…
– Şən quşlar, siz hardasınız?
– Uçuruq Cənuba sarı…

## GÜLƏYƏN TİMSAH

Timsah yamanca qəmlidir,
Dəyişib ağzının tamı.
Deyir ki, bilmirəm niyə
Mən güləndə qaçır hamı?!

## QONAQLIQ

Meşədə elan asılıb,
Hər şey aydınca yazılıb:

Qonaqlıqdır, gəlin, yeyin!
İti-iti, yeyin-yeyin!

Burda pis iş varmı, deyin?
Ad günüdür tülkü bəyin…

Dovşana güc gəlib maraq,
Ördəyə güc gəlib maraq…

Hamı, hamı dəvətlidir, –
Kim qorxmursa getsin qonaq…

## BAŞA DÜŞƏCƏYƏMMİ

Heç anlaya bilmirəm
başımdan çıxıb huşum,
Nə haqqında oxuyur
görəsən ququ quşu?

Siz mənə deyin görüm,
burda bir hikmətmi var?
Görəsən bir-biriylə
nə danışır durnalar?

Otların arasında
nələr gizlənib, nələr?
Görəsən nə istəyir
oxuyan çəyirtkələr?

Düşünürəm səslərə
mən qulaq asa-asa,
Başa düşəcəyəmmi
onları nə zamansa?

**Sergey Maxotin**
Rusiya

## YAĞIŞLA DOLU ÇƏLLƏK

Səhərəcən yağışın
Yağması deyil hədər:
Onun suyuyla dolub
çəllək ağzına qədər.

Dərinlikdə nə isə
işarır yavaş-yavaş,
Ah, bir dənə sualtı
qayığım olaydı kaş!

Baş vurardım sulara,
edərdim gözəl səfər.
Pəncərədən baxardım –
nə sayaqdı bu yerlər?…

Dolanardım hər yanı
mən şəkil çəkə-çəkə.
Çəkməmin bir tayını
tapa bilərdim bəlkə?!

**ONA QƏDƏR**

Mən götürdüm fırçamı,
Bu da qab dolu
rəngdi.
Albomda on mərtəbə
Təzə bir bina
çəkdim.

Ucaldardım buluda
Mən onu çox
həvəslə.
Ona qədər sayırıq
Çox heyif ki,
biz hələ…

**DOQQUZ MART**

Qalxıb yığdım yerimi,
Yata bilərdim yenə.
Uşaq kimi oynamaq
Daha yaraşmaz mənə.

Mətbəxdə çay dəmlədim,
Sevindirdim hamını.
Mən bir az da uzatdım
Anamın bayramını…

**MƏN KİMƏ OXŞAMIŞAM**

Yenə məndən danışır
Qohumlar nahar vaxtı.
– Seryojaya baxın bir,
Nə ağıllı uşaqdı…

Atası tək üzünü
Xoş təbəssüm bəzəyib.
– Yox-yox, o ciddilikdə
Babasına bənzəyib.

Qohumlar danışdıqca
Mən sevinir, coşurdum.
Birdən necə oldusa,
Kompotumu aşırdım.

Qışqırdılar: – Lap bizim
Zəhləmizi tökmüsən.
Bilmirik köntöylükdə
Sən heç kimə çəkmisən?

## KƏDƏRLİYƏM

Kədərliyəm, ürəyim
Qəmə, qüssəyə batıb.
Dəcəllik etdiyimi
Anam atama satıb.

Özü demiş, yaraşmır
Xəbərçilik adama.
Mənə cəza verəydi,
Deməyəydi atama…

## BİRİNCİYƏ GEDİRƏM

Sevincdən, həyəcandan
Yatmamışam bu gecə.
Məktəbli formasında
Yaraşıqlıyam necə?

Elə bəxtiyaram ki,
Sevincim deyil əbəs.
Böyük qardaşım deyir:
– Balaca, bir az tələs.

Güzgünün önündəyəm,
Getmək vaxtıdır daha.
Söyləyirəm əksimə:
– Məni utandırma, ha!

**Marina Boroditskaya**
Rusiya

## MƏSƏLƏ HƏLL EDƏNDƏ

Həll olunmur məsələ,
Başım, düşün, tez elə!
Fikirləş yaxşı-yaxşı,
Sənə verərəm konfet.
Ad günündə səninçün
Alaram təzə beret.
Düşün, mənim əzizim,
Yalvarıram mən sənə.
Yuyaram, darayaram,
Nə susursan, dinsənə!
Dostumsan məsələnin
Cavabı düzgün çıxsa.
Fikirləş yaxşı-yaxşı,
Səndən küsərəm yoxsa!

## AYI MƏKTƏBİNDƏ

Gəldi aprelin biri,
Qələm-dəftər hazırdı.
Ayının balaları
Dərsdə inşa yazırdı.

Mövzunu asmışdılar
Ağacın budağından:
"Yuxuda nə görmüşəm
Tətildə yatan zaman?"

## EVSIZ YAĞIŞ

Çöldə-düzdə ağlama,
Ay uzunayaq yağış.
Əgər mənzilin yoxsa,
Gəl bizim evə yığış!

Çoxlu oyuncağım var,
Hələ bir şkafa bax!
Hava açılanacan
Qal çay içək, oynayaq…

## PETROV HAQQINDA

Mən yazıb oxuyurum,
Petrov qartopu atır.
Mən dərsə tələsəndə
Petrov rahatca yatır.

Metroda pul salıram,
O keçir elə-belə.
Mənim yeddi yaşım var,
Petrov kiçikdir hələ…

**Lorina Dımova**
Rusiya

## KÖMƏKÇİ

Fikirləşdim gündüz, gecə
Kömək edim anama necə?
Boşqabları yumaq olmaz,
Sınar, biri də sağ qalmaz.
Əgər süpürsəm otağı,

Toz bürüyər evi axı!
Yemək hazırlayım ya da,
Kişi işi deyil bu da.
Pis iş deyil gül sulamaq,
Güllərimiz yoxdu ancaq.
Bəs anama deyin görək,
Hansı işdə edim kömək?

**İnna Qamazkova**
Rusiya

## ƏMİOĞLULAR

Toyuq ilə ördəyi
Qorxudan pişiyə bax:
– Əmioğlum pələng sizin
Tükünüzü yolacaq.

– Bizim əmioğlumuz da
Nəhəng dəvəquşudu.
O, sənin quyruğunu
Qopararsa yaxşıdı?!

**Yelena Qriqoryeva**
Rusiya

## BUYNUZ

Öküzlərin başında,
Maralların başında
Ağac bitib elə bil.
Onların buynuzları
Yaraşıq üçün deyil.
Buynuzun varsa əgər,
Səndən qorxar düşmənlər…

**Lev Yakovlev**
Rusiya

## TRAKTOR

Sən bu traktora bax,
Üstü-başı toz-torpaq.

Hamımızı yordu bu,
Əsl traktordu bu.

Su gətirmişəm tezdən,
Onu yumaq üçün mən.

Sildim, parladı şüşə,
Motoru saldım işə.

Kabinaya sevincək,
Bağladım bir qom çiçək.

Traktorçu əl etdi,
Yüyürdüm ona sarı.

Heyf, atamla anam
Görmədilər bunları…

## XORUZ VƏ MƏN

Xoruz ilə döyüşdük,
Yorulub əldən düşdük.

Mən onu çimdiklədim,
O məni dimdiklədi.

Duel bəsdi, sözə bax,
Bəlkə duet oxuyaq?!

Xoruz döydü gözünü,
Bir az çəkdi özünü.

Sonra döndü quzuya:
– Mən duetə razıyam.

Biz birlikdə sübh çağı,
Gəzdik bağçanı, bağı.

Birlikdə, asanmış bu,
Oxuduq: – Quq-qulu-qu!

## MƏNİM ATIM

– Cıdıra çıxmaqçın mən,
Atım, hazırsanmı sən?

Cavab verdi: – İ-a-ha!
Nəyi gözləyək daha?!

Onu cığırla sürdüm,
Nəhəng qayalar gördüm.

Atım qan-tərə batdı,
Məni qəzəblə atdı

Çarpayının üstünə:
– Yorulmuşam, bəsdi də!

– Yaxşı, dincələk bir az. –
Atam kimi at olmaz!…

**Vasil Moruqa**
Ukrayna

**BOSTANDA QALMAQAL**

Sular bir vaxt aşağıdan
Yuxarı axarmışlar.
Balıqlar yuva qurmaqçın
Sahilə çıxarmışlar.

Xərçəngləri gecə-gündüz
Doğrayarmış ağrılar
Xoruzların əvəzinə
Banlayarmış arılar.

Pişiyi beldən-belə
Qovarmış kiçik siçan.
Bizim balaca Maşenka
Nənə imiş o zaman…

Bax o zamanlar bostanda
Əyləşmişdi Noxud bəy.
Qarşısına qoymuşdular
Düz üç cür ləziz yemək.

Özünü günə verirdi
O, tənbəl qocalar tək.
Bilmirdi ki, nə eləsin,
Tutdu onu əsnəmək.

Köynəyi yırtıldı birdən,
Elə ki əsdi külək, –
Noxud dəydi Balqabağın
Düz alnına güllə tək.

Bax boyuna-buxununa,
Utanmır ha Balqabaq.
Qışqırır ki, kömək edin,
Noxud mənə çəkdi dağ!

Qaçır Qarpız balaları,
Qaçır Qarpız özü də.
Noxud dönüb əjdahaya
Onların da gözündə.

Haya düşüb, küyə düşüb,
Qaçır Kartof, Sarımsaq…
Pomidoru silkələyən
Utanmaz Xiyara bax!

– Nə yatmısan, ay Pomidor,
Qışqırıram səhərdən.
Noxud gəlir üstümüzə,
Xəbərin var, xəbərdən?!

– Nə haqq ilə oyatmısan,
Xiyar, məni yuxudan? –
O mənə qardaş kimidir,
Qorxum yoxdur Noxuddan.

– Ay hay, bu da söz danışdı,
Sən Qarpızdan qoçaqsan? –
Görmürsənmi necə qaçır,
Dur qaç, neçə ki, sağsan!

Yaman qorxdu, qalxdı yerdən
Pomidor titrəyərək.

Uçdu tağların üstüylə
Qırmızı meteor tək.

Baxın yazıq Badımcana,
Gedir yorğa yerişlə.
“Tələsən təndirə düşər”, –
O toqquşdu Yemişlə.

– Bazaramı tələsirsən,
Dostum, bir az get yavaş!
– Mən nə hayda, sən nə hayda,
Bazar nədi, ay qardaş!

Noxud gəlir, qaçıram ki,
Öz canımı qurtaram.
– Noxuda bax, gəlir gəlsin,
İndi onu tutaram,
Yaxşı-yaxşı budaram!

Qoçaqdırsa, qoy o mənim
Şilləmi dadsın görüm?
Noxudun hünəri varsa,
Qoy mənə çatsın görüm?! –

Deyib, qaçdı
tez Yemiş də,
Yumalandı
enişdə.

Bostana düşdü çaxnaşama,
Hərə bir yana qaçdı.
Qorxusundan tərəvəzlər
Quş kimi qanad açdı…

Biri ambara yüyürdü,
Biri qapı dalına.
Biri çardağa dırmaşdı,
Tənbəlin vay halına!

Qabaqda var dərin çuxur,
Noxud gəlir arxadan.
– Neyləməli? – Tərəvəzlər
Əsirdilər qorxudan.

Noxud gəlir, Noxud gəlir,
Gözlər çıxdı kəlləyə.
Xiyar elə tələsdi ki,
Gedib düşdü çəlləyə…

Bostana girdi bostançı,
İnanmadı gözünə.
Uralanıb bütün tağlar,
Boşalıbdı "xəzinə"…

Döydü başına, dizinə,
Gözlərindən axdı çay.
Lələ köçüb, yurdu qalıb,
Bu nə işdir, ay haray!

Bostanın uralanmağı
Oldu böyük dərd ona.
Baxıb gördü ki, noxudlar
Səpələnib dörd yana.

Əvvəlcə bir az duruxdu,
Bir şey başa düşmədi.

Fikirləşdi, fikirləşdi,
Barmağını dişlədi:

– Aha, tapdım, qupqurudu,
Bu, Noxudun işidi!
Gərək onu tez dərəydim, –
Bostançı çox düşündü…

O, Noxudun günahını
Gözlərindən oxudu.
O zamandan yazıq qarı
Göy-göy dərir noxudu…

**Anatoli Qriqoruk**
Ukrayna

**DƏYİRMANÇI NƏ EDİR**

– Sənin sevimli yerin
Niyə dəyirman oldu?
– Bəs bilmirsiz ki, orda
Taxıl da, dən də boldu?!

– Ay siçan, dəyirmançı
Dəyirmanda nə edir?
– Səhərdən axşamacan
Mənimçün dən üyüdür…

**Edi Oqnesvet**
Belorusiya

## HƏKİM GÜLÜŞ

Taqətim də qalmayıb,
Niyə titrəyir dizim?
Dava-dərman içməkdən
Saralıbdır bənizim.

Bəs neyləyim? – Sakitcə
Gəzdim şəhər bağında.
Gedib doyunca güldüm,
Mən gülüş otağında…

Güzgüyə baxıb gördüm,
Nə ağzım var, nə burnum.
Başımda buynuz bitib,
Kudu boydadı qarnım.

Qızlar gülürlər, mən gah
Cücəyə oxşayıram,
Gah begomota, gah da
Keçiyə oxşayıram.

Durmuşam xiyarburun
Bir oğlanla üz-üzə.
Barmaq kolbasa boyda –
Möcüzədir, möcüzə!

Bu nədir, akrobata
Çevrilirəm bir anda.
Əllərim döşəmədə,
Ayaqlarım tavanda.

Bu oğlanlara baxın,
Düz üstümə gəlirlər.
Mən susanda susurlar,
Mən güləndə gülürlər.

…Üzülmüşdüm yamanca,
Düz bir qutu həb atdım.
Ancaq məni dərman yox,
Həkim Gülüş sağaltdı…

**Leon Briedis**
Latviya

## TORAĞAY

Torağaylar mavi göyə
Səpilib qara toxum tək.
Səhər tezdən o toxumdan
Yaşıl nəğmə göyərəcək.

Uzaqdakı sünbülləri
Yellədikcə xəfif külək,
Yerə səma zəmisindən
Dən-dən nəğmə töküləcək…

## QƏMLİ PİŞİK

– Niyə miyoldayırsan,
Pişik, belə gileyli?
– Mağazaçı götürmür
Pulum olsa da xeyli.

– Onda tez qayıt evə,
İnciyirsən nə haqla?
– Necə dönüm geriyə
Axı yalın ayaqla?

– Di gəl, sənə pul verim,
Yaxşı, burnunu çəkmə.
Apar ver, mağazadan
Ya səndəl al, ya çəkmə!

## ŞƏKİL

Annuşkaya baxın bir,
Götürüb onu fikir.
Qarşısında ağ vərəq,
Nə çəksin bilməyir ki!

Şəklini çəkə bilər,
Bir yol itə baxsa o.
Günəş, ev, ot, top, qutu,
Dovşan çəksin yoxsa o?

Fikirləşdi bir qədər…
Birdən yaşıl qurbağa
Tullandı Annuşkanın
Önündəki varağa.

İşlər belə düzəldi,
Baxın, necə gözəldi!

# KƏDƏRLİ QARĞA BALASI

– Nə üçün qəmli-qəmli
Sən qonmusan budağa?
– Seçəmmirəm anamla
Atamı bir birindən, –
Dindi balaca qarğa.
Birinin özü ağdı,
Qara qanadları var.
Biri özü qaradı,
Qanadı çalır ağa.
Oğulsan seç onların
Hansıdı ata qarğa,
Hansıdır ana qarğa?

# DONDURMA

Güclə nəfəs alırsan,
Səsin tutulub yenə.
Xəstələnmisən, nədir,
Oğlum, nə olub sənə?
Yemək də istəmirsən,
Bu inad nəyə lazım?
Haran ağrıyır axı,
Mənim balam?
– Bo-ğa-zım…
– Aha, aydındır hər şey. –
Uşaq çaşdı qorxudan.
– Bir dondurma yemişdim,
Ana, gecə yuxuda…

**Albert Loçmelis**
Latviya

## KİTABDA OXUDUM Kİ…

Kitabda oxudum ki,
Qar qız meşədə azıb.
Küpəgirən qarılar
İncidirlər o qızı.

Qılıncımı götürdüm,
Qəzəbdən əsdi ürək.
Gedib meşədən onu
Xilas eləyim gərək…

## MƏNİM SUYUM, TORPAĞIM

Dənizləri, gölləri
Gözəldi, səmavidi.
Çayları da mavidi,
Meşəsi də mavidi.

Günəş bir maral kimi
Zəmilərdə gəzir, bax!
Kimindir bu gözəllik,
Kimindir bu su, torpaq?

Mənim gözəl Latviyam
Yaraşıqlı, qəşəngdi.
Kəhrabalı sahildə
O, bir mavi çiçəkdi…

**Sultan Kaliyev**
Qazaxıstan

## AZƏRBAYCAN TORPAĞI

Azərbaycan torpağı –
Neftin, qazın məskəni.
Qardaşlıq nəğməsini
Ötən sazın məskəni.

Bərəkətli çölləri,
Uca-uca dağları.
Ayna kimi gölləri,
Bol məhsullu bağları…

Söhbət açım hansından? –
Bu narı, bu üzümü.
Nur saçan heyvasından
Çəkəmmirəm gözümü.

Bu qozu, bu badamı,
Bu pambığı, bu çayı…
Sevindirir adamı
Dost sovqatı, dost payı.

## DOĞMALIQ

Taleyimiz oxşardı,
Ayağa bir qalxmışıq.
Düşmənlərin önündə
Şimşək kimi çaxmışıq.

Bir-birinə bənzəyir
Adətimiz, dilimiz.
Qardaşlıq dünyasında
Birləşibdir əlimiz.

Dərdimiz, sevincimiz,
Yasımız, toyumuz bir.
Dostdoğmaca qardaşıq,
Əslimiz, soyumuz bir.

Qorqud babamız yazan
Tarix heç vaxt silinməz.
Bizi Xəzər bölsə də,
Ürəyimiz bölünməz…

## RƏŞİD BEHBUDOV

Bizim Rəşid Behbudov –
Azərbaycan bülbülü.
O, nəğmə oxuyanda
Hamı sevinir, gülür.

Türk, ərəb, gürcü, hindli…
Həmişə onu anır.
Hər xalq bizim Rəşidi
Öz doğma oğlu sanır.

O, böyük türk elinin
Nəğməkar bülbülüdü.
O, sənət gülşəninin
Ən ətirli gülüdü…

## NİZAMİ

Nizami – qazaxların
Ən sevimli babası.
Ürəyimə yaxındı
Onun eli, obası.

Oxumuşuq, hər sözü
Dilimizdə gül açıb.
Yazdığı poemalar
Qəlbimizə nur saçıb.

O, sənət göylərində
Dönüb günəşə, aya.
Bir dan ulduzu kimi
Yol göstərib Abaya…

**Hesamdun İslamov**
Özbəkistanda yaşayan uyğur şairi

## BİZİM BAĞÇA

Bizim yar-yaraşıqlı
Bir uşaq bağçamız var.
Pəncərədə dibçəklər
Düzülüb qatar-qatar.

Oynayırıq həvəslə,
Ora-bura qaçırıq.
Özümüz də gül kimi
Qönçələyib açırıq.

Oy, bizim bağçamızda
Nə qədər oyuncaq var!
Çatar, hamıya çatar
Bu gözəl oyuncaqlar.

Mehribandır ana tək
Dayələrimiz bizə.
Səliqəli otaqlar
Elə bil gülür üzə.

Çiçəklərə baxdıqca,
Könlümdən gülşən keçir.
Unuduruq hər şeyi,
Günlərimiz şən keçir…

**Şamsi Odil**
Özbəkistan

## ARZU

Siz Qəniyə baxın bir,
Kosmonavt olsam, – deyir,
Ulduzları qucardım,
Aya doğru uçardım.
Yerdə olsa da özü,
Göydədi iki gözü.
O, arzu qanadında,
Ulduzların altında
Uçub göyləri gəzər,
Ana torpağı süzər.
Arzusuna yaraşır
Onun aldığı "beş"lər.
Arzu həyata keçsə,
Yaxşı olacaq işlər.

## DƏNİZÇİ OLACAĞAM

Anacan, bax bu gölə,
Qayığımı seyr elə.
Göl demə, bu Port-Artur,
Dayanmışam çox məğrur.
Süzər mənim qayığım,
Üzər mənim qayığım.
Burnunda qızıl bayraq,
Seyr edir yaxın, uzaq.
Kapitanam mən özüm,
Dörd yanı görür gözüm.
Üzür, qayığıma bax,
Dalğaları yararaq.
Mən dənizçi olacam,
Məqsədimə yetəcəm.
Məktəbimi bitirib,
Motrosluğa gedəcəm…

## SUÇU ƏKRƏM

Əlində kiçik ketmən,
Bostan suvarır Əkrəm.
Tağların diblərini
Boşaldır asta-asta.
İşini yaxşı bilir
Kiçik əkinçi – usta.
Əkrəm əkən pomidor
Bar verməyə başladı.
"Çox sağ ol" – deyib, onu
Atası alqışladı.
Əkrəm əlində ketmən
Gedir o baş, bu başa.

Hamı ona deyir ki,
Dünya durunca, yaşa!
Əkrəmcan, halal zəhmət,
Gətirər izzət, hörmət…

## YADDAN ÇIXIR DƏRD, KƏDƏR

İndi qızım Sürəyya
Üçüncüdə oxuyur.
Əl əməyi dərsində
Gözəl torlar toxuyur.

Ağ saçlar bircə anda
Çevrilir gül-çiçəyə.
Qızımın bu hünəri
Sevinc verir ürəyə.

O, boş-bekar dayanmır,
Vaxtı itirmir hədər.
Qızımı seyr etdikcə
Yaddan çıxır dərd-kədər.

## DOVŞANLAR

Bir cüt dovşan tutmuşam,
Xəstələniblər bir az.
Unutmuşam onları,
Eləyiblər etiraz:

– Biz sağlam olan zaman
Gülürdü sənin üzün.
Xəstələnib pis olduq? –
Həkimə apar bizi.

Əgər tamam sağalsaq,
Hara desən, gedərik.
Yenə əvvəlki kimi
Sənə qulluq edərik.

Tez həkimə aparım
Dovşanlarımı gərək.
Xəstə vaxtı yamanca
Kövrək olurmuş ürək…

## DÖRD YANIMDA

Dörd yanımda qulunlar
O yan, bu yana qaçır.
Çəmənzara baxıram,
Lalələr çiçək açıb.

Qulluq edərəm sizə,
Ağaclarım, güllərim.
Zərif qamətinizə
Sığal çəkər əllərim.

Bir bağbana dönərəm,
İllər quş kimi uçar.
Budaqlarda meyvələr
Günəş tək şəfəq saçar.

Bar görcək, baba kimi
Özümü hey öyərəm.
Siz mənim sevincimsiz,
Fərəhimsiz deyərəm…

**Ernozar Ruzimitov**
Özbəkistan

## ÇƏMƏNLİKDƏ

– Çəməndə güldən-gülə
Qonan kəpənəyə bax.
Gec getsəm, o gülləri
Özüylə aparacaq.
– Yox, kəpənək çəməndə
Gülə dönmək istəyir.
Onları bircə-bircə
Oxşayır, əzizləyir.

## NEY ÇALIRAM

Ney çalıram,
Ney çalıram,
Sürü gedir otlağa.
Mənim nəğməm
Su tək axıb,
Qovuşacaq
Bulağa.
Neyin səsi
uçub gedir,
Dönür həzin
haraya.
Bu nəğməni
Dinləyəcək
Narın çayı,
Sır dərya.
Dinlədikcə
ney səsini

Açılacaq
lalələr.
Şad olacaq,
Sevinəcək,
Güləcək
Şəlalələr.
Ney çalıram,
Qulaq asır
Nərgiz, Lalə,
Bənövşə.
Deyirəm kaş
Günlərimiz
Belə keçsin
Həmişə!

**SEVİNC**

Ay doğdu,
Ay doğdu.
Şəfəqləri
kim yığdı?
– Niyə doğdu
deyin siz?
Oğlum üçün
İki qız
Çəməndən
Dərib çiçək,
Oğlum olub
Sevincək.
Onu təbrik
etdilər,
Çiçək verib
getdilər.

Qoy çox olsun
Sayımız,
Güllər olsun
Payımız…

**ARABA**

Tut bu atı
Tuta bilsən,
Əgər ona
Yetə bilsən.
Sevir böyük,
Uşaq onu.
Arabaya
Qoşaq onu.
Döngələr
Qarşıdan
çıxsın,
Atlarımız
Qışdan
çıxsın!
Ay araba,
Əridi qar,
Bizi doğma
Yerə apar.
Babam görüb
Şadlanacaq.
Sevincindən
Odlanacaq…

**QONAQ**

Qonaq gəlir evimizə,
Hazırmı sabun, dəsmal?
Tez ol, qızım, Sürəyyacan,
Xalçaları yerə sal.

Stolu aç, süfrəni sər,
Qonağın xoşu gəlsin.
Naz-neməti düz süfrəyə,
Baxanın üzü gülsün.

Lap səmimi salamlayıb,
Qonağına gül ver sən.
Ehtiramla "xoş gəldin! de,
Buyur deyib, yol ver sən.

Qonaq şirin sözə möhtac,
Qonağı yormaq olmaz.
Böyüklərin sözlərinə
Ehtiramla qulaq as.

**Xəyalbəy Urmanbetov**
Qırğızıstan

**CÜCƏ**

Nənə, nənə, ay nənə,
Bir dayıma desənə!
Bilmirəm heç nə üçün
Cücə deyir o mənə?
Nənə gülür:
– İncimə,
Gəl dayının sözündən.

Sən yaşda olan zaman
Cücəydim mən özüm də.
Dayın da mənim kimi…
Yavrum, incimə bizdən.
Vaxtilə cücə olub,
Bizim yer kürəmiz də.
Eşidəndə bunları
Nəvə sevindi necə:
Günəşə qışqırdı ki,
Ehey, necəsən, cücə?!

**Oleq Polyakov**
Azərbaycan

## SƏHƏR

Uca-uca dağlardan
Eləyib səfər,
Minib günəş atını,
Gəlibdir səhər.

– Ey, tez ol qalx ayağa,
Səsimi eşit!
Çərkəzi çuxanı gey,
Balaca igid!

Atıma bax, sapsarı,
Qaçağan, qəşəng.
Atının yalmanına
Yatıb mənim tək,

En çayın sahilinə,
Tez gəl, görüşək!
Köhlən atlarımızı
Çapaq, ötüşək…

**Tofiq Ağayev**
Azərbaycan

## QUŞCIĞAZ

Ana quş balasını
Bir gün danladı bərk-bərk:
– Sözə baxmırsan, bu gün
Küncdə durasan gərək!

Dimdiyini sallayıb,
Dolandı incik-incik. –
Xeyli gəzdi bala quş,
Tapa bilmədi küncü.

– Anam məni danlayır,
Yox-yox, çox yaxşıyam mən.
Qanadlanıb quşcığaz
Havaya qalxdı birdən.

Sığmırdı yerə-göyə
Bala quşun sevinci:
– Anam deyir küncdə dur,
Yuvanın varmı küncü?!

## BÖCƏK KİNODA

Kinoda ondan
Bilet istədim.
Böcək tələsik
Yarpaq göstərdi.

– Özünə saxla
Sarı yarpağı.
– Bəs mən neyləyim,
Payızdır axı?!

Düzdür, az qala
Unutmuşdum mən.
Yaxşı, tavanda
Əyləşərmisən?

– Eh, nə fərqi var,
Divan, ya tavan? –
Kənara çəkil!
Kinoya baxım,
Ay qardaş, təki!

## ŞİR BALASI

Dolanırdı meşədə
Lovğa-lovğa bala şir.
Dəllək əli dəyməyib,
Saçlarına elə bil.

Deyirlər ki, qorxur o,
Saçını qırxdırmaqdan.
Allı-güllü meşəni
Seyr eləyir bayaqdan.

Dincini almaq üçün
Uzanıbmış o lovğa.
Uzaqdan qışqırdım ki,
Yumağa bax, yumağa!

Qəzəblə nərildədi,
Səbri çatmadı daha.
Dedi: – Ehtiyatlı ol,
Mən şir balasıyam, ha!!!

## YAĞIŞ

Yağış ələnir
Çəmənə, çölə.
Meşə yuyunur
Nə ləzzət ilə!

Sanki yuxudan
Durur yarpaqlar,
Suyu üzünə
Vurur yarpaqlar.

Yenə üfüqdən
Günəş boylanır.
Çöllər, çəmənlər
Nura boyanır.

Quşlar oxuyur
Dərədə, dikdə:
– Həmişə təmizlikdə!
Həmişə təmizlikdə!

# NƏSR ƏSƏRLƏRİ

## NAĞIL DÜNYASI

### ŞAİR QƏLƏMİNİN BALINCI

Kağız min əzab çəkmişdi kağız olmaq üçün. Ancaq bütün dünyanın dərdləri kağız olandan sonra başladı. Kağız gördü ki, kağız ömrü incələ-incələ, nazilə-nazilə insanlara qulluq eləyənlərin ömrüdü…

Kağız susdu, kağız dözdü, kağız için-için nalə çəkdi. Kağız dedi ki, mənim dəhşətli ömrüm qabaqda imiş, ulu Tanrı!

Kağız nə biləydi ki, harın, dilinə doğru söz gəlməyən adamlar əllərini, dodaqlarını onunla siləcəklər?! Kağız kağız olduğuna heyfsiləndi, utandı, xəcalət çəkdi dünyaya gəldiyi üçün…

Yenə sağ olsun uşaqlar! Kağızdan təyyarə düzəldib onu yelə verdilər. Kağız uçur, uçur, uçurdu… Ona nə meşə əhəmiyyət verirdi, nə insanlar…

Satıcılar kağızı bol görüb tərəzilərinin pərsənginə çevirirdilər…

Kağızın gözü-könlü isə şairin yanında idi… Ha çalışırdı, şair əlinə düşə bilmirdi ki, bilmirdi. Uçur, uçur, uçurdu… Bilirdi ki, onun xoşbəxtliyi şairin yanındadı. Ürəyində həsrət çəkirdi. Deyirdi ki, kaş şair qələminin balıncına dönəydim. Kaş şair qələmi başını mənim ağ sinəmə qoyub gecələyəydi. Ağ kağız yalnız və yalnız şair qələminin balıncı olmalıdı…

Kağız təyyarə uçur, uçur, uçurdu…

**NAĞILLAR ALƏMİ**

Ağız açıldı, nə açıldı. Dəyirman kimi üyüdüb tökdü:

– Eh, mən olmasam, gözəl-gözəl xörəklərin, şirniyyatın, mer-meyvənin dadını nə bilərdiniz?

Burun özünü qabağa soxdu:

– Sən də söz danışdın da?! Öz kiçicik işini üfürüb filə döndərməkdə mahirsən. Ancaq mənim əməyimdən bir kəlmə də olsa danışmırsan. Çiçəklərin, güllərin, mer-meyvənin, yer-yemişin ətrini, rayihəsini bilmədən yaşamağın nə ləzzəti var?

Qulaqlar şəkləndi:

– Aman Allah, görün nələr eşidirik?! Biz olmasaq, çayların şırıltısından, küləyin vıyıltısından, bulaqların zümzüməsindən, quşların nəğməsindən xəbəriniz olardımı?

Gözlər hədəqəsindən çıxdı:

– Əsas görməkdi. Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdı. Mən olmasam, dünyanın gözəlliyindən xəbəriniz olardımı?

Əllər yumruq kimi düyünləndi. Elə təzəcə qalxıb naşükür dostlarının dərsini vermək istəyirdi ki, sahibi onu dayandırdı.

–Yaxşı-yaxşı, özündən çıxma. İndi yəqin ki, sən də toxunma, lamisə duyğusundan söz salacaqsan. Deyəcəksən ki, gözəl bir qızın saçlarına tumar çəkməyin, onun əllərini əlinə almağın ayrı ləzzəti var.

Əzizlərim, sizin hamınız doğru deyirsiniz. Mən ayrı-ayrılıqda hamınıza borcluyam. Ağzım olmasa dad, burnum olmasa qoxu, ətir bilmərəm. Qulaqlarsız kar, gözlərsiz kor, əllərsiz şikəst olaram. Sizin hamınıza, bədənimin bütün üzvlərinə borcluyam. Məni mən eləyən də siz olmusunuz. Sizsiz bu gözəl dünyadan layiqincə kam alamı bilərdim?

İnciklik aradan götürüldü. Ağız dadlı bir almanı dişinə çəkdi. Gözlər zümrüd donlu meşələrə, uca dağlara dikildi.

Burun dağ havasını, çiçəklərin ətrini ləzzətlə qoxulamağa, qulaqlar isə şəlalələrin, quşların səsini dinləməyə başladı. Əllər bir dəstə bənövşə dərib gözəl bir qızın saçlarına taxdı. Elə bil ki, gülü gülə calaq elədi. Dodaqlar məhəbbət mahnısı pıçıldadı. İnsan sehrli, möcüzəli bir nağıllar aləminə qədəm qoydu…

**1992**

## QƏRƏNFİL DƏNİZİ

Soyuq bir qış gecəsi idi. İstixanalarda qönçələr sakit-sakit mürgüləyirdilər. Birdən gülləri titrətmə tutdu. Onlar uçum-uçum uçunmağa başladılar.

Torpaq ananın da yuxusu qaçdı. Nə qədər çalışdısa, öz qərənfil balalarını ovundura bilmədi. Qönçələr açıldı. Qərənfillərin qanlı köynəyi görünməyə başladı. Onlar danışmaq istəyirdilər. Ancaq dilləri söz tutmurdu ki, tutmurdu. Elə hey dartınır, torpağın köksündən qopmağa çalışırdılar.

Birdən möcüzə oldu. Qərənfillər dil açıb danışdılar:

– Nə yatmısan, torpaq ana! Sənin uğrunda yeni-yeni qanlar töküldü.

Torpaq gərnəşdi. Ufuldadı. Qərənfillər hönkür-hönkür ağladılar. Üzlərini analarına tutub dedilər:

– Burax bizi, torpaq ana. İndi sakitcə oturmaq vaxtımızdımı?

Torpaq da dilə gəldi:

– Balalarım, siz çox zərifsiniz, incəsiniz. İstixanadan çıxan kimi qış gecəsinin şaxtası sizi dondurar.

– Qəzəbdən don geyinənə şaxta neyləyəsidi? Burax bizi, torpaq ana!

Torpaq ana onlara icazə verdi. Güllər dəstə-dəstə yola çıxdılar. Küçələrdən qərənfil seli axırdı. Şəhidlərin qanını öz canına çəkən güllər qıpqırmızı qızarmışdılar.

Qərənfillər titrək əllərdə yol gedirdilər. Bu əllərdən onların canına qəzəb, nifrət seli axırdı. Qərənfillər yol gedirdilər. Bu yol Şəhidlər xiyabanında qurtarırdı. Arı çiçəyə qonan kimi, onlar da pardaxlamış yaraların üstünə qonurdular.

Güllər baş-başa verib hönkürürdü. Ana torpaq uğrunda qurban gedənlərin məzarlarını qərənfillər bəzəyirdi. Şəhidlər xiyabanı isə dənizə dönmüşdü. Qərənfil dənizinə…

**1990**

## BAĞ NAĞILI

Ağaclar cərrahiyyə əməliyyatından təzəcə çıxan xəstələr kimi gözlərini açdılar. Dünyanın işığı yenidən onların tumurcuq bəbəklərinə dolmağa başladı. Yerin cövhəri gövdələrdə qan kimi hərəkətə gəldi, dövr elədi. Ağaclar istər-istəməz öz dillərində belə pıçıldaşdılar:

– Ah, dünya nə gözəl imiş! Heyf ki, bu vaxtacan günəşin nurunu, havanın gözəlliyini, torpağın səxavətini, suyun dadını hiss edə bilməmişik. Elə bilmişik ki, bunlar adicə şeylərdir. Sən demə elə ən böyük səadət, xoşbəxtlik yaşamaqda imiş…

Budaqlar çaşıb qalmışdılar. Onlar elə bil ki, yuxu görürdülər. Göz açanda yan-yörədə öz əvvəlki dost-tanışlarını, qonum-qonşularını görməyən ağaclar doğulduqları torpağın xiffətini çəkirdilər. Öz təzə qonşularına isinişə, mehr sala bilmirdilər. Çünki cavan bir oğlan onların hərəsini bir bağdan, bir meşədən, bir kolluqdan çıxarıb gətirmiş, sinəsində kol-kosdan başqa heç nə bitməyən torpağın qoynunda təzə bir bağ salmışdı. Ayrı-ayrı yerlərdən gətirdiyi ağacları bir yerə cəm eləmiş, onların gələcək taleyini bu torpağa bağlamışdı. Kim bilir, bəlkə də elə bağ sözü bu bağlanmaq sözündən yaranıbmış?! Çünki əkildiyi, bitdiyi

torpağa kök salmaq, bağlanmaq ağacların taleyinə yazılan bir hökmdür, qərardır.

Qərib ağaclar yavaş-yavaş öz təzə mənzillərinə də, yeni qonum-qonşularına da isinişdilər, mehr saldılar. Onların ürəyi həyat eşqi ilə döyünməyə başladı.

Tumurcuqlayan, yarpaqlayan, çiçək açan budaqlara baxdıqca bağbanın da çiçəyi çırtlayırdı. Sevincindən yerə-göyə sığmır, ağaclara həvəslə qulluq eləyirdi.

Bağban hər bağın qapısında görünəndə ağacların ürəyi sevincdən döyünürdü. Ayaqları torpağa möhkəm bağlı olmasa, onlar uşaq kimi atılıb-düşməkdən belə çəkinməzdilər. Bağbanı görəndə onun mehriban, qayğıkeş əllərinin tumarı yada düşürdü. Bağbanın gəlişi gövdəyə darışan zərərli cücülərin, yarpaqlara xal salan tırtılların məhvi demək idi. Bağbanın gəlişi susuzluqdan çat-çat olan dodaqların "Oxqay!" pıçıltısı idi…

Torpaq ananın sevincinin həddi-hüdudu yox idi. Cavan bir bağban əsrlərcə yararsız hesab edilən, əkilib-becərilməyən, unudulan bir sahəyə ümid bəsləmiş, ona vacib bir iş tapşırmışdı. Bundan fərəhlənən torpaq həvəslə işə girişmişdi. Özünün cövhərini, şirəsini qızırğalanmadan təzə övladlarına əmizdirirdi.

Torpaq ana bəxtiyarlıqdan öz ağlını itirmişdi. Cavan bağban ona gözəl, sehrli bir nağıl danışırdı. Bağ nağılı. Həm də ki, bu nağılın sonunda göydən yox, elə budaqların özündən mütləq alma düşməli idi. Özü də yalnız üççə dənə yox, çoxlu-çoxlu alma, üstəlik armud, nar, heyva…

Bağban torpaq ananı inandırmışdı. İnandırmışdı ki, mütləq belə də olacaq.

Nağıl isə davam eləyirdi. Torpaq ana da, ağaclar da, elə nağıl danışanın özü də o xoş günü – budaqların nübar gətirəcəyi günü səbirsizliklə gözləyirdilər…

**1990**

## BAHAR QATARI

Sehrli qatar neçə ay idi ki, donub qalmışdı. Ancaq onun içi səfər arzusuyla göyüm-göyüm göynəyirdi. Hava qızdıqca bu göynərti artır, arzuya çevrilirdi. Nəhayət, ilk sərnişinlər görünməyə başladılar. Novruzgülü qar altından baş qaldırdı, bənövşə kol dibindən boylandı…

Tumurcuqlar, çiçəklər, yarpaqlar sərnişin kimi "ağac vaqonlar"a, "budaq kupe"lərə doluşdular. Günəş gülümsündü. Təbiət ananın bahar qatarı yola düşdü…

**1990**

## ŞİRİN YUVA

İsti bir yay günündə yem dalınca göndərilən qarışqalardan biri yuvadan çıxıb yola düzəldi. Az getdi, üz getdi, dərə-təpə, düz getdi, yuvanın iki-üç metrliyində bitən armud ağacının dibinə çatdı. Bir xeyli o yana, bu yana boylandı, axırda yavaş-yavaş üzü yuxarı dırmanmağa başladı. Qarışqa yorulsa da, ruhdan düşmürdü. Ağacın ən ucqar budağındakı armudlardan birinin ətri ona hey gəl-gəl deyirdi. Sarı, ətirli armud Dombagözün yolunun üstündə mayak kimi şölə saçırdı.

Nəhayət, qarışqa mənzil başına çatdı. Armud nə armud! Elə bil dörd tərəfi bağlanmış sehrli bir qalaça idi. Donbagöz pərvanə kimi bu ətirli qalaçanın başına dolandı. Ha əlləşdi, onun içinə girməyə yol tapılmadı. Birdən gözlərinə inanmadı. Armudun bir böyrünə azcana xal düşmüşdü. Dombagöz bir az da yaxına getdi. Ona elə gəldi ki, hansı qurdunsa deşdiyi bu yer sehrli bir lağımın – tunelin başlanğıcıdır.

O, əvvəlcə içəri girməyə cəsarət etmədi. Ancaq armudun içindən gələn xoş ətir onun ürəyindəki qorxu hissini boğdu. Nə olar olar, – deyib özünü deşikdən içəri

saldı. Ağız açıb qalaçanın o divarından, bu divarından dişlədi. Gözlərinə işıq gəldi. Öz-özünə dedi:

– Oy Allah, gör necə şirin yuvadı! Biz də yaşamağa yer tapmışıq. Elə hey toz-torpağın içində eşələnirik. Azuqə üçün gərək dünyanın o başına gedəsən.

Qarışqa doyunca yeyib armudun içindəcə gözünün acısını aldı. Sonra qəti qərara gəldi:

– Gedib dostlarımı da gətirəcəyəm bura. Belə gözəl yuvada tək yaşamağın nə ləzzəti?

Donbagöz şirin yuvanın divarlarından bir dişləm götürdü və yavaş-yavaş yola düzəldi. Armudun içindən çölə çıxanda onun gözləri bərk qamaşdı. Az qala dişində tutduğu armud parçasını yerə salacaqdı. Ancaq özünü birtəhər ələ aldı. Yavaş-yavaş üzü aşağı enməyə başladı.

Yuxarı qalxanda qarışqa heç bu qədər əziyyət çəkməmişdi. Sən demə aşağı düşmək daha çətin imiş. Bir tərəfdən də dişlərində tutduğu armud parçasının ağırlığı onu hey aşağı dartırdı.

Dombagöz əvvəlcə istədi ki, armud tikəsini yeyib işini asanlaşdırsın. Sonra fikrindən vaz keçdi. Düşündü ki, bu bir dişləm armud onun əlində yeganə dəlil-sübutdur. Yüz sözdənsə, bir dişləm yemək daha təsirlidir.

Nəhayət, uzun, üzücü yol arxada qaldı. Qarışqa öz yuvalarının ağzına gəldi. O, qapıdan içəri girəndə yuvanı xoş armud qoxusu bürüdü. Qarışqalar Dombagözün üstünə hücum çəkdilər. Dombagöz əvvəlcə bir şey başa düşə bilmədi. Sonra tez armud parçasını ağzından buraxıb kənara çəkildi. Bir dişləm armuddan ötrü bir didişmə başladı ki, gəl görəsən. Dombagöz kənardan qardaş-bacılarına baxıb ləzzət çəkirdi.

Bir dişləm armud bir andaca yoxa çıxdı. Ac qarışqalar üzlərini Dombagözə tutub dedilər:

– Ey igidlər igidi Dombagöz bəy, verdiyin qonaqlığın dadını ömrümüz boyu unutmarıq. Lütf eylə, öz səxavət əlini bizim üstümüzdən əsirgəmə!

Dombagöz məmnun-məmnun gülümsündü:

– Ey mənim sevimli qardaş-bacılarım! Eşidin və agah olun! Mən bir şirin yuva tapmışam. Onun içində yaşayan qarışqanın yem dalınca getməsinə heç bir ehtiyac yoxdur. Kim mənimlə gedib o yuvada yaşamaq istəyirsə, əlini qaldırsın?

Qarışqaların arasında bir vurhavur düşdü ki, gəl görəsən. Ağız deyəni qulaq eşitmədi.

Təcrübəli qarışqalar nə qədər öyüd-nəsihət elədilərsə də, xeyiri olmadı. Cavan qarışqaların böyük bir dəstəsi Dombagözün dalınca getdi.

Qarışqalar elə sürətlə qaçışırdılar ki, gəl görəsən. Onlar itələşə-itələşə şirin yuvanın balaca qapısından içəri girdilər. Bir xarthaxart başlandı ki, gəl görəsən. Qarışqalar yeraltı mədən işçiləri kimi armudun içini oyum-oyum oyurdular…

Təzə sakinlər şad-xürrəm yaşayırdılar. Beləliklə, günlər, həftələr ötdü. Bir gün şirin yuva bərk yelləndi və qopub yerə düşdü. Qarışqaların yedikləri burunlarından gəldi. Ölən kim, qol-qabırğası sınan kim… Şirin yuva dağım-dağım dağıldı. Qarışqalar evsiz-eşiksiz qaldılar. Onlar üzlərinə üz tutub ata-baba evlərinə, yeraltı yuvalarına döndülər. Sən demə ən gözəl, ən şirin yuva elə bura imiş. El-oba içində yaşamaq da, ölmək də xoş imiş…

**1991**

## ŞƏKƏRDƏN DƏ ŞİRİN

Milçək qənddanın başına pərvanə kimi dolanırdı. Arabir qəndin üstünə qona bilsə də, onu tezcənə qovurdular. Yazıq milçək vızıldaya-vızıldaya ah çəkirdi:

– Ah, kaş bu qənddan mənim yuvam olaydı.

Milçək gözdən yayınıb birtəhər qənddanın içinə girə bildi. Özünü şəkər parçalarının arasına soxub gizləndi. Elə ki, qənddanın qapağını örtdülər, milçək arxayın-arxayın vızıldamağa, şirə çəkməyə başladı. Özünü dünyanın ən bəxtəvər milçəyi hesab elədi.

Aradan xeyli keçdi. Bir vaxt milçəyə ağ günlər vəd eləyən ağ şəkərlər onun gözünə ağ kəfən kimi görünməyə başladı. Ürəyindən uçmaq, yoldaşlarına qoşulmaq keçdi. Ancaq təəssüf ki, bu mümkün deyildi. O biçarə də dustağa bənzəyirdi.

Şirin şəkərlər acı zəhərə, zəqquma döndü. Milçək dərdli-dərdli vızıldadı. Bir gün ona bir ömür qədər uzun gəldi.

Nəhayət, evdəkilər çay içməyə başladılar. Qənddanın qapağı açıldı. Milçəyə elə gəldi ki, onun tabutunun qapağını qaldırdılar. Dərhal vızıldayıb çölə uçdu. Onun sevincinin həddi-hüdudu yox idi. Elə hey öz-özünə düşünürdü:

– Azadlıq şəkərdən də şirin şeymiş…

**1991**

## GÜL VƏ BÜLBÜL ƏFSANƏLƏRİ

Gül və bülbül haqqında nə qədər əfsanə var. Həmişə elə fikirləşmişik ki, gülün həsrətidi bülbülə nəfəs, ilahi səs verən. Biçarə bülbüllər nağıllarımızda gülün vüsalına qovuşmaq üçün sinələrini tikana vurub ölməkdən belə çəkinməyiblər. Lakin əslində bu belədirmi?

Bülbül gülü yox, öz həmcinsi olan başqa bir bülbülü sevə bilər. Bülbülün həsrətli, yanğılı nəğməsi gülə yox, bülbülə olan məhəbbəti ilə yoğrulub.

Bəs bülbül nəyə görə gülə biganə deyil? Sualın cavabını o dəqiqə tapıram.

Hansı nəğməkar gözəlliyə biganə olub? Bəlkə həsrətli nəğmələr oxumaqdan başqa əlindən heç nə gəlməyən bülbül gülü dərib sevgilisinə aparmaq üçün onun başına fırlanır?

Yox, əslində bu belə deyil. Gülü bülbülə, bülbülü gülə sevdirən gözəllik aşiqi insandır. Sarı Aşığın bu misraları da təsadüfən yaranmayıb: "Yaxşı yaxşıya gedə, yaman yamana qala!" Bülbülün səsindən, gülün gözəlliyindən, onun ətrindən məst olan insanın ürəyində o zərifliyi, bihuşedici ətri o gözəl səsə, yanğılı nəfəsə qovuşdurmaq arzusu baş qaldırıb. Elə buna görə də gül və bülbül əfsanələri yaranıb.

**02. 01. 1994**

## GÜL VƏ BÜLBÜL ƏFSANƏSİ

Qədim zamanlarda zülmkar bir şah vardı. Onun var-dövləti başından aşsa da, övladı yox idi. Uzun nəzir-niyazdan sonra şahın bir qızı dünyaya gəldi. Qız dəqiqə ilə, saatla, günlə, ayla, illə böyüdü, boy atdı. Qızlar bulağından su içib gözəllər gözəli oldu.

Təbəssümü dörd tərəfə nur saçırdı bu gözəlin. Səsində dağ sularının xoş ahəngi vardı. Odlu baxışları ürəklərin sarı simini riqqətə gətirirdi. Bu qız o qədər gözəl idi ki, ay onu görəndə utandığından buludların arasında gizlənirdi. Cığırlar bu gözəlin yerişindən məst olardılar. Çəmən o qızın gümüş topuqlarını ləzzətlə öpər, quşlar susub onun şirin, ürəkaçan nəğməsinə qulaq asardılar.

Bağbanın bir ağıllı oğlu var idi. O, çox zirək, zəhmətkeş və ağıllı idi. Oğlanın əlləri bağa yeni bir təravət verir, onu təzə növ ağaclarla, güllərlə bəzəyirdi.

Bağban oğlu çox gözəl tütək çalırdı. Gecələr ay işığında onun həzin tütəyinin səsi ürəkləri riqqətə gətirirdi.

Bağban oğlu şahın qızını dəlicəsinə sevirdi. Ancaq cürət edib bu haqda danışmaqmı olardı? O, dərdini, həsrətini, yanğısını, ağrısını, nisgilini tütəyin yanıqlı səsi, sədası ilə ifadə edirdi.

Şahzadə qız da çox arif idi. Tütəyin səsi ona sehrli bir nağıl danışırdı. Bu səsi dinləyəndə aradakı uçurumlar yox olar, ürəkdəki arzuların qönçələri pardaxlayardı.

Yerin də qulağı var, – deyirlər. Padşaha xəbər çatdı ki, bu yanıqlı tütək səsi sevən bir ürəyin döyüntüləridi. Özü də nəğmənin ahəngi qızın da ürəyinə, arzusuna uyğun idi…

Şah qəzəbləndi. Əmr etdi ki, bağban oğlunu hüzuruna gətirsinlər. Oğlan gəlib ədəblə baş əydi. Bu, şahı daha da qəzəbləndirdi. Acıqlı-acıqlı soruşdu ki, nə üçün tütək səsiylə camaatı narahat eləyirsən?

Oğlan əvvəlcə susdu. Birdən necə oldusa, heç özü də bilmədən dedi:

– Qibleyi-aləm, məhəbbətdən başıma hava gəlib. Mənim heç bir günahım yoxdur, günahkar sevən ürəyimdir. Sizin qızınızı dəlicəsinə sevirəm.

Padşah cin atına mindi. Cəllada əmr etdi:

– Bu sarsağın köksünü yarıb, sevən ürəyini çıxarın!

Cəllad bir göz qırpımında xəncəri çəkib oğlanın sinəsini parçaladı. Bu mənzərədən dəhşətə gələn şah qızı dərindən bir ah çəkib qızılgül koluna döndü.

Hamı heyrətdən donub qalmışdı. Təkcə cəllad öz işindəydi. O, cavanın ürəyini qanlı-qanlı ovcunda yuxarı qaldırdı. Ürək sudan çıxarılan balıq kimi çırpınırdı. Onun qanı qızılgül kolunun üstünə səpələnən kimi al-əlvan güllər açıldı.

Hardasa, uzaqdan yanıqlı bir tütək səsi gəlirdi. Padşah əl uzadıb qanlı ürəyi cəlladın ovcundan qoparmaq istəyəndə yeni bir möcüzə yarandı. Bağban oğlunun sevən ürəyi

bülbülə dönüb gül şaxına qondu. İki həsrətli bir-birinə qovuşdu.

Bülbülün yanıqlı nəğməsi ürəkləri kövrəltdi. Adamların gözündə yaş gilələndi:

Zaman çapdı öz atını,
İllər döndü bir ağ yelə.
O zamandan sirdaş olub
Gül bülbülə, bülbül gülə…

**1989**

## ADAMLI GÖL

Qədim zamanlarda Aydəmir adlı bir oğlan ovdan gəlirdi. O, gölün yanından keçəndə ayaq saxladı. Vurduğu dağ keçisini çiynindən aşırıb yerə qoydu. Əyilib əl-üzünü yumaq istədikdə çaşıb qaldı. Gölün içində cavan bir oğlan var idi. O, diqqətlə ovçuya baxırdı.

Gənc ovçu üşəndi. Sonra vurduğu dağ keçisini də götürüb kəndə qayıtdı. Adamları başına toplayıb and-aman elədi ki, bəs filan gölün içində cavan bir oğlan yaşayır. Onu öz gözlərimlə görmüşəm.

Aydəmirə inanan da oldu, inanmayan da. Onu lağa qoyanlar da tapıldı.

Aradan bir müddət keçdi Kəndin gözəl qızlarından biri – Aydəmirin bacısı Ülkər çəməndən çiçək dərib dəstə düzəltdi. Gəzə-gəzə gəlib həmin sehrli gölün sahilinə çıxdı. Birdən gözlərinə inanmadı. Suyun içində gözəl bir qız var idi. Ülkər öz-özünə düşündü:

– Hə, görünür Aydəmir düz deyirmiş. Bu gölün içində adam yaşayırmış.

Qız kəndə qayıtdı. O da and-aman elədi ki, bəs Aydəmir deyən gölün içində, doğrudan da, adam yaşayır. Ancaq

görünür qardaşım yaxşı baxmayıb. Çünki gölün içindəki oğlan yox, qızdır.

Aydəmir etiraz etdi:

– Yox, oğlandır, öz gözlərimlə görmüşəm.

Onlar xeyli mübahisə etdilər. Hərə öz dediyinin doğruluğunu sübuta yetirməyə çalışdı. Yenə hər şey unuduldu.

Bir gün Aydəmirlə Ülkərin anası Pərizad qarı biçində olan kişisinə yemək aparanda yolu həmin sehrli gölün yanından düşdü. Arvad oğlu ilə qızının mübahisəsini xatırladı. Əvvəlcə istədi ki, dönüb yolunu dəyişsin. Ancaq maraq ona güc gəldi. Gölün sahilinə endi. Suya baxan kimi qoca bir qarıyla üz-üzə durdu.

Qarı qorxdu. Üzünü döndərib tələsik addımlarla ərinin yanına getdi. O, başına gələnləri kişisinə danışdı.

Murtuz kişi güldü:

– Deyəsən uşaqların danışdığı nağıl sənin də başını xarab eləyib ha, ay arvad! Heç göldə də adam yaşayar?

Arvad nə qədər and-aman elədisə də, kişi ona inanmadı. O gündən sonra göl haqqında o qədər söz-söhbət gəzdi ki, qorxudan heç kəs o tərəflərə üz tutmadı. Hamı deyirdi ki, o göl şeytanlar məskənidir.

Söz-söhbət o qədər uzandı ki, Murtuz kişi  də bu haqda düşünməyə başladı. Qərara aldı ki, gölə gedib hər şeyi öz gözləri ilə görsün, camaatı xofdan, qorxudan qurtarsın.

Nəhayət, o da gölün sahilinə gəldi. Suya baxanda orada bir qoca kişi olduğunu gördü. Murtuz kişi nə qədər dua oxudusa da, köməyi olmadı. Göldəki adam onunla üz-üzə durmuşdu.

Murtuz kişi yumruğunu qaldırıb qıcananda, sudakı adam da eyni ilə onun kimi etdi. Kişi xof içində kəndə qayıtdı. O, Aydəmiri, Ülkəri və Pərizad qarını yanına çığırıb soruşdu:

– Deyin görüm göldə nə görmüsünüz?

Aydəmir dilləndi:

– Cavan bir igid gördüm.

– Yox, mən qəşəng bir qız gördüm, – Ülkər cavab verdi.

Pərizad qarı acıqlandı:

– Cavan qız, cavan oğlan nədi, a bala, o göldə əntər bir qarı yaşayır.

Murtuz kişi güldü:

– Sizin heç biriniz düz demirsiniz. O gölün içində yaşayan kaftar bir qocadır.

Onlar çox mübahisə elədilər. Hərə özünün haqlı olduğunu sübut eləməyə çalışdı. Axırda qərara gəldilər ki, birlikdə gölün sahilinə getsinlər.

Elə də etdilər. Gölün sahilinə çatanda gördülər ki, suyun içində bir qoca, bir qarı, bir oğlan və bir qız var.

– Baxın, mənim dediyim oğlan budur, – Aydəmir dilləndi.

– Bu da mənim gördüyüm qızdır, - Ülkər həyəcanla dedi.

– Mən isə bu qarını görmuşdum.

Murtuz kişi arvadının sözünü kəsdi:

– Bəs bu kişiyə sözünüz nədi?

Birdən Aydəmir sevincək dilləndi:

– Bıy, ay ata, o qoca elə sənsən…

Diqqətlə baxdılar. Kişinin özündən başqa hamı bunu təsdiq elədi.

Sonra nəzərlər qarıya dikildi:

– Ay arvad, bu ki sənsən?!

Qarı inanmadı, ancaq uşaqlar atanın sözünün doğruluğunu söylədilər. Bu münvalla Aydəmiri də, Ülkəri də tanıdılar. Dedilər ki, sən demə, hamımız düz danışırmışıq. Ancaq onlar bir müddət güzgü gölün sirrini anlaya bilmədilər.

Aylar, illər ötdü. Aydəmir tez-tez gölün sahilinə gəldi. Çox düşünüb-daşınandan sonra suda surətin əks olunmasının səbəbini anladı. O, bir şüşə qırığı tapıb arxasını

rənglədi. Beləliklə, primitiv də olsa, dünyanın ilk güzgüsü meydana gəldi. Sonralar insanlar onu daha da təkmilləşdirdilər. Beləliklə, insan güzgü düzəltməyi təbiətin özündən öyrəndi…

**1991**

## İLK ZƏLZƏLƏ

Dünya əl içi kimi düpbədüz idi. Ucsuz-bucaqsız düzənlər adamı lap çaşdırırdı. Bir zaman canlılar öz mağaralarını, yuvalarını tapmaqda belə çətinlik çəkirdilər. Onların bir qismi düzənliyə uyğunlaşa bilmir, məhv olurdu.

Torpaq ana bunu özünə dərd elədi. O, fikirləşdi, fikirləşdi, ürəyi ağrımağa başladı. Bədəni əsim-əsim əsdi. Yer üzünün ilk zəlzələsi belə başlandı…

Dünya çox qəribə bir görkəm aldı. Dağlar baş-başa verdi. Dərələr təpələrin ayağına söykəndi, qoynunda sellər-sular çağlamağa başladı. Yamaclar, çəmənlər, meşələr bir-birinin yanına düzüldü.

Canlılar yavaş-yavaş dünyanın bu yeni görkəminə alışdılar, öyrəndilər. Hərə özü üçün yaşamağa münasib yer seçdi. Kimi dağda, kimi yamacda yaşadı, kimi dərəni bəyəndi. Kimi meşələri sevib-seçdi, kimi düzənlərə könül bağladı. Dünya öz dağıyla, dərəsiylə, yamacıyla, düzüylə, dəniziylə, çayıyla, səhrasıyla, çəməniylə, meşəsiylə, bağıyla… gözümüzü, könlümüzü oxşamağa başladı. Ceyranlar elə düzdə qaldılar, cüyürlər meşəyə çəkildilər. Qartallar zirvəni görəndə ürəkləndilər. Quşlar budaqlara qonub cəh-cəh vurdular…

Torpaq ana bütün övladlarına yaşamaq üçün gözəl şərait yaratdı.

**1990**

## BALACA İT

*Novellavari*

Evimizdə bapbalaca bir it, onun boynunda isə uzun, upuzun bir zəncir var. Bu zəncirin o biri ucu uzaq-uzaq şəhərlərə, kəndlərə gedib çıxır.

Balaca itimiz bütün günü dəhlizdə, kətilin üstündə sakitcə oturub mürgüləyir. Ancaq o, çox həssasdır. Zəncirin o biri başında xırdaca bir hənir eşidən kimi "hürür", zingildəyir. Elə bil ki, öz sahibini köməyə çağırır.

Yox-yox, əslində bu it deyil. O, bizim telefonumuzdur.

**1991**

## DOVŞANLA SÖHBƏT

Dərə yuxarı qalxırdım. Birdən qarşıma bir dovşan çıxdı. Mən ondan soruşdum:

– Ay Dovşan, ay Dovşan, qulaqların niyə uzundur?

– Onlar gödək olsa, uzaqdan gələn səsləri yaxşı eşidə bilmərəm. Təhlükə tez başımın üstünü alar.

– Qulağın uzun olduğu üçün farslar sənə "xərgüş" deyirlər. Xər eşşək, güş isə qulaq deməkdir.

– Yaxşı ki, eşşəyə qulaq sarıdan oxşamışam. Yerişim də onun yerişi kimi olsaydı, işim çoxdan bitmişdi.

– Bəs quyruğun niyə belə gödəkdi?

– Əgər o uzun olsa, asanlıqla məni arxadan qovan düşmənimin əlinə keçə bilər. Quyruq da ki, ələ keçdi, qurtardı. Bir də görərsən ki, boğazın da əldədi…

– Bəs qaçanda niyə tullana-tullana qaçırsan?

– Qorxu məni az qalır ki, quş eləsin. Ancaq qanadım olmadığından bir az uçub yerə düşür, yenidən qabağa tullanıram.

Bir sual da vermək istədim. Elə bu vaxt dovşanın qulaqları şəkləndi. O, sözümü ağzımda yarımçıq qoyub kolluğa tərəf götürüldü…

**1991**

## SEL VƏ BULAQ

Göyün üzünü qara buludlar örtdü. Şimşək çaxdı. Leysan başladı, nə başladı! Sular axıb birləşdi, qüdrətli bir axın yarandı. Sel yerdə hər şeyə meydan oxudu. Yıxdığını yıxdı, apardığını apardı. Üzünü bulağa tutub qışqırdı:

– Gəl mənə qoşul. Kömək et yıxaq, dağıdaq. Əgər sözümə baxmasan, sənin gözlərini kor eləyəcəyəm.

– Heç nə danışdığını bilirsənmi, ay sel? Mən xeyirxahlıq üçün yaranmışam. Öz çirkin, bulanıq sularınla mənim duru suyumu bulandırma. Çıx öz yolunla get. Mən sənin kimi selləri çox yola salmışam…

Sel qəzəbləndi. Bulağın duru suyuna hücum çəkdi. Təmizliyə öyrəndiyindən, yazıq bulağın nəfəsi qaraldı. Bilmədi ki, neyləsin.

O, güclü selə müqavimət göstərməyə başladı. Sel isə çox qüvvətli idi.

Çarpışma bir xeyli davam etdi. Göyün üzündən qara buludlar çəkildi. Əli yağışın əlindən üzülən sel dağlardan qaçıb çökəklərə sığındı.

Bulağın gözlərinə çökmüş bulanıq pərdə yavaş-yavaş çəkildi. Onun suyu yenə də əvvəlki kimi dumduru oldu.

**1990**

## DOVŞAN VƏ TISBAĞA

Dovşan Tısbağaya güldü. Onu lağa qoydu. Dedi ki, ay Tısbağa lələ, bəlkə mənimlə qaçış yarışına girəsən?

Heyvanlar pıqqıldaşıb güldülər. Tısbağa isə özünü sındırmadı. O saat cavab verdi:

– Razıyam. Ancaq bir şərtim var.

– Buyur görək.

– Hünərin çatırsa, quruda yox, suda yarışaq.

Dovşan pərt oldu və səssiz-səmirsiz çıxıb getdi.

**1990**

## BUDAQ VƏ YARPAQ

Tumurcuqlar çırtladı. Yarpaqlar öz yaşıl gözləri ilə dörd yana heyranlıqla baxdılar. Bəh-bəh, necə gözəl bağdı. Gül gülü çağırır, bülbül bülbülü. Ağaclara baxanda ürək açılır. Yarpaqlayan kim, çiçəkləyən kim. Həzin-həzin yel əsdikcə budaqlar nazlı-nazlı yırğalanırdı.

Birdən necə oldusa, budaqlar daha bərk silkələndilər. Ora-bura çırpılan yarpaqların budaqlara bərk acığı tutdu:

– Ey, qanacaqsızlar, niyə şadlığınıza şitlik eləyirsiniz? Qupquru çöpə bənzəyən bədəninizi çiçəklərlə, yarpaqlarla bəzəmişik. Sizi abıra salmışıq. “Çox sağ ol” əvəzinə, hələ bir titrəyirsiniz, vurnuxursunuz da? Niyə bizə paxıllığınız tutur, niyə bizi əzmək istəyirsiniz?

Dünyagörmüş budaqlar çaşıb qaldılar. Yarpaqların, çiçəklərin nankorluğu onların ürəklərini sındırsa da, bir söz demədilər. Ancaq gövdə özünü saxlaya bilmədi. Lovğa çiçəklərin və yarpaqların üstünə acıqlandı, onları o ki var danladı. Lap sonra dedi:

– A dünyadan bixəbərlər. Budaqlar olmasa siz olardınızmı? Bir də ki, atalar yaxşı deyib: “Cücəni payızda sayarlar.” Öyünməyin, a balalarım. Bu bəyənmədiyiniz budaqlar sizin kimi yarpaqları, çiçəkləri çox yola salıb.

Günlər, aylar ötdü. Payız təbiətə qədəm qoydu. Yarpaqlar saraldı. Yel əsən kimi budaqdan qopub uçuşan xəzəllər gövdənin dediyi sözlərin mənasını yalnız indi başa düşdülər.

**1990**

## SƏHRADA BULAQ

Su yerin altında eşələndi, eşələndi, eşələndi, nəhayət, üzə çıxdı. Dörd yana baxdı. Ancaq yan-yörəsindən xoşu gəlmədi. Hər yan qupquru səhra idi.

Təzədən yerin altına batmaq, yol getmək, gözəl bir meşədə, yaxud çiçəkli bir çəməndə üzə çıxmaq arzusu baş qaldırdı onun ürəyində.

Elə bu vaxt qulağına səs gəldi. Boylanıb baxdı. Gözlərinə yorğun bir yolçu dəydi. Onun dodaqları qupquru qurumuş, gözlərinin nuru azalmışdı. Ayaqlarında taqət qalmamışdı.

Yolçunun dizləri əsdi, yerə yıxıldı. Handan-hana gözlərini açdı. Onun yanında gözəl bir bulaq çağlayırdı. Elə bildi ki, yuxu görür. Ancaq yox, bu, həqiqət idi.

O, əyilib bulağın gözündən öpdü. Suyundan doyunca içdi. Ürəyinə sərinlik, dizlərinə qüvvət, gözlərinə işıq gəldi yolçunun. O, heç vaxt belə ləzzətlə su içməmişdi.

Yolçunun dodaqlarından bu kəlmələr qopdu:

– Səni min yaşa, ay bulaq! Suyun heç vaxt tükənməsin. Həmişə susuzluqdan yananların pənahı ol!

Bulaq bu sözləri eşidəndə çox sevindi Yerin altına batmaq fikrindən tamamilə daşındı. Düşündü ki, mən burada insanlara, quşlara, heyvanlara daha çox gərək ola bilərəm.

Bulağın düşündüyü kimi də oldu. Yolçular onun yanında ağac əkdilər. Səhrada yaşıl bir ada yarandı. Bulaq nənə yorğun yolçuları, ağacları, otları, quşları, böcəkləri öz başına toplayıb onlara nağıl danışmağa başladı. Şirin bir həyat nağılı…

**1990**

## AĞILLA, KAMALLA İDARƏ EDİLƏN CƏNGƏLLİK

Cəngəlliklər padşahı qoca Şir bütün dünyaya elan etdi ki, bu gündən belə yeni qayda ilə yaşayacağıq. Cəngəllikdəki hər bir heyvanın azad şəkildə seçmək, seçilmək hüququ var. Hamı çəkinmədən öz ürək sözünü söyləyə, təkliflərini verə bilər. Hamını, hamını, hətta şahın özünü də tənqid etmək olar. Ölkə daha pəncə gücünə yox, ağılla, kamalla idarə ediləcək.

Şah elanlar yazdırıb meşənin hər yerindən asdırdı. Onun köməkçiləri demokratiya sözünün mənasını yerlərdə izah etməyə başladılar. Əlsiz-ayaqsızlar, gücsüzlər sevincdən atılıb düşürdülər. Bəs necə, bu söz onlara əsl azadlıq, sərbəstlik verirdi. Bəs necə, indən belə hər yoldan ötən Tülkü, Çaqqal onlara dəyib-dolaşa bilməzdi. Ölkədə əsl əmin-amanlıq bərqərar olacaq, heyvanlar qorxusuz, hürküsüz yaşayacaqdılar. Bundan da yaxşı bir şey düşünmək olardımı? İndi meşədə, kol-kosda, kövşənlərdə – hər yerdə söhbət demokratiyadan gedirdi.

Dünyagörmüş bir Dovşana nəvə-nəticələri bu sözün mənasını izah etdilərsə də, o heç nə başa düşmədi. Dedilər ki, ay baba, gəl bizdən incimə, əməlli-başlı qocalmısan. Zamanın yeni tələblərindən xəbərin yoxdu.

Dovşan xeyli fikrə getdi. Handan-hana ah çəkib sözə başladı:

– Balalarım, doğrudan da, mən qocalıb əldən düşmüşəm. Deyəsən ağlım da zəifləyib. Ona görə demokratiyadı, nədi o sözün mənasını başa düşə bilmirəm. Ancaq, əzizlərim, bir qədər ehtiyatlı olun. Vallah həmin sözdən qan iyi gəlir.

Nəvə-nəticələri qoca Dovşana güldülər. Dedilər ki, ay baba, ötən qanlı-qadalı günlər sənin gözlərini lap qorxudub.

İndi dünya sənin gördüyün deyil, hər şey dəyişib, hər şey təzələnib…

Dovşanlar məsləhət-məşvərət elədilər. Yeni qayda ilə yaşamaq haqqında planlar cızdılar. Mitinqlər keçirib öz haqlarını tələb etdilər. Cəngəlliklər şahına xahişnamə yazıb muxtariyyət istədilər. Dedilər ki, icazə ver ayrıca yaşayıb dolanaq. Öz ərazimiz, öz otlağımız olsun.

Şah bu tələbi səbrlə dinlədi və dedi ki, etirazı yoxdur. Onu yalnız və yalnız əmin-amanlıq, bütün canlıların qoxu-suz-hürküsüz yaşamağı maraqlandırır. Təki dovşanlar özlərini sərbəst hiss etsinlər.

Daha sonra şah dovşanların elçisinə izahat verdi:

– Əzizlərim, siz bir məsələni unutmayın. Dovşanlar çoxdur. Hərəsinin də ağzından bir avaz gəlir. Ölkədə parçalanma, fikir ayrılığı, dava-dalaş olmasın deyə, sizin təhlükəsizliyiniz naminə bəzi işlər görməliyik.

Dovşanlar öz diyarlarına gəlib işə başladılar. İclaslar çağırdılar, müzakirələr açdılar. Bəzən uzaqgörən hökmdarın dediyi kimi sözləri çəp gələnlər də oldu. Elə bu zaman ədalətli şah məcburiyyət qarşısında qalıb bəzi tədbirlər görməli oldu. O, fikir ayrılığını aradan qaldırmaq, günahsız dovşanların əmin-amanlığını bərpa etmək məqsədilə tülkülərdən və çaqqallardan ibarət böyük dəstələr göndərdi. Artıq-əskik danışan, demokratiyaya "mane olan" dovşanları tülkülər və çaqqallar didib parçaladılar.

Əlbəttə, o biri dovşanlar bunu çox yaxşı başa düşürdülər. Bilirdilər ki, bunların hamısı onların əmin-amanlığı, təhlükəsizliyi üçündür.

Tülkülər öz qanlı caynaqları ilə ağacların gövdəsini "demokratiya" sözləri ilə bəzəmişdilər. Sağ qalan dovşanlar isə həmin sözü oxuyub, şahın canına dua edir, bəxtəvərlik içində yaşayırdılar.

**1990**

# QAÇAN ALOV

Biri var idi, biri yox idi, Səlim adlı qəddar bir kişi var idi. Bir dəfə necə olmuşdusa, evlərində saxladığı ala pişik onun əlini cırmaqlamışdı. Elə o vaxtdan Səlimin qəlbində pişiyə qarşı dərin bir nifrət hissi baş qaldırmışdı. Neçə dəfə ala pişiyi azdırmışdısa da, xeyiri olmamışdı. Həyət-bacaya öyrəşən heyvan yenə qayıdıb gəlmiş, onu dilxor eləmişdi.

Bir dəfə Səlimin kefi yuxarı idi. Lakin həyətdə pişiyi görəndə onun əhvalı tamam pozuldu. Öz-özünə deyindi:

– Necə bunun əlindən yaxamı qurtara bilmirəm e?!

O, pişiyi tutmaq istədi. Qorxmuş heyvan yenə də kişinin əlini cırmaqladı. Səlim lap hirsləndi. Acıqlı-acıqlı dedi:

– Səni yandırmasam, heç atamın oğlu deyiləm.

O, güc-bəla ilə pişiyi tutdu. Onu bir torbanın içinə saldı. Bir şüşə neft və kibrit götürüb çayın qırağına getdi. Yazıq heyvanı neftlə çimizdirdi. Sonra qəflətən kibrit çəkib pişiyə od vurdu.

Əvvəlcə ala pişik bir şey başa düşə bilmədi. Lakin alov bütün bədənini bürüyəndə dəhşətli bir səslə miyoldaya-miyoldaya qaçmağa başladı. Qəribə və dəhşətli bir mənzərə idi. Adama elə gəlirdi ki, bir parça alov qaça-qaça harasa gedir.

Yazıq pişik qaçır, canını qurtarmağa çalışırdı. O, yana-yana Səlim kişinin həyətinə girdi. Əvvəlcə çəpər, balaca ot tayası, sonra isə evin özü alışdı. Dəhşətli yanğın qonşu həyətlərə də meydan oxuyurdu. Adamlar hay-harayla qışqırır, yanğını söndürməyə çalışırdılar. Səlim həyətə girəndə artıq iş-işdən keçmişdi. Onun sifəti də hisdən qaralmış divarlar, kösövə dönmüş ağaclar kimi qapqara qaralmışdı.

Adamların əvvəlcə ona ürəyi yandı. Lakin məsələdən hali olandan sonra hamı qəddarlığının layiqli cavabını almış bu kişiyə məzəmmətlə baxdı. Kimsə təəssüflə dolu bir səslə dedi: “Özgəyə quyu qazan özü düşər.”

**1990**

# SƏS PƏTƏYİ

Biri var idi, biri yox idi, dünyada çoxlu səs var idi. Bu səslərin hərəsi bir tərəfdə yaşayırdı. Biri çayın şırıltısında, biri göylərin gurultusunda, biri yağışın səsində, digəri quşların pırıltısında, arıların vızıltısında, başqa birisi küləyin vıyıltısında…

Nə isə, dünyada çoxlu səslər var idi və bu səslər ayrı-ayrılıqda yaşayırdılar.

İnsan səsləri dinlədikcə valeh olur, öz səsini də təbiətin səslərinə qoşurdu.

Qərinələr, əsrlər bir-birini əvəz etdi. İnsan heyvanları, quşları, arıları əhliləşdirdiyi kimi, səsləri də əhliləşdirmək istədi. O, hər səsi bir hərflə qeydə aldı. Beləliklə, gözəl bir səslər çələngi alındı.

Səslər havada uçuşur, arılar kimi vızıldaşırdılar. Bunu görən insanın ağlına qəribə bir fikir gəldi. O, arılara pətək düzəltdiyi kimi, səsləri də bir yerə yığmağa çalışdı. Səslər arılar kimi uçuşub onun düzəltdiyi səs pətəyinə – “Əlifba”nın başına yığışdılar. İnsan o səslərin hərəsini bir hərflə qeydə aldı. Səsləri ifadə edən bu hərflər yan-yana düzüldükcə, gözəl-gözəl sözlər yarandı. Arı pətəyində də şirin-şirin sözlər hazırlandı. Bu sözlər insanların dilinin bəzəyinə çevrildilər. Ana, ata, bacı, qardaş, oğul, uşaq, bal, bala, vətən, yurd, el-oba, xalq… sözləri yan-yana düzüldü. Müxtəlif hərflər bir-biri ilə çiyin-çiyinə verdikcə yeni-yeni kəlmələr yarandı. Bu sözlər müqəddəs ana dilini əmələ gətirdilər. Bal şirin olduğu kimi, ana dilinin sözləri də şirindir. Ona görə ki, bu sözlər sehrli səs pətəyinin şəhdi-şirəsidir.

**1990**

# SAF VƏ ÇÜRÜYÜN NAĞILI

Biri var idi, biri yox idi, bir ərik ağacı var idi. Onun ucqar budaqlarının birində bir-birinə yaxın bir cüt çiçək açmışdı. Bu çiçəklər o qədər qəşəng idilər ki, gəl görəsən. Baxanın bir də baxmağı gəlirdi. Ancaq bu çiçəklərdən birinin qəlbində paxıllıq hissi baş qaldırdı. Öz dostuna baxdıqca ürəyini qüssə bürüdü. Elə hey deyinməyə başladı. Məhz buna görə də ləçəkləri tez soldu. Düzdür, o biri çiçəyin də ləçəkləri töküldü, ancaq vaxtında, vədəsində.

Bir cüt çiçəyin yerində bir cüt meyvə qaldı. Günlər keçdikcə bu meyvələr şişməyə, iriləşməyə başladılar. Elə bil ağac balaca şarlar kimi onları üfürür, doldurmaq istəyirdi.

Çiçəyi tez tökülən çaqqalanın gecə-gündüzü yox idi. Elə hey qonşusunun paxıllığını çəkirdi.

Xülasə, nağıl dili yüyürək olar, – deyirlər. Bir cüt ərik cavan ağacın budağında bir cüt işıq kimi şəfəq saçmağa başladı. Bağbanın balaca oğlu bu ərikləri dərib yedi. Çəyirdəklərini əvvəlcə sındırmaq istədi. Sonra ağlına nə gəldisə, bağın bir küncündə torpağı qazıb, onları yerə basdırdı.

Həmin çəyirdəklərdən birinin içini paxıllıq qurutmuşdu. Cəhənnəmə gedən özünə yoldaş axtarar, – deyiblər. Paxıl çəyirdək də sevindi ki, nə yaxşı o biri çəyirdəyi də torpağa basdırdılar. Əgər o, yerin üstündə qalsaydı, çürük çəyirdəyin hirsindən ürəyi partlayardı.

Aylar ötdü, fəsillər dəyişdi. Növbəti dəfə bahar gələndə, torpağın canı yavaş-yavaş qızanda ərik çəyirdəkləri də yer altında oyandılar. Çürük çəyirdək ha elədisə, yerindən tərpənə bilmədi. Saf çəyirdəyin içi isə günəş eşqi ilə alışıb yanırdı. Nəhayət, onun qabığı çartladı. Yumurtanın içindən cücə çıxan kimi onun da qabıqlarının arasından "sarı dimdik" – cücərti göründü. Qəşəng bir fidan torpağı deşib yerin üstünə çıxdı. Günəşə, bahara xoşgəldin elədi.

Çürük çəyirdək isə lax yumurtaya bənzəyirdi. Onun içindəki olan-qalan həyat nişanələrini də paxıllıq didib parçalamış, çürütmüşdü. Torpaq ana əsl sərraf kimi safı qurudan asanlıqla ayıra bilmişdi.

**1990**

## "R" HƏRFİNIN NAĞILI

Biri var idi, biri yox idi, hərflərin arasında bir "R" hərfi var idi. Dil öyrənən, məktəbə hazırlaşan uşaqlar bu hərfdən yamanca qorxurdular.

Bu hərfi yazmaqla iş qurtarsaydı nə vardı ki?! Məsələ bunda idi ki, "R" hərfini yazmaq yox, tələffüz etmək adamları dəhşətə gətirirdi. Əslində "R" səsi o qədər də çətin səs deyildi. Ancaq onun vahiməsi uşaqları elə basırdı ki, "R" demək istəyəndə tamamilə başqa səslər, ya "L", ya da "Y" alınırdı…

Yaxşı yadımdadır, bir dəfə meşəyə alça yığmağa getmişdik. Vaqif adlı bir dostumuz qəflətən qışqırdı:

– Uy, uy, uy… Ayı məni yedi!

Hamımız evə sarı götürüldük. Açıqlığa çıxanda bir az toxtadıq. Qorxa-qorxa gözümüzü meşə yoluna dikdik. Bir azdan Vaqif də qaça-qaça gəldi. Biz onun başına toplaşdıq. Dostumuzun üzü bir balaca şişmişdi. Məlum oldu ki, o, bilmədən it arısının yuvasına toxunub. Hirslənən arılar isə Vaqifin üstünə düşüblər. O da "R" hərfini tələffüz edə bilmədiyindən arı əvəzinə ayı deyib. Bircə səsin dəyişməsi balaca arını dağ boyda ayıya çevirib və bizim hamımızı pərən-pərən salıb.

Bəli, bu başı bəlalı "R" hərfi uşaqların başına qəribə işlər gətirib.

Bir dəfə babam kənddən bizə meyvə gətirmişdi. O, iri bir armud götürüb kiçik qardaşımı yanına çağırdı:

– Hə, indi de görüm bu meyvənin adı nədir?

İşi çətinə düşən, "R" hərfinin vahiməsindən qorxan qardaşım dilləndi:

– Baba, mən bunu yox, alma istəyirəm.

Məsələnin nə yerdə olduğunu bilən babam gülümsündü, qardaşımın vəziyyətdən çıxmağı bacarması onun xoşuna gəldi. Dedi ki, eybi yoxdur, bu meyvənin adını deməsən də olar, al dişinə çək.

Qardaşım həvəslə razılıq verdi. O, armudu ləzzətlə dişinə çəkdi. Elə acgözlüklə yeyirdi ki, gəl görəsən. Onun əlində əlac olsa, armudla birgə həmin sözdəki "R" hərfini də birdəfəlik yeyər, bununla da uşaqların canını qurtarardı. Ancaq heç bir xeyri yox idi. "R" hərfi qardaşımı kölgə kimi izləyirdi.

Nəhayət, bir gün möcüzə oldu. Qardaşım traktor kimi tırıldamağa başladı. Tırrr, tırrrr… Onun tırıltısından qulaq tutulurdu. "R" səsi çox əzəmətlə səslənirdi. Qardaşım yalnız indi hiss etdi ki, "R" hərfi olmadan heç tırıltı da ola bilməz.

Beləliklə, qardaşım "R" səsini tələffüz etməyi əməlli-başlı öyrəndi. O, sevinir və öyünə-öyünə deyirdi:

– Ta mən böyümüşəm, ona görə "R" hərfi mənim sözümə baxır…

**1990**

## BUYNUZ

Qurd kəlin yanında çox fırlandı, o yanına, bu yanına keçdi. Ancaq onun iti buynuzlarından gözləri su içmədi. Özünü bicliyə vurdu. Kəlin qarşısında şöngüyüb, ləhlədi. Dil açıb belə dedi:

– Kəl qardaş, gəl dost olaq.

Kəl təəccübləndi:

– Səninlə mənim nə dostluğum, a Qurd?

– Balalarımın canı üçün sidq ürəklə deyirəm.

Kəl ürəyində canavarın qarasına deyinsə də, çarəsiz qalıb dedi:

– Nə deyirəm, mən razı.

Canavarın gözü sevinclə parladı:

– Kəl qardaş, əslində elə biz qohumuq. Bax, sənin də başın var, mənim də. Sənin də gözlərin var, mənim də. Sənin də ağzın var, mənim də. Sənin də dişlərin var, mənim də. Sənin də dilin var, mənim də. Sənin də qulaqların var, mənim də. Sənin də quyruğun var, mənim də… Ancaq…

– Nə ancaq, a Qurd?

– Kəl qardaş, heç bilmirəm bu buynuzlar sənin nəyinə lazımdır? Biz buynuzsuz yaşayıb ölmürük ki?

Kəl dərindən köks ötürüb söylədi:

– A Qurd, doğrusu, mən anadan buynuzsuz doğulmuşam. Ancaq böyüdükcə, boy atdıqca elə xəbisliklər görmüşəm ki, buynuz çıxarmağa məcbur olmuşam. Ancaq dərindən fikirləşsək, elə sənin də buynuzun var.

Qurd təəccübləndi:

– Nə danışırsan, mənim buynuzum nə gəzir?

Kəl güldü:

– Var, a Qurd, var. Sənin buynuzların qarnındadır. Xəbislik, yırtıcılıq sənin qoşa buynuzlarındır.

Qurd yenidən dil tökmək, Kəlin başını bişirmək istədisə də, mümkün olmadı. Kəl acıqlı-acıqlı dedi:

– Buynuzlarımın dibi geyişir, a Qurd. Neçə ki, səni vurmamışam, itil cəhənnəmə!

Qurd meşəyə götürüldü. Kəl isə yavaş-yavaş kəndə sarı qayıtmağa başladı.

**1990**

## GÖTÜRGƏ DƏRƏSİ

Kəndimizin aşağısında iri bir dərə var idi. O dərənin dibi o biri dərələr kimi dar deyildi. Əməlli-başlı bir düzəngah idi. Elə buna görə də orada çox vaxt taxıl əkirdilər. Yaxşı taxıl olurdu. Ancaq hazır məhsulu daşımaq çətinlik törədirdi.

Həmin dərənin adına Götürgə dərəsi deyirdilər. Uzun müddət fikirləşirdim ki, görəsən bu niyə belədir. Sonra bu adla bağlı bir rəvayət eşitdim. Orada deyilirdi ki, kasıb bir kişinin gözünün ağı, qarası bir inəyi var imiş. Bütün ailənin gözü həmin inəkdə imiş.

Bir gün necə olursa, inək itir. Ata ilə oğul onu axtarmağa gedirlər. Ata dağın üstü ilə, oğul isə dərə ilə gedirmiş. Hava qaranlıq olduğundan adamı vahimə basırmış. Tez-tez ata oğulu, oğul da atanı haylayırmış. Atanın səsini eşidəndə oğul, oğulun səsini eşidəndə isə ata toxtaq olurmuş.

Növbəti dəfə ata oğlunu çağırıb soruşur:

– Oğul, inəyi tapdın?

Oğul sevincək cavab verir:

– Tapdım, ata, tapdım.

Ata da sevinir və oğluna deyir:

– Götür gəl, götür gəl!

Belə deyirlər ki, həmin dərənin adı elə o vaxtdan Götürgə qalıb.

**1990**

## BƏNÖVŞƏ QANI

Evdə yazı yazırdım. Oğlum əlində bir qom bənövşə içəri girdi. Təzə-tər çiçəkləri stolun üstünə qoydu. Kağızların üstünə səpələnən balaca çiçəklərin hər biri bir hərfi xatırladırdı. Qələmin rəngi də bənövşəyi idi.

Oğlum bunu görüb fikrə getdi. Mən bənövşənin ətrini ciyərlərimə çəkdim. Sonra bənövşə haqqında balaca bir şer yazıb oğluma oxudum. O, üzümə baxıb bic-bic gülümsündü və dedi:

– Ata, yazdığın şerdən bənövşə ətri gəlir. Çünki sən onu bənövşə qanı ilə yazmısan.

**1990**

## SEL VƏ GÜNƏŞ

Baharın gözəl – gül gülü, bülbül bülbülü çağıran vaxtında qəflətən göy gurladı. Leysan başladı, nə başladı. Yağış elə yağırdı, elə yağırdı ki, ucundan tut, göyə çıx. Dərələrdə sellər, sular çağlayırdı…

Yağış kəsdi. Sel də sovuşub getdi. Ancaq o, bahar otlarını möhkəmcə tapdayıb yerə yapıxdırmışdı.

Günəş çıxdı. O, öz şəfəqli əllərini yerə yapıxan otlara uzatdı. Yerə yıxılan otlar Günəş nənənin əlindən tutub ayağa qalxdılar.

**1990**

## İKİ AĞAC

Eyni ildə, eyni ayda, eyni gündə, eyni saatda, eyni dəqiqədə iki ağac şitili yerdən baş qaldırdı. Bunlardan biri öz yarpaq gözlərini dünyaya ağacların əhatəsində, o biri isə bir az kənarda – açıqlıqda açdı.

Günlər ayları, aylar illəri əvəz etdi. Ağacların əhatəsində olan ağacın heç nədən qorxusu yox idi. Əsən küləklər, hətta tufanlar da onun vecinə deyildi. Dövrəsində olan ağaclar öz sinələrini qalxan kimi qabağa verir, cavan, bəxti gətirən ağacı hər dərddən, bəladan xilas edirdilər.

Yan-yörəsindəki ağaclardan qayğı, nəvaziş, kömək görən ağac gündən-günə boy atır, ucalır, elə bil ki, qonşuları ilə yarışırdı. O biri ağaclar qalxdıqca, o da himayədarlarına baxıb dartınır, ucalırdı.

Açıqlıqda olan ağac isə heç kəsdən imdad gözləmirdi. Özündən, torpaq anadan başqa heç kəsə güvənmirdi. Elə buna görə də əvvəldən işini ehtiyatlı tutmuşdu. Onun zoğları yerin dərin qatlarına işlədikcə, qol-budağı da göylərə can atırdı. Hər külək əsəndə, qasırğa qopanda açıqlıqda olan ağac gedib o dünyanı görür, qayıdırdı. Elə buna görə də

göylərə ucalmaqdan çox, gövdəsini yoğunlatmağa çalışırdı. Əsən küləklərə sinə gərdikcə bərkiyir, mətinləşirdi.

Ağacların dövrəsində olan ağac isə enə yox, boya verirdi. O, kənarda bitən öz həmyaşıdlarına yuxarıdan aşağı baxır, onu lağa qoyurdu. Açıqlıqda bitən ağacın isə ona baş qoşmağa nə vaxtı, nə də həvəsi var idi. O, qarşıdan gələn tufanlarla döyüşə hazırlaşırdı.

Bir dəfə necə oldusa, odunçular meşəyə gəldilər. Qəzavü-qədərdən cavan ağacın dövrəsindəki ağacları qırdılar, doğrayıb apardılar. Özünə isə cavanlığına görə heyfləri gəldi, qoy yaşasın, kölgəlik olsun, – dedilər.

Dost-tanışı qırılan ağac təklikdən üşəndi, qorxdu. Yalnız indi gördü ki, heç onun əməlli-başlı qol-budağı da yox imiş…

Hava qaraldı. Tufan qopdu. Ağacların dövrəsində yaşayan, indi isə tənha qalan ağac dəhşətə gəldi. Tufan onu adicə bir budaq kimi asanlıqla ora-bura çırpır, az qalırdı ki, kökündən qopartsın.

Ağac bu tufana tab gətirmədi, yanı üstə aşdı. Açıqlıqda yaşayan ağac isə heç nəyi vecinə almırdı. Çünki o, çox-çox belə tufanlar yola salmışdı.

**1990**

## BİR QUTU ŞOKOLADIN NAĞILI

Bir gözəl xanım məni mağazadan aldı, kağıza büküb, qoltuğuna vurdu. Onun yanındakı balaca, toppuş uşağı görəndə sevindim. Düşündüm ki, yəqin məni bu yeyəcək. Uşağın ağappaq, xırdaca-xırdaca dişlərini öz bədənimdə hiss etdim. Canıma xoş bir gizilti yayıldı.

Ancaq… Anası qutumun üstünə bürünmüş kağızı açmağa da icazə vermədi. Gecə o uşaqgildə, servantın içində qaldım. Bura mağazadan da pis imiş. Havasızlıqdan ürəyim

sıxıldı. Ancaq necə oldusa mürgüyə getdim. Yuxumda o uşağın ağappaq, xırdaca-xırdaca dişlərini gördüm.

Yuxum yarımçıq qaldı. Həmin xanım servantın qapısını açdı, məni götürdü. Oğlu da onun yanında idi. Elə qəşəng geyinmişdi ki…

Onlar getdilər, getdilər, yaraşıqlı bir binanın yanına çatdılar. Burada o qədər uşaq var idi ki! Sən demə həmin binada uşaq bağçası yerləşirmiş.

Məni mağazadan alan xanım başqa bir xanımla – tərbiyəçi ilə görüşdü, hal-əhval tutdu. Balaca oğlan uşaqlara qoşuldu. Anası məni müəllimənin stolunun üstünə qoydu. Çayla içərsiz, – dedi.

Müəllim nazlana-nazlana cavab verdi:

– Nə zəhmət çəkirsiz?

Mənim onsuz da qara olan qanım bir az da qaraldı. Fikirləşdim ki, daha o inci dişlər mənim qismətim deyilmiş.

Həmin xanım xudahafizləşib çıxdı, müəllimə də onu yola salmağa getdi.

Elə bu an həmin balaca oğlan üstümə cumdu. Bir göz qırpımında qutumu açdı, şokoladları bir-bir uşaqlara payladı. Axırıncı şokoladı öz ağzına basanda tərbiyəçi qayıtdı. Onun gözləri bərəldi. Bərk acıqlandı. Ancaq uşaqların heç nə vecinə deyildi. Hamı şirin-şirin şokolad yeyirdi. Mən də sevinirdim. Çünki yuxum çin çıxmışdı…

## İNSAN, PƏLƏNG VƏ İLAN

İnsan meşədə odun yığırdı. O qədər yorulmuşdu ki, uzanmışdı bir qədər dincini alsın. Mürgü apardı kişini. Birdən onun qulağına dəhşətli səslər gəldi. Gözlərini açanda gördü ki, başının üstünü bir pələng, bir əfi ilan kəsib. Elə bildi ki, yuxu görür. Kaş ki, yuxu olaydı. Ancaq bu boyda yuxumu olar? İlan fısıldayır, Pələng dişlərini şaqqıldadırdı.

İnsan öz-özünə dedi:

– Bu nə iş idi mən düşdüm?

Pələngin əlində nə idi silahsız insanı parçalamaq? Gürzə üçün yerə uzanmış gəncin üstünə atılıb onu çalmaq nə böyük iş idi? Bəs niyə dayanmışdılar? Nəyi gözləyirdilər?

Bir azdan hər şey insana aydın oldu.

Meşə od tutub yanırdı. Alov getdikcə şiddətlənirdi. Odun, alovun dairəsi daraldıqca, İlanla Pələng İnsana daha da yaxınlaşırdılar. İnsan ayağa qalxdı, düşündü. Eyni dərd doğmalaşdırdı İlanı da, Pələngi də, İnsanı da.

Birdən İnsanın ağlına gəldi ki, otu qazılıb atılmış torpaq zolağını alov keçə bilməz. Cəld baltanı götürüb torpağı qazmağa başladı. İlanla Pələng də ona kömək elədilər. Pələng caynağı ilə yeri elə eşirdi ki… Canının qorxusu onun pəncəsinə on pələngin gücünü vermişdi elə bil.

Əlləşdilər, vuruşdular, nəhayət üstlərinə hücum edən alovun qarşısını almaq üçün torpaq səngər düzəltdilər. Alov dənizində balaca bir ada yarandı. Alov torpaq səngəri keçə bilmədi.

Arabir sıçrayıb keçən qığılcımları İnsan cəld tapdalayıb söndürürdü. İlanla Pələng də ona kömək eləməyə çalışırdılar.

Meşə yandı, yandı, nəhayət, alovun dilimləri yavaş-yavaş öləziməyə başladı. Yanmaq təhlükəsi sovuşduqca, onların ürəyinə başqa qorxu hakim kəsildi.

İnsan düşündü:

– Alovdan yaxamı qurtardım, Pələngdən, İlandan necə qorunum?

Pələng donquldandı:

– Şükür, yanmayıb salamat qaldım. İnsanın iti baltasından, İlanın zəhərli dişindən qurtara bilsəydim?

İlan fısıldayıb yalmandı:

– Bir təhlükədən canımı qurtarmamış başqa bir təhlükə aldı başımın üstünü. Pələng məni tapdalamasa, İnsan başımı əzməsə yaxşıdı.

Birdən İnsanın bağlaması yadına düşdü. Tez onu açıb ortaya qoydu. Bir yavan çörəkdən, bir yumurtadan, kağıza bükülmüş bir az duzdan başqa heç nə yox idi bağlamada.

İnsan çörəyi də, yumurtanı da qardaş malı kimi üç yerə böldü. Hər yumurtanın üstünə bir çimdik duz səpdi:

– Gəlin qonağım olun, – İnsan ürəyində elədi bu təklifi. Ancaq Pələnglə İlan elə bil eşitdilər onun sözünü. Onlar tərəddüdlə kəndlinin kasıb süfrəsinə yaxınlaşdılar. Şirin-şirin yedilər. Yemək qurtaranda alov tamam sönmüşdü.

Pələng dilə gəlib dedi:

– Ay oğlan, sən ki, mənə bu yaxşılığı elədin, mən sənin atın olmağa hazıram. Min belimə, səni hara istəyirsən aparım.

İlan dilləndi:

– Əlimdən heç nə gəlmir. Mən də sənin qamçın olmağa hazıram.

Oğlan Pələngin belinə minib, İlanı əlinə aldı. Çapa-çapa öz kəndlərinə gəldi. Bu mənzərəni görənlər heyrətdən donub qaldılar. "Bu nə işdir?" – deyə soruşanlara oğlan belə cavab verdi:

– Pələngin də, İlanın da əlinə imkan düşmüşdü məni öldürməyə. Ancaq onlar namərdlik etmədilər. Əvəzində mən də onları yanğından xilas etdim, son tikəmi qardaş malı kimi onlarla böldüm. Dünyada bütün canlıları yaxşılıqla ram etmək olarmış…

**1989**

## OD

Qədim insanların ən çox qorxduqları şey od idi. Göydə şimşək çaxanda, yerdə yanğın olanda onlar başlarını təpməyə yer axtarırdılar. Yanğının necə dəhşətli, fəlakətli bir şey olduğunu bildikləri üçün həmişə ondan qaçırdılar.

Günlər, aylar ötdü. İnsan odun dilini öyrənməyə başladı. Elə o vaxtdan ta bu günəcən od insanın dostuna, sirdaşına çevrildi. Od-ocaq mağaraların, evlərin müqəddəs sakini oldu. İnsanlar pərvanələr kimi onun başına fırlandılar. Evlərdə yanan ilk odu sönməyə qoymadılar.

Babalar, atalar, oğullar, nəvələr, nəticələr, kötücələr bir-birini əvəz etsə də, onlar odu ən müqəddəs əmanət kimi bir-birlərinə ötürə-ötürə yaşatdılar. Odun istisi ürəklərə də axdı. Yalnız bundan sonra insan insan olduğunu dərk elədi. Heyvanlar oddan qaçdıqları üçün heyvan olaraq qaldılar. Adamlar isə odla dostluq etdikləri üçün insana – yer üzünün ən ali məxluquna çevrildilər.

**1990**

## QURU OT

Qədim insanlar heyvanları yavaş-yavaş əhliləşdirməyə başladılar. Onları yemləmək, suvarmaq, yırtıcılardan qorumaq insanların yeni qayğısına çevrildi.

Yazda, yayda, payızda yem məsələsi o qədər də narahatçılıq doğurmurdu. Qışda isə vəziyyət çətinləşirdi. Heyvanların çoxu acından ölürdü. Bu, insanları düşünməyə məcbur etdi. Qış üçün yem ehtiyatı toplamaq zərurəti meydana çıxdı. Adamlar təcrübə nəticəsində öyrəndilər ki, otu yalnız qurutmaqla qışa saxlamaq mümkündür.

Əvvəllər heyvanlar özləri çöldə-çəməndə otlayırdılar. İllər keçdikcə insanlar ot tədarükü etmək qərarına gəldilər. Əl ilə ot yolmaq o qədər də asan iş deyildi. Ona görə də ehtiyac yeni bir alətin – kərəntinin (dəryazın) yaranmasına təkan oldu.

İnsanlar yazda, yayda ot biçib qurudur, onu laylayır, xorumlayırdılar. İki xorumu üst-üstə qoyub bəndəmlə bağlayırdılar. Beləliklə, bir bağ ot hazır olurdu. Onu ata, uzunqulağa yükləyib, yaşayış yerinin yaxınlığına aparırdılar. Ya taya vurur, ya da mərəklərə doldururdular. Yem ehtiyatı

bol olanda qışın heç bir qorxusu olmurdu. Ev heyvanları yem sarıdan korluq çəkmir, əvəzində insanların ətə, yağa, südə, qaymağa, qatığa, ayrana, şora olan tələbatını ödəyirdilər.

**1990**

## YAĞIŞ SUYU

Belə rəvayət edirlər ki, bir münəccim ölkənin üstünü alan təhlükə haqqında şaha məlumat verir. Deyir ki, bir neçə gündən sonra elə bir yağış yağacaq ki, onun suyunu içənlərin hamısı dəli olacaq.

Şah narahat olanda vəzir onu sakitləşdirir. Deyir ki, bizim ehtiyat suyumuz var, yağış suyundan yox, ondan içərik.

Deyilən gün, doğrudan da, yağış yağır. Sudan korluq çəkən camaat yağış suyundan acgözlüklə içir. Hamı dəli olur. Təkcə şah və onun yaxın adamları ehtiyat sudan içdikləri üçün bu bəladan xilas olurlar.

Lakin dəlilər ağıllılara elə bir toy tuturlar ki, padşahın az qalır ki, ürəyi partlasın. O, başbilənlərdən təcili tədbir görməyi tələb edir. Vəzir deyir ki, şahım, ağıllı adamların dəlilər arasında yaşaması fəlakət imiş. Lakin heç ürəyinizi sıxmayın. Hər ehtimala qarşı işimi ehtiyatlı tutmuşam, yağış suyundan bir qədər qaba yığıb ehtiyat saxlamışam. Onu içib dəli olmaqdan başqa çarə yoxdur.

Şah və onun adamları yağış suyundan acgözlüklə içib dəli olurlar. Bundan sonra onların işi qaydasına düşür və onların xoşbəxt həyatı yenidən öz axarına düşür…

**02. 04. 2001**

# ROYALIN NAĞILI

Elə ki, usta məni düzəldib qurtardı, içimdə nəğmələr, simfoniyalar, romanslar qayır-qayır qaynamağa başladı. Elə sevindim, elə sevindim ki, yer-göy gözümdə deyildi. Ürəyimdən keçirdi ki, kaş uğuruma yaxşı bir sənətkar çıxa. Onun sehrkar barmaqları şirmayı dillərimə toxunduqca, içimdəki arzuların qönçəsi pardaxlaya, çiçək aça.

Arzum çin oldu. Mənim sahibim məni elə çaldı, elə çaldı, elə danışdırdı, elə danışdırdı ki, özüm də öz səsimə vuruldum. İlahi, mənim qoynumda nə qədər sehrli səslər mürgüləyirmiş?! İlahi, mənim ürəyimdə nə qədər həsrətli nəğmələr uyuyurmuş?!

Sahibim hər dəfə qapağımı qaldıranda elə bil ki, adi bir taxta parçasını yox, sehrkar səslərin qapısını açırdı. Onun titrək barmaqları mənə toxunan kimi həyəcandan elə titrəyir, elə titrəyirdim ki, içimdəki həsrət ecazkar səslərə çevrilib dörd yana qanad açırdı.

Sən demə hər sevincin yolunun üstündə bir kədər dayanırmış…

Dostum məndən ayrıldı, vətən uğrunda döyüşlərə getdi. Onun qara xəbəri gələndə dünya başıma fırlandı. İçimdəki səs telləri qırıldı elə bil. Elə hönkürmək, elə ağlamaq istədim ki, ancaq mənim qapağımı qaldırmağa heç kəsin cürəti çatmadı.

Dostum döyüşdə bir qəhrəman kimi həlak olmuşdu. Qədirbilən xalq onun xatirəsini əbədiləşdirmək üçün ev muzeyi düzəltdi. Mən də o muzeyin eksponatına çevrildim.

İçimdə mahnılar, simfoniyalar, romanslar, rəqslər dustaqdı. Heç kəsin cəsarəti çatmır ki, mənim sehrkar qapağımı qaldırsın. Adicə bir qəbrə dönmüşəm, musiqi qəbrinə.

Hərdən bir yuxuma o nəğməkar insanın titrək barmaqları girir. Ah, mənim şirmayı dillərim o barmaqlar üçün elə qəribsəyib, elə qəribsəyib ki! Deməyə söz də tapa bilmirəm. Ancaq yuxum çin olmur ki, olmur. Sahibim gedəndən lal olmuşam. Lakin bircə təskinliyim var ki, hər məni görən dostumu xatırlayır, ondan söhbət açır. İndi mən royallıqdan çıxmışam, sahibimin xatirə heykəlinə dönmüşəm.

**1990**

## YOLKA AĞACI

Hava o qədər soyuq olmasa da, ardıc ağacları əsim-əsim əsirdilər. Elə bil onların canına üşütmə düşmüşdü.

Bir cavan ardıc yan-yörəsinə baxıb təəccübləndi:

– Bu nə işdir, məndən başqa hamı titrəyir?

O, ağac dilində qonşularından soruşdu:

– Qonşu, hava ki, hələ soyuq deyil, bəs bu ağaclar niyə belə tir-tir titrəyirlər?

– Eşitməmisən ki, yeni il yaxınlaşır?

Cavan ardıc heç nə başa düşə bilmədi. İstədi ki, yenə nəsə soruşsun. Ancaq qorxdu ki, qonşusu onu qanmaz hesab eləyər. Ona görə səsini içinə salıb susdu.

Bir azdan meşəyə bir dəstə əlibaltalı adam gəldi. Onlar ardıc ağaclarını kəsib maşına daşımağa başladılar. Cavan ardıc qonşularının titrəməsinin səbəbini yenicə dərk etməyə başlayırdı ki, onu da kəsdilər. Dünya cavan ardıcın gözlərində qaraldı. Onu da qonşuları ilə birlikdə maşına doldurub apardılar.

Yolda cavan ardıcın huşu başına gəldi. Gözlərini açıb gördü ki, üstü ağacla doludu. Nə qədər çalışdı altdan çıxsın, bacarmadı. Ağac dilində qışqırmağa başladı:

– Vay, qabırğalarım sındı.

Ancaq onun səsinə kimsə hay vermədi.

Bir azdan sonra maşın şəhərin gur yerinə daxil oldu. Sürücü maşını bir tərəfə çəkib saxladı, sonra ardıcları satmağa başladı.

Maşının dövrəsində bir vurhavur var idi ki, cavan ardıc ömründə bir belə adam görməmişdi.

Qoluzorlu, bığıburma əmilər, dayılar irəli soxulub ən yaxşı yolka ağaclarını seçib aparırdılar. Bir balaca oğlan kənarda durub həsrətlə ağaclara baxırdı.

Cavan ardıcın könlündən keçdi ki, kaş məni bu oğlan alıb aparaydı. Çünki qoluzorlu əmilərin kobudluğu onun gözünü lap qorxutmuşdu.

Elə də oldu. Satılmaq növbəsi cavan ardıca çatanda onun qol-qanadını əzilmiş görən bığıburma kişilər kənara çəkildilər. Oğlan irəli gedib ağacı aldı və sevinə-sevinə evlərinə apardı.

Cavan ardıcı təzə gəlin kimi bəzədilər. Onun üstündəki sırğaya bənzər oyuncaqlar par-par parıldayırdı. Budaqlarında xırdaca-xırdaca işıqlar bərq vururdu.

Ardıc özünü nağıllar aləmində hiss edirdi. Lakin onun havası çatışmırdı. Ürəyində insanların qarasınca deyinirdi:

– Mənim bunlara yazığım gəlir. Bir darısqal otaqdı, onun da qapı-pəncərəsi bağlı. Heç belə havada yaşamaq olar?

Üç gündən sonra ardıcın xırdaca iynələri tökülməyə, oğlanın anası isə deyinməyə başladı:

– Otaq zir-zibillə doldu. Yüz dəfə deyirəm ki, birdəfəlik bir süni ardıc alın, canımız qurtarsın. Özüm deyib, özüm eşidirəm. Təbii ardıc üç-dörd gündən artıq yaşaya bilmir. Heyf deyil o plastmasdan düzəldilmiş yolka ağacları!

Bayramdan sonra cavan ardıcın bər-bəzəyini soyundurdular, özünü də bayıra atdılar.

O biri il oğlanın atası mağazadan süni yolka ağacı alıb gətirdi.

**1981**

# FİL HƏKİMİ

Qoşqar baba dünyagörmüş bir kişidi. Sinəsində o qədər nağıl, dastan, əfsanə var ki, danışmaqla qurtaran deyil. Elə buna görə də nəvələri onun xətrini çox istəyirlər. Dərslər qurtaran kimi kəndə – onun yanına getməyə tələsirlər.

Baba qocalsa da, canı suludu. Həmişə deyir ki, məni qıvraq saxlayan işdir, əməkdir. Bir də bu dağların təmiz havası.

Nəvələri yanında olanda baba daha da gümrahlaşır. Kişinin yadına cavanlığı düşür. Kənddə elə bir dağ, elə bir dərə, elə bir çəmən, elə bir bulaq yoxdur ki, baba nəvələrini ora aparmamış olsun.

– Bax, bura Qızılqayadı. Bir az ondan aşağıda Bal qayasıdı. Sol tərəfdəki dərəyə Ayölən deyirlər. Sağ tərəfdəki dərədə paqqıldayan bulağın adı Cam bulağıdı. Bal qayasının altında elə dərin kahalar var ki, birinə bir sürü yerləşər. Kim bilir, bəlkə də bu kahalarda bizim əcdadlarımız yaşayıb. Torpaqlarımız bərəkətlidi, bulaqlarımız şəfa qaynağıdı. Qayalarımızın hərəsi bir tarixdi. Çəmənlərimiz gözəllik sərgisidi. Ancaq insansız torpaq da, su da, çiçəklər də qəribdi, kimsəsizdi. Vətən təkcə torpağıyla, bulaqlarıyla, hər cür təbii sərvətləri ilə deyil, igid oğullarıyla, sədaqətli qızlarıyla tanınır.

– Baba, mən böyüyəndə traktorçu olacağam. Kəndimizdəki bərəkətli torpaqları əkib becərəcəyəm.

– Mən isə meşəbəyi olacağam. Vətənin yaşıl sərvətlərini göz bəbəyi kimi qoruyacağam.

Orxanla Cavid öz arzularından söhbət açdılar. Rəşadsa dinmədi. Baba onların saçını tumarlayıb soruşdu:

– Rəşad bala, sən niyə danışmırsan?

– Baba, mən isə həkim olmaq istəyirəm.

Qoşqar baba gülümsündü. Qəlyana bir dərin qullab vurub aramla danışmağa başladı:

– Ay sağ olun, mənim nəvələrim. Torpağı əkib-becərən də, təbii sərvətləri qoruyan da, sağlamlığın keşiyində dayanan da lazımdır bizə. Hər bir sənət yaxşıdır. Ancaq gərək sevib-seçdiyin sənətin sirlərini elə dərindən biləsən ki, sonra özünü fil həkimi adlandıran insanların gününə düşməyəsən.

Rəşad tez dilləndi:

– Baba, fil həkiminin başına nə iş gəlib ki?! Nə olar, danış da!

– Nə deyirəm, gözümün işığı. Danış deyirsən, danışım.

Qədim zamanlarda Həşim adlı yoxsul bir kişi var imiş. Səhərdən axşama qədər meşədən odun yığar, satıb balalarını güc-bəla ilə dolandırarmış.

Bir gün bu kişi meşədə öz-özünə gileylənir:

– Eh, belə də ömür olar? Bir çətən külfəti necə dolandırasan? Əlləşirsən, vuruşursan, gecə-gündüz işləyirsən, qazancın isə bir qarın yavan çörəkdi…

Yol ilə keçən bir cavan oğlan Həşimin sözlərini eşidib yaxın gəlir:

– A kişi, niyə gileylənirsən?

– Heç, ağrın alım.

– Kişi, utanma, dərdini aç söylə. Bəlkə də mən ona bir əlac eləyə bildim.

Həşim çar-naçar yoxsulluğundan, balalarının ac-yalavac yaşamağından danışdı.

Oğlan bir qədər fikrə gedib gülümsündü.

– A kişi, dərdinin əlacı məndə. Ancaq gərək dediklərimin hamısına bircə-bircə əməl edəsən.

– Eşidirəm səni, ağrın alım!

– Qonşu ölkənin padşahı çox ədalətlidir. Sənətkarlara isə xüsusi hörməti var. Get onun yanına, mütləq sənə kömək eləyəcək.

– Başına dönüm, mən hardan sənətkar oldum? Odun doğramaqdan, şələ daşımaqdan başqa əlimdən heç nə gəlmir.

– Kişi, sən mən deyənə bax. Gedib şaha deyərsən ki, mən fil həkimiyəm. Gerisi ilə işin yoxdur.

– Başına dönüm, birdən o fil dediyin xəstələndi, mən onun dərdinə necə əlac eləyim? Yox, qardaş, bu mənim işim deyil. Atalar demişkən: “Ac qulağım, dinc qulağım.”

Oğlan Həşimdən əl çəkmədi:

– Ay rəhmətliyin oğlu, bu həndəvərdə fil olurmu ki, xəstələnəndə sənin yanına gətirsinlər? Ağlın olsun, fürsəti əldən vermə.

Söz Həşimin ağlına batdı. Soraqlaşa-soraqlaşa gəlib həmin şahın qapısının ağzında dayandı. İstədi ki, darvazadan içəri keçsin, keşikçilər buraxmadılar. Həşim nə qədər yalvardı, dil tökdü, içəri buraxmadılar ki, buraxmadılar. Axırda naəlac qalıb keşikçilərə dedi ki, bəs mən fil həkimiyəm, mütləq şahı görməliyəm.

Xəbər şaha çatan kimi əmr etdi ki, kişini onun yanına gətirsinlər.

Həşim saraya girəndə ağlı başından çıxdı. Odunçu bu gözəllikdə sarayı yuxusunda da görə bilməzdi. O, özünü yığışdırıb, şahın qarşısında ədəblə baş əydi. Şah soruşdu:

– Kişi, kimsən, nə sənətin sahibisən?

– Şah sağ olsun, adım Həşimdi, özüm də nadir peşə sahibi, fil həkimiyəm.

Saray adamları odunçunu maraqla süzdülər. Şah soruşdu:

– Vəzir, bizim məmləkətdə fil həkimi varmı?

– Xeyir, qibleyi-aləm.

– Çox gözəl. Elə isə bu kişini ən yüksək məvaciblə işə götürək. Necə deyərlər, saxla samanı, gələr zamanı.

Daha sonra o, üzünü Həşimə tutub soruşdu:

– Daha başqa təmənnan yoxdu ki?

– Xeyir, qibleyi-aləm, çox razıyam.

– Onda mürəxxəssən. Bu gündən sən bizim məmləkətin fil həkimisən.

Beləliklə, odunçu Həşim dönüb oldu fil həkimi Həşim. Arvadı bunu eşidəndə qorxudan rəngi qaçdı. Dili topuq çala-çala ərinə dedi:

– Ay evi yıxılmış, bu nə oyundu başımıza açırsan? Ağrımaz başına niyə dəsmal bağlayırsan, ay bədbəxt?

– Arvad, day iş-işdən keçib, Allah kərimdi.

Həşim kişi ailəsi ilə birlikdə ədalətli şahın məmləkətinə köçdü, özünə imarət tikdirdi. Kasıb ailə şad-xürrəm yaşamağa başladı.

Aradan on il keçdi. Bu müddətdə Həşimə gözün üstündə qaşın var deyən olmadı. Evdə oturub şahın kəsdiyi məvacibi almaqdan başqa bir işi yox idi onun.

Padşahın gözünün ağı, qarası bir oğlu var idi. Həşim bu ölkəyə gələndə onun yeddi-səkkiz yaşı olaydı, ya olmayaydı. İndi isə şahzadə həddi-buluğa çatmış, igid bir cəngavər olmuşdu.

Şahzadə dünya səyahətinə çıxmaq arzusuna düşdü. Atasından icazə alıb kiçik bir qoşunla səfərə çıxdı. Az getdilər, üz getdilər, dərə-təpə, düz getdilər, axırda gəlib gözəl bir diyara çatdılar. Soruşub öyrəndilər ki, bura Hindistandır. Şahzadə Azər Hindistan şahının yanına gedib, gecələməyə yer istədi. Hindistan şahı şahzadəni çox yaxşı qarşıladı, onun şərəfinə gözəl bir ziyafət düzəltdi. Süfrədə quş südü desən, tapılardı.

Qəzavü-qədərdən Hindistan şahının qızı bir könüldən min könülə vuruldu şahzadə Azərə. Bu işdən xəbər tutan Hindistan şahı əvvəlcə dərin fikrə getdi, sonra qərara gəldi ki, qızını şahzadə Azərə versin. Ona görə ki, Azər həm ağıllı-kamallı bir oğlan idi, həm də əsli-nəcabəti var idi. Necə deyərlər, əsli hu, nəsli hu!

Gözəl bir toy məclisi quruldu. Kürəkənin arzusuyla qırx gün qırx gecə toy çaldırdı Hindistan şahı.

Bəxtiyar günlər, aylar bir-birini əvəz edirdi. Ancaq bir müddətdən sonra şahzadə Azər darıxmağa başladı. Ata-anası, el-obası düşdü yadına.

Bunu görən şah kürəkənini yanına çağırıb soruşdu:

– Oğul, gözümə bikef dəyirsən, xəstələnib eləməmisən ki?

– Xeyir, qibleyi-aləm. Ata-anam, vətənim yadıma düşüb. İcazə versəydiniz, qızınızı da götürüb vətənə gedərdim.

Padşah çox fikirləşdi. Çar-naçar razılaşdı. Əmr etdi ki, qızına cehiz hazırlasınlar.

Şahzadə Azər dedi:

– Şah sağ olsun, mənim atamın varı, dövləti başından aşır. Nə zəhmət çəkirsiniz. Siz ki, məni oğulluğa qəbul etdiniz, mənim varım elə Sizin varınız, dövlətiniz deyilmi?

Söz şahın ağlına batdı. Kürəkəninin gözütoxluğu xoşuna gəldi.

Hind padşahının qızının bir sevimli fili var idi. Ata evindən ondan başqa heç nə götürmədi.

Nağıl dili yüyürək olar. Şahzadə Azər öz xanımıyla gəlib çatdı öz atasının vilayətinə. Ölkədə şənlik başlandı, nə başlandı.

Xoşbəxt günlər bir-birini əvəz edirdi. Hindistan şahının qızı o qədər də darıxmırdı. Lakin bir gün qəzavü-qədərdən onun sevimli fili xəstələndi. Fil yerə uzandı. Nə qədər çalışdılarsa, onu ayağa qaldırmaq mümkün olmadı.

Şah vəziri yanına çağırıb dedi:

– Vəzir, gəlinimin fili xəstələnib, bir tədbir tök.

Birdən vəzirin yadına Həşim düşdü. Gülümsünüb dedi:

– Şahim, narahat olmağa dəyməz. Axı bizim fil həkimimiz var. Çağırarıq, gəlib yazıq heyvanın dərdinə əlac eləyər.

Həşim kişi handan-hana şahın da yadına düşdü:

– Vəzir, nə yaxşı ki, o vaxt o həkimi işə götürdük. Yoxsa lap rüsvay olmuşduq.

Şah əmr etdi ki, fil həkimini çağırsınlar.

Xəbər Həşimə çatanda yer-göy başına fırlandı, dizləri titrədi. Öz-özünə düşündü ki, olacağa çarə yoxdur. O, arvad-uşaqla halallaşdı. Balalarını gözüyaşlı arvadına tapşırıb, şahın göndərdiyi adamların qabağına düşdü.

Camaat fili dövrəyə almışdı. Həşimi görən kimi kimsə qışqırdı:

– Fil həkimi gəldi. Fil həkimi gəldi!

Hamı hörmətlə kənara çəkilib, həkimi xəstənin yanına buraxdı.

Həşimin başı uğuldayırdı. Yekə, əcaib bir heyvan yerə uzanmışdı. Yazıq Həşim birinci dəfə idi ki, fil görürdü. O, biçarə heyvanın başına pərvanə kimi fırlanmağa başladı. Elə sürətlə dövrə vururdu ki, kişini qan-tər apardı.

Adamlar maraqla həkimə baxırdılar. Kimsə pıçıldadı:

– Bu yazıq özünü əldən saldı ki!

Şah Həşimi yanına çağırıb soruşdu:

– Həkim, nə üçün filin dövrəsinə fırlanırsan? Bu yazıq, qərib heyvanın xəstəliyi nədir axı?

– Şah sağ olsun, fil elə yıxılıb ki, nə qədər axtarıram, onun başını tapa bilmirəm. Hər iki tərəfdən quyruğu var. Başı yəqin ki, bədəninin altında qalıb. Əmr edin, döndərsinlər, ona baxım.

Adamlar gülüşdülər. Şah isə bərk qəzəbləndi. Əmr etdi ki, bu vaxta qədər fil ağırlığında məvacib alan Həşimin boynunu vursunlar.

Odunçu Həşim öz dilinin bəlasını çəkdi.

… Qoşqar baba nağılı qurtarıb, nəvələrinin başını sığalladı:

– Hə, nəvələrim, təəssüf ki, hələ bu fil həkimi kimi sənətinin əlifbasını bilməyənlər var. Siz çalışın belələrinə oxşamayın.

Seyid Əzim Şirvani çox gözəl deyib:

– Kişi bir sənəti bilər xalis,
Çoxuna meyl edən qalar naqis…

**1983**

## KÖRPƏNIN NAĞILI

Biri var idi, biri yox idi, bir körpə var idi. Bu körpə o qədər gözəl, o qədər qəşəng idi ki, yer üzünün heç harasında belə bir uşaq doğulmamışdı indiyəcən… Anası onu hər gün əzizləyər, sevər və bu körpə üçün dünyanın ən gözəl, ən təsirli laylasını çalardı…

Körpə gülər, sevinər, belə gözəl, duyumlu, kövrək, ağıllı anası olduğu üçün fəxr edərdi… Doğrudan da, onun anası dünyanın ən gözəl, övladını ən çox, ən çox sevən anası idi…

Ancaq əslində bu uşaq hələ doğulmamışdı. O, gənc qadının bitib-tükənmək bilməyən arzularında yaşayar, yol çəkən gözlərinin önündə o yana-bu yana qaçar, kirpiklərinin ucundan asılmış bir gilə göz yaşının içində günəş şüası kimi bərq vurardı…

**05.12.2013**

# OLMUŞ ƏHVALATLAR

## KÖÇMƏYİ TƏRGİDƏN LEYLƏKLƏR

Hər bahar gələndə leyləklər topa-topa ağ buludlar kimi kəndimizin səmasını bəzəyirdilər. Onlar uca-uca çinarların başında qurduqları yuvada yaşayır, yumurtlayıb bala çıxardır, payızda isə uçub isti ölkələrə gedirdilər.

Elə bil çör-çöpdən düzəldilmiş yekə yuvaların bəxtinə - qismətinə əzəldən ağ rəng yazılıbmış. Ağ leyləklər gedəndən sonra təbiətin üzərinə qış öz nəhəng, dümağ qanadlarını gərərdi. Leylək yuvaları ağ rəngdən ötrü qəribsəməsinlər deyə, qış o yuvaları dümağ qarla bəzəyirdi.

Bir qış gözlərimizə inanmadıq. Hamımız çaşıb qalmışdıq. Elə bil leyləklər isti ölkələrə uçmaq haqqında fikirləşmirdilər. Öz-özümə düşünürdüm: yəqin bu yazıq quşlar köçəri həyatdan beziblər. Ancaq sən demə belə deyilmiş. Cənubda – durnalar, leyləklər məkanı Bağdadda, Bəsrədə müharibə getdiyi üçün leyləklər bir daha ora qayıtmadılar.

O vaxtdan neçə illər keçib. Mənim doğulduğum, boya-başa çatdığım Qubadlıda leyləklər əbədi məskən salıblar.

Hərdən bu leyləklər dimdiklərini elə şaqqıldadırlar ki, adama ləzzət eləyir. Elə bilirsən ki, hardasa qoşanağara çalınır. Yox, leyləklər soyuqdan belə etmirlər. Daha qarlı qış da onları qorxutmur. Ağ leyləklər dümağ libas geymiş dağların, düzlərin üstü ilə uçanda elə gözəl görünür ki… Adam baxdıqca ləzzət alır.

Öz-özünə fikirləşirsən ki, zaman leyləklərə də oturaq həyat keçirməyi öyrətdi. Axır ki, onlar da özlərinə əbədi, daimi yaşayış yeri seçdilər…

*P.S. Leyləklər haqqında bu yazını qələmə alanda heç ağlıma da gəlməzdi ki, iki il sonra – 1993 - cü ildə qubadlıların da qismətinə köçkünlük, didərginlik payı düşəcək. Hərdən adamın könlündən keçir ki, leylək olub o yerlərə uça bilsin…*

## BƏRƏNCÜ BULAĞI

Yardımlıya, dostuma qonaq getmişdim. Yol boyu gördüyüm zümrüd donlu meşələr, dağlar, dərələr, qıvrıla-qıvrıla uzanan yollar, dağların döşündə arı pətəklərinə bənzəyən evlər ruhumu oxşayırdı. Yardımlı şəlaləsi isə məni lap heyran qoymuşdu.

Dostum məni görəndə gözlərinə inanmadı. Qucaqlaşdıq. Ürəklərimizdə sevinc şəlaləsi çağladı. O yandan, bu yandan söhbət saldıq. Xatirələr dünyası bizi öz qoynuna aldı. Maşına minib üzü yuxarı – dağlara sarı yol aldıq. Yolun sağ tərəfi kol-koslu təpəlik, sol tərəfi isə meşəlik idi. Xeyli getdikdən sonra maşını yolun kənarında saxlayıb, kiçik dağ çayının sahilinə endik. Uzaq-uzaq dağlardan gələn Viləşin suyu göz yaşı kimi dumduru idi. Çayın o biri sahilinə adladıq. Meşənin qoynundan çıxan gözəl bir bulaqla rastlaşdıq. Onun suyu bumbuz idi. Yuyunduqca, içdikcə adama ləzzət eləyirdi.

Bulağın adını soruşdum. Dostum gülümsündü:

– Bəlkə də bundan sərin, bundan saf sulu bulaqlar var. Ancaq mən bilən dünyanın heç bir yerində bu adda çeşməyə rast gəlməzsən: Bərəncü bulağı.

Etimologiyasını soruşsam da, heç kəs bərəncü sözünün mənasını söyləyə bilmədi. Ancaq dostum şahidi olduğu maraqlı bir əhvalat danışdı:

– Keçən il yayda bura gələndə gözlərimə inanmadım. Bərəncünün şırıltıyla töküldüyü, üç-dörd ovuc boyda sahəni əhatə eləyən balaca sututarda uzun bir ilan gördüm. Əvvəlcə

bərk qorxdum. Sonra diqqətlə baxıb gördüm ki, ilan hərəkətsizdir. Onu çubuqla sudan çıxarıb kənara – gün tutan bir yerə atdım. İlan hərəkətsiz idi. Mənə elə gəldi ki, ölüb. Başımız söhbətə qarışdı. Birdən donu açılan ilan hərəkətə gəldi, sürünə-sürünə kolların arasına girib gözdən itdi.

Sən demə ilan su içmək üçün Bərəncüyə gəlibmiş. Soyuq suya girən kimi onun bədəni donmuş, daha oradan kənara çıxa bilməyibmiş…

Əhvalat xoşuma gəldi. Dostuma zarafatla dedim:

– Hə, deməli Bərəncü elə bulaqdır ki, onun suyundan içənlərin daxilindəki zəhəri, xıltı, kin-küdurəti də dondurmaq qüdrətinə malikdir.

Hamımız gülüşdük. Başımız elə qarışdı ki, bir də ayıldıq ki, qaranlıq düşüb. Dörd yana boylandım. Sayrışan ulduzlardan başqa heç nə görmədim. Ocağımızın közü də, dostlarımızın çəkdiyi siqaretlərin işıltısı da ulduzları xatırladırdı. Mənə elə gəldi ki, özümüz də ulduz olub ulduzlara qarışmışıq...

**1992**

## XİLASKAR İT

Son vaxtlar hamının çöhrəsini qəm buludu bürümüşdü. El-obadan, ev-eşikdən ayrılmaq qorxusu ürəklərə hakim kəsilmişdi. Namərd qonşular tez-tez kəndi atəşə tuturdular. Ancaq torpağa bağlanmış bütün qocalar kimi Mülayim xala da öz evindən, eşiyindən ayrılmaq istəmirdi. Şəhərdə yaşayan oğulları neçə dəfə gəlsələr də, arvad getmək bilmirdi ki, bilmirdi. Mehrini kənd adamlarına, həyət-bacaya, toyuq-cücəyə və bir də evinin keşiyini çəkən sədaqətli köpəyə salmışdı.

Mülayim xala fikirli-fikirli bulaqdan evə qayıdırdı. Darvazadan içəri girəndə zəncirdəki itin özünü didib-tökməsinə, toyuqların narahat-narahat qaqqıldaşmasına bərk təəccübləndi. Ağlına gəldi ki, yəqin həyətə tülkü-çaqqal

girib. O yan-bu yana baxdı. Bir şey başa düşə bilmədi. Balaca toyuq damının – hinin üstündə yepyekə bir ilan qıvrılmışdı. Mülayim xala hələ beləsini görməmişdi. İlan o qədər qorxunc idi ki, adam baxanda vahiməyə düşürdü.

Arvad fikirləşməyə də macal tapmadı. Heç özü də bilmədən əlindəki odunu ilana sarı tulladı. İlan bir göz qırpımında burulu yay kimi gərilib özünü qarının üstünə atanda köpək də ona sarı tullandı. Havada ilanın başı köpəyin ağzına keçdi. Mülayim xala quruyub qalmışdı. Başı qırılmış ilanın bədəni bir tərəfdə, it isə o biri tərəfdə qıvrılırdı. İlan fürsət tapıb sədaqətli köpəyi çala bilmişdi. Zəhər o qədər təsirli idi ki, iyirmi dəqiqədən sonra köpək də canını tapşırdı.

Onsuz da özündə olmayan Mülayim xalanın gözlərindən yaş açıldı. Həm xilaskarının, həm də özünün taleyinə ağlayırdı…

**1992**

## PALTAR QAZANINA DÜŞƏN BEÇƏ

Kənddə, dayımgilin həyətində yaraşıqlı bir beçə var idi. Ona diqqətlə baxdığımı görəndə Sevda xala dedi:

– Heç bilirsən bu beçənin başına nələr gəlib?

Çiynimi çəkdim.Sevda xala danışmağa başladı:

– Həyətdə ocaq qalayıb paltar qazanını qoymuşdum üstünə…

Gülməyim tutdu. Zarafatla dedim:

– Məgər paltarı da bişirirlər?

– Yox, bişirməyinə bişirmirlər. Ancaq paltarı qaynadanda həm onun çirki yaxşı çıxır, həm də üstündə olan mikroblar ölür.

– Hə, başa düşdüm.

Sevda xala sözünə davam elədi:

– Başım nəyəsə qarışmışdı. Qayıdanda gəlib gördüm ki, bax həmin bu beçə paltar qazanına düşüb. Yazıq quşun nəfəsi kəsilməkdə idi. Onu qazandan çıxarıb kənara atdım. Dedim ki, yəqin öləcək. Ancaq möcüzə baş verdi. Beçə hərəkətə gəldi, ayağa durub, toyuqların yanına qaçdı.

O gündən sonra mən ona xüsusi qulluq eləyirdim. Beçə yavaş-yavaş dirçəlirdi.

Aradan xeyli keçdi. Toyuqlara azar darışdı. Onlar bir-bir qırılmağa başladılar. Təkcə paltar qazanına düşən beçəyə heç nə olmadı. Görünür, onun bəxtində bir şey var imiş. Sabunlu suda bir az "qaynaması" onu bit-birədən, azar-bezardan xilas eləmişdi…

**1991**

## ODUNLA İÇİLƏN ÇAY

Orucalı əmi çox məzəli kişidi. Kənddə hamı onu zarafatcıl adam kimi tanıyır. Orucalı əminin sürdüyü taksiyə bir minən sevinir, bir də düşən. Minən ona görə sevinir ki, nə qədər fikirli, qaşqabaqlı olsa da, o saat kefi açılır. Orucalı əminin məzəli söhbətləri, özünəməxsus danışığı, gülüşü can dərmanıdı elə bil.

Taksidən düşənin də sevinməyə haqqı var. Əslində onun ilk zarafatları kəşfiyyat xarakteri daşıyır. Elə ki, həm-söhbətinin zəif damarını tutdu, qurtardı. Bu zəif cəhətdən yapışıb, zarafatı mərhələ-mərhələ tündləşdirmək Orucalı əminin ən çox sevdiyi işdi. Elə buna görə də onun mindiyi taksidən düşən də sevinir.

Orucalı əmi hər dəfə balaca Turalgilə gələndə onu cırnadar, uşağı hövsələdən çıxarmaqdan zövq alardı.

– Ə, Tural, bu nədi, ə, şoferin də evində çayı qəndlə içirlər, müdirin də. Get anana de ki, konfet gətirsin.

Bu söhbət tez-tez təkrar olunardı.

Bir dəfə Orucalı əmi Turalgilə qonaqlar gətirdi. Özü də onlarla birlikdə çay içməyə başladı. Birdən gözü balaca Turala sataşdı. Hay-harayla ondan soruşdu:

– Ə, Tural, çayı yenə qəndlə içirsiniz?

– Yox.

– Bəs nəynən içirsiniz?

– Odununan.

Qonaqların dodağı qaçdı. Orucalı əmi də gülümsəyən kimi oldu:

– Eybi yoxdu, Tural, 1 - 0 sənin xeyirinə.

**1989**

## MAŞINLA YARIŞ

Evimiz yolun sağ tərəfindəki təpənin üstündə idi. Bu yola poçt yolu deyirdilər. Rayon mərkəzindən Çayzəmiyə bu yoldan başqa ikinci bir yol yox idi. Burada maşınlar təkəm-seyrək göründüyündən, hər gələn maşın uşaqların qəlbinə sevinc gətirərdi. Hamımız xəyalən o maşınlara minər, adını eşidib üzünü görmədiyimiz şəhərlərə, kəndlərə səyahət edərdik.

Bir dəfə yenə həyətimizdə dayanıb yola baxırdım. Qəflətən darvazamız açıldı və atam at belində həyətə girdi. O, rayon mərkəzindən qayıdırdı.

Atam atdan düşüb cilovu mənə verdi. Tapşırdı ki, atı yavaş-yavaş yedəyimdə çəkim ki, təri soyusun. Tərli at birdən-birə yerində dayansa çərləyə – xəstələnə bilərdi.

Sarı madyan qan-tər içində idi. Hələ onun belə tərlədiyini görməmişdim. Yazığın qulaqlarından da tər süzülürdü.

Elə bu vaxt maşın səsi eşidildi. “Qaz –51” evimizin bərabərinə çatıb dayandı. Kuzovdakı – bandakı adamlar atamı həyətdə görüb təəccübləndilər. Hamı bir ağızdan dedi:

– Ta sənə sözümüz yoxdu.

Mən əvvəlcə bir şey başa düşə bilmədim. Sonra hər şey aydın oldu. Sən demə onlar eyni vaxtda rayon mərkəzindən çıxıbmışlar. Atam zarafatla deyib ki, sizi kənddə gözləyəcəm. Hamı ona gülüb, sözlərinə inanmayıblar. İndi isə… Sarı madyan maşınla yarışda qalib gəlmişdi. Atam onu kəsə yolla çapmış, kəndə maşından tez gəlib çıxmışdı.

**1989**

## ÇÖLPİŞIYİ

Qazlar hində çığırışdılar. Babam tez yatağından qalxıb geyindi. Nənəm yuxulu-yuxulu ondan soruşdu:

– Nə olub, a kişi?

– Deyəsən hinə tülkü girib.

Dayım da babama qoşuldu. Mən nənəmlə evdə qaldım. Bərk qorxurdum. Gecənin qaranlığı bu vahiməni daha da artırırdı. O vaxt kəndimizə hələ işıq çəkməmişdilər. Yeganə lampamızı da babamgil apardılar.

Aradan nə qədər keçdiyini bilmirəm, axır ki, babamla dayım qayıtdılar. Nənəm soruşdu:

– O nə idi elə?

Dayım dilləndi:

– Hinə çölpişiyi girmişdi. Atam əlində şiş qapının ağzında dayandı. Mən lampa işığında hinin içini axtarmağa başladım. Birdən gözümə çəpiş boyda bir şey sataşdı. Öz-özümə düşündüm ki, bu çəpişi bura kim salıb?

Bir az yaxınlaşmışdım ki, çəpiş sandığım çöl pişiyi qəflətən sıçrayıb qapıya sarı qaçdı. Həyəcandan qışqırdım. Elə bu zaman çöl pişiyindən də dəhşətli bir səs çıxdı. Mən yaxına gələndə o, yerdə başı təzə kəsilən heyvan kimi çapalayırdı. Sonra bildim ki, yanından keçəndə atam əlindəki şişi gücü gəldikcə onun qarnına soxub.

Bilmirəm nənəm inandı, ya yox, ancaq mən dayımın sözlərinə zarafat kimi baxdım.

Babamla dayım təzədən yerlərinə girdilər. Xorultudan onların yatdığını bildim. Ancaq mənim gözlərimə yuxu getmirdi ki, getmirdi. Səsimi içimə çəkib, çöldən gələn hər şıqqıltıya qulaq asırdım.

Axır ki, səhər açıldı. Tez həyətə qaçdım. Doğrudan da, həyətdə öldürülmüş bir çölpişiyi gördüm. Qonşunun uşaqları da axışıb gəldilər. Heç vaxt rast gəlmədiyimiz bu qəribə heyvanın ölüsünə maraqla tamaşa edirdik.

**1989**

## AĞ BAYRAQ

Bir dəfə başıma qəribə bir əhvalat gəldi. Atı minib evə gedirdim. Axşam toranı düşhadüşdə idi. Nə haqdasa fikirləşirdim. Arabir külək əsirdi.

Birdən dəhşətə gəldim. Ağ, iri bir şey üstümə gəlirdi. Fikirləşməyə macal tapmamış o ağ şey məni qucaqladı. At hürkdü və mən yerə yıxıldım. Huşumu itirdim.

Aradan nə qədər keçdiyini bilmirəm. Ancaq gözümü açanda nə görsəm yaxşıdır? Kola ilişmiş iri bir kağız parçası yel əsdikcə ağ bayraq kimi yellənirdi. Sən demə külək o kağızı haradansa gətirib mənə çırpıbmış.

Küləyin əlində ağ bayrağı görəndə bir qədər toxtadım. Xoşbəxtlikdən heç haram əzilməmişdi. Yerdən qalxıb kənarda dayanan ata yaxınlaşdım. Onu minib kəndə sarı yollandım. Ancaq hələ də özümə gələ bilməmişdim.

**1989**

# GECƏ YOLDA GÖRDÜKLƏRİM

Ucqar bir dağ kəndində məktəb direktoru işləyirdim. Hər səhər atla öz kəndimizdən o kəndə gedər, dərs qurtarandan sonra geri qayıdardım. Yol meşənin içindən keçər, sonra dərəyə enər, kiçik dağ çayının üstündən keçərdi. Təbiətin gözəl mənzərələri adama xüsusi ləzzət verirdi. At üstündə getmək isə bu gözəlliyə yeni bir gözəllik artırardı.

Siniflərdə uşaqların sayı çox az idi. Məktəbdə olan uşaqların ümumi sayı bir sinfin uşaqları qədər olaydı, ya olmayaydı.

Bir gün uşaqlar mənə cindən, şeytandan söhbət açdılar. Onlar danışdıqca qorxur, özləri də vahimələnirdilər. Mən onları nə qədər inandırmağa çalışsam da ki, bunlar hamısı qorxudan yaranan qarabasmadır, sözümə inanmadılar. Yalandan "bəli, bəli" desələr də, hiss edirdim ki, fikirləri dərsdən çox cinin, şeytanın yanındadır.

Bir dəfə necə oldusa, evə gec qayıtmalı oldum. Toranlıq düşmüşdü. Dərəyə enib çaydan keçdim. Elə bir az getmişdim ki, saçları dağınıq bir arvadın mənə sarı gəldiyini gördüm. O mənə dedi:

– Ə, a bala, inəyin ayağı daşın arasına düşüb. Nə qədər eləyirəm çıxara bilmirəm. Gəl gedək mənə kömək elə.

İstər-istəməz uşaqların söhbəti yadıma düşdü. Məni vahimə basdı. Ata bir qamçı vurub oradan uzaqlaşdım. Ürəyimin döyüntüsünü aydınca hiss edirdim. Arvad isə hey yalvarır, məni köməyə çağırırdı.

Bir xeyli getdim. Meşədən çıxanda sol tərəfdəki təpənin üstündə bir qaraltı gözümə dəydi. Birdən o qaraltı hərəkətə gəldi. Nəyisə əlində fırlatdı. Qəribə bir şaqqıltı səsi eşidildi. Çiynimdəki tüfəng yadıma düşəndə bir az toxdadım. Özümü cəmləşdirib qışqırdım:

– Ay adam, kimsən?

Qaraltı yenidən tərpəndi, yenidən o qəribə şaqqıltını eşitdim. Sözümü bir də təkrar etdim:

– Ay adam, kimsən?

Qəflətən qaraltı sualıma cavab verdi:

– Mən bu yerin, göyün yaradıcısıyam.

Qorxudan boğazım qurudu. Ata bir şallaq vurub kəndə sarı çapdım. Məni soyuq tər basmışdı. Qorxudan başımın tükləri biz-biz olmuşdu.

Gecə səhərəcən qorxudan yata bilmədim. Yolda gördüklərim məni dəhşətə gətirmişdi. Ancaq heç kəsə bu haqda heç nə demədim.

Səhər tezdən tövləyə getdim. Atı qaşovladım. Sonra yəhərləyib həyətə çəkdim. Yenidən at üstündə məktəbə yollandım. Ancaq indi qorxmurdum. Qaranlıqda adamı vahimə basır, işıqlı havada isə adam toxtaq olur.

Qaraltı gördüyüm təpəyə diqqətlə baxdım. Gözümə heç nə dəymədi. Düşündüm ki, yəqin axşam məni qara basırmış. Qarşıma arvad çıxan yerə çatanda isə ağlıma qəribə bir fikir gəldi. Atı saçları pırpız-pırpız olan qarının göstərdiyi istiqamətə sürdüm. Birdən gözümə qanlı daşlar sataşdı. Atdan yerə düşüb dörd yanı diqqətlə nəzərdən keçirdim. Yerə möhkəmcə bitmiş iki daşın arasında kəsilib qalmış bir inək ayağı nəzərimi cəlb elədi.

Yox, daha məni qara basmırdı. Sən demə dünən gördüyüm cin yox, elə həqiqətən insan imiş. İnəyin bir ayağı daşların arasına giribmiş. Arvad nə qədər çalışıbsa, inəyi xilas edə bilməyib. Əlacı kəsilən qarı kəndə kömək dalınca gedib. Qonum-qonşu gəlib. Onlar da nə qədər çalışıblarsa, inəyi daş "tələ"dən qurtara bilməyiblər. Nəhayət, belə qərara gəliblər ki, inəyi kəssinlər. Belə də ediblər.

Bütün bunlar mənim ehtimalım idi. Məktəbə çatanda isə ehtimalımın düz çıxdığını anladım. Müəllimlərdən biri dedi ki, Əziz müəllim, sizə ət lazım deyil ki?

– Əti hardan alacaqsan?

– Dünən gecə Şanisə qarının inəyinin ayağı daşların arasına keçib. Nə qədər əlləşiblərsə, çıxara bilməyiblər. İnəyi kəsib, ətini kəndə gətiriblər. Əgər istəyirsinizsə, bir pay da Sizə təşkil edək.

Razılaşdım. Ancaq fikrim ətin yanında deyildi. Elə hey fikirləşirdim ki, çaylaqda gördüyüm həqiqət imiş. Bəs təpədə gördüyüm necə?

Başıma gələnlər haqqında heç kəsə bir söz demirdim. Ancaq təpənin üstündəki qaraltını, onun zəhmli səsini unuda bilmirdim ki, bilmirdim.

Bazar günü rayon mərkəzinə getmişdim. Küçədə adamların kiminsə başına toplaşdığını gördüm. Əyni cır-cındır içində olan bir adamı hey cırnadır, dəqiqəbaşı ondan soruşurdular:

– Ay adam, sən kimsən?

O isə əlindəki ağac qabığından düzəldilmiş şallağabənzər bir şeyi havada şaqqıldadıb deyirdi:

– Mən bu yerin, göyün yaradanıyam.

Hər şey mənə aydın oldu. Yalnız bundan sonra başıma gələnləri dost-tanışa, müəllim yoldaşlarıma danışdım. Əvvəlcə xoflanan, həyəcan keçirən adamlar sonra gülümsədilər…

**1989**

## TUTULAN BORU

Su borusu çoxdan idi ki, çəpərin dibində istifadəsiz qalmışdı. Yaqub dayı öz təcrübəsindən yaxşı bilirdi ki, suyu arxla aparanda yolda çox itki olur. Əyin kimi yerdə isə suyun hər qətrəsi qızıldır. Ona görə də Yaqub dayı hovuzdan dirliyin yanınadək suyu ya rezin, ya da dəmir borularla gətirər, sonra onları ləklərə buraxardı.

Bağçanın o biri başındakı ağacları suvarmaq lazım idi. Yaqub dayı çəpərin dibindəki borunu çiyninə alıb hovuzun

yanına gətirdi. Suyu boruya qoşub kranı açdı. Ancaq təccüblü idi. Su borunun bu başından o biri başına gedib çıxmırdı.

Məsələnin nə yerdə olduğunu bilən Hafizə bibi də köməyə gəldi. O, uzun lobya şaxını gətirib, borunun bir başından saldı, neçə dəfə irəli uzatdı, geri çəkdi. Hiss olunurdu ki, ağacın ucu nəyəsə ilişir. Ancaq borunun tıxacı açılmırdı ki, açılmırdı.

Hafizə bibi bezdi. Çubuğu yerə atıb çardağın altına getdi. Biş-düşlə məşğul olmağa başladı. Yaqub dayı isə borunun tıxacını açmaqla məşğul idi. O, uzun bir məftil tapdı. Borunun bir başına suyu qoşdu. Özü isə borunun o biri başını bir qədər yuxarı qaldırıb, əlindəki məftilin ucunu qarmaq kimi eləyib işə başladı. Məftili gözəgörünməyən tıxaca ilişdirib özünə sarı çəkməyə başladı. Borunun içindəki su da hərəkətə gəldi. Və birdən yoğun bir at ilanı da su ilə qarışıq borunun içindən çıxıb, Yaqub dayının sinəsinə çırpıldı. O, necə ayağa qalxdığını heç özü də bilmədi. Cəld ilanı öldürdü.

Sən demə ilan çəpərin dibində bir müddət istifadəsiz qalan borunun içinə girib orada yatıbmış…

**1989**

## OT BİÇİNİ

Yay tətilində mən də gedib biçinçilərə kömək edirdim. Kərənti ilə - dəryazla işləmək, ot biçmək o qədər də asan deyildi. Bir az ot çalan kimi yorulurdum. Biçinçilər mənə deyirdilər ki, get dincəl, indi biz də gəlirik.

Mən kölgəliyə qayıtdım. Onlar isə bir-birlərinin ardınca vər götürüb biçənəyin bu başından o başınadək gedib çıxırdılar. Qəribə idi. Kərənti hərləyən biçinçilər elə bil avar çəkirdilər. Onların gözəgörünməz “qayıqları” irəli “üzdük-

cə" arxada qalan biçilmiş ot layları dalğaları, daha doğrusu, katerin, gəminin arxasında qalan izi xatırladırdı.

Hərdən mənə elə gəlirdi ki, bu kişilər biçinçi deyillər, əkinçidirlər. Onların kərəntiləri isə kotanlardır. Elə bil görünməz traktor onları çəkib aparırdı. Hər biçinçinin arxasınca uzanıb gedən ot vərləri isə şumu xatırladırdı. Ancaq bu şum qara deyil, yamyaşıl idi.

Axşam evə qayıdanda hər biçinçiyə iki bağ ot aparmağa icazə verilirdi. Əvvəlcə otu laylayıb xorumlayır, sonra isə iki xorumu üst-üstə qoyub bir bağ düzəldirdilər. Hamı çalışırdı ki, iri bağlar bağlasın.

Yaş otun dörd bağındansa, quru otun iki bağı sərfəli idi. Çünki yaş ot ağır olur, onu ata, ulağa yükləmək çətindir. Digər tərəfdən dörd bağ otu qurudanda ondan zorla iki bağ çıxırdı. Necə deyərlər, adamın zəhməti özünə qalırdı. Elə buna görə də adamlar evə quru ot aparmağa daha çox üstünlük verirdilər.

Kölgədən kənarda olan quru otu əvvəldən laylamışdım ki, komanda veriləndə asanlıqla xorumlayım, vaxt itkisi olmasın.

Biçinçilər özlərinə ot aparmağa hazırlaşanda mən də qoyduğum laylardan birinin üstünə çıxdım. Elə bu vaxt nə isə şalvarımın balağı ilə üzüyüxarı dırmandı. Ətim ürpəşdi. Bərkdən qışqırdım və əl atıb şalvarımın yuxarı hissəsində ilan hesab etdiyim şeyin başından tutdum və gücüm gəldikcə sıxdım.

Kişilər qaçıb gəldilər. Kolun arxasında şalvarımı onların köməyi ilə çıxartdım. Sən demə məni qorxudan ilan yox, çöl siçanı imiş. Canımın qorxusundan onu elə sıxmışdım ki, ölmüşdü.

İşin yaxşılıqla qurtardığını görən biçinçilər çıxıb getdilər. Ancaq bu, mənə əməlli-başlı bir dərs oldu. Yadıma düşdü ki, biçinçilər həmişə şalvarın balağını corabın içinə

keçirirlər. Sözün düzü, neçə dəfə mənə də demişdilər ki, onlar kimi eləyim. Ancaq sözə baxmamışdım. Çox doğru deyiblər ki, böyük sözünə baxmayan böyürə-böyürə qalar.

O gündən sonra köhnə ot layını xorumlamağa tələsməzdim. Əvvəlcə yaba ilə onu o üzə, bu üzə çevirər, sonra xorumlayardım. Çünki köhnə ot layının altında həmişə ilan və yaxud müxtəlif cür zəhərli qurd-quş gizlənir ki, bu da həyat üçün çox təhlükəlidir.

**1989**

## KARTOF YIĞIMI

Kəndə su çəkib gətirmişdilər. Ona görə hamı həyətdə bostan əkirdi.

Biz də həyətyanı sahəmizi bellədik. Qışdan qalmış xırda və çürüm-çürük kartofları yerə əkdik. Ləklərdə cücərti görəndə sevincimizin həddi-hüdudu yox idi.

Kartofa həvəslə qulluq edirdik. Vaxtlı-vaxtında suvarır, lazım gələndə diblərini kətmən ilə kökləyirdik.

Kartof çiçəkləyəndə adamın elə xoşuna gəlirdi ki! Qəribədir, bar vermək üçün ağacların, bitkilərin mütləq çiçək açması vacibdir. Bitki çiçəkləməsə, ondan bar da gözləmə.

Kartofun çiçəkləri solanda, yarpaqları quruyanda əvvəlcə dilxor oldum. Sonra öyrəndim ki, bu, elə belə də olmalıdır.

Bir gün atam mənə dedi ki, gedək kartof yığaq. O, lək boyu bellə torpağı qazdıqca, yerdən iri, sapsağlam kartoflar çıxırdı. Mən onları vedrələrə yığır, evə daşıyırdım. Atamın da kefi yuxarı idi.

Torpağın üstündə ayaqyalın gəzirdim. Təzəcə qazılmış torpaq dənələri ayağımın altını elə bil ki, qıdıqlayırdı. Mən bundan xoşhallanır, kartofları vedrəyə yığır, evə daşıyırdım.

Birdən elə bildim ki, ayağıma tikan batdı. "Uf" eləyib, ayağımı yerdən qaldırdım. Atam nə olduğunu soruşanda dedim ki, heç, boş şeydir, ayağıma tikan batdı. Ancaq yerdə quyruğunu belinə qaldırmış əqrəbi görəndə hər şey mənə aydın oldu. Deməli, məni o çalıbmış.

Atam bellə əqrəbi öldürdü və məni qucağına alıb, evə apardı. Ayağım şişdi. Yaramın üstünə qatıq sürtdülər. Xoşbəxtlikdən heç nə olmadı. Bir neçə saatdan sonra ağrılar da azaldı. Elə o gündən mən ayaqyalın gəzməyi tərgitdim.

**1989**

## SARI ÜRGƏ

Bir dəfə atam evə çox dilxor qayıtdı. Bıçaq vursan, qanı çıxmazdı. Məni isə onun dilxorçuluğundan çox evə atsız qayıtması narahat edirdi.

Atam evimizin qənşərində maşından düşdü. Atımızın yəhərini, cilovunu onun əlində görəndə ürəyim qopdu. Fikirləşdim ki, yəqin atam atı kiməsə satıb. Lap dilxor oldum. Çünki sarı ürgəyə elə öyrəşmişdim ki… Ondan ayrılmaq o qədər də asan olmayacaqdı.

Sarı ürgə çox qəşəng at idi. Yavaş-yavaş sürəndə adamın altında yumurta kimi gedir, yorğalayırdı. Ona qamçı vurmaq da lazım deyildi. Ayaqlarını qarnına sıxan kimi işini bilirdi. Dördəmə çapmağa başlayırdı. Ancaq onun bircə nöqsanı var idi. Hər şeydən hürkürdü. Elə bu hürkməyinin də qurbanı oldu.

Atamdan atı soruşanda o kövrəldi və dedi:

– Bütün günahlar məndədi. Əgər onu dəmir parçasına bağlamasaydım, belə olmazdı.

Mən bir şey başa düşə bilmədim. Bunu görən atam işin nə yerdə olduğunu söylədi:

– Rayon mərkəzindən qayıdırdım. Hava bərk isti idi. Körpüdən keçəndə ürəyimdə çimmək arzusu baş qaldırdı.

Çayın sahilinə gəldim. Atı bağlamağa bir kol da yox idi. Elə belə də buraxmaq olmazdı. Qəflətən hürkər, qaçıb gedə bilərdi.

Birdən gözümə iri bir dəmir parçası, köhnə kotan sataşdı. Atı ona bağlayıb, çimməyə başladım. Birdən sarı ürgə nədənsə hürkdü. O, dartınanda kotan aşdı. At bundan da hürkdü. Kotanın üstündən tullanmaq istəyəndə necə oldusa dəmirin iti tərəfi çevrilib atın qarnına girdi. Cilov qırıldı və at bağırsaqları yerə tökülə-tökülə qaçmağa başladı. O, birdən dayanıb geriyə – mənə sarı baxdı və tükürpədici bir səslə kişnədi. Bu kişnərtidən çox əlvida sözünə oxşayırdı…

At qaçdı, qaçdı… Elə bil o, öz ölümündən qaçmaq istəyirdi. Ancaq bilmirdi ki, qaçdıqca ölümə daha da yaxınlaşır. At getdikcə bağırsaqları öz ayağına dolaşırdı. O, qaçdı, qaçdı və birdən yerə yıxıldı…

Mən paltarımı geyinib sarı ürgənin yanına gələndə artıq o, ölmüşdü. Yəhəri belindən açıb, cilovu başından çıxarmaqdan başqa çarəm qalmadı.

Babamgil atama təskinlik verir, onu hey ovundurmaq istəyirdilər. Atam isə fikir eləyir, özünü günahkar sayırdı…

**1989**

## DƏRƏDƏKİ BOSTANLAR

Kəndimiz uca bir yerdə idi. Adamlar su sarıdan korluq çəkirdilər. Atın, ulağın belində Qısraq bulağından səhəng-səhəng su gətirərdilər. Bu su içməyə, işlətməyə kifayət edirdi. Ancaq bərəkətli torpaq ola-ola həyət-bacada heç nə əkib becərmək mümkün deyildi. Təkcə torpağın dərin qatlarına kök salmış tut ağaclarının heç nə vecinə deyildi.

Kəndimizin yanındakı dərədə bol sulu bir bulaq var idi. Onun suyu yayda səpsərin, qışda isə isti olurdu. Bulaq o qədər gur idi ki, onun dərə aşağı çağlayıb gedən suyuna

baxanda adama elə gəlirdi ki, bu bulaq deyil, kiçik bir dağ çayıdır.

Bir dəfə su içməyə gedəndə gördük ki, Calal dayı bulağın aşağısında, sol sahildə yerləşən torpaq sahəsini çəpərləyir. Çaşıb qalmışdıq ki, axı buna nə ehtiyac?

Sonra öyrəndik ki, Calal dayı burada bostan əkmək istəyir. Əvvəlcə böyüklər də Calal dayıya inamsızlıqla baxırdılar. Calal dayının isə adamlarla çənə vurmağa vaxtı yox idi. O, heç nəyə əhəmiyyət vermədən işləyir, bulaqdan arx çəkir, yeri belləyirdi.

Nəhayət, çəkilən zəhmət öz bəhrəsini verdi. Calal dayının bostanı o qədər məhsul verdi ki, kişiyə ağız büzənlər də qollarını çırmalayıb işləməyə başladılar. Dərə aşağı bostanlar yan-yana sıralanmağa başladı. Torpaq yaşıl bir libasa büründü. Yuxarıdan durub baxanda adam valeh olurdu. Çox doğru deyirmişlər ki, görülən işdən gül ətri gələr.

O ildən sonra kənd camaatı bostan məhsulları sarıdan korluq çəkmədilər.

Calal dayı gecələr bostanda qurduğu çardağın üstündə yatar, səhərlər isə evə qayıdar, sonra kolxoz işinə gedərdi. Onun danışdığı bir əhvalat indi də yadımdadır:

– Çardaqda yatmışdım. Yay olsa da bərk soyuq idi. Möhkəm bürünüb yatmışdım. Tezdən durub atı hörüyündən açdım. Aparıb suvardım. Özüm də əl-üzümü yudum. Həmişə olduğu kimi atı minib kəndə sarı sürdüm. Yoxuşu çıxanda kürəyimdə nəsə soyuq bir şeyin hərəkətə gəldiyini hiss elədim. Məni vahimə bürüdü. Sözsüz ki, kürəyimdəki ilan idi. Ani olaraq nə etmək haqqında fikirləşdim. İlanın hərəkətindən başın hansı tərəfdə olduğunu təxminən də olsa hiss etdim. Qəflətən köynək qarışıq onu tutub bədənimdən araladım. Xoşbəxtlikdən əlimə ilanın baş hissəsi keçibmiş. Bir əlim kürəyimdə atı kəndə sarı çapdım. Köynəyimi birtəhər əynimdən çıxardılar. İlan sürüşüb yerə düşdü. Onu

bellə vurdular. Ancaq bütün bunlar nahaq idi. İlanın başını elə sıxmışdım ki, o ölmüşdü.

İlan isti yeri xoşlayır. Sən demə gecə soyuq olanda o, bədənimə sığınıbmış…

O gündən sonra Calal dayı dərədəki çardağın üstündə yatmadı.

**1989**

## NİYƏ YERDƏ SALMISAN?

Nənəm dayılarımın uşaqlığından danışanda mənim çox xoşuma gəlirdi. Bir dəfə o, mənə belə bir əhvalat danışdı:

– Dayın balaca idi. Elə sən boyda olardı. İsti olduğu üçün yayda çardaqda yatırdıq.

Biz axşamdan yata bilmirdik. Dayın isə təkcə çardaqda yatmaqdan qorxurdu. Biz söhbət eləyəndə o elə oturduğu yerdəcə yuxuya getdi. Dayını elə yuxulu-yuxulu çardağa çıxarıb döşəyin üstünə uzatdıq. Bir azdan biz də gəlib yatdıq. Səhər açılanda yuxudan dayının səsinə oyandım. O, məni aşağıdan çağırırdı:

– Nənə, ay nənə!

– Nə var, ədə? Nə tezdən durmusan?

– Nənə, mənim yerimi niyə yerdə salmısan?

Əvvəl bir şey başa düşə bilmədim. Sonra aşağı baxdıqda dayını yerdə yorğana bürünüb yatan gördüm. Gözlərimə inanmadım. Sən demə o, gecə yuxulu-yuxulu yerində fırlanmış, yorğan qarışıq yerə düşübmüş. O qədər bərk yatıbmış ki, çardaqdan yıxılanda da oyanmayıbmış…

**1989**

## TELEFON SÖHBƏTİ

Moskvada idim. Ev üçün, uşaqlar üçün bərk darıxmışdım. Sumqayıta zəng edib oğlumla danışdım. O, məni sorğu-suala tutdu. Sonra dedi:

– Ata, tez gəl. Sənin üçün darıxmışıq.

Mən onu yüngülcə məzəmmət edib soruşdum:

– A cumbulu, bəs niyə mənə məktub yazmırsan?

– Ata, sənə məktub yazmışam. Evə gələndə verərəm oxuyarsan.

**1990**

## TÖKDÜM YERİNƏ

Əbil əmi ilə Fərzalı dayı xırmanda qarovulçu imişlər. Döyülən taxıl bir tərəfdə yığılıbmış. Anbara aparmağa hələ ki, imkan tapa bilməyibmişlər.

Xırmanda dərz tayaları baş-başa verən balaca dağları xatırladırmış.

Qoruqçular gecə yarıyadək ordan-burdan söhbət edirlər. Fərzalı dayı bir dərzi başının altına qoyub mürgüləyir. Əbil əmi elə bilir ki, o, yatıb. Bir-iki dəfə yavaşdan çağırsa da, Fərzalı kişi cavab vermir.

Əbil əmi sakitcə boş kisəni götürüb, buğda ilə doldurmağa başlayır. Elə bir az yığıbmış ki, özünü yuxuluğa vuran Fərzalı qəflətən qışqırır:

– Ey, a qara pişik, nə iş görürsən?

Əbil əmi dinməz-söyləməz yığdığı buğdanı yerə bosaldır və hirslə Fərzalı dayıya deyir:

– Ə, anqırma, tökdüm yerinə!

## BU SÜRÜ KİMİNDİR

Yaylaq yolu sürülərlə dolu idi. Köç kəndin yanından keçdiyi üçün adamlar narahat idilər. Kasıb bir kişi sürünün yaxınlaşdığını görüb, öz yeganə toğlusunu tutub saxladı ki, köçə qarışıb getməsin.

Sürü yanından keçəndə o, çobandan soruşdu:

– Ay kibrə, bu kimin sürüsüdü?

– Hacı Mansurun.

– Allah saxlasın, Allah saxlasın.

Sürü uzaqlaşdı. Kəndli toğlunu buraxıb getmək istəyirdi ki, başqa bir sürünün qabağı açıldı. O, yenə də öz toğlusunu tutub saxladı. Sürü uzaqlaşanda çağırıb çobandan soruşdu:

– Ay kibrə, bu sürü kimindi?

– Hacı Mansurun.

– Allah saxlasın.

Bu münval ilə beş sürü gəlib keçdi. Yazıq kəndli öz yeganə toğlusunu tutub-buraxmaqdan təngə gəlmişdi. Tamam qan-tər içində idi. Qəribə burası idi ki, onun müxtəlif çobanlara verdiyi eyni məzmunlu sualın cavabı da eyni olurdu.

– Ay kibrə, bu sürü kimindi?

– Hacı Mansurun…

On beşinci sürü keçəndə kəndli yenə də öz toğlusunu tutub saxladı. O yenə də çobandan soruşdu:

– Ay kibrə, bu sürü kimindi?

– Hacı Mansurun.

Kəndli öz toğlusunu hirslə itələyib sürüyə qatdı və dedi:

– Qoy elə bu da olsun Hacı Mansurun…

Xəbər dərhal Hacının özünə çatdı. O, atını çapıb kəndlinin yanına gəldi və dedi:

– Ay kişi, Hacı Mansur mənəm. Bu nə oyundu çıxarırsan?

– Başına pırlanım, a kibrə! Elə gördüm Allah var-dövləti sənin təpəndən tökür, dedim elə qoy bu toğlu da olsun Hacı Mansurun…

– A kişi, gözümün içinə yaxşı bax! Gəl sən mənim halal sürümə haram mal qatma!

Sonra onun əmri ilə çoban çomağını axırıncı sürünün ortasına atdı. Qoyunlar iki yerə ayrıldılar. Hacı Mansur ayrılan qoyunları yoxsul kəndliyə verdi və dedi:

– Bunları sidq ürəklə sənə verirəm. Yadında saxla ki, mayası halallıqla yoğrulan var-dövlətə zaval yoxdur.

**1990**

## YOXA ÇIXAN CÜCƏLƏR

Cücələr bir-bir yoxa çıxırdılar. Hamı çaşıb qalmışdı. Hərə bir şeydən şübhələnirdi; biri pişikdən, digəri çalağandan. Ancaq sən demə…

İsgəndər işini-gücünü atıb bir tərəfdə gizləndi və cücələrə oğrun-oğrun keşik çəkməyə başladı. Bu vaxt bir qarğa uçub tut ağacına qondu. Əvvəlcə bir-iki ağız oxudu: qarr, qarr… Sonra hiyləgər-hiyləgər dörd tərəfə boylandı.

İsgəndər əvvəlcə ona əhəmiyyət vermədi. Ancaq bir də gördü ki, qarğa cücələrin üstünə şığıdı, bir lümək cücəni caynağına vurub, havaya qalxdı. Oğlan əvvəlcə özünü itirdi, nə edəcəyini bilmədi.

Bu hadisə bir neçə dəfə təkrar olundu. İsgəndər qərara gəldi ki, mütləq cücələrin intiqamını almalıdır. O, neçə gün səbrlə, hövsələ ilə, qarğaya hiss etdirmədən onu izlədi və nəhayət, onun yuvasını tapdı.

Yuvada bir neçə yumurta var idi. İsgəndər onları götürdü. Bir xeyli fikrə getdi. Əvvəlcə istədi yumurtaları sındırsın, yuvanı dağıtsın. Birdən onun ağlına dəhşətli bir intiqam planı gəldi. Yumurtaları evə aparıb suda qaynatdı. Yenidən qaytarıb öz yerinə – yuvaya qoydu.

Günlər ötüb keçdi. Qarğa kürt düşdü. O, yumurtaların üstündə oturdu, bədəninin hərarətiylə onları qızdırmağa başladı.

Günlər, həftələr ötdü. Yumurtalardansa cücə çıxmırdı ki, çıxmırdı. Qarğa çaşıb qalmışdı. O, dünyaya gəlməyə tələsməyən balalarına elə bil ki, layla çalırdı:

Gecə-gündüz intizarla
Sinəmi sizə söykədim.
Canımda odum qalmadı,
Dilimdən layla tükəndi.

Təki çıxın yumurtadan,
Sizin üçün dən olaram.
Dilim qurusun, ölsəniz
Baş daşınız mən olaram…

Qarğanı hər gün müşahidə edən İsgəndər heyrətindən çaşıb qalmışdı. Daha onun hirsi də havalar kimi soyumuşdu. Ancaq qarğa yumurtanın üstündən durmaq bilmirdi ki, bilmirdi.

Analıq hissi nə qədər güclü imiş. Ana öz övladlarını nə qədər dərin məhəbbətlə sevərmiş…

Havalar soyudu. Nəhayət, qar yağdı. İsgəndər yaxındakı kolluğa yollandı. Qarğanın yuvasını tapdı və gözlərinə inanmadı.

Qarğa yuvadaca donub ölmüş, qaxac olmuşdu. Ana qarğa son nəfəsinədək bala məhəbbətini ürəyindən çıxara bilməmiş, ümidlə, səbrlə, dözümlə yumurtadan çıxacaq balalarının yolunu gözləmişdi.

İsgəndərin gözləri doldu. O, öz əməlindən peşman olmuşdu…

**1989**

# GİLAS

Çoxdanın söhbətidir. Dərədəki bağa getmişdik. Yarğanın başındakı gilas ağacının üstü dolu idi. Ancaq heç kəs cəsarət edib həmin ağaca çıxmırdı. Çünki yarğan uçmuş, ağacın zoğlarının bir hissəsi çöldə qalmışdı. Bir sözlə, həmin ağac laxlayan çürük dişə bənzəyirdi. Ancaq budağa baxanda adamın ağzı sulanırdı. Dəymiş gilaslar günün şüası altında bərq vurur, adama gəl-gəl deyirdi.

Tamah çox pis şeymiş. Əvvəlcə ağaca Oqtay çıxdı, sonra Nazim. Bir-birinin bəhsinə yuxarı dırmanmağa başladılar. Par-par parıldayan gilaslar gəl-gəl deyirdi onlara. Yalnız yuxarı baxdıqlarından laxlayan gövdəni unutmuşdular.

Ağac titrədi, əsdi və birdən qanad açıb quş kimi uçdu. Bu, Nazimlə Oqtaya belə gəldi. Əslində isə gilasın son zoğları da ağırlığa tab gətirməyib yerdən üzüldü. Uşaqların ikisi də ağac qarışıq yerə gəldilər. Mağaldakı mal-qara böyürdü. Adamlar qışqırışdılar. Kimsə kəndə xəbərə qaçdı.

Bir azdan QAZ – 69 markalı maşın gəldi. Uşaqları maşına basıb rayona – xəsətəxanaya apardılar.

Hamı narahat idi. Uzun dava-dərmandan, müalicədən sonra onlar sağaldılar. Ancaq ikisinin də üzündə çapıq nişanələri qaldı. Oqtay gilas yeyə bilmədi, ancaq tamah onun inci dişlərini yedi. Protez dişlər qoymaqdan başqa çarə qalmadı. Nazim isə nisbətən yaxşı qurtardı.

Uşaqlar, bu danışdıqlarım uydurma deyil, qardaşımla bibim nəvəsinin başına gələn əhvalatdı. İndi onların heç biri gilas ağacına çıxmır. Hər dəfə gilas yeyəndə sözsüz ki, yadlarına həmin dəhşətli gün düşür. Onlar yuxuda gilas ağacı görəndə də qorxurlar.

Bir dəfə rayona getmişdim. Qapımızdakı gilasın lap ucqar budaqlarında par-par parıldayan gilasları görəndə

mənim də yadıma keçən günlər düşdü. Zarafatla qardaşıma dedim:

– Oqtay, gilasa bax!

O, ciddiyyətlə soruşdu:

– Yemək istəyirsən?

– Hə.

– Qoy onda gedib baltanı gətirim.

– Baltanı neynirsən?

– Budağı kəsim, gilasları yeyək da! Yoxsa ora kim çıxa bilər? Tut deyil ki, silkələyək tökülə.

Məni gülmək tutdu.

– Yox, lazım deyil. Qoy beləcə qalsın. Budaq heyfdi. Ən ucqar budaqdakı gilaslar quşların payıdı, gəl onların boğazına şərik olmayaq.

Qardaşımın üzünə ani bir təbəssüm qondu…

**1989**

## YOLU TANIYAN AT

Bir dəfə Nuşirəvan müəllim məni yanına çağırdı:

– Məhərrəm, at minməkdən qorxmursan ki?!

Təəccüblə cavab verdim:

– Xeyir, müəllim.

– Onda Yusif müəllimin atı burdadı. Onu min, apar Çardaxlıya.

Tər məni basdı. Utana-utana dedim:

– Müəllim, axı Çardaxlının yolunu tanımıram?!

– Narahat olma, at özü səni kəndə aparacaq.

Etiraz etməyə üzüm gəlmədi. Qorxa-qorxa ata mindim. Bərk-bərk yəhərin qaşından yapışdım. Cilovu buraxan kimi at götürüldü. Öz-özümə fikirləşdim ki, daha işim bitdi.

Ancaq xoşbəxtlikdən hər şey yaxşı qurtardı. Yaldan aşanda bir kənd göründü. Fikirləşdim ki, yəqin Çardaxlı buradı. Bir adam da yox idi ki, soruşam.

At kəndin altındakı yol ilə gedirdi. Birdən sağa döndü və təpədəki evə sarı dırmandı. Darvazaya çatanda istədim ki, atı saxlayım. Ancaq bacarmadım. Yaxşı ki, başımı vaxtında əyə bildim. At darvazadan içəri girib kişnədi.

Yusif müəllim evdən çıxdı, atın cilovunu tutdu. Mən yəhərdən endim. Ürəyimdə deyirdim:

– Allah, sənə şükür, nə yaxşı sağ-salamat qurtardım.

Sən demə Nuşirəvan müəllim düz deyirmiş. At özü yolu çox yaxşı tanıyırmış. Sədaqətli heyvan öz sahibi üçün yamanca darıxıbmış.

**1989**

## YAQUB DAYI

Yaqub dayı çox zəhmətsevər kişidi. Elə bil ki, "İş insanın cövhəridir" atalar sözü məhz Yaqub dayının boyuna biçilib. Onun həyətində gül gülü çağırır, bülbül bülbülü. Ağaclar növbənöv, güllər rəngbərəng…

Ancaq onu da deyim ki, Yaqub dayının başına tez-tez qəribə əhvalatlar gəlir. Keçən yay bu əhvalatlardan birini onun özü mənə danışdı. Qulaq asın, sizin üçün də maraqlı olar.

Ata-baba kəndimizdə – Əyində bir yaylaq evi tikdirmək istəyirdim. Onun üçün əvvəl sulu yer tapmaq lazım idi. Kəndin altında, Çayzəmiyə gedən yolun üstündəki sahəni gözüm yaman tutmuşdu. Həmin yerin bir hissəsində gəndalaş bitmişdi. Fikirləşdim ki, sözsüz ki, burada su olmalıdı.

Uzun sözün qısası, fikrim qətiləşdi. Bir gün ekskavator gətirib, həmin yeri qazdırdım. İki-üç metrdən sonra yerdən su çıxdı. Ekskavatorçu kölgədə dincəlməyə getdi. Mən isə nərdivanı qoyub quyuya endim. Bellə yeri oydum ki, suyun gözünü açım.

Birdən su gurlaşdı və yarğan şarıltı ilə üstümə uçdu. Haray hara çatası idi? Əlim yerdən-göydən üzüldü. Öz-

özümə fikirləşdim: diri-diri, özü də ayaq üstə basdırılmaq buna deyərlər.

Çağırmaq istədim. Səsim çıxmadı. Elə bil yuxu görürdüm. Torpaq məni sıxırdı. Yaxşı ki, nərdivan var idi. Necə olsa, bir az boşluq yaradırdı. Çətinliklə nəfəs alırdım.

Aradan nə qədər keçdiyini bilmirəm. Qulağıma lap uzaqdan, elə bil ki, dünyanın o başından qışqırıq, ağlaşma, şivən səsləri gəlirdi. Səs yavaş-yavaş yaxınlaşırdı. Elə bil kimsə üstümdəki torpağı eşirdi.

Birdən zülmət əridi, hər yan işıqlandı. Qorxa-qorxa gözlərimi açdım. Gördüm ki, oğlum Faiq ağlaya-ağlaya başımın torpağını təmizləyir.

Başımı eşib çıxarmışdılar, bədənim isə boğazdan aşağı torpağın altında idi. Faiqə dedim:

– Qorxma, salamatam.

O, sakitləşdi. Yavaş-yavaş yan-yörəmdən qurşağa qədər torpağı təmizlədilər. Sonra belimdən tutub dartdılar. Rezin çəkmələrim ayağımdan çıxıb torpağın altında qaldı.

Xoşbəxtlikdən hər şey yaxşı qurtardı. Sən demə quyunun uçduğundan heç kəsin xəbəri yox imiş. Mənə çörək gətirən uşaq gözlərinə inanmayıb. Elə bil heç burada quyu yox imiş. Bunu eşidən kimi ekskavatorçunun ürəyi gedib. Çünki o, quyuya düşdüyümü bilirdi.

Zorla onu ayıldıblar. Ehtiyatla bir-iki çalov torpaq götürüb. Xoşbəxtlikdən başıma bir qarış qalmış işi dayandırıb, torpağı əllə eşiblər. Əgər bircə çalov da torpaq götürsəydilər, sözsüz ki, başım bədənimdən üzülərdi.

İndi Yaqub dayı həmin yerdə gözəl bir bağ salıb. Çarhovuzda büllur kimi dumduru dağ suyu bərq vurur. Bu suyu da Yaqub dayı özü tapıb. Dərəyə yaxın yeri bir az oyan kimi yeraltı bulağın gözü açılıb.

Su aydınlıqdır, su həyatdır. Ancaq onu tapıb üzə çıxarmaq da asan deyil, bəzən insanın həyatı bahasına başa gəlir…

**1989**

## İQAMƏTGAH

Rafiq babanın rayona istirahətə gələcəyini eşidən kimi onun üçün pəncərəsi meşəyə baxan otağı ayırdılar. Evin bir küncündə isə jurnal stolunun dövrəsinə iki kreslo qoydular.

Sevil Nəcabət nənəsindən soruşdu:

– Nənə, bura Rafiq babanın iqamətgahıdı?

Uşağın dediyi söz adamları heyrətləndirdi. Hamı onun sözünə güldü. Sevil də gülənlərə qoşuldu…

## DUR BİR AZ DA OYNAYAQ

Baba yazı masasının arxasında əyləşmişdi. Elvina nə qədər o yana, bu yana keçsə də, dəcəllik etsə də, baba əhəmiyyət vermir, öz işi ilə məşğul olurdu.

Birdən Elvina özünü saxlaya bilmədi. Ona yaxın gəlib dedi:

– Baba, nə qədər kitab oxumaq, nə qədər yazı yazmaq olar, dur bir az da oynayaq…

**18.08.2005. Qusar**

***

Atası Elvinaya acıqlanmışdı. O ağlayırdı.

Baba qızı sakitləşdirdi, onu kimin incitdiyini soruşdu.

Elvina dedi:

–Baba, Vüqar papanı ölkədən çıxarmaq lazımdı…

**18.08.2005. Qusar**

# HEKAYƏLƏR

## EVİMİZƏ KÖÇƏN NƏĞMƏ

Həmişə işdən evə gec, özü də yorğun qayıdırdım. Yemək-içməkdən sonra divana uzanıb qonşudan gələn həzin nəğmə səsinə qulaq asmaq artıq mənim həyatımın ehtiyacına çevrilmişdi. O nəğməni dinləyə-dinləyə elə bil mənim yorğunluğum itər, varlığıma kövrək, həzin duyğular hakim olardı.

Bu gün də musiqiyə qulaq asmaq arzusuyla evə tələsirdim. Qapını açıb içəri girəndə gördüm ki, bir qız ayağının altına stul qoyub çilçıraq – lüstür bağlamaqla məşğuldur. Salam verdim. Təbəssümlə salamımı aldı. Sonra yenə əlindəki işlə məşğul olmağa başladı.

Mətbəxə keçib bu qızın kim olduğunu bibimdən soruşdum. O, yavaşca, qızın eşitməyəcəyi səslə dedi ki, qonşumuzdur, anası ilə birgə yuxarı mərtəbədə yaşayırdılar. Sabah başqa çəhərə köçəcəklər. Ev əşyalarını dəyər-dəyməzinə satırdılar, hərə bir şey götürdü, mən də bu lüstürləri aldım.

Mətbəxdən otağa, qızın yanına qayıdıb, ona kömək etməyə başladım. Daha doğrusu, onun buyruqlarına əməl elədim:

– Qayçını mənə ver. Al bu izolenti saxla.

Bu qızla hərdənbir rastlaşdığımızı xatırladım. Ancaq onun əmrlərinə könülsüz riayət edirdim. Özümü narahat hiss edirdim nəsə... Elə bil nəsə çatışmırdı. Həmişə bu vaxt qonşudan gələn nəğmə səsi eşidilmirdi.

Bibimdən soruşdum:

– Ay bibi, görəsən bu gün qonşudan gələn nəğmə səsi niyə eşidilmir?

Ancaq deyəsən bibim mənim sualımı eşitmədi. Əli işıq məftilində olan qız gülümsəyib mənə baxdı. Bədənimdə nəsə xoş bir gizilti hiss elədim. Elə bil ki, onun gözlərindən mənim bədənimə cərəyan axdı. Qızın yanaqlarının azca qızardığını görüb, utandım, baxışlarımı döşəməyə endirdim.

Qız dedi:

– İstəsəniz o nəğməni sonuncu dəfə sizin üçün səsləndirərəm.

Çox təəccübləndim. Nə edəcəyimi bilmədim. Deməli mənim üçün çox doğmalaşan o nəğməni hər gün səsləndirən bu qız imiş...

Baxışlarımı öz üzərində hiss edən qızın elə bil ki, başı gicəlləndi. birdən səndəllədi, stul ayağının altından qaçdı. Mən onu havada tutdum, yıxılmağa qoymadım.

Tappıltı səsinə gələn bibim soruşdu:

– Nə oldu, ay bala?

– Heç, – deyə qız stulu düzəldib, yenidən onun üstünə qalxdı. Öz işini tamamlayıb, elektrik düyməsini basdı. Otağımız nura qərq oldu. Qəribə idi, elə bil təkcə otaq deyil, ürəyimin də qaranlıq guşələri işıqlandı.

Dinməz-söyləməz maqnitafonu götürüb, qızla birlikdə həmin mahnını yazmağa getdim...

Səhərisi gün işdən gələndə bibim dedi ki, o qızgil köçüb getdilər.

Mən bir söz demədim. Maqnitafonu qurub həmin nəğməni səsləndirdim. Qonşu qız anası ilə birlikdə hansısa uzaq bir şəhərə, onlarda səslənən nəğmə isə bizim evə köçmüşdü. Ancaq bütün varlığımla sevdiyim bu nəğməni qonşudan eşitmək daha maraqlı idi...

**1971**

# KOROĞLU OLMAĞIN SİRRİ

Çox igidlər Koroğlunu yamsılamaq, onun yerişini yerimək, qazandığı şöhrəti qazanmaq, bir sözlə, Koroğlu olmaq istəyi ilə yaşayıblar. Elə hey fikirləşiblər: görəsən Koroğlu olmağın sirri nədədir?

Bəziləri elə biliblər ki, bu, çox asan işdir. Atalarının gözünü çıxarıblar ki, onlara da Koroğlu desinlər. Ancaq hörmət qazanmaq, şöhrətlənmək əvəzinə elin gözündən düşüblər. Onlara Koroğlu yox, kor kişinin oğlu deyiblər. Belələri elin töhmətindən utanıb yerə giriblər.

Hə, deməli Koroğluluğun sehri kor kişinin oğlu olmaqda deyilmiş. Elə bu vaxt Qırat, Dürat yada düşüb. Deyiblər ki, ay dadi-bidad, Koroğlunu Koroğlu eləyən sözsüz ki, elə onun atları olub. Çox düşünüb-daşınıblar. Müasir, son dərəcə sürətli maşınlara süvar olublar. Elə maşınlara ki, onun bir gündə getdiyi yolu Qırat heç bir aya da gedə bilməzdi. Yenə bir şey çıxmayıb Yel qanadlı "dəmir at" sahiblərinə də Koroğlu adı yaraşmayıb.

Adamlar düşünüblər ki, yox, nə sirr, sehr varsa, misri qılıncdadır. Ona görə ki, bu qılınc ildırım parçasından düzəldilib. Yaxşı silahımız olsa, biz Koroğlu ola bilərik.

Düşünüblər, daşınıblar. Ən müasir silahlara yiyələniblər. Elə silahlara ki, misri qılınc onun yanında adicə bir dəmir parçasıdır. Ancaq yenə də bir şey çıxmayıb. Koroğlunun misri qılıncla etdiyini heç topla-tüfənglə də eləyə bilməyiblər.

Kiminsə ağlına gəlib ki, bəlkə də Koroğlunu Koroğlu eləyən çaldığı sazdır. Özünə saz bağlatdırıb. Mahir ustadlardan dərs alıb. Hey çalıb, çağırıb. Ancaq adicə bir sazçalan, adicə bir aşıq olub. O bədbəxt də məqsədinə çata bilməyib.

Bəziləri də fikirləşiblər ki, Koroğlunun qüdrəti qolunun gücündə olub. Ondan qat-qat qoluzorlu oğullar meydanlarda öz güclərini göstəriblər, ağırlıq qaldırmaqda dünya rekordu

qazanıblar, ancaq yenə də Koroğlu ola bilməyiblər ki, bilməyiblər.

Bir başqası fikirləşib ki, Koroğlunu Koroğlu eləyən dəliləridi. Elə buna görə də başına dəli toplamaq fikrinə düşüb. Özü də axırda gedib çıxıb dəlixanaya.

Xülasə, heç kəs Koroğlu ola bilməyib. Adamların ağlına da gəlməyib ki, həm də Koroğlunu Koroğlu eləyən onun qəlbindəki vətən, torpaq sevgisidi, ürəyindən baş qaldıran haqq, ədalət çağırışıdı.

Koroğlunun özü qəhrəman olmaq, şöhrət qazanmaq arzusuyla yaşamayıb. O, həmişə öz ürəyinin səsinə qulaq asıb. Haqq, ədalət uğrunda mübarizə aparıb. Elə buna görə də elin sevimli qəhrəmanına – Koroğluya çevrilib.

**1990**

## LALƏLİ ZƏMİ İLƏ ÜZ-ÜZƏ

Lalə haqqında çoxlu əfsanə var. Ancaq bu əfsanələrin əksəriyyətində onun köksündəki qara rəngi xala bənzədirlər. Elə buna görə də çəmənin sevimli qızına bağrıyanıq lalə deyirlər.

Laləlәi zəmi ilə üz-üzə dayanmışam. Elə bil çöllər od tutub yanır. Hər lalə bir gözü xatırladır. Bu sehrli gözlərin aşağı hissəsindəki qara rəngə diqqətlə baxıram. Qırmızıyla qaranın qonşuluğuna, onların bir-birinə bu qədər yaraşmasına, uyuşmasına heyranlıqla tamaşa edirəm. Bu qara rənglər baharın nəfəsi ilə işaran qara kömürləri də xatırladır. Diqqətlə baxıram. Fikirdən fikir doğur. Və birdən mənə elə gəlir ki, bu lalələrin hər biri dünyamıza heyranlıqla baxan gözlərdir. Qara rəng o gözlərin bəbəyi, qırmızı isə ağlamaqdan qızaran, qan çəkən gözlərin ağıdır.

Laləli zəmi ilə üz-üzəyəm. Gözlərimi sehrli gözlərdən ayıra bilmirəm…

**1990**

# RƏNGLƏRİN ANASI

Necə oldusa rənglərdən söhbət düşdü. Biri yaşılı, digəri mavini, o birisi qırmızını təriflədi. Sarını, göyü, palıdrəngini bəyənənlər də az olmadı. Biri ağ rəngi təriflədi, digəri bənövşəyini…

Bir sözlə, əməlli-başlı mübahisə qopdu. Hər kəs özünü haqlı sayır, başqalarının sözünə qulaq asmaq istəmirdi.

Biri deyirdi ki, yaşıl həyat rəngidir. Harda yaşıllıq var-sa, orda həyat var. O birisi onun sözünü kəsib qırmızını təriflədi:

– Qarpızın içi də, pomidor da, dadlı-dadlı başqa meyvələrin əksəriyyəti də qırmızıdır.

– Heç sarı yemişi, limonu, portağalı, naringini demirsən. Hələ günəşdən, qızıldan heç danışmıram.

Nə isə… Mübahisə çox uzandı. Heç kəs təslim olmaq istəmirdi. Nəhayət, qərara aldılar ki, qoca bağbanın yanına gedib soruşsunlar görək hansı rəng daha yaxşıdır.

Elə də etdilər. Bağban onları diqqətlə dinlədi. Bir xeyli fikrə getdi və nəhayət, sözə başladı:

– Balalarım, Sizin hamınız haqlısınız. Hər rəngin öz yeri, öz gözəlliyi var. Ancaq mənə qalsa, rənglərin ən gözəli qaradır.

Uşaqlar təəccübləndilər:

– Necə, necə?

Baba gülümsündü:

– Bu qara torpağı görürsünüzmü? Onun sehrli köksündə nə rəng istəsən gül-çiçək bitir. Elə buna görə də mənə elə gəlir ki, qara bütün rənglərin anasıdır.

**1990**

## AĞA ÇAYI VƏ MƏN

Babamgilin kəndindən bir çay axır. Adına Ağa çayı deyirlər. Göz açanda gördüyüm ilk çay bu olub. Mənə elə gəlib ki, ondan böyük çay yoxdu dünyada.

Bu çayın suyunda çimə-çimə, bu çaydan balıq tuta-tuta, bu çayın nəğməsini dinləyə-dinləyə böyümüşəm. Elə bilmişəm ki, məndən qoçaq uşaq yoxdu.

Çay yuxarı gedib billur gözlü çeşmələrin yanına çıxmışam. Çay aşağı yüyürüb ondan da böyük bir çaya – Bərgüşada rast gəlmişəm. Görmüşəm ki, Ağa çayı dünyanın ən kiçik çayıdı, mən isə dünyanın ən adi uşağıyam.

Ağa çayı Bərgüşada qoşulub Həkəriyə, Həkəri Araza qoşulub Kürə, Kür isə Xəzərə axıb. Mən də atama qoşulub Bakıya – taleyimin şəhərinə gəlmişəm.

Hərdən sahilə gedib Ağa çayı ilə söhbət edirəm. Mən bir elə dalğanın səsindən onun səsini, Ağa çayı da sahildəki adamların səsindən mənim səsimi seçə bilir.

Ağa çayı dalğalarla əl-ələ verib Xəzərdə yaşayır, mən isə insanlarla əl-ələ verib şəhərdə işləyirəm.

Əslində ikimiz də bir yolun yolçusuyuq…

## DİBÇƏK GÜLLƏRİ

Kəndimizdə o qədər gül var ki! Hamısı bir-birindən gözəl, hamısı bir-birindən qəşəng. Bu güllərə baxanda adamın ürəyi fərəhlə dolur, üzünə təbəssüm qonur. Atam deyir ki, insan sevinəndə üzünə təbəssüm qonduğu kimi, qönçə də sevinəndə çiçək açır.

Mən güllərə qulluq etməyi çox sevirəm. Vaxtlı-vaxtında onları suvarıram. Diblərini boşaldır, pəncərəni açıb, havalarını dəyişirəm.

Qayğı, nəvaziş görəndə güllər sevinir. Güllər sevinəndə çiçək açır. Çiçək açılanda ürək açılır. Ürək açılanda insanın həyatı şən və mənalı olur.

Bir dəfə atamdan soruşdum:

– Ata, dibçək əvvəl yaranıb, yoxsa güllər?

Atam gülümsündü. Sualıma cavab vermək əvəzinə özü də mənə sual verdi:

– Ayaqqabı əvvəl yaranıb, yoxsa ayaq?

– Əlbəttə, ayaq.

– Doğrudur, əgər ayaq olmasaydı, ayaqqabı düzəltmək kimin ağlına gələrdi?

Xeyli fikirləşdim. Doğrudan da, gül olmasaydı, insan dibçək düzəltdirmək fikrinə də düşməzdi.

Atamın dibçək gülləri haqqında nağılvari söhbəti məni keçmişə – ulu babalarımızın yaşadığı evlərə apardı.

Dan yeri yenicə ağarmışdı. İnsan yuxudan oyandı. Mağara evindən çıxıb, bulağa sarı yollandı. Çəmənlikdən keçəndə onun gözləri şehli güllərə sataşdı. İnsanın ürəyi riqqətə gəldi. Əyilib, güllərin şehli gözündən öpdü. Onların ətrini ciyərlərinə çəkdi. İnsanın ürəyində bir arzu baş qaldırdı:

– Kaş bu güllər mənim evimdə olaydı!

O, əvvəlcə bir az duruxdu. Sonra həmin güllərdən bir dəstə dərib evinə apardı. Ancaq güllər tez saralıb-soldular. Bu, ürəyini güllərə vermiş insana bir dərd oldu.

Aylar, illər dolandı. Bir dəfə insan çəmənlikdə uzanıb, güllərin ətrini hərisliklə qoxlayanda ağlına gəldi ki, körlü-köməcli, torpaq qarışıq çıxarıb evinə aparsın bu gulləri.

Elə də etdi. Ancaq gül onun evində bir neçə gün yaşadısa da, sonra soldu.

İnsan fikirləşməyə başladı. Bir dəfə o, çəmənə gedəndə narın-narın yağış yağırdı. Damlaların altında çimişən güllər, çiçəklər necə gözəl idilər! Yağış yağdıqca, otlar, çiçəklər cana gəlirdi.

İnsan düşündü:

– Aha, tapmışam. Mən gülü torpaq qarışıq evimə aparsam da, ona su verməyi unutmuşdum. Yəqin ki, ona görə soldu mənim güllərim.

İnsan yenə həmin güldən birini torpaq qarışıq evinə apardı. O, sevimli gülünə hər gün su verirdi. Bu dəfə gül əvvəlkindən çox yaşadı. Ancaq günlər keçdikcə onun yaşıl yarpaqları saralıb-solmağa başladı.

İnsan hey fikirləşdi:

– Görəsən gülün belə solğun görünməsinin səbəbi nədir? Torpaq həmin torpaqdır. Su verməyi də unutmuram. Bəs necə olur ki, çəməndəki güllərin yarpaqları yamyaşıl, çiçəkləri al-əlvandır, mənim evimdəki gül isə saralıb solur?

İnsan fikirli-fikirli gəzib dolanırdı. Bu gün onun fikri də hava kimi tutqun idi. Çəmənə hey yağış yağırdı. Elə bil güllər üşüyürdülər bu yağışın altında.

Birdən buludlar parçalandı. Günəş hər tərəfi öz nuruna qərq etdi. Çiçəklərin gözündəki yağış damcılarını şəfəqli əlləri ilə sildi. Hər yan işıqlandı və birdən insanın tutqun sifəti də açıldı. Günəş onun beyninin qaranlıq guşələrinə də işıq salmışdı:

– Tapdım, tapdım. Güllərə torpaqdan, sudan başqa işıq da lazımdır.

İnsan güllər üçün dibçək düzəltdi. Çəməndən onları torpaq qarışıq çıxarıb, həmin dibçəklərdə əkdi. Gülləri pəncərənin qabağına qoydu ki, günəşin şəfəqləri onun üstünə düşsün…

Güllər bir müddət çəmən üçün, çöl üçün darıxdılar. Ancaq yavaş-yavaş onlar da insanı sevdilər.

Torpaq, su, günəş işığı və insan qayğısı gülləri güldürdü. Güllər isə insanların evinə, ürəyinə sevinc, təmiz hava bəxş etdilər.

Bəli, o vaxtdan qərinələr, əsrlər keçib. İnsanla dibçək güllərinin dostluğu isə günü-gündən möhkəmlənir.

Qayğı, nəvaziş görəndə güllər sevinir. Güllər sevinəndə çiçək açır. Çiçək açılanda ürək açılır. Ürək açılanda insanın həyatı şən və mənalı olur.

**1985**

## ABŞERONUN GÖLLƏRİ

Baharın gözəl bir çağında oğlumu maşınla gəzməyə apardım. Təbiət həmişə qupquru, bomboz görünən çöllərin, düzlərin əyninə yaşıl bir don biçmişdi. Quşlar həzin-həzin oxuyurdu.

Maşın getdikcə mənzərələr bir-birini əvəz edirdi. Oğlumun ən çox xoşuna gələn isə göllər oldu, Abşeronun gölləri. Bu göllər yaşıl bir bahar dənizində gözəllik adalarını xatırladırdılar.

Şirin xəyala dalmışdım. Birdən oğlum soruşdu:

– Ata, bu göllər necə yaranıb?

Nə cavab verəcəyimi bilmirdim. Özümü eşitməməzliyə vurdum. Oğlum sualı təkrar eləyəndə vəziyyətdən çıxış yolu tapdım:

– Özün fikirləş, mən desəm maraqsız olar.

Bununla da söhbətimiz bitdi. İkimiz də fikirləşməyə başladıq. Yol isə davam edirdi. Mənzərələr dəyişdikcə ürəyimi xoş bir məmnunluq duyğusu bürüyürdü.

Aradan xeyli keçdi. Birdən oğlum dilləndi:

– Ata, tapdım.

– Nəyi?

– Göllərin necə yaranmasının səbəbini.

– Hə, onda danış görüm.

– Ata, müəllimimiz deyirdi ki, nə vaxtsa dünyanın üzünü su alıbmış. Yəqin elə o zaman Xəzər dənizi də qalxıb Abşeron yarımadasını suyun altında qoyubmuş. Sonradan

dəniz çəkilib. Onun çala-çuxurda qalan suları isə göllərə çevrilib…

Mən gülümsündüm. Oğlum da özündən razı halda qımışdı…

**1991**

## DƏNİZ SƏVİYYƏSİ

Dəniz deyəndə gözlərim gülür, ürəyim atlanır. Elə bilirəm ki, ağsaç dalğalar mənə gəl-gəl deyir. Dənizə girəndə sanıram ki, ən doğma adamlarımdan birinin qoynuna atılıram. Dəniz dalğa qollarını boynuma dolayır. Ləpə dodaqlarıyla üzümdən, gözümdən öpür. Əsəblərimə mehriban əlləriylə sığal çəkir.

Sahildə dayanıb sulara baxıram. Bu gün dəniz dalğasızdır. Elə bil səmanın bir parçası yerə enib. Adama elə gəlir ki, dənizin üzüylə yüyürmək, qaçmaq olar. Ancaq əslində bu belədirmi?

Dənizə baxıram. Yadıma onunla bağlı bir söz birləşməsi düşür: dəniz səviyyəsi. Bir vaxt var idi ki, mənim Xəzərim öz içinə çəkilirdi. Suyun içindəki qayalıqlar yavaş-yavaş üzə çıxırdı. Şairlərimiz "azalma, Xəzərim" – deyə imdad edirdilər.

İllər ötüb keçdi. İndi Xəzərin səviyyəsi xeyli qalxıb. Sahildəki çimərlikləri də öz qoynuna alıb coşqun dəniz. İndi çimərlik çətirlərinin altında insanlar yox, balıqlar dincəlir, ora-bura üzürlər.

Dəniz səviyyəsi ucalıq ölçüsü olub həmişə. Dağların ucalığından danışanda dəniz səviyyəsindən nə qədər hündürdə olduğunu söyləmişik.

Əgər dalğaların əzəməti onun ucalığıyla ölçülürsə, dənizin əzəməti onun dərinliyindədir. Dənizin üzündən dibinə qədər olan dərinlikdə neçə-neçə əzəmətli dağ yerləşdirmək olar.

Ləpədöyəndə körpələrə qoşulub uşaq kimi oynayan dəniz, cavanların qəlbinə məhəbbət mahnısı pıçıldayıb həmişə. Xəstələrin əsəbinə sığal çəkən dəniz, ağsaqqalların, ağbirçəklərin həmsöhbətinə çevrilib.

Dənizin qoynunda həm uşaqlığın, həm gəncliyin, həm də qocalığın öz səviyyəsi var. Hər kəslə onun öz dilində söhbət edir mənim Xəzərim. Çünki o, uşaqla uşaq, böyüklə böyük olmağı yaxşı bacarır.

**1990**

## XƏSTƏLİYƏ TUŞLANAN GÜLLƏLƏR

Xəstələnmişdim. Anam mənə dərman alıb gətirdi. Həblər dərman qabında sıra ilə düzülmüşdü. Onlara baxanda üstündə patronlar sıralanmış ovçu kəmərini xatırladım. Fikrimi bilən anam gülümsündü. Dedi ki, düz tapmısan. Hər həb sənin xəstəliyinə atılan bir gülləyə dönəcək…

Mən də gülümsündüm. İlk “güllə”ni “kəmər”dən çıxarıb atdım. Vay xəstəliyin halına. Ta mənim ondan heç bir qorxum yoxdu. Sehrli güllələri bir-bir onun başına sıxacağam.

**1990**

## QURUYAN AĞACLAR

Ağaclar sevinirdilər. Ağaclar təzəcə özünə yurd-yuva quran iki qonşunun evi arasında sərhəd dirəklərinə dönmüşdülər. Qonşular növbə ilə onların dibini boşaldır, suvarır, gövdənin aşağı hissəsini əhənglə ağardırdılar.

Ağaclar ağ corab geyən məktəbli uşaqlara bənzəyirdilər. Budaqlarda yarpaqlar pıçıldaşar, quşlar nəğmə oxuyardı. Yel əsdikcə, budaqlar o həyətə, bu həyətə aşar, kölgələr rəqs eləyərdi.

Nə üstəsə qonşuların sözü çəp gəldi Giley-güzar acı bağırsaq kimi uzandı, münasibətlər tamam pozuldu. Ağaclar ağ corablarını soyundular. Yarpaqlar soluxdular. Hədə-hədyana, söyüşə, qarğışa dözməyən yazıqlar adamların yerinə xəcalət çəkdilər.

Qurumaqdan başqa çarə qalmadı. Ağaclar quruyub peşmançılıq heykəlinə döndülər.

**1989**

## DƏNİZ MƏNİ ÇAĞIRIR

Mən dənizçi deyiləm. Ancaq dənizi çox sevirəm, lap çox. Hər səhər yuxudan duran kimi Xəzərin sahilinə qaçmaq, dalğaların səsini dinləmək, suların qoynuna baş vurmaq ömrümü uzadır elə bil. Dənizə getməyəndə düşünürəm ki, nəsə itirmişəm. Bütün günü işdə özümü yorğun hiss edirəm.

Bir axşam oğlum məndən xahiş etdi:

– Ata, nə olar, məni də sabah dənizə apar.

–Yaxşı, oğlum, əgər yuxudan vaxtında dura bilsən, mütləq apararam.

Səhər dənizə gedəndə oğlum mışıl-mışıl yatırdı. Onu oyatmağa qıymadım. Sakitcə qapını açıb evdən çıxdım. Oğlum ancaq mən dənizdən qayıdanda yuxudan dura bilmişdi. O, incik-incik üzümə baxdı:

– Ata, bəs niyə məni oyatmadın?

– Axşam o qədər gec yatırsan ki, səhər yuxudan dura bilmirsən.

Söhbətimiz bununla da bitdi. Səhərisi gün yuxudan qalxanda oğlumu durub geyinən gördüm.

– Bıy, qaqaş, səni kim oyatdı?

– Dəniz. Yuxuda gördüm ki, o mənə deyir: “Nə yatmısan, ay oğlan, dur yanıma gəl!”

Qapıdan çıxıb yavaş-yavaş qaçmağa başladıq. Oğlumun gözləri gülürdü. Sahildə bir dəstə adam futbol oynayırdı. Oğlum onlara baxıb soruşdu:

– Ata, bunlar kimdi?

– Dənizin dostları.

– Ata, sən də dənizin dostusan?

– Bəli.

– Dəniz mənim də dostum olarmı, ata?

– O sənin özündən asılıdır. Bu gördüyün dayıların, əmilərin hamısı işə getməmişdən əvvəl sahilə gəlib idman edir, sonra dənizdə çimirlər. Elə buna görə də onlar sağlam və gümrahdırlar.

– Mən də hər səhər dənizə gələcəyəm.

Oğlum paltarını soyundu. O, ləpədöyəndə dalğalarla oynayanda xəyalımdan aşağıdakı misralar keçdi:

Gir dənizə, oğlum!
Peşiman olmazsan
çimdiyinə.
Ayaqların həsrət qalmasın
balıqqulağı çimdiyinə;
Gözlərin dəniz maviliyinə,
suların parıltısına;
Dodaqların dəniz duzuna,
qulaqların ləpələrin şırıltısına.
Öyrən üzməyi, baş vur dərinə.
Körpə əllərini ver
Dənizin ləpə əllərinə.
Qurulan şəfəqlər altında,
tunca dönsün bədənin.
Qəlbi də dəniz olar,
dənizlə dostluq edənin…

**1982**

## YERALTI MƏTBƏX İŞÇİLƏRİ

Göylərə baş çəkən qovaq ağaclarının qarşısında dayanmışam. Elə bil ki, babalarımızın əsrlərin o tayından atdığı oxlardı bu ağaclar. Torpaq ana sinəsinə sancılan oxları göyərdib ağaca döndərib.

Ağlıma başqa bir fikir gəldi. Deyirəm, bəlkə nağıllarda təsvir olunan simürq quşları yurdumuzun üstündən keçərkən öz lələklərini yerə sancıblar? Çünki qovaqların nəhəng lələklərə də bənzəri var.

Külək əsir, budaqdakı yarpaqlar quş qanadı kimi çırpınır. Ancaq bu balaca qanadlarda o irilikdə ağacı göyə qaldırmaq qüdrəti yoxdur.

Qovağa baxıram. Gövdəsi düpbədüzdü, elə bil ki, ilan boğazından çıxıb. Heyranlıqla o boy-buxunu, körpə-körpə budaqları, pıçıldaşan yarpaqları seyr edirəm. Birdən birə yadıma torpaq altında qalan, özü gözə görünməsə də ağaca qol-qanad verən köklər, zoğlar düşür. Doğrudan da, qəribə taleyi var onların. Heç vaxt gözə görünməzlər. Elə bil ki, bu zoğlar "mətbəx işçiləri"dirlər. Torpağın şəhdi-şəkərindən "dadlı-dadlı xörəklər hazırlayıb" gövdəyə, budaqlara yedirdər, özləri isə gecə-gündüz zığ-zımrıq içində çalışar, tər tökərlər. Onlar çox vaxt gövdənin, budaqların yadına belə düşməzlər. Ancaq zoğlar öz işlərindən zövq alar, onların gövdədən, budaqlardan təmannası olmaz.

**1990**

## GİLƏNAR MÜRƏBBƏSİ

Gilənar ağacımız o qədər bar gətirmişdi ki, gəl görəsən. Ancaq nənəm onu möhkəmcə qoruyurdu. Bizə də bərk-bərk tapşırmışdı ki, gilənara əl vurmayaq, yığıb mürəbbə bişirəcəyik.

Ayrı vaxt heç gilənar yeməyə həvəsim yox idi. Ancaq indi gilənar ağacı məni maqnit kimi özünə çəkirdi. Gecə yatanda da yuxuma gilənar ağacı girirdi.

Bir gün özümü saxlaya bilmədim. Ağaca dırmaşdım. Elə bir-iki gilənar qırıb ağzıma qoymuşdum ki, nənəmin bağçaya girdiyini gördüm. Səsimi içimə salıb dayanmaqdan başqa çarə yox idi. Ancaq yerim çox namünasib idi. Nənəm bir az da bağçadan gec çıxsaydı, işlər xarablaşacaqdı. Yaxşı ki, o tez getdi. Bağçanın qapısını bağlayıb həyətdən çıxanda elə bil üstümdən dağ götürüldü. Elə yerimi təzəcə dəyişmək istəyirdim ki, şaqqıltı qopdu. Gilənarın iri bir budağı ağırlığıma tab gətirməyib sındı. Mən budaq qarışıq yerə gəldim. Qol-qıçım ağrıyırdı. Ancaq ən dəhşətlisi bu idi ki, şaqqıltını nənəm də eşidib qışqırdı:

– Ə, kim var orda?

Nə edəcəyimi bilmədim. Artıq iş-işdən keçmişdi. Birdən ağlıma qəribə bir fikir gəldi. Gilənarı əzib suyunu qol-qıçıma, üz-gözümə sürtdüm və bərkdən ağlamağa başladım.

Evdəkilər qaça-qaça yanıma gəldilər. Nənəm sınan ağaca heç gözünün ucuyla da baxmadı. Qol-qıçımı, üz-gözümü "qan içində" görəndə arvadın ağlı başından çıxmışdı. O, can bala, can bala, – deyə-deyə məni qucağında evə aparıb taxtın üstündə yerə uzatdı.

"Qanımı siləndə" hər şey aydın oldu. Ancaq nənəm məni danlamadı. Nəvəsini sağ-salamat görən yazıq arvad elə sevinirdi ki! Elə hey deyirdi: – Cəhənnəm olsun bağ da, bostan da. Hamısı balama qurban!

Bir azdan dayımgil də gəlib çıxdılar. Məsələnin nə yerdə olduğunu biləndə gözləri yaşarınca güldülər.

Həmin gün gilənarı yığıb mürəbbə bişirdilər. Mənə gəl-gəl deyən ağacdan canım qurtardı. Ancaq qəribə idi. O gecə yuxuma gilənar mürəbbəsi girmişdi…

**1989**

# ÜZƏN EV

Hamı yatmışdı. Təkcə Samir oyaq idi. Qonşu binaların pəncərələrinin işıqları da sönmüşdü. Elə sakitlik idi ki, qu desən, qulaq tutulardı. Elə bil şəhər nəfəsini içinə çəkmişdi. Küçələr, həyətlər bomboş idi.

Samir şəhəri heç vaxt belə görməmişdi. Qəribə idi. Yuxusu tamam qaçmışdı. O, əvvəlcə istədi ki, işığı yandırıb kitab oxusun. Sonra fikrindən çəkindi. Qorxdu ki, yatanları oyada. Alnını pəncərəyə dayayıb xəyala daldı. Yadına yayda yanına getdiyi dağlar, doyunca su içdiyi sərin bulaqlar, çimdiyi, balıq tutduğu çaylar, bir də dağların qoynunda uçulub dağılmış ev – babasının evi düşdü.

…Birdən bina silkələndi. Samir qorxdu, elə bildi ki, zəlzələdi. İstədi ki, qışqırıb evdəkiləri oyatsın. Ancaq nə qədər çalışdısa, səsi çıxmadı. Dağ boyda bina isə tufanlı dənizin qoynundakı nəhəng gəmi kimi yırğalanırdı…

Samir gözlərinə inanmadı. Bina təkcə yerində löngər vursaydı dərd yarı idi. Məsələ burasında idi ki, o, indi gəmi kimi üzürdü. Qonşu binalar yavaş-yavaş arxada qalırdı. Əsl möcüzə idi. Bina üzürdü. Özü də torpağın üstündə. Qəribə idi ki, o, maşın yoluna çıxmırdı, hər yerdə yolun kənarı ilə gedirdi.

Nəhayət, bina şəhərdən çıxdı. O, yavaş-yavaş bomboz düzlərlə hərəkət etməyə başladı.

Samir danışa bilmirdi. Ancaq ağlı üstündə idi. Fikirlərini bir yerə cəmləməyi bacarırdı. Əvvəlcə çox qorxsa da, yavaş-yavaş binanın hərəkəti onun üçün adiləşdi. İstifadəsiz qalmış geniş düzlərə, çöllərə baxdıqca düşünürdü. Gör bizim nə qədər torpaqlarımız var. Yəqin ki, buralarda gələcəyin şəhərləri salınacaq.

Getdilər, getdilər, getdilər… Nə qədər ki, düz-düzəngahdan keçirdilər, işlər asan idi. Elə bil ki, dalğasız, sakit dənizdə üzürdülər. Elə ki, dağlara yaxınlaşdılar, vəziyyət

tamamilə dəyişdi. Nəhəng bina – gəmi lövbər vura-vura, özü də ağır-ağır üzməyə başladı. Bu nəhəng dalğaların üstünə qalxmaq o qədər də qorxulu deyildi. Ancaq oradan, o hündürlükdən dərəyə enəndə adamın lap ürəyi çəkilirdi…

Nəhayət, onlar mənzil başına gəlib çatdılar. Nəhəng bina Samirin babasıgilin uçub dağılmış evlərinin yanına çatanda dayandı. Elə bil səyahət bununla da bitdi. Samir nə qədər gözlədisə də, bina yerindən tərpənmədi ki, tərpənmədi. Elə bil o sehrli qüvvəsini itirmişdi. Ya da baba evinin yerində elə bir qüvvətli maqnit sahəsi var idi ki, hərəkət etmək mümkün deyildi.

Samir pəncərədən baxırdı. Birdən kənd uşaqları axışıb gəldilər. Yuxarı mərtəbədə pəncərə önündə dayanan oğlana əl elədilər. Onu yanlarına çağırdılar.

Samir getmək, o uşaqlara qoşulmaq, kəndin kövşənlərini, biçənəklərini gəzmək istədi. Ancaq ayaqları sözünə baxmadı ki, baxmadı. Uşaqlarsa elə hey onu çağırırdılar. Binaya baxıb sevinirdilər. Elə bil ki, dağ üstündə yeni bir dağ ucalmışdı. Kənd uşaqları bu boyda ev görməmişdilər. Heç bu şəhər binası da belə gözəl yer görməmişdi. O da dağlara, gül-çiçəkli yamaclara, dərin dərələrə, yamyaşıl pöhrələrə baxıb sevinirdi: “Gör indi mən hardayam? Bu dağlarda tikiləcək binaların ilk qaranquşu olmaq da bir səadətdir…”

Elə bu zaman Samirin qulaqlarına atasının səsi gəldi. O, oğlunu çağırırdı.

Samir gözlərini açdı. Atası ona dedi:

– Oğlum, bəs dərsə getməyəcəksən?

Samir cəld durub geyindi. Pəncərədən baxdı. Binaları elə köhnə yerində idi…

Birinci dərs ədəbiyyat idi. Müəllim uşaqlara kiçik bir inşa yazmağı tapşırdı. İnşanın mövzusu belə idi: “Mənim arzum”.

Samir yazmışdı:

– Mən böyüyəndə doğma kəndimizə gedəcəyəm. Babamın uçub dağılmış evinin yerində bir ev tikdirəcəyəm. Elə bir ev ki, lap uzaqlardan da görünə bilsin. Kəndimizdə nəvələrin əli ilə başqa binalar da ucalsın. Bu evlərə baxanda dostların ürəyi açılsın, düşmənlərin isə bağrı partlasın.

**1989**

## AĞACIN YUMURTALARI

Badam ağacına baxıram. Elə qəşəng çiçəkləyib ki! Adamın üzü gülür, ürəyinin dərinliyinda arzular qönçə tutur ona baxanda.

Budaqlarda quş civiltisi eşidirəm. Sakitcə dayanıb qanadlı dostumu müşahidə edirəm. Birdən yarpaqların arasında gözümə bir yuva dəyir. Həvəs mənə güc gəlir. Ağaca dırmanıram. Yox-yox, məni yuva dağıdan dəcəllərə oxşatmayın. Elə belə, maraqdan yuvaya baxmaq istəyirəm.

Dörd balaca, çil-çil yumurta görəndə gözlərim gülür. Düşünürəm: vaxt gələcək ki, bu yumurtalar quşa dönəcək, gözəl dünyamızı badam ağacından seyr edəcəklər. Yumurta qönçələr açılacaq. Badam ağacının yuva ovcundan körpə-körpə quşlar pərvazlanacaq.

Ağaca diqqətlə baxıram. Tökülən ləçəklərin yerində balaca-balaca meyvələr qalır. Mənə elə gəlir ki, bu balaca badamlar körpələrdi, ləçəklər isə onların bələyi. Bu ləçək bələklər açıldıqca yaşıl meyvələr göz oxşayır.

Yumurtalara baxıram. Birdən ağlıma qəribə bir fikir gəlir. Elə sanıram ki, badamlar da yumurtalardı, ağacın yumurtaları.

Badam ağacı elə rahat, elə bəxtiyardı ki! Onun özü də çoxlu bar gətirib, budağında yuva quran qanadlı qonağı da bala gözləyir.

Qurumuş başqa bir ağaca baxıram. Onun üstündə nə yarpaq var, nə də meyvə. Qəribədir, heç budağında quş da yuva qurmayıb.

Öz-özümə düşünürəm: "Quru budaqda quş da yuva qurmazmış…"

**1990**

## QOCA MÜƏLLİMİN NAĞILI

Biri var idi, biri yox idi, bir müəllim var idi. Bu müəllim o qədər ağıllı, kamallı, mərifətli, həqiqətpərəst idi ki, gəl görəsən. Heç vaxt dərs dediyi şagirdlərə güzəştə getməz, tapşırığa zada baxmazdı. Onun yeganə meyarı bilik idi. Həmin müəllimin tənbəl şagirdlərdən xoşu gəlməzdi. Qüvvəsi, qabiliyyəti zəif olsa da, daim öz üzərində işləyən şagirdlərə isə onun qəlbində məhəbbət baş qaldırardı. Elə bu xasiyyətinə görə həmin müəllimin dostları qədər də düşməni var idi. Çünki onun prinsipiallığı hamıya sərf eləyə bilməzdi.

Onun sinfində varlı-karlı bir adamın oğlu oxuyurdu. Oğlan lovğa və təkəbbürlü idi. Dərslərini oxumaq bir yana, heç müəllimi də saya salmırdı.

Qoca müəllim həm də adam sərrafı idi. Bu cür tərbiyə olunan uşaqların taleyi onu bərk narahat edirdi. Bir dəfə necə olmuşdusa, hirslənəndə həmin oğlana acıqlı-acıqlı demişdi:

– Bala, təəssüf ki, səndən adam olmayacaq.

Ay keçdi, il dolandı. Buraxılış sinfində həmin müəllimə nə qədər minnətçi düşsə də, o, lovğa şagirdinə biliyindən yuxarı qiymət yazmayacağını bildirdi. Vəzifəli adamlar ona ağız açdı, xeyiri olmadı. Pul təklif eləməyə cəsarətləri çatmadı. Dedilər ki, onun ipinin üstünə odun yığmalı deyil, birdən hoqqa çıxardar, el içində rüsvay olarıq.

Bir gün müəllim axşam evə qayıdanda bir dəstə dəliqanlı körpünün üstündə onun qabağını kəsdi. Hədələdilər, hərbələdilər, xeyiri olmadı ki, olmadı. Çarəsiz qalıb, müəllimi yerə yıxdılar. İki nəfər ayağından, iki nəfər də başından tutub, onu körpünün üstündən çaya sarı salladılar və dedilər:

– A kişi, özünə yazığın gəlsin, söz ver ki, oğlana qiymət yazacaqsan, yoxsa səni çaya atmaqdan başqa çarəmiz yoxdu.

Dəhşətli bir mənzərə idi. Aşağıda qorxulu ölüm, yuxarıda nankor adamlar. Müəllim öz-özünə fikirləşdi ki, ölmək ölməkdisə, bəs xırıldamaq nə deməkdi və öz qəti cavabını verdi:

– Xeyiri yoxdu, suallarıma cavab verməsə, mən o naxələfə qiymət yazan deyiləm.

Müəllim çaya atılacağı dəqiqələri gözləyirdi. Dəliqanlılar isə çaşıb qalmışdılar. Nəhayət, onların ürəyində insaf qığılcımı parladı və qoca müəllimi qaldırıb körpünün üstünə qoydular. Onlardan biri dedi:

– Halal olsun sənə, müəllim, kişi adamsan!

Müəllim acı-acı gülümsündü:

– Məni ki, çaya atmadınız, elə siz də kişi adamsınız…

Aradan illər, aylar keçdi. Müəllim təqaüdə çıxdı. O, lap qocalmışdı. Yorğan-döşəkdə yatırdı. Elə bu zaman adam gəldi ki, müəllim, bəs nə durmusan, yoldaş katib səni çağırır.

Qoca müəllim çar-naçar paltarını geyinib, raykoma getdi. Katibin kabinetinə girəndə onun yanında oturan oğlan müəllimə tanış gəldi. Ancaq onu harada gördüyünü yadına sala bilmədi.

Katib dilləndi:

– Müəllim, bu yoldaş bizim nazir, həmyerlimiz Əsəd Nəbizadədir.

Qoca xəyala getdi. İllərin arxasından zorla üç verdiyi uşağın lovğa görkəmi gözünə göründü.

Nazir lovğa-lovğa dedi:

– Hə, yoldaş müəllim, məni tanımadın?

– Tanıdım, oğul, tanıdım.

–Yadındadır, mənə demişdin ki, səndən adam olmayacaq?

– Yadımdadır, oğul, yadımdadır.

Nazir təşəxxüslə gülümsündü:

– Hə, indi nə sözün var?

– Oğul, mən adam sərrafıyam. O vaxt sənə çox düzgün qiymət vermişəm. Bu günkü hərəkətin də dediyimə əyani sübutdur. Əgər sən adam olsaydın, qoca, xəstə müəllimini yataqdan qaldırdıb, ayağına gətirtməzdin, onu yoluxmağa gedərdin.

Araya sükut çökdü. Katib də, nazir də qıpqırmızı qızardılar.

Müəllim qapını çırpıb çölə çıxdı. Vüqarlı addımlarla evlərinə sarı yollandı. Rast gəldiyi adamlar, keçmiş şagirdləri ona hörmətlə salam verib, hal-əhval tuturdular. Neçə adam müəllimi maşınla evə aparmaq istədisə də, qoca buna razı olmadı. O, yol boyu öz-özünə düşünürdü:

–Yaxşı ki, yer üzündə əmək itirməyən, qədirbilən adamlar da var. Yaxşı ki, dünya yaxşı adamlardan xali deyil…

**1990**

## NOVRUZDAN BİR GÜN SONRA

Novruz bayramının səhərisi günü məktəbə gəldik. İlk dərsimiz ədəbiyyat idi. Müəllim keçmiş bayramımızı bir daha təbrik etdi. Sonra o bizə müraciətlə dedi:

– Əziz uşaqlar, məni sizin Novruz bayramı haqqında təəssüratınız maraqlandırır. Sizcə, şəhərimizdə bu bayram necə keçirildi?

Uşaqlar bir-bir sözə başladılar. Ümumi qənaət bu oldu ki, Novruz təmizlik, halallıq bayramıdır. Elə buna görə də Novruz bayramı yaxınlaşanda adamlar ev-eşikdə yır-yığış aparır, təmizliyə, səliqə-səhmana xüsusi diqqət yetirirlər.

Kimi göylərə baş çəkən Novruz tonqallarından, kimi qapılara papaq tullayıb bayramlıq alanlardan, kimi evlərdə bişirilən şəkərburanın, qoğalın, paxlavanın və başqa bu kimi bayram sovqatlarının dadından, ləzzətindən söhbət açırdı.

Müəllim bizə diqqətlə qulaq asırdı. Sözümüzü qurtarandan sonra o da öz uşaqlıq çağlarından, el adətinin gözəlliyindən danışdı. Qeyd elədi ki, bayram günü elə bir ev tapmaq olmaz ki, orada süfrələrin şahı plov bişirilməsin. Bu əziz gündə ocağın üstü  boş qalmamalıdı. O ki qaldı qapı-qapı düşüb qodu gəzdirməyə, onun məqsədi təkcə bayram hədiyyələri yığmaqdan ibarət deyil. Məqsəd el şənliyidir. Məqsəd il uzunu açılmayan qapıları açmaq, unudulmuşları yad etmək, kimsəsizlərə həyan olmaq, insanlara sevinc-səadət aparmaqdır.

Müəllim ani olaraq dayandı.İlk dəfə görürmüş kimi diqqətlə hamımızı nəzərdən keçirdi. Elə bil nəsə onu narahat edirdi. Gözlərinin dərinliyindən bir qüssə, kədər boylanırdı elə bil. Bir az keçəndən sonra məlum oldu ki, biz yanılmamışıq.

Sinif rəhbərimiz sözünü, söhbətini davam etdirdi:

– Novruz bayramı müqəddəs bayramımızdır. Onu hər il ləyaqətlə qeyd etmək lazımdır.

Biz keçirdiyimiz bayramların yaxşı tərəflərindən çox danışdıq. Ancaq bir məsələni də unutmamalı, özümüzə tənqidi yanaşmağı da bacarmalıyıq. Sizcə, bizim şənliyimizə layiq olmayan hərəkətlər etmişikmi?

Sinfə sükut çökdü. Hamımız fikirləşməyə başladıq. Nəhayət, orta cərgədən bir qız ayağa durub sözə başladı:

– Müəllim, mən bir şeylə qəti razılaşa bilmirəm. Novruz tonqalları müqəddəs tonqallardır. Ancaq həyətimizin uşaqları adamların oturub söhbət eləməsi, istirahəti üçün nəzərdə tutulan yeri söküb, onun taxtalarını yandırırlarsa, belə tonqal heç kəsə lazım deyil. Bizcə, belə hərəkət Novruz tonqallarının müqəddəsliyinə xələl gətirməkdən başqa bir şey deyildir.

Müəllim sinif yoldaşımızı təriflədi, onunla tam razı olduğunu bildirdi.

Sonra bir oğlan söz aldı. O dedi ki, bəzi uşaqlar qapı-qapı gəzib sovqat toplayır, xoşlarına gəlməyən şirniyyatları, qoğalları, kökələri bloklara atıb gedirlər. Bu, həm el bayramımıza, xalqımızın adət-ənənələrinə, həm analarımızın zəhmətinə, həm də müqəddəs nemətlərimizə qarşı edilən hörmətsizlikdir. Çörəyin qədrini bilməyən, heç Vətənin də qədrini bilməz.

Bu dostumuzun da söhbəti müəllimin xoşuna gəldi. Hiss elədik ki, o özü də elə bu sözləri demək istəyirmiş. Lakin həmişə olduğu kimi müəllim bu gün də öz sualları ilə bizi düşündürür, istədiyi cavabları çətinliklə də olsa bizdən qopara bilirdi.

Növbəti sual belə idi:

– Novruz tonqallarından bizə nə qalıb?

Çox fikirləşdik. Hərəmiz bir cavab verdik. Ancaq deyəsən bu dəfə onun gözlədiyi cavabları verə bilmədik. Nəhayət, o öz sualına özü cavab verməli oldu:

– Novruz tonqallarından bizə qalan sinəsi xal-xal olub deşilmiş asfaltlar – ocaq yerləridir. Deməli, biz öz oturduğumuz budağa balta endirmişik.

Müəllim daha sonra ekoloji mədəniyyətdən söhbət açdı. Qeyd elədi ki, çərşənbə axşamı yandırılan rezin şinlər şəhərimizin havasını dəhşətli dərəcədə korlamışdır. Təəssüf

ki, hər yanan köhnə şin havaya zəhər buraxan bir zavod sobasını xatırladırdı…

Hə, belə-belə işlər… Əziz balalar, bu deyilənlərdən mütləq ibrət götürmək lazımdır. Elə etməliyik ki, Novruz bayramı ürəklərimizə sevinc gətirsin. Çalışmaq lazımdır ki, bu bayramdan sonra bizə sinəsi deşilmiş xal-xal asfalt yox, təzə salınmış ağaclar, güllər yadigar qalsın.

Müəllimin söhbəti bizə çox təsir etdi. Ona söz verdik ki, buraxdığımız səhvlərdən nəticə çıxaracaq, gələn il Novruz bayramını daha ləyaqətlə qarşılayacağıq…

**1990**

## BAĞLI QAPI

Ədəbiyyatdan dərsimiz çətin bir şeir idi. Heç birimiz əzbərləyə bilməmişdik. Müəllimdən bərk qorxurduq. O, çox yaxşı müəllim idi. İxtisasını gözəl bilirdi. Ancaq çox tələbkar, zəhmli idi. Qətiyyən güzəştə gedən deyildi.

Belə qərara gəldik ki…

Zəng içəri vuruldu. Hamımız sakitcə keçib yerimizdə əyləşdik. İntizarla işin axırını gözlədik. Ürəyimiz səksəkədə idi. Bilirdik ki, bizi yaxşı şey gözləmir.

Qapı itələndi, ancaq açılmadı. Çöldən qorxduğumuz qəzəbli səsi eşitdik:

– Açın qapını!

Canımıza vicvicə düşdü. Ancaq nə qədər çalışdıqsa, qapı açılmadı ki, açılmadı. Həm də uşaqlar bir-birlərinə maneçilik törədirdilər.

Qıfıla çöldən açar saldılar. Yenə xeyiri olmadı.

Qapı arxasından o qəzəbli səsi bir də eşitdik. Müəllim kimisə əmək otağına göndərdi. Çəkic, iskənə, vintaçan, daha nə bilim nələr gətirməyi tapşırdı.

Xeyli əlləşdilər, nəhayət, qapı açıldı. Dərsin vaxtından yarım saat keçmişdi. Fikirləşdik ki, daha müəllim bizdən dərs soruşmaz. Ancaq sən saydığını say…

Müəllim hirsindən əsirdi. Bizim də canımızı vahimə bürümüşdü.

O, əvvəlcə ümumi şəkildə soruşdu:

– Qapını kim bağlamışdı?

Heç kəsdən səs çıxmadı.

Müəllim bizi cərgəyə düzdü. Hamımızdan bir-bir soruşdu:

– Qapını kim bağlamışdı?

Yalandan "bilmirəm" deməyə dilimiz gəlmirdi. Yoldaşımızı da satmaq istəmirdik. Hamı susurdu. Təkcə müəllimin qəzəbli səsi eşidilirdi:

– Qapını kim bağlamışdı? Bəlkə kənardan ayrı adam gəlib bağlayıb?

Kiminin saçı çəkilirdi, kiminin qulağı. Kiminin üzündə isə şapalaq tapança kimi açılırdı.

Ancaq hamı susurdu.

Növbə Şükürə çatdı. Müəllim eyni sualla ona da müraciət etdi.

Şükür əsə-əsə cavab verdi:

– Müəllim, kim bağladığını bilmirəm. Ancaq gördüm ki, qapının düyməsi yavaşca yuxarı qalxdı.

Elə bil yanan alovun üstünə benzin tökdülər.

– Ə, bapbalaca düymənin yuxarı qalxdığını görə bilirsən, onu qaldıran yekə adamı yox?

Hamımızı gülmək tutdu. Bəzilərimiz lap gözü yaşlı-yaşlı gülürdük.

Ancaq kələyimiz baş tutmadı. Müəllim dərsdən sonra bizi evə buraxmadı. Yamanca tərs idi. Dediyini eləyən idi. Sakitcə dedi:

– Şeiri əzbərləyib danışmayan evə getməyəcək!

Sinfə bir oxuhaoxu düşmüşdü ki, gəl görəsən. Ömründə əlinə kitab almayanlar da şeir əzbərləyirdilər.

Kim hazır idisə, əlini qaldırıb dərsi danışmaq istədiyini bildirirdi. Müəllim dərsi danışanları evə buraxırdı. Qalanlar isə…

Şeiri əzbərləməkdən başqa çarə yox idi.

Ən axıra Şükür qalmışdı. O, qapıdan çıxanda gülməkdən ölürdük. Müəllimin də hirsi yatmışdı. O da bizə baxıb gülümsünürdü. Qəribə idi ki, heç kəs evə getməyə tələsmirdi…

**1989**

## TÜSTÜ DƏRSİ

**Vilayət Quliyevə**

Qış idi. Havalar yaman şaxtalı keçirdi. Məktəbdə odun peçi yandırırdıq. Böyük tənəffüsdə dostlarımızdan biri dedi:

– Əgər istəyirsinizsə, elə eləyim ki, müəllim bizə heç dərs keçməsin.

Dərsin olmaması hamımızın ürəyindən idi. Ancaq inamsız-inamsız soruşduq:

– Necə eləyəcəksən?

– Sizin nə işinizə qalıb. Eləyim, yoxsa yox?

Onu qızışdırdıq:

– Bacarmazsan.

Dostumuz yaş əskini götürüb çölə çıxdı. Onu peçin tüstü çəkən borusunun ağzına soxdu. Tüstü qayıdıb içəri dolmağa başladı. Müəllim sinfə girəndə göz-gözü görmürdü.

O, çox arif adam idi. Bildi ki, tüstünü sinfə doldurmaqda məqsədimiz var. Gözləyirdik ki, bərk hirslənəcək, özündən çıxacaq. Ancaq belə olmadı. Dinməz-söyləməz sinifdən çıxdı. Qapını çırpıb, çöldən bağladı. Arxayın-arxayın pəncərənin qabağında gəzişməyə başladı.

Tüstüdən nəfəs almaq mümkün deyildi. Az qala bağrımız çatlayırdı. Hamımız səbəbkarın üstünə düşdük. Onun ucbatından tüstüdə boğulurduq…

Yalnız zəng çölə vurulandan sonra müəllim qapını açıb bizi çölə buraxdı. Hamının başı gicəllənirdi. Öz pis əməlimizin layiqli cəzasını çəkirdik.

Evə gedəndə valideynlərimiz təəccüb qalmışdılar. Bədənimizdən, paltarımızdan tüstü, his qoxusu gəlirdi…

**1989**

## İTƏN DƏFTƏR

Həndəsə dərsi qurtardı. Müəllim də, biz də tənəffüsə çıxdıq. İkinci dərs riyaziyyat idi.

Bir neçə dəqiqədən sonra zəng içəri vuruldu. Hamı tələsik sinfə doluşdu. Müəllim içəri girdi. Gözlərinə inana bilmədi. Bir vur-çatlasın var idi ki, gəl görəsən. Elə bil bir saat əvvəl dərs keçdiyi heç bu sinif deyilmiş…

O, əvvəlcə nə edəcəyini bilmədi. Nəhayət, güc-bəla ilə sinfi sakitləşdirdi, ev tapşırıqlarını yoxlamağa başladı.

Hamı məsələni həll eləmişdi. Sinfin əlaçısı Sevil isə… ağlayırdı. Onun dəftəri yoxa çıxmışdı.

Müəllim soruşdu:

– Bəlkə dəftərin yaddan çıxıb evdə qalıb?

– Xeyir, müəllim, gətirmişdim. Köçürmək istədilər, vermədim. İndi isə dəftərim yoxa çıxıb.

Müəllim sinfə müraciət etdi:

– Yaxşı, uşaqlar, dəftər kimdədirsə sahibinə qaytarsın.

Müəllim nə qədər israr etdisə də, heç kəsdən səs çıxmadı. Dəftəri gördüm deyən olmadı.

Müəllim bərk qəzəbləndi və əmr etdi:

– Hamı lövhə qarşısına çıxsın.

Uşaqlar lövhənin qarşısına çıxdılar. Müəllim bir də üzünü onlara tutdu:

– Dəftəri kim götürübsə, xoşluqla qaytarsın.
Yenə də heç kəsdən səs çıxmadı.
– İndi çantalarınızı axtaracağam, dəftər kimin sumkasından çıxsa, vay onun halına!
Bəzi uşaqlar özlərini saxlaya bilməyib pıqqıldaşdılar. Bu, müəllimi daha da qəzəbləndirdi və o, çantaları bir-bir axtarmağa başladı. Dəftər tapılmadı ki, tapılmadı.
Müəllim uşaqları əyləşdirdi. Tapşırdı ki, sabah valideynləriniz hökmən məktəbə gəlsinlər.
Heç kəs bir söz demədi.
Müəllim diplomatını açdı ki, təqvim planını çıxarsın. Birdən onun gözləri kağızların arasındakı qalın dəftərə sataşdı. Onun rəngi bir az da qaraldı, üzünün əzələləri titrədi. Uşaqlar elə buna bənd imişlər.
Gülüş səsindən pəncərələrin şüşəsi cingildəyirdi. Sevilin itən dəftəri müəllimin diplomatından çıxmışdı. Tənəffüsdə kimsə dəftəri “etibarlı yerdə” gizlətməyə, Sevildən qisas almağa macal tapmışdı…

**1989**

## BALKON ÖLKƏSİNDƏN MƏKTUB

Gülzar imtahana hazırlaşırdı. Ona görə balaca Aysellə söhbət eləməyə vaxtı yox idi. Aysel dinən kimi acığı tuturdu. O, Ayseli şüşəbəndə qovdu. Dedi ki, get orda sakitcə oturub dərslərini oxu.
Aysel yazı stolunun arxasına keçdi. Kitab-dəftərini qabağına tökdü. Nə qədər oxudusa, başına bir şey girmədi ki, girmədi… Dəftərindən bir vərəq cırıb Gülzara məktub yazmağa başladı. Sonra həmin məktubdan kağız təyyarə düzəltdi. Bir qanadında Gülzarın, o biri qanadında isə öz ünvanını yazdı. Yavaşca “təyyarə”ni çarpayının üstündə uzanıb kitab oxuyan Gülzara sarı atdı. Təyyarə uçdu, uçdu, düz Gülzarın qarşısında yerə düşdü. Qız hirsləndi. Ancaq

təyyarənin üstündəki ünvanı oxuyanda hirsi o dəqiqə yatdı. Üzünə təbəssüm qondu. Məktubun "kimə çatacaq" yerində yazılmışdı: "Otaq ölkəsi, Çarpayı şəhəri, Gülzar Əliyevaya".

Məktubu göndərənin ünvanı isə belə qeyd olunmuşdu: "Balkon ölkəsi, stol şəhəri, Əliyeva Ayseldən"…

Gülzar gülə-gülə məktubu açıb oxumağa başladı:

"Gülzara birinci məktub. Salam, Gülzar, necəsən? İşlərin necə gedir? İmtahanlara necə hazırlaşırsan? Hə… Mən sağ və salamatam. İşlərim də yaxşı gedir. Təzə ev almışam. Təzə ev, yəni "novaya kvartira". Hə, başa düşdün? Mənim evim balkondakı stoldur. İstəsən yanıma qonaq gələ bilərsən. Hə, doğru sözümdü, fevralın iyirmi ikisində doqquza işləmiş və ya doqquza qalmış səni gözləyirəm. Evimin ünvanını yuxarıda yazmışam. Gələ bilməsən də, məktub yaz, zəng vur.

Hə, sizə kimdən deyim, kimdən danışım? Gülzar, "Biri var idi, biri yox idi" kitabının "Seyfəlmülk" nağılındayam. Nə isə, dediyimi yadında saxla. Məktubu yazmağı unutma. İndi isə səninlə sağollaşıram. Qudbay!"

Gülzar məktubu oxudu, ancaq özünü elə göstərdi ki, guya heç nədən xəbəri yoxdur. Yenə dərslərini oxumağa başladı. Aysel gördü ki, Gülzardan səs çıxmadı. İkinci məktubu yazıb əvvəlki qayda ilə Gülzara göndərdi. Məktubda yazılmışdı:

"Salam, Gülzar! Necəsən? İşlərin necədir? İmtahanı nə vaxt verəcəksən? Məlumun olsun ki, mən sağ-salamatam. İşlərim də ki, əladır. Hər şey yaxşıdır. Nə isə…

Balkon ölkəsi çox gözəl ölkədir. Stol şəhəri isə onun paytaxtıdır. Bu şəhər dünyadakı gözəl şəhərlərdən birincisidir. Sən isə gedib Otaq ölkəsinin Çarpayı şəhərində yaşayırsan. Mənim ölkəmin sənin ölkəndən kiçik olmasına baxma. Mənim şəhərim sənin şəhərindən qat-qat gözəldir.

Gülzar, niyə mənə məktub yazmırsan? Yaxşı, eybi yoxdur, ancaq bu məktubumu cavabsız qoyma.”

Gülzar bu məktubu da gülə-gülə oxudu. Bir cümlədən ibarət məktub yazıb Aysələ atdı: “Aysel, gəlsəm ora səni mələdəcəm!”

Aysel məktubu oxuyub bərkdən güldü. Gülzar da ona qoşuldu…

**1994**

## UNUDULMAZ QONAQ

Elvin axşamdan yıxılıb yatdı. Gecə onlara qonaq gəlməyindən təbii ki, xəbər tuta bilmədi. Qonaqlara yer hazırlamaq lazım gəldi. Elə buna görə də atası Elvini yuxulu-yuxulu qucağına alıb o biri otağa apardı. Onun çarpayısında isə qonağın qızına yer saldılar.

Gecə Elvin yuxudan oyandı. Elə mürgülü-mürgülü özünü verdi padşah piyada gedən yerə – rahatxanaya. Oradan da yuxulu-yuxulu öz çarpayısının yanına gəldi. Yerinə girmək istəyəndə çaşıb qaldı. Onun çarpayısında bir qız yatmışdı. Elvin əvvəlcə elə bildi ki, yuxu görür. Ancaq sonra hiss elədi ki, bu xına o xınadan deyil. Anasını çağırdı:

– Ana, ay ana!…

Anası ona cavab verdi:

– Elvin, hardasan?

– Ana, mənim yerimdə kimsə yatıb.

Evdəkilər oyandılar. Yuxulu-yuxulu gülümsündülər. Elvin isə çaşıb qalmışdı. Nəhayət, o da məsələdən xəbərdar oldu. Qaçıb anasının yerinə girdi və yorğanı başına çəkdi.

Səhər Elvin utandığından qonaqların gözünə görünmək istəmirdi. Ancaq anasının rəfiqəsi – Zümrüd xala onu yanına çağırdı, üzündən öpdü. Sonra da qızı Lalə ilə onu tanış etdi. Lalə Elvindən bir neçə yaş böyük olardı.

Zümrüd xala zarafatla Elvinə dedi:

– Ay xatakar, gecə mənim qızımın yanına niyə girmişdin?

Hamı güldü. Elvin pörtdü, Lalənin də yanaqları qızardı…

Sonra hər şey unuduldu. Elvin albomları gətirib Lalənin qabağına qoydu. Onlar birlikdə albomu vərəqləyib şəkillərə baxdılar. Bir neçə saat ərzində əməlli-başlı dostlaşdılar.

Günorta qonaqlar xudahafizləşib harasa getdilər. Onlar söz verdilər ki, mütləq Elvinin albomu üçün şəkil çəkib göndərəcəklər…

Günlər, həftələr ötdü. Elvin səbirsizliklə şəkil gözləyirdi. Ancaq utandığından bu haqda heç kəsə heç nə demirdi. Əslində isə Lalənin şəkli onun gözlərinin qarşısından getmirdi ki, getmirdi…

**1991**

## HƏR "5"- Ə BİR ÖPÜŞ

Gursel həmişə məktəbdən gələndə anası onu oxşayar, neçə aldığını soruşardı. Ana aldığı hər "5"-ə görə oğlunu bir dəfə öpər, onu həvəsləndirməyə çalışardı.

Bir gün Gursel dərsdən gələndə anası yenə əvvəlki qayda ilə ondan soruşdu:

– Mənim cupblum neçə alıb?

Oğlan həvəssiz-həvəssiz cavab verdi:

– İki beş.

– Ay mənim ağıllı balam. – Ana bu sözləri deyib, oğlunun üzündən iki dəfə öpdü. Onu oxşadı, saçını tumarladı.

Gündəliyə baxanda ana gözlərinə inanmadı. Gursel bir "2", bir dənə də "5" almışdı. Oğlunun "2" almağından çox yalan danışması anaya yer elədi.

– "2" almağın bir yana, hələ anaya yalan da satırsan?

Oğlan təəccüblə anasına baxdı:

– Axı mən nə vaxt yalan dedim?

– Bəs sən demədin ki, iki “5” almısan?

– Ana, sən düzgün başa düşməmisən. Mən dedim ki, bir iki, bir beş almışam. İkisini də dedim axı!

Ananı gülmək tutsa da, özünü zorla saxlaya bildi.

Gursel isə başını aşağı salıb söz verdi:

– Ana, narahat olma, sabah mütləq “2”-ni düzəldəcəyəm.

Söhbət bununla da bitdi. Gursel nahar eləyəndən sonra həmişə olduğu kimi yatmadı. Yazı stolunun arxasına keçdi.

Ana dilləndi:

– Bəs yatmırsan?

– Yox, bu gün mənə yatmaq düşmür.

Səhərisi gün oğlu məktəbdən qayıdanda anası yenə soruşdu:

– Oğlum, neçə almısan?

– Beş.

– Neçə dənə?

– Bir.

– Onda gəl səni öpüm.

Gursel kənara çəkilib hiyləgərcəsinə gülümsündü:

– Olmaz.

– Niyə?

– Bu “5”-in payını dünən öpmüsən.

**1989**

## PARALEL BALA

Atası da, anası da Gurseli çox istəyirdilər. Bütün sonbeşiklər kimi o da əzizlənirdi, oxşanırdı. Ancaq Gurselə ərköyün də demək olmazdı. O, çox ağıllı və intizamlı uşaq idi.

Atası hər gün ondan bir neçə dəfə soruşardı:

– De görüm kimin balasısan?

Gurselin cavabı hazır idi:

– Həm atanın, həm də ananın.

Ata onu cırnadırdı:

– Arvad oğlu arvad. Heç eşitmisən ki, adamın pasportunda anasının adını yazalar?! Səndən soruşanda ki, kimin oğlusan, onda nə cavab verəcəksən?

– Əlbəttə, deyəcəyəm ki, atamın oğluyam.

– Bax, bu başqa məsələ.

– Ay ata, nə qədər eyni sözü təkrarlamaq olar e! Bax, mən sənin oğlunam, ananın da balası.

Axır zamanlar atasının tez-tez təkrar olunan sualına Gursel başqa bir cavab tapmışdı.

– Gursel, kimin balasısan?

– Paralel balayam.

– Ə, heç paralel də bala olar?

– Niyə olmur, həm ananın, həm də sənin balanam.

Ata balaca oğlu ilə söhbətdən ləzzət alar, hər işdən gələndə eyni sualla ona müraciət edərdi. Gurselsə sözünün üstündə möhkəm durmuşdu:

– Ay ata, adama eyni sualı nə qədər verərlər?! Birdəfəlik demişəm paralel bala, qurtardı getdi…

Bir dəfə hava küləkli idi. Gursel həyətə düşmək üçün anasından icazə istədi. Ana dedi ki, küləkdir, olmaz.

Bir az keçəndən sonra Gursel atasının yanına gəldi.

– Ata, olar həyətə düşüm?

– Olmaz.

– Niyə?

– Ona görə ki, hava pisdir.

– Ata, nə olar, qoy düşüm də…

– Dedim ki, yox.

– Ata, nə olar?!

Ata hirsləndi:

– Ə, adama sözü neçə dəfə deyərlər, bəsdi də!

Gursel bikefləmək əvəzinə gülməyə başladı. Ata təəccüblə onun üzünə baxdı:

– Niyə gülürsən, ə?

Gursel gülməyini güclə saxlayıb dedi:

– Ata, adama sözü bir dəfə deyərlər?

– Əlbəttə.

– Onda bəs niyə hər gün məndən soruşursan ki, kimin balasısan?

Ata güldü, Gursel də ona qoşuldu… Həyətə düşmək üçün icazə artıq hazır idi…

**1989**

## QAPINI AÇMAYACAM

Gəl bir oyun öyrədim sənə. Təsəvvür elə ki, burnun qapıdır, gözlərin pəncərə. Burnundan basan kimi qapının zəngi çalınacaq.

– Zınq…

– Kimdi?

– Qarmonçalandı. Ev yiyəsi evdədi?

– Bəli.

– Qarmon hazırdı?

– Bəli.

– Onda icazə ver çalım.

Hər əlimlə oğlumun bir qulağından tutub, qarmon kimi o yana, bu yana çəkirəm. O isə elə hey gülür, gülür…

Tez-tez təkrar eləyirik bu oyunu.

Bu gün oğlum kefsizdir. Burnundan barmağımla basıram. Əlimi yana itələyir.

– Zınq… Zınq… Zınq…

Gursel hirsli-hirsli deyir:

– Özünü yorma, onsuz da qapını açmayacam…

## ÜŞÜYÜRƏM

Oğlumu danışdırmaq, məzəli, dadlı-duzlu sözlərini dinləmək istəyirəm. Yorğanı başına çəkib susur. Söhbət eləməyə qətiyyən həvəsi yoxdur. Ona yaxınlaşıb deyirəm:

– Nağıl dinləmək istəyirsən?

-Yox.

– Sənə şəkilli kitab verim?

– İstəmirəm.

– Yemək yeyirsən?

– Yemirəm.

– Çay içirsən?

– İçmirəm.

– Oğlum, üşümürsən ki?

– Danışanda üşüyürəm, məni danışdırma…

## SAKİT OTURA BİLƏN OĞLAN

Televizorda maraqlı veriliş var idi. Ata diqqətlə ekrana baxır, qarşısındakı kağıza nəsə qeydlər edirdi. Uşaqlar səs-küy salır, o yan – bu yana qaçırdılar.

Ata özünü saxlaya bilməyib böyük oğluna bərk acıqlandı:

– Gündüz, sakit otura bilmirsən?

Elə bil qurbağa gölünə daş atdılar. Ətrafa ani bir sükut çökdü. Balaca Gursel də səsini kəsdi. Ayağının ucunda yeriyib, divanda oturdu. Xeyli o yan-bu yana baxdı. Sükutu pozan da elə o oldu:

– Ata, görürsən, mən sakit otura bilirəm.

Atanın dodağı qaçdı. Gündüzlə Gülzar özlərini saxlaya bilməyib bərkdən güldülər. Gursel də onlara qoşuldu…

## DÜZ OXUMURSAN

Aqşin balaca idi. Hərflərin heç birini tanımırdı. Ancaq nənəsi ona nağıl danışmasa, kitab oxumasa, o, bir qaşıq da xörək yeməzdi. Elə buna görə də atası Aqşinə şəkilli nağıl kitabları almışdı. Onun başı nağıl dinləməyə elə qarışırdı ki, boşqabdakı xörəyi nə vaxt yeyib qurtardığından xəbəri olmurdu. Bir də göz açırdı ki, qabda heç nə qalmayıb.

Bu kitabları Aqşinə o qədər, o qədər oxumuşdular ki, o, nağılların hamısını əzbərdən bilirdi. Nənəsi necə oxumuşdusa, cümlələr, hətta sözlər eləcə də qalmışdı yadında.

Aqşinin bacısı birincidə oxuyurdu. Bir dəfə o, "Sehrli dəyirman" adlı eston nağılını bərkdən mütaliə edirdi:

"Qızım, bu gün toy-bayramdır, get qızlarla oyna…"

Aqşin onun sözünü kəsdi:

– Bacı, düz oxumursan. Bayramdır yox, bayramdı, qızlarla yox, qızdarnan demək lazımdı…

## SƏN ANAN ÜÇÜN DARIXMIRSAN?

Gurseli kəndə – nənəsinin yanına apardılar. Əvvəlcə hər şey maraqlı idi: toyuqlara dən səpmək də, ağacdan meyvə dərmək də. Ancaq bir gün Gursel darıxdı şəhər üçün, anası üçün. İki ayağını bir başmağa dirədi ki, gedirəm şəhərə.

Onun arzusunu yerinə yetirdilər. Nə gözəl imiş şəhər. Geniş prospektlər, maşınlar, bağça, dəniz, dondurma…

Günlər bir-birini əvəz elədi. Gursel indi də kəndin xiffətini çəkdi. Darıxdı nənəsi üçün. Ancaq deməyə utandı ki, kəndi istəyirəm. Axı şəhərə öz arzusu ilə qayıtmışdı!

Bir gün bağçadan gələndə Gursel anasından soruşdu:

– Ana, sən anan üçün darıxmırsan?

Ana təəccüblə oğlunun üzünə baxdı:

– Darıxıram, oğlum.

– Onda işdən icazə al, gedib görək sənin ananı.

Ana gülümsündü. Artıq hər şey aydın idi. Gurselin könlünün quşu yenə də uçmuşdu kəndə – nənəsinin yanına.

## GİZLƏNPAÇ

Uşaqlar yenə də Namiqgilin həyətinə toplaşmışdılar. Birdən kimsə dedi:

– Gəlin gizlənpaç oynayaq.

Hamı razılaşdı. Püşk atdılar. Göz yummaq İlhama düşdü. O, gözlərini yumub saymağa başladı. Uşaqlarınsa hərəsi qaçıb bir tərəfə təpildi. Həyət-bacanı sakitlik bürüdü.

İlham gözlərini açıb dörd tərəfi dinşədi. Sonra uşaqları axtarmağa başladı. Gizlənənlər yavaş-yavaş üzə çıxdılar. Ancaq Namiq tapılmadı ki, tapılmadı. Uşaqlar hamısı birlikdə onu axtarmağa başladılar. Baxmadıqları yer qalmadı. Hamı təəccübləndi. Namiqi səsləyib dedilər:

– Hamıdan yaxşı sən gizlənmisən. Təslim oluruq. İndi isə çıx oyunu təzədən başlayaq.

Ancaq daşdan səs çıxdı, Namiqdən səs çıxmadı. O elə bil bir tikə çörək olub göyə çəkilmişdi.

Aradan xeyli keçdi. Hava qaranlıqlaşdı. Uşaqlar narahat oldular. Tez gedib Namiqin anasına xəbər verdilər. Narahat ana da uşaqlara qoşuldu. Axtarış yenidən başladı. Ancaq Namiq tapılmadı ki, tapılmadı.

Narahatçılıq daha da artdı. Hər yanı ələk-vələk elədilər. Kimsə dedi:

– Bəlkə zirzəmiyə girib?

Ana etiraz etdi:

– Bu qaranlıqda qorxudan zirzəmidə oturmaz.

Hərə bir ağız qışqırdı:

– Namiq, hey…

Cavab çıxmırdı ki, çıxmırdı.

Çox düşündülər, daşındılar. Axırda fənər götürüb zirzəmiyə girdilər. Köhnə şkafın qapısını açanda gördülər ki, Namiq onun içində büzüşüb yatıb.

Məlum oldu ki, dostumuz zirzəmidəki şkafın içində gizlənibmiş. Necə olubsa, elə oradaca onu yuxu tutub.

Uşaqları gülmək tutdu. Anası Namiqi qucağına alıb evə apardı, yatağına uzatdı. Uşaqlar evlərinə dağılışdılar. Namiq isə "div yuxusu"ndan yalnız səhərisi gün ayıldı. Nə qədər fikirləşdisə, yadına bir şey sala bilmədi. Anası hər şeyi ona danışdı. Ancaq özü də gülümsündü. O, çayını içib həyətə qaçdı. Dostları onu gözləyirdilər.

Namiq dedi:

– Uşaqlar, gəlin oyunumuzu davam etdirək.

Kimsə etiraz etdi:

– Yox, dostum, bu dəfə də gizlənsən, qorxuram heç tapılmayasan, həmişəlik qeyb olub göyə çəkiləsən.

Hamı güldü. Uşaqlar çilingağac oynamağa başladılar…

## "YANĞINSÖNDÜRƏNLƏR"

Şənbə günü idi. Bacımla qardaşım dərsə, anam isə işə getmişdi. Evdə atamla ikimiz qalmışdıq. Günortaya yaxınlaşırdı. Atam məndən soruşdu:

– Cumbulu, acmamısan ki?

Bilmirəm necə oldusa dedim:

– Acmağa hazırlaşıram.

Atam güldü. Deyəsən sözüm onun xoşuna gəlmişdi. O, saçımı tumarlayıb soruşdu:

– Nə yemək istəyirsən?

Mən bilirdim ki, anam dolma bişirib. Günorta sözsüz ki, onu isidib yeyəcəkdik. Ancaq atamın sualı məni bir qədər

düşündürdü. Doğrusu, dolmadan xoşum gəlmirdi. Onu da bilirdim ki, atam xörək bişirməyi bacarmır. Bəs elə isə nə üçün mənə belə sual verirdi?

Birdən yadıma düşdü ki, atam kabab bişirməyi bacarır. Özü də lap əla kabab. Keçən il Arif əmigillə Qəçreşə dincəlməyə getmişdik. Yolda bir qoyun aldılar. Atamın onu kəsib soyması, ocaq qalayıb dadlı kabab bişirməsi yadıma düşdü. O saat dedim:

– Ata, kabab istəyirəm.

Atam duruxdu. Sonra nə fikirləşdisə, soyuducunu açdı. Gülümsündü:

– Cumbulu, bəxtindən ətimiz var. Ancaq bilmirəm onu necə bişirəcəyik?

– Meşədə bişirdiyin yadından çıxıb?

– Yox, məsələ bişirməkdə deyil. İş ondadır ki, manqalımız yoxdur. Onsuz da necə kabab bişirək?

– Bəs meşədə necə bişirmişdin?

– Meşə ayrı, bura ayrı.

– Balkonda bişirmək olmaz?

– Ocaq yeri qaraldıb xarab eləyər. Sonra anan gəlib bizi danlayar.

– Ata, olmaz ki, ocağı nəsə bir şeyin üstündə qalayaq?

Söz atamın ağlına batdı. Mən həyətdən yastı bir şey tapıb gətirdim. Onu balkonda yerə qoyub, üstünə çır-çırpı, taxta-tuxta doldurduq. Sonra atam qəzeti bürmələdi, onu kibritlə yandırıb, ağacların arasına soxdu. Taxtalar od aldı. Mən ləzzətlə ocağın yanmasına baxırdım. Atam üstümə acıqlandı ki, keç içəri, indi mən də gəlirəm. Ocağa köz düşüncə əti doğrayıb şişlərə çəkərik.

Mən pəncərənin qarşısında durub ocağa baxırdım. Atam isə ət doğramağa hazırlaşırdı. Elə bu vaxt ocağın içində elə bil bomba partladı. Yanan taxtalar, közlər hərəsi bir yana səpələndi. Atam tez balkona yüyürdü. Ocağı səpələnmiş görəndə çaşıb qaldı. Sonra üstümə qışqırdı ki, su gətirim.

İkimiz köməkli yanan yerləri söndürdük, alovun böyüməsinə imkan vermədik. Ürəyim quş kimi çırpınırdı. Atam da bərk qorxmuşdu. Sonradan bildik ki, üstündə ocaq qaladığımız şifer parçası imiş.

Elə bu zaman qapının zəngi çalındı. Gələn anam idi. O, bizim sir-sifətimizə baxan kimi nə isə baş verdiyini o saat anladı. Balkondakı tör-töküntünü görəndə isə lap qorxdu.

Atam onu sakitləşdirdi:

– Qorxma, hər şey yaxşı qurtardı.

Sonra bacımla qardaşım da gəldilər. Biz başımıza gələnləri onlara danışdıq.

Hamımız güldük. Anam isə balkonu yığışdıra-yığışdıra deyinirdi. Onun acıqlı-acıqlı dediyi sözlərdən tək bircəsi yadımda qalıb: “yanğınsöndürənlər”…

**1991**

## EKSPERİMENT

Anamı iki aylıq kursa göndərdilər. Atam çarəsiz qalıb balaca qardaşımı rayona – nənəmgilə apardı. Onu kənddə qoyub geri qayıtdı…

İndi evdə biz üçümüz qalırdıq: atam, bacım və mən. Anamdan və qardaşımdan ötrü bərk darıxırdıq. Yeyib-içmək sarıdan da əməlli-başlı korluq çəkirdik. Doğrudur, atam hər şey alıb gətirirdi, ancaq nə qədər çalışsaq da, xörəklərimiz dadlı çıxmırdı ki, çıxmırdı.

Atam eksperiment aparırmış kimi gündə bir cür yemək bişirir, biz də təzə növ yeməkləri tərifləyə-tərifləyə yeyirdik. Nə bişirdiyimizi heç özümüz də bilmirdik, ancaq xörəklərimiz o qədər də pis çıxmırdı. Pis olanda da atamın xətrinə dəyməsin deyə bəh-bəhlə yeyib-içirdik.

Bir gün atam daha bir eksperiment apardı. Ət şorbasının üstünə bir-iki qaşıq qarpız mürəbbəsi tökdü. Biz təəccübləndik. Atam isə gülə-gülə dedi:

– Sizə elə xörək bişirirəm ki, ömrünüzdə bu cür yemək görməmisiniz.

Nəhayət, xörək hazır oldu. Hərəmiz bir boşqab xörək çəkib qarşımıza qoyduq. Atam isə hardasa yeyib gəlmişdi. Ona görə dedi ki, bir azdan, acanda yeyəcək.

Nə qədər eləyirdiksə, xörəyi yeyə bilmirdik. Onun şirin, ancaq ürəkbulandırıcı bir dadı var idi. Atam isə hey üstümüzə acıqlanırdı:

– Tez olun, soyumamış yeyin!

Biz odla su arasında qalmışdıq. Nə xörəyin dadsızlığını deyə bilirdik, nə də onu yeyə. Qaşığı ağzımıza aparan kimi bizi öyümə tuturdu.

Bunu görən atam acıqlandı. Hirsli-hirsli soruşdu:

– Dadsız xörəkdir?

İkimiz də birağızdan dilləndik:

– Dadlıdır.

– Bəs onda niyə yemirsiniz?

Heç birimiz dinmədik. Sonra bacım gülə-gülə dedi:

– Ata, bircə qaşıq da özün ye, nə olar?

– Yaxşı, nə deyirəm.

İkimiz də gözlərimizi ataya zilləmişdik. Onun qaşığı ağzına aparması ilə üz-gözünü turşutması bir oldu. Biz gülməkdən ölürdük.

Atam gülə-gülə dedi:

– Müvəffəqiyyət qurban tələb eləyir. Elə bilirsiniz insanlar müxtəlif xörəklər bişirməyi asanlıqla öyrəniblər?

Sonra xörəyi zibil qabına boşaltdıq.

İki ay bizə iki il kimi uzun göründü. Axır ki, anam gəlib çıxdı. Bacım gülə-gülə dedi:

– Qaqaş, eksperimentlərdən canımız qurtardı.

Biz güldük. Atam da bizə qoşuldu. Təkcə anam təəccüblə üzümüzə baxırdı…

**1991**

# MİLÇƏKÖLDÜRƏN

Babam elə qışqırdı ki, qorxudan tir-tir əsdim. Tez qaçıb canımı onun əlindən qurtarmağa çalışdım. Çəpərdən aşıb dayımgilə qaçdım. Tənginəfəs olmuşdum.

Dayım məni görüb təəccübləndi:

– Ceyhun, nə olub sənə?

Həyəcanla dedim:

– Babam məni öldürəcək.

Dayım təəccübləndi:

– De görüm nə iş görmüsən?

– Heç nə. O mənə nə tapşırmışdısa, onu da elədim. Ancaq babamın mənə bərk acığı tutdu.

Düzünü de, nə iş görmüsən?

– Heç nə. Babam mənə milçəköldürən düzəldib verdi ki, milçəkləri öldürüm. Mən də onun tapşırıqlarını yerinə yetirdim, ancaq babam bərk hirsləndi. Az qaldı ki, məni öldürsün.

– Ola bilməz.

– Dayıcanı düz deyirəm. Babam taxtda uzanıb mürgüləyirdi. Birdən bir yekə milçək uçub düz onun alnına qondu. Mən də gücüm gəldikcə milçəyi vurdum.

Dayım əvvəlcə güldü, sonra ciddiləşib mənə acıqlandı, səhv etdiyimi söylədi. O, məni evimizə gətirdi. Babam milçəköldürəni əlində yelləyib məni hədələdi:

– İndi səni milçək kimi öldürəcəm…

Dayım güldü. Babam da qımışan kimi oldu. Mənim qırışığım bir balaca açıldı. Babamın yanına gedib ondan üzr istədim.

Sonra dayımla babam nə haqda isə söhbət eləməyə başladılar. Mən isə milçəköldürəni götürüb o biri otağa keçdim.

## NAR SUYU

Trolleybusa təzəcə minmişdim ki, bir kişi məni yanına çağırdı, yanındakı boş yeri göstərib dedi:

– Oğul, o tərəfə gün düşəcək, burda əyləş.

Həmsöhbətim ixtiyar bir qoca idi. Yayın qızmar çağı olmasına baxmayaraq əynində kostyum, başında papaq var idi. Sifətinə baxan kimi hiss olunurdu ki, kiminləsə söhbət etmək istəyir.

Qoca məndən soruşdu:

– Oğul, evlisənmi?

– Bəli.

– Hə, onda bir buynuzun düşüb.

Mənalı-mənalı ona baxmağıma əhəmiyyət vermədən sorğusunu davam etdirdi:

– Uşaqların varmı?

– Bəli.

– Deməli, o biri buynuzun da düşüb.

Təəccüblə ona baxdığımı görən kişi gülümsündü, oğlum, incimə, – dedi. Eldə belə deyirlər. Arvad-uşaq, ailə olandan sonra insan gərək onların xətrinə dilini dinc saxlasın, ona-buna buynuz atmasın…

Bir xeyli susduq. Gördüm ki, kişi yarımçılpaq qızlara, gəlinlərə mənalı-mənalı baxır. Üstünü vurmadım. Qoca isə yenə mənimlə danışmağa başladı. Yaşayışın çətinliyindən, təqaüdün çörək puluna çatmadığından danışdı. Cibindən Bakı-Sumqayıt elektrik qatarının cədvəlini çıxarıb baxdı. Dedi ki, yaxşı ki, gedib-gəlməyimiz pulsuzdu…

Yenə araya sükut çökdü. Dillənmədiyimi görən qoca dedi:

– Oğul, suyun mənə yaman şirin gəlir, ona görə səninlə söhbət eləmək istəyirəm. Başağrısı deyilsə, sənə bir hadisə danışım?

Çar-naçar dedim:

– Əmi, buyurun, dinləyirəm.

Kişi gözlərini qarşıdakı qız-gəlinə gəzdirib, söhbətə başladı.

– Bir kişinin evinə qonaq gəlibmiş. Arvadı onlara çay gətirəndə necə olursa, uzun donu sürüşür, ayaq barmağını qonaq görür. Ev yiyəsi özünü görməzliyə vurur. Qonaq gedəndən sonra arvadı yanına çağırıb deyir:

– Arvad, qonağı yola saldıq, indi sən də qonaqsan, gedə bilərsən…

Arvad təəccüblə ərinə baxanda kişi onu başa salır:

– Arvadın ki, ayağını naməhrəm kişi gördü, ta ondan arvad çıxmaz…

Qoca sözünü qurtarıb udqundu, sınayıcı nəzərlə üzümə baxdı. Sonra yaxası, başı, ayaqları açıq qız-gəlini göstərib dedi ki, ay oğul, belə yerdə xeyir-bərəkət olarmı?

Gülümsündüm. Səhərdən qocanın müasir geyimli qadınları əyri-əyri süzməsinin mənasını anladım.

Qoca bununla da söhbətini qurtarmadı. Yenə məndən üzr istədi. Dedi ki, ay oğul, görürəm ki, söz xiridarına oxşayırsan. Qulaq as, bir söhbət də eləyəcəm.

Gülümsündüm. Bunu razılıq əlaməti kimi qəbul edən qoca yeni bir söhbət başladı:

– Ay oğul, deyirlər ki, bir namuslu kişi var imiş. Onun övladı olmurmuş. Nəhayət, bir gün onun arvadının uşağı olur. Kişi əhd edir ki, mənim oğlumun doğulduğu gün dünyaya gələn qızı özümə gəlin eləyəcəyəm.

Elə həmin gün eşidir ki, bəs filan kənddə yoxsul bir kişinin qızı olub. Uşaqların qırxı çıxandan sonra kişi el adəti ilə qızı dünyaya gələn ailəyə qonaq gedir. Ürəyindəki arzunu açıb söyləyir. Uzun çək-çevirdən sonra qız evini razı salır. Deyir ki, gəlinimi elə indi aparacam.

Qaynata gələcək gəlinini – körpəni götürüb evlərinə gətirir. Arvadına deyir ki, uşaqlar evlənmək yaşına çatana qədər səndən başqa heç kəslə görüşməməlidirlər.

Belə də olur. Nağıl dili yüyrək olar. Uşaqlar həddi-buluğa çatırlar. Kişi onları çağırıb deyir ki, siz bir evdə böyüsəniz də, bacı-qardaş deyilsiniz. Vəziyyətin nə yerdə olduğunu başa salan kişi uşaqların toyunu eləyir.

Aradan bir müddət keçəndən sonra gəlin hamilə olur. Bir gün evdə tək oturanda onun ürəyi turş şey istəyir. Ancaq utandığından nə qaynatasına, nə qaynanasına, nə də ərinə bir söz deyə bilmir. Pəncərədən çölə baxanda görür ki, qonşu çəpərdən narın budağı düz onların pəncərəsinin qabağına əyilib. Gəlin özünü saxlaya bilmir. Budağı özünə sarı əyir, narı dişləyib, bir damcı turş şirəsindən sorur və onu budaq qarışıq buraxır.

Aradan xeyli keçir. Bir oğlan uşağı doğulur. Babası onun tərbiyəsi ilə şəxsən özü məşğul olur. Uşaq yeddi yaşa çatanda onu bir mollaya şagird verir.

Bir yoxsul kişi var imiş. O, bulaqdan tuluqla su gətirər, camaata satar, qəpik-quruş qazanarmış. Bu kişini görən nəvənin başında qəribə bir arzu baş qaldırır. O, yoğun bir iynə tapır. Mollanın yanından evə qayıdanda iynəni gizlicə tuluğa batırır. Su yavaş-yavaş axıb tökülür. Tuluq sahibi çaş-baş qalır. Təzə bir tuluq alır. Yenə eyni əhvalat təkrar olunur.

Üçüncü dəfə kişi sayıq tərpənir. Uşağı tuluğu deşərkən tutur. Yoldaşlarından onun kimliyini soruşub öyrənir. Deyirlər ki, bəs bu filankəs kişinin nəvəsidi…

Tuluq sahibi çaşıb qalır. Elə mömin adamın belə dələduz nəvəsinin olması onu təəccübləndirir. Uşağı kişinin yanına gətirib əhvalatı ona danışır.

Kişi tuluq sahibinə pul verib onu yola salır. Sonra gəlinini yanına çağırıb soruşur:

– De görüm nə qələt qaynatmısan ki, sənin uşağın belə dələduzluq eləyib?

Gəlin and-aman eləyir. Birdən onun yadına dişlədiyi nar düşür. O, əhvalatı olduğu kimi qaynatasına danışır. Qaynata deyir:

– Bir damcı nar suyundan belə uşaq əmələ gəlirsə, gör bic doğulan uşaq necə olar?

Həmsöhbətim bu əhvalatı danışandan sonra trolleybusda hay-haray salan, böyük-kiçik saymayan cavanları göstərib dedi:

– Eh, ay oğul, dünya xarab olub… Millətimizi yaman günlərdən Allah saxlasın…

Kişi trolleybusdan düşüb gedəndə gülümsünüb dedi:

– Oğul, dediklərimi yaz ver qəzetə, kitaba, qoy oxuyub ibrət alsınlar.

Mən o ixtiyar qocaya söz verdim və sözümün üstündə də durdum…

**1995**

## DƏMİR QIRINTILARI

Müəllim uşaqlara tapşırmışdı ki, rastlarına çıxan dəmir parçalarını gətirib məktəbin həyətinə yığsınlar. Uşaqlar soruşanda ki, bu nə üçün lazımdır, müəllim hər şeyi başa salmışdı:

– Bu istifadəsiz dəmirləri zavoda göndərəcəyik. Onları əridib yeni məhsullar hazırlayacaq, beləliklə dəmirə ikinci bir həyat bəxş edəcəklər.

Kamil fikirləşdi. O, hardasa çoxlu dəmir görmüşdü. Ancaq yerini xatırlaya bilmirdi. Birdən hər şey yadına düşdü. Təmir Traktor Stansiyasında istənilən qədər dəmir var idi. Lakin həmin dəmirləri oradan çıxarmaq müşkül məsələ idi. Gündüzlər işçilər orada olur, axşam isə darvazanın qapısı bağlanırdı.

Kamil sinif yoldaşı Əsədə dedi:

– Çoxlu dəmir yeri bilirəm. Ancaq onları gətirmək çox çətindir.

– Sən yerini de, fikirləşib bir çarə taparıq.

– Təmir Traktor Stansiyasında istənilən qədər dəmir-dümür var.

– Hə, gəl bir az fikirləşək.

– İşçilərin yanında dəmir götürmək istəsək verməzlər. Gərək axşam üstü ora gedək.

Onlar dedikləri kimi etdilər. Darvazanın yanovundan asanca sivişib keçdilər. Gücləri çatan dəmir parçalarını götürüb qapıdan çıxmaq istəyəndə kimsə onları gördü. Acıqlanıb dedi:

– Ayıb olsun sizə, heç adam da oğurluq edər?

– Əmi, biz oğurluq etmirik. Bu dəmirləri məktəbə aparırıq. Oradan da zavoda göndərəcəklər.

– Ay yaramazlar, heç belə də iş olar? Götürdüyünüz bu dəmirlər adi qırıntı deyil, hal-hazırda istifadəyə yararlı hissələrdir. Müəllim sözsüz ki, istifadəsiz dəmirləri gətirməyi tapşırıb. Elə deyilmi?

– Bəli, elədir.

– Gətirdiyiniz hissələri aparıb yerinə qoyun. Sonra mən Sizə kömək edərəm.

Uşaqlar dəmir parçalarını aparıb götürdükləri yerə qoydular. Tanımadıqları, ilk dəfə gördükləri kişi onları çayın sahilinə apardı. Burada çoxlu istifadəsiz dəmir parçaları var idi. Kişi uşaqlara dedi:

– Bu da dəmir. Ancaq ikiniz daşımaqla qurtara bilməzsiniz. Gərək sinif yoldaşlarınızı da köməyə gətirəsiniz.

Səhərisi gün uşaqlar məktəbə gedəndə dedilər ki, çoxlu dəmir yeri bilirlər. Müəllim əmək dərsində sinfin bütün uşaqlarını çayın qırağına apardı. Onlar dəmir parçalarını daşıyıb məktəbin həyatinə yığdılar.

Müəllim uşaqlara öz təşəkkürünü bildirdi. Kamillə Əsədi isə təriflədi. Dedi ki, onların kəşfiyyatı bizim çox

köməyimizə gəldi. Gün gələcək, bu istifadəsiz, yağışın, günün altında paslanan dəmirlər ikinci həyat qazanacaqlar. Sizin zəhmətiniz onlara ikinci həyat verməkdə çox mühüm rol oynayacaq.

**1990**

## YERALTI İŞLƏR

Necə oldusa məktəbdə o dünyadan söhbət düşdü. Rəşid dil-boğaza qoymur, özünü çoxbilmiş kimi göstərirdi. O, babasının sözlərinə istinad edərək söyləyirdi ki, bu dünya gəldi-gedərdir. O dünya isə əbədidir. Elə buna görə də çox vaxt ölən haqqında deyirlər: əbədiyyətə qovuşdu. Bu dünyada əzab-əziyyət çəkirsən, o dünyada isə kef, ləzzət.

Uşaqların başı söhbətə elə qarışdı ki, müəllimin içəri girməsindən xəbər tutmadılar.

Riyaziyyat müəllimi çox zarafatcıl, dərin yumor duyğusuna malik bir adam idi. O, dinməz-söyləməz uşaqlara qulaq asırdı.

Yenə Rəşidin səsi ucaldı:

– Kim nə deyir desin, o dünya kefdi. İş yox, güc yox, məktəb yox…

– Ay, hay, – bu, müəllimin səsi idi.

Uşaqlar tez özlərini yığışdırdılar. Rəşid qıpqırmızı qızardı. Müəllim isə sözünə davam etdi:

– A bala, ay oğul, elə bilirsiniz yerin altında – o dünyada iş yoxdur? Ay, hay! Ə, bəs turpu, kökü kim rəngləyəcək? Soğanı qabığa kim bükəcək? Yerin altının da öz işləri var, a bala.

Hamımız gülüşdük. Müəllim isə ciddi idi. O, dərsə başladı. Ancaq bizim hamımızın fikrimiz onun əvvəlcə dediyi sözlərin – yeraltı işlərin yanında idi.

**1990**

## SƏRXANIN SİRRİ

İngilis dili dərsi idi. Müəllim kimini lövhədə işlədir, kimindən isə şifahi dərs soruşurdu. O, Ramizin cavabından çox razı qaldı. Verdiyi beşdən əlavə, oğlanı xeyli təriflədi də.

Bundan sonra müəllim lövhə qabağına çağırdığı Sərxanın lüğəti necə öyrənməsini yoxlamaq istədi. Dönüb yazı taxtasına baxdı. Gözlərinə inanmadı. Sərxandan çıxmayan iş. Hər şeyi düpbədüz, özü də səliqə ilə lövhəyə yazmışdı.

Müəllim elə təzəcə Sərxanı tərifləmək istəyirdi ki, birdən gözləri onun əlinə sataşdı. Əmr etdi ki, oğlan əllərini açsın.

Sərxan qıpqırmızı qızardı. O, əllərini açmaq istəmdi. Hər iki əlini bərk-bərk yummuşdu. Elə bil kimisə yumruqlamağa hazırlaşırdı. Əslində isə o, əlini açmağa utanırdı. Ovcunun içində nəyisə gizləyirdi. Adamda elə təsəvvür yaranırdı ki, oğlan əllərini açsa, ovcundan nəsə qiymətli bir şey quş kimi uçub qaçacaq, bir də geri qayıtmayacaqdı.

Müəllim isə israr edirdi. Nəhayət, Sərxan ovuclarını açdı. Uşaqlar gülüşdülər. Sən demə oğlan lüğəti əvvəlcədən əlinin içinə köçürüb, oradan da gizlicə lövhəyə yazırmış.

Müəllim bərk acıqlandı. Ürəyi bununla soyumadı. Sərxanın qolundan tutub onu müəllimlər otağına apardı. Dərs hissə müdirini görən kimi əsib coşdu. Oğlanın hərəkətindən yana-yana danışaraq dedi:

– Siz bunun əllərinə baxın.

Dərs hissə müdiri diqqətlə oğlanın əllərinə baxsa da, bir şey başa düşə bilmədi. Axı burda nə var ki, – deyə təəccüblə müəllimin üzünə baxdı.

İngilis dili müəllimi də çaşıb qaldı. Sərxanın ovcunda heç bir yazı yox idi.

Direktor müavini gülümsündü. Sonra qaşqabağını töküb oğlanın üstünə acıqlandı:

– Get dərsə.

Sərxan çıxıb sinfə gəldi. Biz onu sorğu-suala tutduq. Sən demə bu kələkbaz yolda fürsət düşən kimi ovcunu diliylə yalayıb, yazıları pozmağa müvəffəq olubmuş.

O, su kranının yanına yüyürdü. Uşaqlar isə dilini yuyan sinif yoldaşlarına baxıb qəhqəhə çəkirdilər.

**1990**

## LOVĞA MÜƏLLİMİN AQİBƏTİ

Riyaziyyat müllliminin dərsindən qətiyyən xoşumuz gəlmirdi. O, həmişə bizə dəvə nalbəndə baxan kimi baxar, heç birimizi adam yerinə qoymazdı. Bir sözlə, çox ətiacı və lovğa bir adam idi. Hələ üzündə bir dəfə də olsun təbəssüm nişanəsi görməmişdik. Təzə mövzuları çox cansıxıcı şəkildə izah etdiyindən, hətta elmlər elminə – riyaziyyata olan-qalan marağımız da sönmüşdü.

Müəllim özünü elə çəkirdi ki, gəl görəsən. Hər ona baxanda nənəmin tez-tez işlətdiyi bir söz yadıma düşür, öz-özümə gülümsünürdüm: “Özünü elə çəkir ki, elə bil beş eşşəkli xocadı.”

Bir dəfə necə oldusa dərs təzəcə başlayanda sinif yoldaşım Natiqdən qələm istədim. Müəllim üstümə çımxırdı. Məni uşaqların yanında lap pərt elədi. Səsinin yoğun yerinə salıb dedi:

– Ə, qanacaqsız, adam dərs vaxtı qələm istəyər?

Hirsimdən əssəm də, özümü birtəhər saxladım. Bir söz demədim.

O, jurnalı əsəbi-əsəbi açdı. Necə oldusa üzünü qızlara sarı tutub amiranə bir şəkildə dedi:

– Az, bir qələm verin jurnalı yazım.

Gülüşdük. Elə bil ürəyimizdən tikan çıxdı. Bu gülüş müəllimə ən yaxşı cavab idi.

Müəllim bizi güclə sakitləşdirdi və üstümüzə bağırdı. Qışqıra-qışqıra ağzına gələni dedi. Sonra lovğa-lovğa əlavə etdi:

– Kimin mənim dərsimdən xoşu gəlmirsə, rədd olsun bayıra!

Elə bil uşaqlar himə bənd idilər. Hamı bir nəfər kimi ayağa qalxdı. Sinifdən çölə çıxdıq. Qəribə bir mənzərə yarandı. Bizdən belə hərəkət gözləməyən müəllim duruxdu, sifəti qapqara qaraldı. O, içəridə təkcə qaldı. Biz isə dəhlizə yığışdıq. Hamımız gülməkdən ölürdük. Elə bərkdən gülürdük ki, bu gülüşün sədası ildırım sürəti ilə bütün məktəbə yayıldı. Müəllimlər də öz həmkarlarının halına acıyıb, ona güldülər. Əlbəttə, bizim yanımızda yox.

O gündən sonra bir də o lovğa müəllimin üzünü görmədik.

**1990**

## QƏND HAQQINDA MƏSƏLƏ

Uşaqlar şirin çaya yamanca dadanmışdılar. Bunu hiss edən ata oğlanlarını yanına çağırıb dedi:

– Gəlin sizə bir məsələ verim. Görək onu kim tez həll eləyəcək?

Oğlanlar razılaşdılar. Ata məsələnin şərtini söylədi:

– Evdə beş nəfər var. Hər adamın stəkanına dörd qənddən hesablasaq, səhər-səhər cəmi neçə qənddən istifadə etmiş oluruq?

Uşaqlar qələm-kağız götürüb işə girişdilər. Elşən isə dedi:

– Bunu hesablamağa nə var ki! Dördü beşə vuranda iyirmi eləyir.

Sərxan onun sözünü kəsdi:

– Düz deyil. Biz səhər-səhər iyirmi yox, cəmi iyirmi iki qənddən istifadə edirik.

Ata soruşdu:

– Bu necə olur axı?

Sərxan gülə-gülə cavab verdi:

– Ona görə ki, Elşən stəkana hər səhər bizim kimi dörd yox, altı qənd salır.

Ata güldü. Elşən isə qıpqırmızı qızardı.

**1990**

## AYSELİN ŞƏKLİ

Anası Ayselin tellərini daradı, saçlarını hördü, ucuna qəşəng bantlar bağladı. Bant nə bant. Hərəsi bir zərli kəpənək kimi qonmuşdu Ayselin saçına.

Aysel güzgü qabağına keçdi. Özündən razı-razı gülümsündü. Güllü donu, zərli bantları, qırmızı çəkmələri ona çox qəşəng yaraşırdı.

Bu gün Ayselin dörd yaşı tamam olurdu. Bu münasibətlə atası onun şəklini çəkdirməyə söz vermişdi. Özü də rəngli şəklini. Əynində nə vardısa eləcə, öz rəngində düşməliydi. Ayselin dörd yaşından yadigar qalmalıydı.

Maşına minib, şəkil çəkdirməyə getdilər. Fotoqraf əmi Ayselin saçını tumarlamaq istəyəndə, o, başını qaçırtdı. Qorxdu ki, saçları dağıla, bantları əzilə. Ata da, fotoqraf da bir-birinə baxıb gülümsündülər.

Fotoqraf Ayselin şəklini çəkdi. Söz verdi ki, üç gündən sonra şəkillər hazır olacaq.

Üç gün Aysela üç ildən uzun göründü. Xəyalən öz şəkliylə danışdı, söhbət elədi. Səhər-axşam elə hey soruşdu:

– Bəs mənim şəklim hanı?

Nəhayət, ata şəkilləri alıb gətirdi. Aysel elə qəşəng düşmüşdü ki… Onun qapqara saçları da, zərli bantları da, əynindəki güllü don da necə var, eləcə çıxmışdı.

Aysel öz şəklinə baxmaqdan doymurdu. Bacısı Günel şəkillərdən birini götürdü. Aysel özündən çıxdı:

– Ver mənim şəklimi.

Günel onu dilə tutdu:

– Aysel, şəklini götürürəm ki, alboma, şəkillərin arasına qoyam.

Aysel yenə razı olmadı. Ağlamağa başladı. Soruşanda ki, niyə ağlayırsan, hıçqıra-hıçqıra dedi:

– Günel şəklimi alboma qoydu.

– Lap yaxşı. Şəkil albomda olar da!

– Yox, mən istəmirəm. Birdən mənim şəklim o biri şəkillərlə qarışıq düşər.

Hamı güldü. Ayselsə albomu vərəqləyib, öz şəklini axtarmağa başladı…

**1989**

## İKİ QAPILI YUVA

Uşaqlar Çardaxlı düzünə böyürtkən yığmağa getmişdilər. Zəmi ilə pöhrəliyin arasındakı kolların üstü meyvə ilə dolu idi. Dənəş-dənəş böyürtkənlər qapqara qaralmışdı. Elə bil ki, bu qara giləmeyvələr kolun gözlərinin giləsi idi, qara giləsi.

Hərənin başı özünə qarışmışdı. Aqşin uşaqlardan ayrılıb, kolların arasıyla gedən balaca cığıra düşdü. Fikirləşdi ki, yəqin qabaqda daha çox böyürtkən olar.

Birdən onun gözləri torpaqdakı dərin dəliyə sataşdı. Əvvəlcə qorxdu. Fikirləşdi ki, bəlkə bu ilan yuvasıdır. Sonra öz-özünə toxtaqlıq verdi:

– Heç bu boyda ilan yuvası olar?

O, cığırla geriyə qaçıb həyəcanla dostlarını səslədi:

– Ay uşaqlar, bura gəlin, bura gəlin!

Uşaqlar gəldilər. Aqşin gördüyü deşiyi onlara göstərdi.

Samir dedi:

– Yəqin ki, ilan yuvasıdı.

Yusif onun sözünə düzəliş verdi:

– İlan yox, əjdaha yuvası. Heç bu yoğunluqda ilan olar?

Tural şəhərdən gələn əmisi uşaqlarının sözlərinə o ki var güldü. Başa saldı ki, bu, tülkü yuvasıdır.

O, xeyli çırpı yığdı. Tülkü yuvasının ağzında ocaq qaladı ki, tüstü yuvaya dolsun.

Aqşin qışqırdı:

– Burda da bir deşik var.

Elə bu zaman onun göstərdiyi deşikdən bir tülkü çıxıb pöhrəliyə sarı qaçdı. Uşaqlar çığırışdılar.

Bir azdan tülkü çıxan deşikdən tüstü çıxmağa başladı. Sən demə yuvanın iki qapısı varmış. Bu qapıdan tüstü gəldiyini görən tülkü o biri qapıdan çıxıb qaçıbmış.

**1989**

## MƏRC

Yuxudan təzəcə durmuşdum. Pəncərədən apaydın səmaya baxanda göyə millənən, arxasında ağ iz qoyub uçan təyyarəni gördüm. Təyyarə uzaqda olduğundan elə balaca görünürdü ki, lap tabaşir boyda. Elə bil sehrli bir əl mavi yazı taxtasında həmin tabaşirlə ağ bir xətt çəkirdi.

Oğlumu səslədim:

– Gursel, təyyarəyə bax.

O, maraqla göyə baxdı və gülümsündü:

– Yox, ata, o, təyyarə deyil, raketdi.

– Yox, təyyarədi.

– Gəl mərc gələk.

– Yaxşı, nə deyirəm. Ancaq hesab elə ki, sən uduzmusan.

– Yox, ata, bunu hələ axşam biləcəyik. Əgər televizorda desələr ki, bu gün kosmonavtlar göyə uçub, deməli, mən səhv eləməmişəm. Əgər bir söz deməsələr, onda sən deyən doğrudur.

Uşaqlar, ata ilə oğul səbirsizliklə axşamı gözləməkdə olsunlar, indi siz deyin görüm mərcdə kim uduzacaq?

## ATA İLƏ BALACA GURSELİN SÖHBƏTİ

– Qoyunu kim kəsdi?
– Sən.
– Kim soydu?
– Sən.
– Kim doğradı?
– Sən.
– Kim duzladı?
– Sən.
– Kim şişə çəkdi?
– Sən.
– Kim bişirdi?
– Sən.
– Kim yedi?
– Mən.

## HƏFTƏNIN ALTINCI GÜNÜ

Həftənin altıncı günü ata ilə ana işə, Gülzarla Gündüz isə məktəbə getmişdilər. Çarəsizlikdən altı yaşlı Gurseli evdə tək qoymuşdular.

Gursel əvvəlcə bir az oynadı. Stulları yan-yana düzüb, özünə səngər düzəltdi. Oyuncaq tüfənglərini, tapançalarını qapıya sarı tuşladı. Aradan xeyli keçdi. Oğlan darıxdı.

Nəhayət, yatmaq istədi. Soyunub yerinə girdi. Lakin qorxudan gözünə yuxu getmədi.

Gursel durub balkona çıxmaq, orada ağlamaq istədi ki, bəlkə onun səsini qonşular eşidib gələlər. Lakin nə qədər çalışdısa, qapını aça bilmədi. Çəkici götürüb balkon qapısının şüşəsinə çırpdı. Şüşə çilik-çilik olub yerə səpələndi. Gurselin qolu da, üzü də yaralandı. Lakin o, buna əhəmiyyət vermədi. Ayağının altına stul qoyub pəncərəyə qalxdı.

Elə bu zaman qapıya açar saldılar. Gursel səsini kəsdi. Elə bildi ki, gələn oğrulardır. Tez balkona tullanıb orada gizlənmək istəyirdi ki, ana qapını açıb içəri girdi.

Ana da Gurselə qoşulub ağladı. Sonra onun yaralarına dərman qoyub tənziflə sarıdı.

Axşamüstü Gursel dostları ilə oynamaq üçün həyətə düşdü. Uşaqlar ondan soruşdular:

– Gursel, qoluna nə olub?

Oğlan belə cavab verdi:

– Döyüşdə yaralanmışam…

**1984**

## "QUBAJA"

Samirin ilanboğan vaxtı idi. Hara gəldi özünü soxur, imkan düşən kimi evdəki əşyaları söküb-töküşdürürdü. O, heç nədən qorxmur, heç kimdən çəkinmirdi. Lazım olmayan şeyə toxunanda atası-anası onun əlinin üstündən vurur, bununla başa salmaq istəyirdilər ki, bax, bu şeyə əl vurmaq olmaz. Ancaq bu tənbehlərin heç bir xeyiri olmurdu.

Bir dəfə Samirin anası dənəvər kofeni üyütmək istədi. O, kofedöyən elektrik maşınını işə saldı. Samir ilk dəfə gördüyü maşının uğultusundan, qıjıltısından bərk qorxdu və ağladı. Anası maşını götürüb gizlətdi və oğlunu sakitləşdirməyə çalışdı.

Aradan bir neçə gün keçdi. Bir gün anasının başı qarışanda Samir yenə də evi ələk-vələk eləməyə başladı. Şkafın qapısını açanda kofedöyən maşını gördü. O, bərk qorxdu. Öz-özünə toxtaqlıq verməyə başladı:

– Samsam, qorxma, qubajadı…

Anası mətbəxdən onun səsinə gəldi. Samir onu görüb ürəkləndi və ağladı.

O gündən sonra Samir şkafın qapısını açmadı. Çünki o, şkafdakı kofedöyən maşından bərk qorxurdu. Samir əlini bir yerə uzadanda deyirdilər:

– Əl vurma, onun içində "qubaja" var…

**1990**

## İNTİQAM

Axşam toranı düşdü. İnəyimiz hələ örüşdən gəlməmişdi. Tut ağacına bağlanmış təpəl buzov yazıq-yazıq mələyirdi.

Anam narahat-narahat həyətdə fırlanır, öz-özünə deyinirdi:

– Bəs bu inək harada qaldı?

Kəndin qaranlıq küçələri ilə naxırçı Bilalın evinə sarı yollandım.

– Ay Bilal dayı, ay Bilal dayı!

– Nə var, a bala, kimdi məni çağıran?

– Mənəm, Səkinə arvadın oğlu Eyvazam.

– A bala, bu gecə vaxtı xeyirdimi?

– Bilal dayı, inəyimiz gəlib çıxmayıb. Naxırı hansı tərəfə aparmışdın?

– Balalı inək kövşəndə qalmaz, a bala, harda olsa, qayıdıb gələcək. Bir də gecənin bu qaranlığında inəkmi tapmaq olar?

– Dilim qurusun, ay dayı, qorxuram ki, qurda-quşa tuş gələ.

– Get Əhməd kişiyə bir qurdağzı bağlatdır, rahatca yıxıl yat. Canavar tükünə də dəyməz sizin inəyin.

Əhməd kişinin evi yuxarı məhəllədə idi. İtlərdən qorunmaq üçün çəpərdən bir şax çəkib onlara getdim. Sərfinaz xala məni mehribanlıqla qarşıladı. Döşəkçəni peçin yanındakı kötüyün üstünə atıb: otur, oğlum, – dedi. – Nə əcəb səndən bu gecə vaxtı?

– İnəyimiz kövşəndən qayıtmayıb. Gəldim ki, Əhməd əmi bir qurdağzı bağlasın.

– Əhməd əmin tövlədə inəkləri rahatlayır, indicə gələr. O gəlincə bir kəkotu çayı iç, canın qızsın.

Bu vaxt qapıda Əhməd kişinin öskürək səsi eşidildi. O, otağa girib, ətrafa göz gəzdirdi. Məni görcək irəli gəlib, kösöv kimi qara, qabarlı əlləri ilə əlimi sıxdı və xoş gəlmisən, a bala, – dedi. – Xeyir ola bu gecə vaxtı?
Gəlişimin məqsədini bildikdə o, məndən soruşdu:

– Bıçağın varmı?

Sualın mənasını başa düşə bilmədim.

– Nə bıçaq, Əhməd əmi?

– A pir olmuş, cib bıçağı.

– Var. O, Sizin nəyinizə lazımdı axı?

– Necə yəni nəyimə lazımdı, bəs qurdağzını necə bağlayım?

O, məndən bıçağı alıb tiyəsini açdı və mənasını bilmədiyim aşağıdakı sözləri üç dəfə təkrar etdi: “Fədəm dəmə, əlehim, rəbbühüm, büzəmbühüm və sabaha vəla yaxafu uqubaha.”

Sonra bıçağın tiyəsini üfürüb onu bağladı və mənə bərk-bərk tapşırdı ki, inək tapılmayınca, bıçağın ağzını açmayım.

Evə dönüb, bütün bunları anama danışdım. Elə bil arvad bir az toxdadı.

Yerimə girsəm də, yuxum gəlmirdi. Elə hey inək haqqında fikirləşirdim. Buzovun səsi qulağımda əks-səda verirdi.

Obaşdan anam məni yuxudan oyatdı:

– A bala, nə yatmısan, inəyimiz gəlib çıxmadı axı?

Tez durub əl-üzümü yudum. Bir stəkan çay içdim. Tüfəngi götürüb, inəyi axtarmağa getdim. O dərə sənin, bu təpə mənim. Gəzmədiyim yer qalmadı. Birdən Sarı yoxuşun ayağındakı dərənin üstündə uçuşan quzğunlara gözüm sataşdı. Qocalardan eşitmişdim ki, quzğun həmişə leş üstündə hərlənir.

Yavaş-yavaş dərə aşağı enməyə başladım. Birdən nə gördüm. Canavar qızıl inəyimizi parçalamışdı.

Gözlərim doldu. Yazıq-yazıq mələyən buzovumuzun səsi gəldi qulaqlarıma. Anamın kədərli çöhrəsi canlandı gözlərim önündə.

Üzünü görmədiyim canavarın, naxırçı Bilalın və bir də Əhməd kişinin qarasına deyindim. Mənə elə gəldi ki, buzovun yetim qalmasında bunlar üçü də eyni dərəcədə günahkardır.

Əvvəlcə nə edəcəyimi bilmədim. Peşman-peşman kəndə tərəf qayıtdım. Birdən ağlıma gəldi ki, leşin yanında gizlənib, canavarı gözləyim.

Tüfəngi götürüb, yenidən geri qayıtdım. Kolluğa girib yerimi rahatladım.

Hava yavaş-yavaş qaralır, hər kol, hər daş bir canavara, ayıya bənzəyirdi. Birdən yekə bir canavarın leşə yaxınlaşdığını gördüm. Ürəyim döyünməyə, əllərim əsməyə başladı. Özümü toplayıb, canavarı nişan aldım. Atəş açılanda vəhşi yay kimi dartılıb yerə yıxıldı.

Yaxına gəldim. Tüfəngi daşa söykəyib cibimdən bıçağı çıxartdım. Canavarın dərisini soymaq istəyəndə, dal ayaqları ilə məni vurdu. Sən demə can verən canavar son gücünü toplayıb gərnəşirmiş.

Yerə yıxıldım. Daha sonra nə olduğunu xatırlamıram.

Gecənin bir aləmi özümə gəldim. Dərə mənə elə vahiməli göründü ki, elə bil dəhşətli yuxu görürdüm.

Handan-hana yerə sərilmiş canavarı, daşa söykəli tüfəngi gördüm. "İlan vuran ala çatıdan qorxar", – deyirlər. Hər ehtimala qarşı canavarın başına bir güllə də vurdum. O, heç tərpənmədi də.

Bıçağı tapıb canavarı soydum. Dərisini çiynimə atıb yavaş-yavaş kəndə yollandım. Öz-özümə düşündüm:

– Məni yetim qoyanlara – azğın düşmənlərə əlim çatmadı, qızıl inəyimizin intiqamını isə ala bildim.

## AYI VƏ ONUN BALALARI

Kəndimizin yaxınlığındakı meşədə bir ayı yaşayırdı. Onun qorxusundan heç kəs meşəyə gedə bilmirdi.

Bir dəfə qoşalüləni götürüb həmin ayını ovlamaq məqsədilə meşəyə sarı getdim. Meşənin yaxınlığındakı talada bir armud ağacı var idi. Onun yaxınlığındakı iri bir palıdın koğuşunda gizlənib ayını gözləməyə başladım. Çünki eşitmişdim ki, ayı tez-tez buradakı armud ağacının yanına gəlir.

Aradan xeyli keçdi. Bir də gördüm ki, ayı, yanında da iki potası mənə sarı gəlir. Qorxudan cınqırımı da çıxarmadım.

Ayı donquldana-donquldana armud ağacına çıxıb ağacı silkələməyə başladı. Potalar yerə düşən armudları elə acgözlüklə yeyirdilər ki, ananın onlara bərk qəzəbi tutdu. Onun nə deyib demədiyini bilmirəm. Lakin mənə elə gəldi ki, ayı balalarına kənarda sakit dayanıb gözləməyi əmr etdi.

Anaların qəzəbli donqultusundan qorxan balalar bir müddət kənarda dayanıb yerə tökülən armudlara baxdılar. Lakin onlardan biri tamahını saxlaya bilməyib, yenidən acgözlüklə armudları yeməyə başladı.

Ayı donquldana-donquldana ağacdan düşdü. Yerdə bir dənə də olsun armud qalmamışdı. Ayı balasına bir pəncə ilişdirdi. Sonra acgöz, anaya pay saxlamayan potanı yerə

yıxıb, boynunun üstünə yekə bir ağac yıxdı. Yalnız balasının buradan çıxa bilməyəcəyinə əmin olandan sonra armuda çıxıb silkələməyə başladı. Qardaşının cəzalandığını görən o biri pota sakitcə kənarda durub baxırdı.

Ayı bütün budaqları silkələyəndən sonra ağacdan düşüb balasının yanına getdi. Ağır ağacı onun boynunun üstündən götürdü, lakin pota ayağa qalxmadı ki, qalxmadı. Sən demə tirin ağırlığına tab gətirməyən pota ölübmüş.

Ayı fəğan qopardı, gözlərindən gildir-gildir yaş axıtdı. Lakin haray haraya çatası idi. O, ölmüş potanı qoltuğuna vurub getmək istəyəndə mən çaxmaqları çəkib ayını nişan aldım. Ayı çaxmağın səsinə səksəndi, dəhşətlə dönüb koğuşdan çölə uzanmış lüləyə baxdı. Onun gözlərində bir qorxu, yalvarış gördüm. Ayı işarə ilə ölmüş balasını göstərdi. Elə bil demək istəyirdi ki, daha mənə olan olub, ey ovçu, bala dağı görmüş biçarə anaya rəhmin gəlsin.

İstər-istəməz əllərim əsdi, gözlərim yaşardı. Hər şeyi, ayıya bəslədiyim nifrəti də unutdum. Mən xəyaldan ayılanda ayı artıq meşəyə girib gözdən itmişdi…

**1984**

## ÜÇÜNCÜ QARANQUŞ

Mətbəx pəncərəmizin çöl tərəfində qaranquşlar hərlənməyə başladılar. Mən bunu atama dedim. O, gəlib quşlara baxdı və üzünə təbəssüm qondu. Gülümsünüb dedi:

– Hə, belə-belə işlər. Qaranquşlar deyirlər ki, sizin pəncərənizin qabağında yuva qurmaq istəyirik. Nə deyirsən, icazə verək?

– Əlbəttə, verək!

– Söz verməklə iş bitmir. Onlar deyirlər ki, əgər oğlun yuvaya çubuq uzadacaqsa, gedib başqa yerdə özümüzə yuva quraq.

Mən bərk-bərk söz verdim ki, yuvaya toxunmayacaq, ancaq kənardan quşları müşahidə edəcəyəm. Razılaşdıq.

Bir-iki gün keçdi. Atam mənə palçıq yaxılmış divarı göstərdi. Əvvəlcə bir şey başa düşə bilmədim. Sonradan öyrəndim ki, qaranquşlar yuvanı palçıqla hörürlər.

O gündən quşları müşahidə etməyə başladım. İki qaranquş növbə ilə harasa uçub gedir, dimdiklərində palçıq geri qayıdır, ciddi səylə özlərinə yuva qururdular. Yuva dimdik-dimdik ucalır, boy atırdı.

Aradan bir neçə gün də keçdi. Demək olar ki, yuva hazır idi. Təkcə küncdə balaca bir deşik qoyulmuşdu. Çöl tərəfdən baxanda bu, görünmürdü. Pəncərədən baxanda isə hər şey göz önündə canlanırdı.

Öz-özümə fikirləşdim ki, yəqin yuvanın içi qaranlıqdır. Axşam lampalarımızı yandıranda fikirləşdim ki, bizim mətbəxin nuru balaca quşların yuvasının içini də işıqlandırır. Quşların qoyduqları deşik onlar üçün həm qapı, həm də pəncərə idi.

Bir dəfə yuvanın yanında üçüncü qaranquş gözümə dəydi. O da yuvaya girmək istəyir, o birilər isə "hazıra nazir olmaq" istəyən quşu qovmağa çalışırdılar. Pəncərəmizin ağzında bir çığırtı qopurdu ki, gəl görəsən. Heyf ki, quşların dilini bilmir, onların boğazlarını yırta-yırta nə dediklərini anlamırdım. Ancaq didişməyə maraqla tamaşa edirdim.

Qaranquşların üçü də bir boyda, bir buxunda idi. Hansının haqlı, hansının haqsız olduğunu müəyyənləşdirmək də çətin idi. Hərdən elə olurdu ki, qaranquşların üçü də yuvaya girirdi. İçəridə bir civilti qopurdu ki, gəl görəsən.

Bir gün səhər-səhər pəncərədən baxanda gözlərimə inanmadım. Yuvanın yarısı uçub yerə tökülmüşdü.

Mən qaçıb əhvalatı atama söylədim. O, gəlib uçan yuvaya baxdı və qanı bərk qaraldı. Mənim də ürəyimi vahimə bürüdü. Qorxdum ki, atam bütün günahları məndə görə. Ancaq o, insaflı tərpəndi. Dedi ki, sənin burada heç bir günahın yoxdur. Yuvanı dağıdan üçüncü qaranquş oldu…

Mən susdum. Atamın sözlərinin mənasını deyəsən anlamağa başladım. Ürəyimdə üçüncü qaranquşa nifrət hissi baş qaldırdı.

## YEKƏ SARI BALIQ

Tural həvəslə arxın qırağını qazdı, bir qutu soxulcan yığdı. Qarmağı götürüb, əmisiylə birlikdə çaya yollandı.

Hava isti olduğundan, sərin su adama ləzzət eləyirdi. Əmisi balıq tutur, Tural isə suyu şapbıldada-şapbıldada çimirdi.

İki balaca balıq tutmuşdular. Üçüncü balıq qarmağa düşmürdü ki, düşmürdü. Tural suyu şapbıldatdığı üçün balıqlar qaçırdılar. Əmisi nə qədər acıqlansa da, xeyiri olmurdu. Elə qarmağın yan-yörəsində çimir, suyu ətrafa çiləyirdi.

Birdən qarmağa yekə bir "balıq" düşdü. Tural qışqırdı, əmisi bərk həyəcanlandı. Qarmaqlardan biri sözə baxmayan dəcəlin barmağına ilişmişdi.

Əmisi çox çalışdı, qarmağı bir təhər Turalın barmağından çıxara bildi. Qan axır, uşaq isə ağlayırdı.

Onlar evə qayıtdılar. Anası Turalın barmağını sarıyırdı. Evdəkilər hamısı bir yerə toplaşmışdılar. Birdən əmisi zarafatla dedi:

– Hələ indiyə kimi bu yekəlikdə balıq tutduğum olmamışdı. Yepyekə, sarışın balıq.

Evdəkilər xırda balıqlara baxıb təəccübləndilər:

– Hanı bəs yekə sarı balıq?

Əmisi gülə-gülə Turalı göstərdi. Hamı güldü. Tural da ağlamağını kəsib, onlara qoşuldu.

**1989**

**ZƏR**

Yəqin ki, tanıyırsınız, mən zərəm. Onu da bilirsiniz ki, zər – qızıl deməkdir. Ancaq mən qızıldan yox, sümükdənəm. Oyunçuya lazım olan üzüm düşəndə isə qızıldan da qiymətli oluram.

Mənim altı üzüm var: yek (bir), du (iki), sə (üç), çahar (dörd), pənc (beş), şeş (altı).

Mən boyda, mən buxunda bir ekiz qardaşım da var. İkimizi də birdən nərdtaxtanın içinə atırlar. Çox vaxt qardaşımla mənim sözüm düz gəlmir. Mənim birinci üzüm düşəndə, onun altıncı, onun dördüncü üzü düşəndə, mənim beşinci və s. üzüm düşür. Ancaq elə ki, qoşalaşırıq, iki oyunçudan birinin üzü gülür, o birininsə qaş-qabağı tökülür. Xüsusən, altıncı üzümüz qoşalaşanda.

Bir sözlə, bizim sözümüz qanundu. Oyunçular bizim çaldığımız havanı oynamalıdırlar. Elə buna görə də çox vaxt belə deyirlər: hökmü zər. Yəni zərin hökmü…

Nə isə. Deyəsən özümdən çox danışdım. Məqsədimsə heç də bu deyildi.

Böyüklər bizi həmişə uşaqlardan qoruyurlar. Uşaqlar isə…

Bir dəfə ata ilə ana evdən harasa getdilər. Evdə qalan uşaqlar əvvəlcə nərtaxtanın o yanına, bu yanına keçdilər. Əllərinə yaxşı fürsət düşmüşdü. Kiçik qardaş dedi:

– Gəl nərd oynayaq.

Böyük tərəddüdlə:

– Əgər atam bilsə, bizi danlayacaq, – dedi.

– Eh, ata hardan biləcək?

– Birdən zər itsə?

– İtməz, niyə itir ki?!

Onlar nərtaxtanı açdılar. Daşları düzüb, növbə ilə bizi atdılar. Dübarə, pənc çahar, sə bir, yeklər, cüt sə, çahar

yek… O qədər atdılar ki, başımız lap gicəlləndi. Özü də ən çox onların səs-küyündən.

Böyük qardaş uduzdu. O, hirslə bizi qoşalayıb atdı. Dünya başımıza fırlandı. Uçub döşəmənin kiçik yarığına düşdüm. Fikirləşdim: daha mənim işim bitdi.

Döşəmənin altında lap ürəyim sıxılırdı. Uşaqların məni çıxara biləcəklərinə zərrə qədər inamım yox idi. Çünki balaca deşiyə nəinki əl, heç iki barmaq da yerləşməzdi. Bir barmaqla da zər çıxarmaq olar? Elə bir balaca məni tərpətsələr, aşıb daha dərinə düşəcəkdim. Suda boğulan saman çöpündən yapışan kimi, deşikdən süzülən işıqdan tutub çölə çıxmaq istəyirdim.

Qardaşlar mübahisə etməyə başladılar. O dedi sən elədin, bu dedi sən elədin. Ancaq heç bu söhbətin yeri deyildi. Fikirləşib məni çıxarmaq lazım idi.

Böyük qardaş istədi ki, mənə çöp uzatsın. Yaxşı ki, balaca qoymadı.

– Tərpədən kimi, aşıb aşağı düşəcək.

– Bəs neyləyək?!

– Bir şey fikirləşmək lazımdır.

Onlar fikirləşməkdə olsunlar, mənim bağrım partlamaqda. Uzaqda siçan səsi eşidəndə ürəyimi lap qorxu bürüdü. Birdən məni yuvasına aparsa?! İraq olsun, ömrüm boyu əkiz qardaşımın, nərtaxtanın üzünə həsrət qalardım. Bundan da böyük müsibət olar?!

Birdən kiçik qardaşın həyəcanlı, sevinc dolu səsini eşitdim:

– Tapdım…

– Nəyi tapdın?

– Qaqaş, sən yapışqan gətir, qalanı ilə işin olmasın.

Doğrusu, bir şey başa düşə bilmədim. Ancaq ürəyimi ümid işığı doldurdu.

Balaca qardaş barmağının birini yapışqanın içinə soxdu. Sonra onu yapışqanın içindən çıxarıb mənə sarı uzatdı,

üzümə söykədi. Yapışqanın vərdiş etmədiyim qoxusu başımı lap gicəlləndirdi. Az qala asqırmışdım. Ancaq özümü bir təhər saxlaya bildim. Dözməkdən başqa çarə qalmırdı.

Yapışqan yavaş-yavaş qurumağa başladıqca, hiss elədim ki, oğlanın barmağına yapışıram. Birdən oğlan barmağını çəkdi. Mən də onun barmağının ucunda yuxarı – döşəmənin üstünə qalxdım. İşıqdan gözlərim qamaşdı. Uşaqların üzü də nurlanmışdı. Onlar sevinirdilər. Xoşbəxtlikdən, hər şey yaxşı qurtardı.

Məni yudular, təmizlədilər, sonra nərtaxtanın içinə, əkiz qardaşımın yanına qoydular. Elə sevinirdim ki, elə bil uzun illərin ayrılığından sonra qürbətdən vətənə qayıtmışdım…

**1989**

## İYNƏ

Gursel xəstələnmişdi. Anası ona iynə vurmaq qərarına gəldi. Oğlunun başını sığallayıb dedi:

– Ana qurban, iynə vurum ki, tez sağalasan. Yaxşımı?

Gursel başıyla razılıq verdi. Ana şprisə dərman yığdı. Ucundakı yoğun iynəni naziklə əvəz elədi və Gurselə müraciətlə dedi:

– Qaqaş, üzü üstə uzan.

Gurseldən səs çıxmadı. Ana təəccübləndi. Çarpayı bombоş idi.

Evi nə qədər axtardılarsa, Gursel tapılmadı ki, tapılmadı. Şifonerin içindən tutmuş çarpayının altına, qapıların dalına qədər hər yeri axtardıq. Elə bil Gursel heç evdə yox imiş.

Bərk narahat olduq. Ağlımıza yüz cür fikir gəldi. Ora-bura vurnuxmağa, onu çağırmağa başladıq. Ana özünü saxlaya bilməyib hönkür-hönkür ağladı. Hıçqıra-hıçqıra dedi:

– Kaş ona iynə vurmaq fikrinə düşməyəydim.

Elə bu zaman Gurselin səsi gəldi:

– And iç ki, mənə iynə vurmayacaqsan, çıxım.

Səs divanla kreslonun arasından gəlirdi. Gursel həmişə dərsdən gələndə çantasını bura qoyardı. Əyilib baxdım. Sumka yenə yerində idi. Onu götürəndə gördük ki, Gursel kirpi kimi büzüşüb divara qısılıb. Onu dartıb çıxartdıq. Zorla yatağa saldıq. Ana isə öz fikrindən daşındı. İynəni həblərlə əvəz etdi.

**1989**

## MAŞININ PALTARLARI

Əmisi kəndə gələndə ən çox sevinənlərdən biri Yusif oldu. Maşının o yanına, bu yanına keçdi. Təptəzə "Jiquli"də gəzməkdən ləzzətli nə ola bilərdi?

Ancaq əmisi bərk yorğun idi. Uzaq yol gəlmişdi. Uşaqları gəzdirməyə qətiyyən həvəsi yox idi. O, çadırı çıxarıb, maşının üstünə çəkdi.

Yusif bic-bic güldü və dedi:

– Əmi, maşının paltarını geyindirdin ki, gecə üşüməsin?

Əmisi gülümsündü:

– Hə, qaqaş, düz tapmısan. Maşın bu gün bərk yorulub. Qoy yatıb dincəlsin. Sabah hava isinəndə paltarını əynindən çıxararıq. O da həvəslə bizi gəzməyə aparar.

**1989**

## TABAŞİR

Müəllim lövhəyə cümlə yazırdı. Tabaşir lap kiçildi. O, uşaqlardan soruşdu:

– Kimdə tabaşir var?

Heç kəs dinmədi. Birdən Mahir dilləndi:

– Müəllim, Samirin əlində bir uzun tabaşir gördüm.

Samir:

– Hanı? – deyə əllərini göstərəndə uşaqlar gülüşdülər. Sən demə, Mahir Samirin ağ tənziflə sarınmış barmağını görübmüş…

**1982**

# AD GÜNÜ

Balaca Gültəkin evə çox dilxor qayıtmışdı. Qaş-qabağı yerlə gedirdi. Bunu görən anası narahat oldu, qızını sorğu-suala tutdu:

– Ana qurban, niyə kefin yoxdu?

Qızdan səs çıxmadı. Özünü elə göstərdi ki, guya heç nə eşitmədi.

Ananın narahatçılığı artdı. Birdən ağlına gəldi ki, qızı bəlkə dərsdən "2" alıb? Heç nə soruşmadan onun çantasını açdı, gündəlikdəki "5"- i görəndə üzünə təbəssüm qondu. Qızını təriflədi, onu öpmək istəyəndə Gültəkin üzünü qaçırtdı.

– Gülü, bəlkə xəstələnmisən?

Qız başını buladı.

– Bəs onda sənə nə olub, niyə belə qaş-qabaqlısan?

Qız birdən ağlamsınaraq dedi:

– Bütün günahlar səndədi.

Ana təəccübləndi:

– Mənim günahım nədi axı?

– Bundan böyük günah olar, niyə məni yayda doğmusan?

Ananın acığı tutdu:

– Ayıb olsun sənə, bu nə sualdı mənə verirsən?

– Məktəbdə hamının ad gününü keçirirlər, mənim isə ad günüm yaya qalıb.

Ananı gülmək tutdu. Əvvəlcə nə edəcəyini bilmədi. Sonra ağlına qəribə bir fikir gəldi:

Nə olsun ki, sən tətil vaxtı doğulmusan. Bir tort bişirib apararam məktəbə, sənin də ad gününü qeyd edərlər.

Ana dediyi kimi də etdi. Uşaqlar Gültəkinin anasının bişirdiyi dadlı tortdan yeyə-yeyə dostlarını təbrik etdilər, ona hədiyyələr verdilər…

Balaca Gültəkin bərk sevinirdi. Onun uçmağa bircə qanadı yox idi…

**17 mart 2001**

## BALACA SEVİL

Balaca Sevil əmisi Anarla evdə tək qalmışdı. Anarın başı qarışanda Sevil stolun üstündəki dərmanları götürdü. Anar bunu görüb acıqlandı, dərmanları aparıb o biri otağa qoydu.

Aradan bir az keçdi. Televizora baxan Anar bir də baxıb gördü ki, Sevil yanında yoxdur. Tez o biri otağa keçdi. Gördü ki, Sevil yenə dərmanları götürüb.

Əmisini görən Sevil qorxdu. Anar ona gözünü ağardanda Sevil dərmanları yerə qoyub, sağ əli ilə sol əlini döyməyə başladı:

- Ak! Ak!…

## ÖRTÜLƏN QAPI

Yayda Qusara istirahətə getmişdik. Dostum Rəşidin evində qalırdıq. Hər səhər yuxudan durub Qusar meşələrini gəzmək mənim ən sevimli əyləncəm idi. Səhər yeməyindən sonra isə ikinci mərtəbədə bizim üçün ayrılmış otağın bir küncünə çəkilər, yazı-pozu ilə məşğul olardım. Bir səhər təzəcə yazmağa başlamışdım ki, balaca Sevil yanıma gəldi. Qalxıb yanımda oturdu və maraqla mənim hərəkətlərimi izləməyə başladı. Birdən aşağı mərtəbədən anası Sevili çağırdı. Qız tez yerə düşüb qaçdı. Əvvəlcə elə bildim ki, anasının yanına gedir. Sonra gördüm ki, qızın fikri tamam başqadır. O, açıq qapını hirslə çırpıb örtdü və yenidən mənim yanıma qayıtdı. Mən güldüm. Sevil də mənə qoşuldu…

## PENDİR

Balaca Sevilin burnu tutulmuşdu. Nənəsi onun burnunun içinə yağ qoydu ki, açılsın. Bir az keçəndən sonra Sevil ağlamsına-ağlamsına dedi:

– Nənə, burnum açılmadı, indi də pendir gətir…

## SƏN DƏ KÜS

Gülzar Sevilin üstünə acıqlandı. Sevil ona dedi:

– Mən səndən küsdüm.

Gülzarın ona əhəmiyyət vermədiyini görən uşaq dilləndi:

– Mən səndən küsmüşəm, indi də sən məndən küs!

## BÖYÜK HƏRF

Bir uşaq o birindən soruşur:

– Bacı, adamların adı necə yazılır, böyüklə, kiçiklə?

O biri uşaq cavab verir:

– Burda çətin nə var ki, böyük adamların adını böyük hərflə yaz, kiçiçklərin adını kiçiklə.

## QƏND

Sevil qəndə dedi:

– Ay qənd, sən mənim çayımın içinə girib çimə bilərsənmi?

– Niyə çimmirəm, - qənd bu sözləri deyib, özünü stəkanın içinə atdı.

Sevil gülə-gülə əriyən qəndə dedi:

– Hə, indi hünərin varsa, stəkandan çıx görüm?

Qənd ona cavab verə bilmədi. Sevil isə şirin çayı ləzzətlə başına çəkdi…

**24. 07.2002. Qayikənd**

## ÇİRKLİ KAĞIZ

Sevil babaya kağız gətirdi ki, gəl bunun üstündə şəkil çəkək.

Kağız toz-torpağa bulaşmışdı. Baba dedi ki, bu kağız çirklidi, onun üstündə şəkil çəkmək olmaz.

Aradan bir az keçdi. Sevil yenə də əlində kağız babanın yanına qayıtdı.

– Baba, kağız çirkli deyil, bax, bax!...

Baba kağıza baxıb güldü. Sən demə Sevil çirkli kağızı yuyub, sonra babanın yanına gətiribmiş...

**24. 07.2002. Qayikənd**

## İKİ FINDIQ

Günel şəhərə gedən əmisinə iki fındıq verib dedi:

– Əmi, bunun birini Gündüzə verərsən, birini də Gurselə. Deyərsən ki, Günel yollayıb.

– Bəs Gülzarın payı hanı?

– Gülzar yekə qızdı, fındığı neyləyir?

**1984**

## QARPIZ

Ata işdən gələndə anaya dedi:

– İşdə qoltuğuma qarpız verdilər.

Bunu eşidən uşaq soruşdu:

– Ata, bəs qarpızı niyə bizə gətirmədin?

## TƏK QORXARSAN

Novruz bayramına az qalırdı. Ana rəfiqəsigildə qoğal, şəkərbura bişirirdi. Axşam idi. Ata oğluna dedi:

– Oğlum, sən evdə otur, mən gedib ananı xalagildən gətirim.

– Yox, ata, mən də gedirəm. Axı sən yolda tək qorxarsan?

## YUXUDA BAYRAM

Bir gün atası təzə kostyumunu geyib evdən çıxanda balaca Aynurə ondan soruşdu:

– Ata, hara gedirsən?

– Toya gedirəm, qızım.

– Ata, yenə yuxunda bayram görəcəksən?

– Nə bayram, mənim şeytan balam?

– Keçən dəfə toydan gələndə yatdın ha, bax onda yuxuda hey qışqırırdın:

– Ura! Ura!

## DONDURMA

Fərhad dondurmanı çox sevirdi. Günün hansı vaxtında istəsən, ləzzətli, dadlı, buz kimi soyuq dondurmadan imtina etməzdi. Valideynləri ona qadağalar qoymuşdular. Qorxurdular ki, uşaq xəstələnə, onun boğazı ağrıya.

Bir səhər anası Fərhadı yuxudan oyatmağa çalışdı. Nə qədər elədisə, onu oyada bilmədi. Birdən gülümsünərək dedi:

– Fərhad, dur get özünə bir dondurma al, gəl.

Dondurma sözünü eşidən Fərhad cəld ayağa qalxdı. Paltarını geyinib, əl-üzünü yudu. Anası ona pul verib dedi:

– Get özünə dondurma al, qayıdanda bir dənə də çörək alarsan…

Evdəkilərin hamısı gülüşdü. Fərhad bir az qızardı. Məsələnin nə yerdə olduğunu yalnız indi başa düşdü…

## TƏZƏ AYAQQABI

Balaca Ayselə təzə, təptəzə ayaqqabı almışdılar. O elə sevinir, elə sevinir, elə sevinirdi ki, az qalırdı qanad açıb uçsun. Adam axtarırdı ki, təzə ayaqqabılarını göstərib fərəhlənsin.

Elə bu zaman qapının zəngi çalındı. Ayselin babası gəlib çıxdı. Qızcığaz onun qarşısına qaçıb ayaqqabılarını göstərdi. Ayağını yuxarı qaldırıb dedi:

– Baba, aqqalarım təzədi, onu öp…

Hamı güldü. Baba öz nəvəsini bağrına basdı…

## ALLAHIN İŞİ

Qusara getmişdim. Hər yan bəmbəyaz qara bələnmişdi… Elvina ilə Sevil yolumu gözləyirdilər. Həyətə çatan kimi üstümə atıldılar. Görüşdük. Hal-xoşdan sonra evə girmək istəmədim. Qarlı meşə maqnit kimi məni özünə çəkirdi. Evə dəvət eləsələr də, etiraz elədim, dedim ki, əvvəlcə meşədə gəzim, sonra gələrəm.

Sevil dedi ki, baba, meşəyə getmə, qorxarsan. Gülümsünüb dedim ki, nədən qorxuram, Ceki də (iti) özümlə aparacam.

Elvina güldü:

– Baba, Ceki apara bilməyəcəksən. Çünki zəncirlə bağlıdı.

– Onda zənciri açaram.

– Açmaq istəsən, Cek səni dişləyəcək…

Bu münvalla xeyli zarafatlaşdıq. Həyət bərk soyuq idi. Hamı evə getdi. Mən isə üz tutdum meşəyə sarı. Qar ayağımın altında xırtıldadıqca elə bil dünyanın ən gözəl simfoniyasını dinləyirdim. Gözlərim qarlı düzlərə, dağlara baxdıqca, ürəyim ləzzət çəkirdi…

Bir xeyli gəzib evə qayıtdım. Çay içib qızışandan sonra Elvina gəlib qucağımda, özü də mənimlə üzbəüz əyləşdi. Diqqətlə üzümə baxdı, baxdı və sualı sual dalınca üstümə yağdırmağa başladı:

– Baba, sənin saçların niyə ağarıb?

…

– Baba, sənin gözlərinin altı niyə cızıqlıdı?

…

– Baba, sənin niyə çoxlu xalın var?

…

– Baba, sənin dodaqların niyə kökdü…

Axır ki, dilləndim:

– Elvina, niyə qışda qar yağır? Niyə qarın rəngi ağdır?

Qız gülümsünə-gülümsünə dedi:

– Baba, o Allahın işdi…

Mən də gülümsünüb ona cavab verdim ki, Elvina, mənim saçlarımın ağ, xalımın çox, dodaqlarımın kök olması da Allahın işdi…

Qız şaqqanaq çəkib güldü… Mən də ona qoşuldum…

**02.01.2006. Qusar**

## CEK

Baba Qusar meşələrində gəzməyi çox sevirdi. O, yenə Elvinagilə qonaq gəlmişdi. Həyətdəki balaca küçük – Cek tezliklə baba ilə dostlaşdı. Bir dəfə baba gəzməyə gedəndə onu da özü ilə apardı. Geri qayıdanda Elvina ağlamsına-ağlamsına dedi:

– Cek oğraşdı.

Gülə-gülə ondan soruşdular:

– Elvina, sən ki, Ceki çox istəyirdin. Niyə ona oğraş deyirsən?

– Ona görə ki, baba onu meşəyə gəzməyə aparır, məni yox…

## QULLUQÇU

Bir səhər yuxudan duranda Sevil dedi:

– Elnarə mama Vüqar papanın qulluqçusudu, Nəcabət nənə Rəşid babanın, Fəzilə nənə isə Rafiq babanın…

Elvina soruşdu:
– Sevil, bəs sən kimin qulluqçususan?
O dinməmiş Fəzilə nənə dedi:
– Hələ onu bilmək olmaz…
Sevil ciddi şəkildə dedi:
– Niyə bilmək olmur, bilirəm…
Hamı güldü. Kimsə soruşdu:
– Sevil, o kimdi elə?
– Qonşuluqda biri var da…

**18.08.2005. Qusar**

## BABANIN PORTRETİ

Rəssam Rafiq babanın şəklini çəkib ona bağışlamışdı. Onun bu şəklini çərçivəyə salıb divardan asmışdılar.

Babanın portreti baxanların hamısının xoşuna gəlirdi. Rəssam səhər-səhər günəşin dənizdən boylanmasını təsvir etmişdi. Günəş şəfəq saçır, ləpələr tərpəşir, quşlar isə dalğaların üstündə bəxtiyar-bəxtiyar uçuşurdular. Rafiq babanın portreti isə lap ortada idi, dənizin içində…

Şəklə diqqətlə baxan Sevil dedi:
– Baba, sən dənizin içindəsən?
– Bəli.
– Bəs onda niyə paltarlı, qalstuklusan?

Baba heyrətləndi. İlk dəfə görürmüş kimi rəssam Vəfa İbrahimqızının ona bağışladığı rəsmə diqqətlə baxdı. Doğrudan da, rəsmdəki babanın əynində kostyum, boynunda qalstuk var idi…

Baba Sevilin başını sığallayıb dedi ki, sənin iradlarını mütləq rəssama çatdıracam…

Sevilin başı oynamağa qarışdı. Baba isə sehrli bir düşüncələr dünyasına qərq olmuşdu…

**18.08.2005. Qusar**

## “XƏBƏRLƏR”

Rafiq baba televiziyada bədii filmə baxırdı. Sevil isə israrla deyirdi ki, kanalı dəyiş, cizgi filminə baxaq.

Baba onu dilə tutdu ki, Seva, gör nə qəşəng qızlar var…

Sevil dedi:

– Babalar qızlara baxmazlar.

– Bəs babalar nəyə baxarlar, Seva?

– Babalar "Xəbərlər"ə baxarlar…

## MƏKTƏB VƏ İMTAHAN

– Baba, o dünyada məktəb var?

– Məktəb olduğunu deyə bilmərəm, ancaq imtahan var. Bu dünyada öyrəndiklərini, o dünyada sorğu-sual eləyirlər.

## BALACALARIN SÖHBƏTLƏRİNDƏN

Sara:

– Fateh, gəl bantımı sənə verim, sən də əvəzində papağını mənə ver.

-Yox, bacı, kişi papağını heç nə ilə dəyişməz.

***

Hansı rəngi sevirsən?

– Ağ və qırmızını.

– Niyə?

– Çünki dondurma ağ, qarpız qırmızıdı.

# KİTABIN İÇİNDƏKİLƏR

## Davam edir ömür hələ

Tanrı sınağı....................................................................3
Allah bəndələri çəkir sınağa....................................................4
"Közərməyib kömür hələ".......................................................5
"İman işığı ilə"..........................................................................6
"Bu günün səhərindən"............................................................6
"Gör nə qəşəng qar yağır"........................................................6
Axtarırıq....................................................................................7
Mənim sevimli bənövşəm.........................................................7
"Xəstəyəm".................................................................................8
"Niyə gedə bilmirəm"...............................................................9
Göz və gözəllik.........................................................................9
Elə tənqidçi var ki...................................................................10
"Qaç məktəbdən, cavanım".....................................................11

## Günəş gülümsəyəndə

Günəş, sabahın xeyir..............................................................12
Zəfər günü...............................................................................13
Bayraqlı dağlarımız..................................................................13
Türkün qoşa bayrağı................................................................14
Biz Qorqudlar nəsliyik.............................................................15
Niyə şəhərə yağmır..................................................................16
Şəhərə yağan ilk qar.................................................................17
Qışın nəğməsi............................................................................18
Sehrli addamaclar.....................................................................19
Qara – ağ...................................................................................20
Güzgü – ayna............................................................................20
Dəniz atı....................................................................................21
Dəniz ayrı aləmdi......................................................................22
Külək qoymayıb yataq..............................................................23
Bulud ələk..................................................................................24
Ay işığı.......................................................................................24
Yaylaq........................................................................................24
"Şərə təslim olar, Xeyir?"........................................................24
Sürpriz – sirr priz......................................................................25

"Samovara od salıb"................................................................25
Qış uzunu yatan qış.................................................................26
Qardaşlar, bacılar...................................................................27
Güzgü.......................................................................................27
Təmizlik....................................................................................28
Dəli külək, ağıllı işıq................................................................29
Abşeronun küləkləri.................................................................29
Hamar dəniz.............................................................................30
Afər..........................................................................................31
Əziz Cavidə..............................................................................31
Yolda.........................................................................................31
Balaca sürücü............................................................................32
Yoldan çıx.................................................................................32
Tappır, tuppur............................................................................32
Ayılar.........................................................................................33
Lift.............................................................................................34
Gecə qatarı................................................................................34
Funikulyor.................................................................................35
Metro.........................................................................................35
Kişnərti əvəzinə.........................................................................36
Qulunum....................................................................................36
Sınaq (mənzum nağıl)................................................................38

**Mənim Azərbaycanım**

Ocağım, közüm Vətən................................................................44
Ulu öndər...................................................................................45
Ulu öndərin heykəli...................................................................46
Azərbaycan oğulları...................................................................47
Dön zəfərlər ilinə........................................................................48
Xatirə çayları..............................................................................49
Vətən və qürbət...........................................................................51
Şar və balaca qız.........................................................................53
Şəhid balası.................................................................................54

**Dünyamızı qoruyaq**

Yer bizim yuvamızdı..................................................................56
Ata-analı dünya...........................................................................56
Yerdə yerimiz..............................................................................57
Sehrli fırfıra.................................................................................57
Koronavirus.................................................................................60

Təzə xortdan....................................................................61
Keçi....................................................................63
Qotur keçi....................................................................64
Şüşədən bir cin qaçıb....................................................................64
"Evdə qal"....................................................................66
Çağırılmamış qonaq....................................................................67
Virus qoşunu və şəfqət ordusu....................................................................68
Yarasa və işıq....................................................................69
Qərib yaz....................................................................70
Nəhəng, sehrli arı....................................................................72
Suyun nəğməsi....................................................................73
Gör-götür....................................................................74
Hamı özü olanda....................................................................75
Təyyarədə söhbət....................................................................75
Buludun altı, üstü....................................................................76
Kəpənək muzeyində....................................................................76
Azan gülü....................................................................78
Dalğa yelpiklər....................................................................78
Bulud, külək, yağış və günəş....................................................................79
Hirsli külək....................................................................81
Sel....................................................................81
Sulu qar....................................................................82
Qış gəlir....................................................................83
Ağ ayı....................................................................84
Yumurta rəngli dünya....................................................................84
Nəğmə ağacı....................................................................85
Meşə quşunun nəğməsi....................................................................86
Qəfəsdə iki bülbül....................................................................86
Səs və ətir....................................................................87
İşıq növbətçisi....................................................................87
Dəlisov at....................................................................88

**Uşaq gözü, uşaq sözü**

Şəkildəki uşaqlar....................................................................89
Varmı çayın ayağı....................................................................91
Sehrli pillələr....................................................................92
Şirin baba....................................................................93
Evin yaraşığı....................................................................93
"Evdar kişi"....................................................................94

Babanın saqqalı....................................................................95
Nənəm və planşet...................................................................95
Nənəm......................................................................................96
“Olmaz nənə”...........................................................................97
Quşların restoranı....................................................................98
Zürafə heykəli..........................................................................98
Kəlbətin dişlər..........................................................................99
Cırcırama................................................................................100
Həyat və saatsaz.....................................................................101
Dondurma növbəsi..................................................................101
Şirinin “acı” cavabı.................................................................102
Qorxan oğlan...........................................................................102
Əlləmə.....................................................................................103
“Oy, nə qəşəng...”...................................................................103
Gupbul.....................................................................................103
Çöldə qalan gəlincik...............................................................104
Xıxı..........................................................................................105

**Quşlar dünyası**

Qartal......................................................................................106
Qızılquş...................................................................................107
Qırğı........................................................................................108
Sərçə........................................................................................108
Qaranquş.................................................................................109
Bülbül......................................................................................110
Bülbül......................................................................................111
Sarı bülbül...............................................................................111
Seyrəbülbül.............................................................................111
Payız bülbülü..........................................................................112
Alacəhrə..................................................................................113
Adım alacəhrədi......................................................................113
Arıquşu....................................................................................113
Hörücü.....................................................................................114
Birəbittən.................................................................................115
Torağay....................................................................................115
Qarquşu....................................................................................117
Odquyruq.................................................................................117
Qaratoyuq................................................................................118
Çil qaratoyuq...........................................................................119

Zığ-zığ....................................................................................119
Şanapipik................................................................................120
Ququ quşu...............................................................................121
Sığırçın....................................................................................122
Ağacdələn................................................................................123
Sarıköynək...............................................................................123
Çobanaldadan..........................................................................123
Qaçağan...................................................................................124
Haçaquyruq.............................................................................125
Kəklik......................................................................................125
Turac........................................................................................126
Qırqovul...................................................................................127
Bildirçin....................................................................................128
Meşəxoruzu..............................................................................129
Göyərçin...................................................................................129
Alabaxta...................................................................................130
Qumru......................................................................................131
Tovuz quşu...............................................................................132
Danquşu...................................................................................133
Göycəqarğa..............................................................................133
Balıqcıl zərricə..........................................................................134
Qızlarquşu...............................................................................134
Ağsinə qırmızıdimdik...............................................................135
Boz qarğa.................................................................................136
Qara qarğa...............................................................................137
Sağsağan..................................................................................137
A leyləyim, leyləyim.................................................................138
Durnalar...................................................................................139
Qağayılar..................................................................................140
Pırtlaşıqlələk............................................................................140
Qutan.......................................................................................141
Ağnaz.......................................................................................141
Qaranaz...................................................................................142
Qaqar.......................................................................................142
Quləlek....................................................................................143
Qızılqaz....................................................................................144
Vağ...........................................................................................145
Ərsindimdik..............................................................................145

Maygülü........................................................................146
Qarabatdaq....................................................................147
Qaşqaldaq......................................................................148
Pinqvin...........................................................................148
Qazlar.............................................................................148
Ördəklər.........................................................................149
Yaşılbaş ördək...............................................................150
Gərəf...............................................................................151
Sufərəsi..........................................................................152
Təqibçi............................................................................152
Caydaqcüllüt..................................................................153
Otluq cüllütü.................................................................154
Alacüllüt.........................................................................154
Düyməli döyüşkən cüllüt..............................................155
Oxcüllüt..........................................................................156
Tənbəlcüllüt..................................................................157
İlbizcüllüt.......................................................................157
Bülbülü ilbizcüllüt........................................................158
Çay ilbizcüllütü.............................................................158
Səsyamsılayan cüllüt.....................................................159
Çibis bibikinə.................................................................159
Bozca..............................................................................160
Bəzəklicə........................................................................161
Qumluqca.......................................................................161
Çığırğan çökükburun....................................................162
Çökükburun odquyruq..................................................133
Titrəkquyruq..................................................................163
Dimdiklər.......................................................................164
Qılıncdimdik..................................................................165
Baltadimdik....................................................................165
Pazdimdik......................................................................166
Bizdimdik.......................................................................166
Çivdimdik.......................................................................167
Çalıquşu.........................................................................167
Zəvzək............................................................................168
Vələmirquşu...................................................................169

**Tərcümələr**

**Li Bo (Çin)**

Dağ başında məbəd.................................................................170
Dağda tək oturmuşam.............................................................170
Gecə düşüncələri.....................................................................171
Şərq dağlarını xatırlayıram......................................................171
Vətəni düşünürəm...................................................................172
Yay günü dağ başında.............................................................172

**Du Fu (Çin)**

Aylı gecədə qardaşımı düşünürəm...........................................173
Payızın ilk günü.......................................................................173

**Çon Çxol (Koreya)**

"Ah, necə də gözəldi iki zərif kəpənək"...................................175
"Ay qoca, nəyə görə götürmüsən bu yükü"................................175
"Dağlarda yaşayıram, ay dost, nə vaxtdan bəri"........................175
"Ay yağış, hey yağırsan, payız olsun, ya bahar"........................176
"Toxundum komunqonun bir mürgülü siminə"...........................176
"Sakit suyun üzündə titrəyən kölgəyə bax"...............................176
"Tənha durna görəndə yerdə yanan işığı"..................................177
"Qanadları yolunmuş durna olsaydım əgər"..............................177
"Kimsəsiz bir sahildə mən səni səsləyirəm"..............................178
"Bir vaxt uça bilirdim tez-tez qanad çalaraq"............................178

**C. Bayron (İngiltərə)**

Sən ağlayırsn.........................................................................179
Mənim qəlbim qaranlıqdır.......................................................179
Ayrılıq....................................................................................181
Albom üçün............................................................................182
Stanslar...................................................................................183
Ağlayan ledi haqqında sətirlər.................................................184
Şair Con Kitsin ölümünə.........................................................184

**Federiko Qarsia Lorka (İspaniya)**

Bahar nəğməsi........................................................................185
Fal aça bilsəydim ay ilə əgər...................................................186
İyul günləri haqqında ballada..................................................187
Qoca kələz..............................................................................190
Gecə motivində.......................................................................192
Ağaclar...................................................................................194

Günəş batdı........................................................................194

**Kante xondo poeması**

Üç çay haqqında ballada........................................................195

**Qaraçı siqreyi haqqında poema**

Peyzaj....................................................................................197
Gitara....................................................................................198
Çığırtı....................................................................................199
Sakitlik..................................................................................199
İz..........................................................................................200
Sonra....................................................................................200

**Solea haqqında poema**

"Torpaq quruyur"....................................................................201
Kənd.....................................................................................202
Bıçaq....................................................................................202
Döngə...................................................................................203
Ay.........................................................................................203
Gözlənilməzlik........................................................................204
Solea.....................................................................................204
Görüş....................................................................................205
Zəng şəfəqləri........................................................................206
Oxatanlar..............................................................................207
Sübh......................................................................................207
Altı sim.................................................................................208

**İki qız**

Lola......................................................................................209
Amparo.................................................................................210

**Üç şəhər**

Meyxana...............................................................................211
Kardova məhəlləsi..................................................................211
Rəqs......................................................................................212
Şam.......................................................................................213
Əgər ölsəm............................................................................213
Ay.........................................................................................214

**Nəğmələr**

Atlının mahnısı......................................................................214
Ay doğanda...........................................................................215
"ağaca bax, ağaca bax"..........................................................216
Lallar küçəsi..........................................................................217

Serenada........................................................................................217
Nəğmə ağacı...................................................................................218
"Yaşıl göylərin qoynunda".............................................................219
Ağlayır qoca kələzlər......................................................................219
İki ayın axşamı...............................................................................220
Lal uşaq..........................................................................................221
Sahildə iki dənizçi..........................................................................222
Avropada çin nəğməsi....................................................................222
Sevilya nəğməsi.............................................................................223
İnsanlar getdilər..............................................................................224
Pəncərə önündə nöqtrn...................................................................225
Oxumadığım nəğmələr...................................................................227
Adelina gəzintidə...........................................................................228
Kiçik bir lövhə...............................................................................228
Bu, həqiqətdir.................................................................................229
O öldü dan qızaranda......................................................................230
Nərgiz.............................................................................................230
Gündüz və gecə...............................................................................231
Yaddaşıma düşən izlər....................................................................232
"Ay su, hara tələsirsən"...................................................................232
Aldadıcı güzgü................................................................................233
Quru portağal ağacının mahnısı.......................................................233
Bağ mart ayında..............................................................................234
Ötən günlərin nəğməsi....................................................................235
Çiçək...............................................................................................236
Vida................................................................................................236
Prelüdiya.........................................................................................236

**Qaraçı romansları**

Ay haqqında romans........................................................................237
Qara qüssə haqqında romans............................................................238
Somnobul romansı..........................................................................240
Məhəbbət yolunda ölən....................................................................243
Xəyanətkar qadın.............................................................................245
İspan jandarmları haqqında romans..................................................247

**Müxtəlif illərin şeirləri**

Santyaqo gözəlləməsi......................................................................252
Hər hansı nəğmə..............................................................................252

**Qayıdış suitası**

Qayıdış.........................................................................................253
Qıjov..............................................................................................254
Geriyə............................................................................................254
Dəniz pərisi....................................................................................254
Döngə qarşısında...........................................................................255
Xatirə.............................................................................................256
Əgər...............................................................................................256
Vida...............................................................................................257
Elegiyaya bənzər...........................................................................257
Gecə.Passaj.Prellüdiya...................................................................258
Səmanın bir parçası........................................................................259
Ulduzlar.........................................................................................259
Seyrək meşə...................................................................................259
Ana................................................................................................260
Vida məqamı..................................................................................260
Sakit sular......................................................................................261
Ölmüş uşaqlar haqqında ağı.........................................................261
Ağlartı haqqında qəsidə................................................................262
Əlçatmaz əl haqqında qəsidə........................................................262
Nəğmə...........................................................................................263
Qara ay..........................................................................................264
Ümidsiz nəğmə.............................................................................264

**Alman şairlərinin şeirləri**

**Peter Şyutt**

İnsan adı.......................................................................................265
Daha yer yoxdur............................................................................266
Bizim əsr.......................................................................................267

**Hans Yurgen Hayze**

Tətil...............................................................................................268
Əlamət...........................................................................................269
Çəkilmə.........................................................................................269
Kənd universiteti...........................................................................270
Amerika şairəsi Emili Dikonsona.................................................270

**Ulla Han**

Şən Reyn əxlaqı............................................................................271
Çiçək və duz..................................................................................271
Əmr................................................................................................271

**Roza Auslender**
Anket......................................................................................273
Tənhalıq..................................................................................273
Raul Selanın qəbri.................................................................274
Mənim istəyim.......................................................................275
**Mahmud Dərviş. Muin Bsisu (Fələstin)**
İsrailli əsgərə məktub (poema)..............................................276
**Sergey Yesenin (Rusiya)**
Gecə.......................................................................................284
"Mürgülü zəng səsi"..............................................................284
"Tarla boşalıb, biçilib zəmi"..................................................285
Qucığaz..................................................................................285
**Nekrasov (Rusiya)**
"Meşədəki cığırları"..............................................................290
**Konstantin Simonov (Rusiya)**
Gözlə məni.............................................................................291
**Aqniya Barto (Rusiya)**
Top.........................................................................................292
Dovşan....................................................................................292
Gülməli çiçək.........................................................................293
Dovşan vtrində.......................................................................293
Oğlaq......................................................................................293
**Roman Miminoşvili (Gürcüstan)**
Yaz.........................................................................................294
Sevir, sevmir..........................................................................294
Ötən günlər.............................................................................296
**Yelena Blaqinina (Rusiya)**
Alma ağacı..............................................................................297
Bu çılpaq, bu şıltaq.................................................................297
Qoyun mən də bir iş görüm....................................................298
Nə üçün, nəyə görə.................................................................299
Səssiz oturaq...........................................................................299
Qızıl günəş..............................................................................300
Şinel........................................................................................301
Dünyaya sülh...........................................................................301
**Henrix Sapgir (Rusiya)**
Mən və biz..............................................................................302
Sağ ol.....................................................................................304

**Aleksey Kondratyev (Rusiya)**

Sükut...310
Yuxu...310
Meşədə...311
Meşədə payız...311
Sarı yarpaq...311
Səfər...312
Güləyən timsah...312
Qonaqlıq...312
Başa düşəcəyəmmi...313

**Sergey Maxotin (Rusiya)**

Yağışla dolu çəllək...313
Ona qədər...314
Doqquz mart...315
Mən kimə oxşamışam...315
Kədərliyəm...316

**Marina Boroditskaya (Rusiya)**

Məsələ həll edəndə...317
Ayı məktəbində...317
Evsiz yağış...318
Petrov haqqında...318

**Lorina Dımova (Rusiya)**

Köməkçi...318

**İnna Qamazkova (Rusiya)**

Əmioğlular...319

**Yelena Qriqoryeva (Rusiya)**

Buynuz...319

**Lev Yakovlev (Rusiya)**

Traktor...320
Xoruz və mən...320
Mənim atım...321

**Vasil Moruqa (Ukrayna)**

Bostanda qalmaqal...326

**Anatoli Qriqoruk (Ukrayna)**

Dəyirmançı nə edir...326

**Edi Oqnesvet (Belorusiya)**

Həkim gülüş...327

**Leon Briedis (Latviya)**

Torağay....................................................................................328
Qəmli pişik................................................................................328
Şəkil.........................................................................................329
Kədərli qarğa balası....................................................................330
Dondurma...................................................................................330

**Albert Loçmelis (Latviya)**

Kitabda oxudum ki......................................................................331
Mənim suyum, torpağım...............................................................331

**Sultan Kaliyev (Qazaxıstan)**

Azərbaycan torpağı......................................................................332
Doğmalıq....................................................................................332
Rəşid Behbudov...........................................................................333
Nizami........................................................................................334

**Hesamdun İslamov (Özbəkistan, uyğur şairi)**

Bizim bağça................................................................................334

**Şamsi Odil (Özbəkistan)**

Arzu...........................................................................................335
Suçu Əkrəm.................................................................................336
Yaddan çıxır dərd, kədər...............................................................337
Dovşanlar....................................................................................337
Dörd yaşımda...............................................................................437

**Ernozar Ruzimitov (Özbəkistan)**

Çəmənlikdə.................................................................................339
Ney çalıram.................................................................................339
Sevinc.........................................................................................340
Araba..........................................................................................341
Qonaq.........................................................................................342

**Xəyalbəy Urmanbetov (Qırğızıstan)**

Cücə...........................................................................................342

**Oleq Polyakov (Azərbaycan)**

Səhər..........................................................................................343

**Tofiq Ağayev (Azərbaycan)**

Quşcığaz.....................................................................................344
Böcək kinoda...............................................................................344
Şir balası.....................................................................................345
Yağış...........................................................................................346

**Nəsr əsərləri**
**Nağıl dünyası**

Şair qələminin balıncı..........................................................347
Nağıllar aləmi…………………...............................................348
Qərənfil dənizi…………………………...............................349
Bağ nağılı……………………………….............................350
Bahar qatarı…………………………….............................352
Şirin yuva……………………………….............................352
Şəkərdən də şirin……………………….............................355
Gül və bülbül əfsanələri…………………….......................355
Gül və bülbül əfsanəsi.........................................................356
Adamlı göl……………………………................................356
İlk zəlzələ…………………………………………………..361
Balaca it……………………………………………………..362
Dovşanla söhbət…………………………………………….362
Sel və bulaq ………………………………………………...363
Dovşan və tısbağa…………………………………………..364
Budaq və yarpaq ……………………………………………364
Səhrada bulaq………………………………………………..365
Ağılla, kamalla idarə edilən cəngəllik……………………….366
Qaçan alov…………………………………………………..368
Səs pətəyi……………………………………………………369
Saf və çürüyün nağılı………………………………………..370
“R” hərfinin nağılı…………………………………………...371
Buynuz……………………………………………………...372
Götürgə dərəsi………………………………………………373
Bənövşə qanı………………………………………………..374
Sel və günəş………………………………………………...375
İki ağac……………………………………………………...375
Bir qutu şokoladın nağılı……………………………………376
İnsan, pələng və ilan………………………………………...377
Od…………………………………………………………...379
Quru ot……………………………………………………...380
Yağış suyu…………………………………………………..381
Royalın nağılı……………………………………………….382
Yolka ağacı………………………………………………….383
Fil həkimi……………………………………………………384
Körpənin nağılı……………………………………………...391

**Olmuş əhvalatlar**

Köçməyi tərgidən leyləklər……………………………392
Bərəncü bulağı…………………………………………...393
Xilaskar it………………………………………………...394
Paltar qazanına düşən beçə……………………………395
Odunla içilən çay………………………………………..396
Maşınla yarış……………………………………………..397
Çölpişiyi…………………………………………………398
Ağ bayraq………………………………………………...399
Gecə yolda gördüklərim………………………………400
Tutulan boru……………………………………………..402
Ot biçini…………………………………………………..403
Kartof yığımı……………………………………………..405
Sarı ürgə…………………………………………………406
Dərədəki bostanlar……………………………………407
Niyə yerdə salmısan……………………………………..409
Telefon söhbəti…………………………………………...410
Tökdüm yerinə……………………………………………..410
Bu sürü kimindir……………………………………411
Yoxa çıxan cücələr……………………………………..412
Gilas……………………………………………………...414
Yolu tanıyan at…………………………………………...415
Yaqub dayı……………………………………………417
İqamətgah………………………………………………...418
Bir az da oynayaq………………………………………...418

**Hekayələr**

Evimizə köçən nəğmə......................................................419
Koroğlu olmağın sirri……………..................................421
Laləli zəmi ilə üz-üzə……………..................................422
Rənglərin anası...............................................................423
Ağa çayı və mən…….....................................................424
Dibçək gülləri……………………….............................424
Abşeronun gölləri………………….......................……427
Dəniz səviyyəsi…………………...................................428
Xəstəliyə tuşlanan güllələr…………..............................429
Quruyan ağaclar………………….................................429
Dəniz məni çağırır…………….......................................430
Yeraltı mətbəx işçiləri……….........................................432

Gilənar mürəbbəsi……………………………………..................432
Üzən ev………………………………………….................434
Ağacın yumurtaları………………….............................436
Qoca müəllimin nağılı………………….........................437
Novruzdan bir gün sonra…………………………………439
Bağlı qapı………………………………………………..442
Tüstü dərsi………………………………………………..444
İtən dəftər………………………………………………..445
Balkon ölkəsindən məktub………………………………446
Unudulmaz qonaq………………………………………..448
Hər beşə bir öpüş…………………………………………449
Paralel bala……………………………………………….450
Qapını açmayacam………………………………………..452
Üşüyürəm…………………………………………………..453
Sakit otura bilən oğlan……………………………………..453
Düz oxumursan……………………………………………..454
Sən anan üçün darıxmırsan?...............................................454
Gizlənpaç…………………………………………………..455
"Yanğınsöndürənlər"……………………………………..456
Eksperiment………………………………………………..458
Milçəköldürən………………………………………………460
Nar suyu…………………………………………………….461
Dəmir qırıntıları……………………………………………464
Yeraltı işlər…………………………………………………466
Sərxanın sirri……………………………………………….467
Lovğa müəllimin aqibəti…………………………………468
Qənd haqqında məsələ……………………………………..469
Ayselin şəkli…………………………………………………470
İki qapılı yuva……………………………………………..471
Mərc…………………………………………………………..472
Ata ilə balaca Gurselin söhbəti…………………………..473
Həftənin altıncı günü……………………………………..473
"Qubaja"……………………………………………………474
İntiqam………………………………………………………..475
Ayı və onun balaları………………………………………..478
Üçüncü qaranquş……………………………………………479
Yekə sarı balıq……………………………………………..481
Zər……………………………………………………………..482

İynə……………………………………………………………484
Maşının paltarı…………………………………………….....485
Tabaşir……………………………………………………….485
Ad günü……………………………………………………..486
Balaca Sevil………………………………………………….487
Örtülən qapı…………………………………………………487
Pendir……………………………………………………….488
Sən də küs…………………………………………………..488
Böyük hərf…………………………………………………..488
Qənd………………………………………………………...488
Çirkli kağız………………………………………………….489
İki fındıq…………………………………………………….489
Qarpız……………………………………………………….489
Tək qorxarsan……………………………………………….489
Yuxuda bayram……………………………………………..490
Dondurma…………………………………………………...490
Təzə ayaqqabı……………………………………………...490
Allahın işi…………………………………………………...491
Cek………………………………………………………….491
Qulluqçu…………………………………………………….492
Babanın portreti……………………………………………..493
“Xəbərlər”…………………………………………………..494
Məktəb və imtahan…………………………………………494
Balacaların söhbətlərindən…………………………………494

**Rafiq Yusifoğlu**

(Əliyev Rafiq Yusif oğlu)

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

**XI cild**

Bakı, ADPU nəşriyyatı, 2023

Rəssamlar: İlqar Tofiqoğlu
Kübra Əkbərova

Korrektor: F.Əliyeva

Arzu və təkliflərinizi bu ünvana göndərməyi xahiş edirik:

rafig_yusifoglu@mail.ru

***Çapa imzalanmış 25.05.2023-cü il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 32***
***Sifariş 170, sayı 200***

***ADPU-nun nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***